# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

## ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq ISSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

# №1(7)

**2012**

**“KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA”**
**ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL**

| | |
|---|---|
| **Təsisçi və Baş redaktor:** | **Abuzər XƏLƏFOV**<br>***Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırılma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor*** |
| **Baş redaktor müavini:** | **Knyaz ASLAN**<br>***Fəlsəfə doktoru (pedaqoji elmlər üzrə), dosent*** |
| **Məsul katib:** | **Pərviz KAZİMİ** |

**Redaksiya heyəti:**

**Tuncel Acar,** ***Türkiyə Milli Kitabxanasının direktoru***
**Yekaterina Nikonorova,** ***fəlsəfə elmləri doktoru, professor, Rusiya Dövlət Kitabxanasının direktor müavini***
**Yıldız Bakaşova,** ***fəlsəfə elmləri doktoru, professor, Qırğızstan Milli Kitabxanasının direktoru***
**Aybəniz Əliyeva-Kəngərli,** ***filologiya elmləri doktoru, AMEA-nın Elmi Kitabxanasının direktoru***
**Xəlil İsmayılov,** ***tarix elmləri doktoru, professor***
**Bayram Allahverdiyev,** ***tarix elmləri doktoru, professor BDU-nun kitabşünaslıq kafedrasının müdiri***
**Kərim Tahirov,** ***fəlsəfə doktoru (tarix elmləri üzrə) Azərbaycan Milli Kitabxanasının direktoru***
**Mayıl Əhmədov,** ***Prezident Kitabxanasının direktoru***
**Lətifə Məmmədova,** ***fəlsəfə doktoru (tarix elmləri üzrə) Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sektor müdiri***
**Elçin Əhmədov,** ***fəlsəfə doktoru (pedaqoji elmlər üzrə), dosent***
**Nadir İsmayılov,** ***fəlsəfə doktoru (pedaqoji elmlər üzrə), dosent***
**Sahib Rzayev,** ***fəlsəfə doktoru (filologiya elmləri üzrə), dosent***
**Mehmanəli Məmmədov,** ***fəlsəfə doktoru (pedaqoji elmlər üzrə), dosent***
**Azad Qurbanov,** ***fəlsəfə doktoru (fizika-riyaziyyat elmləri üzrə), dosent***

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135,16.03.2010.

---

Redaksiyanın ünvanı: Bakı şəhəri, Az1148., Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, 2 saylı tədris korpusu, mərtəbə 4, otaq № 410

Əlaqə telefonu: 439-03-66; (050) 365-48-41
№ 1(7) Yanvar-Aprel, 2012

© *“Kitabxanaşünasliq və informasiya”, 2012, №1(7).*

# LIBRARY SCIENCE AND INFORMATION

## SCIENTIFICO-THEORETICAL AND PRACTICAL JOURNAL

*The journal of «Library science and information» dates in 08.10.2010 was included to the international schedule by ISNN Centre (Paris, France) numbered 2219-5882 with the regulation of publications to be continued.*

# №1(7)

**2012**

**“LIBRARY STUDY AND INFORMATION”**
**SCIENTIFIC-THEORETICAL AND PRACTICAL JOURNAL**

| | |
|---|---|
| **Founder and Editor-in-chief:** | **Abuzar KHALAFOV** *Honoured Science worker, Academician of International Information Academy by UNO, Doctor of History professor* |
| **Assistant editor-in-chief:** | **Knyaz ASLAN** *Doctor of Philosophy (of Pedagogy), associate professor* |
| **Executive Secretary:** | **Parviz KAZIMI** |

**Editorial board:**

**Tuncel Acar,** *Director of the National Library of Turkey*
**Catherine Nikonorova,***doctor of philosopy, professor, vice-director of Russian State library*
**Yildiz Bakashova***, doctor of philology, professor, director of National library of Kyrgyzstan*
**Aybaniz Aliyeva-Kangarli,** *Doctor of Philology, director of Scientific library of Azerbaijan National Academy of sciences*
**Khalil Ismayılov,** *Doctor of History, professor*
**Bayram Allahverdiyev,** *Doctor of History, professor, Chief of the chair of Book Study of Baku State University*
**Karim Tahirov,** *Doctor of Philosophy (on History), Chief of the National library of Azerbaijan*
**Mayıl Ahmadov,** *Chief of the Presidential Library*
**Latifa Mammadova,** *Doctor of Philosophy (on History), Chief of the division at Ministry of Culture of the Azerbaijan Republic*
**Elchin Ahmadov,** *Doctor of Philosophy (on Pedagogy)*
**Nadir Ismayilov,** *Doctor of Philosophy (on Pedagogy)*
**Sahib Rzayev,** *Doctor of Philosophy (on Philology)*
**Mehmanali Mammadov,** *Doctor of Philosophy (on Pedagogy)*
**Azad Qurbanov,** *Doctor of Philosophy (on Physico-mathematical)*

Journals have been registered in the Justice Ministry of the Azerbaijan Republic.
Certificate 3135, 16.03.2010.

___________________________

Address of the editorial office: Baku city, Az1148., Z.Xalilov street, 23
Baku State University, the 2nd teaching building, floor 4, Room 410

telephone: 439-03-66; (050) 365-48-41
№1 (7), January-April, 2012

*© “Library study and Information”, 2012,№1(7).*

# БИБЛИОТЕКОВЕДЕНИЕ
# И
# ИНФОРМАЦИЯ

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ
## И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

*Журнал «Библиотековедение и информация» включен
Международным Центром ISSN (Париж, Франция)
в продолжающиеся издание международного
реестра под номером 2219-5882 с 08.10.2010*

## №1(7)

**2012**

**“БИБЛИОТЕКОВЕДЕНИЕ И ИНФОРМАЦИЯ”**
**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ**

**Учредитель и главный редактор:** **Абузар ХАЛАФОВ**
*Заслуженный деятель науки,*
*Академик Международной Информационной Академии при ООН,*
*доктор исторических наук, профессор*

**Зам. главного редактора:** **Князь АСЛАН**
*Доктор философии*
*(по педагогическим наукам), доцент*

**Ответственный секретарь:** **Парвиз КАЗЫМИ**

**Редакционная коллегия:**
**Тунджел Ачар**, *директор Национальной Библиотеки Турции*
**Екатерина Никанорова**, *доктор философских наук, профессор*
**Йылдыз Бакашова**, *доктор философских наук, профессор*
**Айбениз Алиева-Кенгерли**, *доктор филологических наук*
**Халил Исмаилов**, *доктор исторических наук,профессор*
**Байрам Аллахвердиев**, *доктор исторических наук, профессор, Заведующий кафедры Библиотековедение*
**Керим Тахиров**, *доктор философии (по историческим наукам) Директор Национальной библиотеки Азербайджана*
**Маил Ахмедов**, *Директор Президентской Библиотеки*
**Лятифа Мамедова**, *доктор философии (по историческим наукам)*
**Эльчин Ахмедов**, *доктор философии (по педагогическим наукам)*
**Надир Исмаилов**, *доктор философии (по педагогическим наукам)*
**Сахиб Рзаев**, *доктор философии (по филологическим наукам)*
**Мехманали Мамедов**, *доктор философии (по педагогическим наукам)*
**Азад Гурбанов**, *доктор философии (по физико-математическим наукам)*

Журнал регистрирован в Министерстве Юстиции Азербайджанской Республики.
Свидетельство № 3135,16.03.2010.
___________________________

Адрес редакции: г. Баку, Az1148., улица З.Халилова, 23
Бакинский Государственный Университет, учебный корпус №2, 4-ый этаж, комната № 410

Телефоны связи: 439-03-66; (050) 365-48-41
№1(7) Январь-Апрель, 2012

*© “Библиотековедение и информация”, 2012, №1 (7).*

# BAKI DÖLƏT UNİVERSİTETİ KİTABXANAŞÜNASLIQ KAFEDRASI ÜZRƏ 2011-ci İLDƏ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA

## M Ə L U M A T  H E S A B A T I

## 1. GİRİŞ

Qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu daha da artmaqdadır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin, xüsusilə ali təhsilin rolu son dərəcə aktuallıq kəsb etməkdədir. Bütün ölkələrdə olduğu kimi Azərbaycanda da insan kapitalının formalaşmasında ali təhsilin rolu danılmazdır. Dövlətlərarası inteqrasiya prosesinin sürətləndiyi bir şəraitdə təhsilin və elmin beynəlxalq standartlar səviyyəsində inkişaf etdirilməsi, təhsil müəssisələrinin fəaliyyətinin genişləndirilməsi bu gün zamanın tələbinə çevrilmişdir. Uzun illər ərzində tədrisin təşkilində, elmi tədqiqat işlərinin istiqamətlərinin seçilməsində, kadr hazırlığında müəyyən nailiyyətlər əldə etmiş təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi təhsilin inkişafı üçün çox faydalıdır. Çünki hər bir xalqın milli şüurunun formalaşması onun elm və təhsilinin inkişafı ilə şərtlənir.

Son zamanlar müstəqil Azərbaycan Respublikasında sosial-iqtisadi və elmi-mədəni istiqamətlərdə ciddi irəliləyişlərin baş verməsi, təhsil sahəsində beynəlxalq standartlara uyğun islahatların aparılması və Azərbaycan ali məktəblərinin Bolonya prosesinə sürətlə inteqrasiya etməsi hər bir elm və təhsil müəssisəsinin qarşısında təxirəsalınmaz vəzifələr qoyur. Bu təxirəsalınmaz və taleyüklü vəzifələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il sentyabrın 5-də imzaladığı sərəncamla qüvvəyə minmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universiteti elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədi, ali təhsil sistemində aparıcı milli universitetdir. BDU 90 ildən artıq fəaliyyəti dövründə respublikamızın ilk ali təhsil ocağı kimi ölkə həyatının bütün sahələrinə təsir edərək elm, təhsil və mədəniyyətin inkişafı sahəsində əvəzsiz xidmətlər göstərmişdir. BDU-nun keçdiyi şərəfli tarixi yol Azərbaycan təhsilinin, elminin və mədəniyyətinin inkişaf yoludur. Bu baxımdan BDU-nun elm və təhsil xəzinəsinə öz

töhfələrini verən Kitabxanaşünaslıq kafedrasının professor-müəllim və texniki heyəti də üzərinə düşən vəzifələri vaxtında və məsuliyyətlə yerinə yetirmək üçün ciddi səy göstərmişdir.

2011-ci hesabat ilində Kitabxanaşünaslıq kafedrası yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması prosesində aparıcı rolunu davam etdirmiş, elmi-tədqiqat sahəsində öz fəaliyyətini respublikamızın qarşısında duran müasir tələblər səviyyəsində təşkil etmiş, yeni uğurlar qazanmaq üçün kollektivin elmi potensialından səmərəli şəkildə istifadə etməyə çalışmışdır.

Azərbaycan Respublikasının təhsil naziri M.Mərdanovun 21 aprel 2011 tarixli 623 №-li əmri, mədəniyyət və turizm naziri Ə.Qarayevin 29 aprel 2011-ci il tarixli 201 №-li əmri, Bakı Dövlət Universitetinin rektoru, akademik A.Məhərrəmovun 18 may 2011-ci il R-41 №-li əmri ilə Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, "Şöhrət"ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 illik yubileyinin keçirilməsi qərara alınmışdır. BDU rektorunun əmri ilə yubileyi keçirmək üçün 7 nəfərdən ibarət təşkilat komitəsi yaradılmışdır. Təşkilat komitəsinin sədri akademik A.M.Məhərrəmov, katibi isə dosent K.İ.Aslandır. Əmrdə prof. A.A.Xələfovun elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş bir sıra kitabların, o cümlədən K.Aslanın "Görkəmli elm və təhsil xadimi" monoqrafiyasının, A.Xələfovun məqalələr toplusunun, görkəmli elm və mədəniyyət xadimlərinin prof. A.Xələfov haqqında məqalələr toplusunun hazırlanıb nəşr edilməsi planlaşdırılmışdır.

Bundan başqa, 2011-ci ilin oktyabr-noyabr aylarında Kitabxanaçılıq-informasiya fakültəsində prof. A.Xələfova həsr olunmuş "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda kitabxanaşünaslığın müasir problemləri" mövzusunda elmi konfransın, noyabr ayında Azərbaycan Respublikası kitabxana ictimaiyyətinin və BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi məzunlarının prof. A.Xələfovla görüşünün keçirilməsi, oktyabr-noyabr aylarında A.Xələfovun elmi-pedaqoji və icitimai fəaliyyətinə həsr olunmuş kitab sərgisinin və fotostendin təşkili edilməsi, Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin prof. A.Xələfovun elmi-pedaqoji fəaliyyəti ilə bağlı sənədli film hazırlaması, "Azərbaycan müəllimi" və "Bakı Universiteti" qəzetlərində yubileylə bağlı məqalələrin dərc olunması, 2011-ci ilin dekabrında BDU-nun akt zalında təntənəli yubiley iclasının keçirilməsi və s. nəzərdə tutulmuşdur. Artıq həmin tədbirlərdən bir neçəsi həyata keçirilmiş, bəzi kitablar, eləcə də "Kitabxanaşünaslıq və informasiya" jurnalının A.Xələfovun elmi-pedaqoji və ictimai fəaliyyətinə həsr olunmuş xüsusi nömrəsi çapdan çıxmışdır.

2011-ci il dekabrın 15-də "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda kitabxanaşünaslığın müasir problemləri" mövzusunda elmi konfransın

keçirilməsi nəzərdə tutulmuşdur. Konfransın yüksək səviyyədə təşkil etmək məqsədilə Kitabxanaşünaslıq kafedrasının iclasının qərarı ilə 5 nəfərdən (dos. K.Aslan (sədr), dos. E.Əhmədov, fəl.dok. P.Kazımi, b.m. A.Cəfərov, müəl. N.İsmayılova) ibarət təşkilat komitəsi yaradılmışdır. Konfransda kafedranın əməkdaşlarından dos. K.Aslan, dos. S.Rzayev və başqalarının müxtəlif mövzularda elmi məruzələrlə çıxış etməsi qərara alınmışdır.

Xüsusi vurğulamaq lazımdır ki, bütün elmi potensialını səfərbər edən Kitabxanaşünaslıq kafedrası 2009 və 2010-cu illərdə ardıcıl olaraq 2 dəfə Bakı Dövlət Universitetinin humanitar fakültələri üzrə "İlin kafedrası" elan olunmuş, kafedranın dosenti Knyaz Aslan isə 2010-cu il elmi tədqiqat işlərinin nəticələrinə görə "İlin alimi" fəxri adına layiq görülmüşdür.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ

2011-ci ildə Kitabxanaşünaslıq kafedrasında 13 nəfərlik professor-müəllim və laborant-texniki işçi heyəti fəaliyyət göstərmişdir. Bunlardan 1 nəfəri elmləri doktor, professor, 5 nəfəri fəlsəfə doktoru, dosent, 1 nəfəri fəlsəfə doktoru, müəllim, 1 nəfəri baş müəllim, 1 nəfəri müəllim, 1 nəfəri laboratoriya müdiri, 3 nəfəri baş laborantdır.

Kafedrada işləyən əməkdaşların tam siyahısı, onların tutduğu vəzifələr, elmi dərəcələri və elmi adları aşağıdakı kimi olmuşdur:

| S. n. | Adı, atasının adı, soyadı | Təvəllüdü | Tutduğu vəzifə | Elmi dərəcəsi və elmi adı |
|---|---|---|---|---|
| 1. | Abuzər Alı oğlu Xələfov | 25.12.1931 | Kafedra müdiri | Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, tarix elmləri doktoru, professor |
| 2. | Sahib Mirzalı oğlu Rzayev | 12.03.1938 | Dosent | Filologiya üzrə fəlsəfə doktoru |
| 3. | Elçin Yusif oğlu Əhmədov | 15.04.1961 | Magistratura və elmi işlər üzrə dekan müavini, dosent | Pedaqogika üzrə fəlsəfə doktoru |

| | | | | |
|---|---|---|---|---|
| 4. | Mehmanəli Əkbər oğlu Məmmədov | 18.02.1957 | Bakalavriatura şöbəsi üzrə dekan müavini, dosent | Pedaqogika üzrə fəlsəfə doktoru |
| 5. | Knyaz Aslan İlyas oğlu | 25.12.1960 | Dosent | Pedaqogika üzrə fəlsəfə doktoru, “İlin alimi”, “Qızıl Qələm” mükafatı laureatı, Azərbaycan Yazıçılar, Jurnalistlər, Aşıqlar Birliklərinin üzvü |
| 6. | Akif Əmir-aslan oğlu Cəfərov | 21.03.1952 | Baş müəllim | |
| 7. | Pərviz Firi-dun oğlu Kazımi | 10.12.1958 | Müəllim | |
| 8. | Nigar Nurəd-din qızı İsmayılova | 23.07.1978 | Müəllim | |
| 9. | Zöhrə Cavan-şir qızı Camalova | 22.08.1956 | Laboratoriya müdiri | |
| 10. | Hicran Oqtay qızı Zeynalova | 18.06.1977 | Baş laborant | |
| 11. | Yeganə Arif qızı Məmmə-dova | 13.01.1984 | Baş laborant | |
| 12. | Sahibə Hida-yət qızı Əliyeva | 29.05.1971 | Laborant | |
| 13. | Elxan Loğ-man oğlu Əjdərov | 28.01.1987 | Baş laborant | |

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Kitabxanaşünaslıq kafedrasının kafedrasının kadr potensialında itki baş vermiş, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Əli Musa oğlu Rüstəmov 5 noyabr 2011-ci ildə vəfat etmişdir.

## 3. KAFEDRADA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

Hesabat ilində Kitabxanaşünaslıq kafedrasının professor-müəllim heyəti planda nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müstəqilliyi şəraitində əhaliyə kitabxana xidmətinin təşkili (tarixi, müasir vəziyyəti, nəzəri problemləri və inkişaf perspektivləri)" problemi istiqamətində "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda əhaliyə kitabxana xidmətinin müasir problemləri" mövzusunda kompleks elmi-tədqiqat işini müasir dövrdə kitabxanaşünaslıq elminin qarşısında duran əsas vəzifələrlə əlaqələndirmiş, araşdırdıqları mövzunu elmi cəhətdən düzgün əsaslandırmış, tədqiqatda qısaca olaraq aşağıdakı annotasiyaları ümumiləşdirmişlər:

**1. Professor A.A.Xələfov**

***Mövzu: "XX əsrin 50-60-ci illərində Azərbaycanda kitabxana işi"***

Elmi-tədqiqat işində XX əsrin 60-70-ci illərində Azərbaycanda fəaliyyət göstərmiş müxtəlif kitabxana şəbəkələrinin fəaliyyətini sistemli şəkildə təhlil edilmiş, onların inkişaf dinamikası göstərilmiş, mədəni-maarif müəssisələrinin tərkib hissəsi olan kitabxanalarda oxuculara xidmətinin səviyyəsi müəyyənləşdirilmiş, mühüm elmi ümumiləşdirmələr aparılmışdır. Mövzu haqqında geniş təsəvvür yaratmaq məqsədi ilə çoxsaylı arxiv materialları və rəsmi dövlət sənədləri elmi dövriyyəyə cəlb edilmişdir.

**2. Dosent S.M.Rzayev**

***Mövzu: "Kitabxanalarda oxucu sorğularının ödənilməsi sistemi"***

Elmi-tədqiqat işində müasir informasiya cəmiyyəti şəraitində oxucuların informasiya tələbatının məzmunu, mütaliə tələbatı və kitabxanalarda oxucu sorğularının ödənilməsi sistemi araşdırılmışdır. Mövzu şərh edilərdən hər bir oxucunun informasiya tələbatının ödənilməsində kitabxanaların həlledici rolu şərh olunmuş, bu sahədə kütləvi mütaliənin təşkilatçısı kimi ayrı-ayrı kitabxanaların fəaliyyəti təhlil edilmiş, müəyyən ümumiləşdirmələr aparılmışdır.

**3. Dosent E.Y.Əhmədov**

***Mövzu: "Biliklər cəmiyyətində təhsil kitabxanaları"***

Elmi-tədqiqat işində informasiyalaşdırılmış cəmiyyətdən biliklər cəmiyyətinə keçid şəraitində biliklər cəmiyyətinin Azərbaycan modelinin yaradılması qarşıda duran prioritet istiqamət kimi nəzərdən keçirilmişdir. Bu zaman təhsil sistemində aparılan islahatlarla əlaqədar məktəb kitabxanalarının həyata keçirdiyi vəzifələr müəyyənləşdirilmiş məktəb kitabxanalarının fəaliyyətinin modernləşdirilməsi məsələləri şərh olunmuşdur.

**4. Dosent M.Ə.Məmmədov**

***Mövzu: "Kitabxanaların maliyyələşirilməsində beynəlxalq təşkilatların rolu"***

Elmi-tədqiqat işində kitabxanaların maliyyələşməsi məsələlərinə aydınlıq gətirilmiş, son illərdə kitabxanaların maliyyələşdirilməsində beynəlxalq təşkilatların rolu göstərilmiş, bununla yanaşı, mövcud vəziyyət və perspektivlər müəyyənləşdirilmişdir.

**5. Dosent K.İ.Aslan**

***Mövzu: "C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında bədii ədəbiyyatın təbliği vəziyyəti"***

Elmi-tədqiqat işində C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında bədii ədəbiyyatın məqsədyönlü təbliği haqqında geniş məlumat verilmişdir. Azərbaycanın müstəqilliyi şəraitində həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq Gənclər Kitabxanasının bu sahədəki fəaliyyəti elmi cəhətdən ümumiləşdirilmişdir. Elmi işdə təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edən bir sıra tövsiyələr irəli sürmüşdür.

**6. Müəllim, fəlsəfə doktoru P.F.Kazımi**

***Mövzu: "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti arealları"***

Elmi-tədqiqat işində dünyanın müxtəlif coğrafi ərazilərində məskunlaşmış türk xalqlarının kitab və kitabxana mədəniyyəti probleminə aydınlıq gətirilmiş, bu mədəniyyətin arealları müəyyənləşdirilmişdir.

**7. Baş müəllim A.Ə.Cəfərov**

***Mövzu: "Respublika kənd təsərrüfatı kitabxanalarında abonoment və qiraət zallarında oxuculara kitabxana xidmətinin təşkili məsələləri"***

Elmi-tədqiqat işində müasir dövrdə dövlətin aqrar siyasətinin informasiya təminatçısı kimi çıxış edən kənd təsərrüfatı kitabxanalarının abonement və qiraət zallarında oxuculara göstərilən xidmət işi geniş təhlil edilmiş, mənfi və müsbət meylləri üzə çıxarılmışdır. Bu zaman kitabxana fondunun müasir oxucu tələblərinə cavab verməsi də şərh edilmiş, bu sahədə işin yaxşılaşdırılması üçün bəzi tövsiyələr verilmişdir.

**8. Müəllim N.N.İsmayılova**

***Mövzu: "Azərbaycan kitabxanalarının kompüterləşdirilməsinin tarixi və müasir problemləri"***

Elmi-tədqiqat işində Azərbaycanda kitabxanaların kompüterləşdirilməsi, elektron kataloq və elektron kitabxananın yaradılması texnologiyalarının həyata keçirilməsi mərhələlərindən bəhs edilmişdir. Burada müasir mərhələdə kitabxanaların kompüterləşdirliməsi üçün vacib olan avtomatlaşdırılmış kitabxana-informasiya idarəetmə sistemləri, kommunikativ maşınla oxunan formatlar, elektron kataloq və elektron kitabxananın yaradılması texnologiyası və s. geniş şərh olunmuşdur.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI
**(Dərc olunmuş elmi işlər (məqalə, tezis), monoqrafiyalar (annotasiyası), dərslik və dərs vəsaitləri haqqında məlumat**
***(kitablar əlavə olunmaqla)***

**Prof. Abuzər Xələfov:**

1. Məqalələr toplusu. – Bakı, Bakı Universiteti Nəşriyyatı, 2011, 464 s.

2. Kitabxana və cəmiyyət. – Bakı: Azərnəşr, 2011, 308 s.

3. Kitabxana və kommunikasiya: Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №1, s.7-16.

4. Redaksiyaya məktub: Tarixi faktları təhrif etmək kimə lazımdır? (Təkzib) // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №1 (4), s.120-128.

5. Qafqaz regionuna həsr olunmuş ilk fundamental ensiklopediya // “Xalq qəzeti”, 2011, 2 fevral, s.4. *(N.İsmayılovla birlikdə).*

6. “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin 31, 32-ci cildləri: İnkişaf məqsədimizdir // “Azad Azərbaycan” qəzeti, 2011, 11 fevral, s.4.

7. Tarixi saxtalaşdıranlara əsaslandırılmış elmi cavab (Akademik Ramiz Mehdiyevin “Gorus-2010: Absurd teatrı mövsümü” əsərini oxuyarkən) // “Azərbaycan” qəzeti, 2011, 1 mart, s.6. *(N.Məmmədovla birlikdə).*

8. Görkəmli alim haqqında mükəmməl biblioqrafiya (Akademik Arif Paşayevə həsr olunmuş biblioqrafik göstərici haqqında) // “Azərbaycan” qəzeti, 2011, 26 aprel, s.7. *(K.Aslanla birlikdə).*

9. Kitabxanalar informasiya cəmiyyətində (Çıxış) / Ümumrespublika elmi-praktiki konfransın materialları. – Bakı, 2011, s.27-32.

10. Xalqa və dövlətə xidmət amalı (Ulu öndər Heydər Əliyev haqqında) // “Azərbaycan sədaları” jurnalı, 2011, №7-8.

11. Qədəmin mübarək. (”Dərələyəz” qəzetinin nəşrə başlaması ilə baglı prof. A.Xələfovun ürək sözləri) // “Dərələyəz” qəzeti, 2011, s.2.

12. Kitabxana fondu ümumbəşəri sərvətlər məcmusudur: Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2 (5), s.7-16.

13. Görkəmli elm və təhsil xadiminin həyat salnaməsi: Elmi məqalə // Kitabxaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, № 2 (5), s.115-123. *(K.Aslanla birlikdə).*

14. Kitabxanalar informasiya cəmiyyətində // Muasir inforormasiya məkanı və kitabxanalar. – Bakı, AMEA Mərkəzi Elmi Kitabxanası, 2011, s.15-20.

15. Görkəmli Azərbaycan aliminin həyat salnaməsi. – AMEA Mərkəzi Elmi Kitabxanasının əsərləri, 2011, №1, s.66-70. *(N.İsmayılovla birlikdə).*

***Redaktoru olduğu əsərlər:***

16. Knyaz Aslan. Qədim və orta əsrlər dünya kitabxanaları (Ən qədim zamanlardan XVII əsrin ortalarınadək): Dərs vəsaiti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 416 s. Elmi redaktoru A.Xələfov.

17. Pərviz Kazımi. İnformasiya mühəndisliyi: Monoqrafiya. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 240 s. Elmi redaktoru A.Xələfov.

**Dos. Sahib Rzayev:**

18. Şəxsi təhsil mütaliəsi və kitabxanalarda onun təşkili: Elmi məqalə // Kitabxanaşünasliq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2, s.17-21. *(A.Əhmədova ilə birlikdə).*

19. Mütəxəssislərə kitabxana xidməti sahəsində sahəvi respublika kitabxanalarının rolu: Elmi məqalə // Kitabxanaşünasliq və biblioqrafiya: Elmi-nəzəri və praktiki jurnal, 2011 №2, s.26-33. *(G.Hacıyeva ilə birlikdə).*

20. Aydın məqsədə yönəlmiş fəlaiyyət (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №2(5), s.33-35.

**Dos. Elçin Əhmədov:**

21. Kitabxana qanunvericiliyi tarixindən: Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №1, s.41-44.

22. A.A.Xələfovun elmi tədqiqatları Azərbaycan milli kitabxanaşünaslığının nailiyyətidir: Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2, s.84-93.

23. Elmin zirvəsində (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №2 (5), s.50-51.

**Dos. Mehmanəli Məmmədov:**

24. Şair ömrü (Şair, alim, pedaqoq Knyaz Aslanın 50 illik yubileyi münasibətilə): Elmi məqalə // Mədəni-maarif: elmi, metodik, publisistik jurnal, 2011, №2 (240), s.39-40. *(T.Sadıqovla birlikdə).*

25. Üzü yaza gedən çığır (Şair, alim, pedaqoq Knyaz Aslanın 50 illik yubileyi münasibətilə) // “Kaspi” qəzeti, 8-10 yanvar, 2011.

26. Azərbaycan aliminin beynəlxalq nüfuzu (Prof. A.Xələfov-80): Elmi məqalə // Mədəni-maarif: elmi, metodik, publisistik jurnal, 2011, №2 (240), s.39-40. *(T.Sadıqovla birlikdə).*

27. Dünya şöhrətli alim (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №2 (5), s43-49.

**Dos. Knyaz Aslan:**

28. Qədim və orta əsrlər dünya kitabxanaları (Ən qədim zamanlardan XVII əsrin ortalarınadək): Dərs vəsaiti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 416 s.

29. Üzü yaza gedən cığır: Şeirlər və poemalar.–Bakı: Qartal,2011,368 s.

30. Sevil Sultan qızı Ağabəyli: Biblioqrafiya.– Bakı, 2011, 88 s.

31. Ön söz. – S.3-6. / Xələfov A. Məqalələr toplusu (1990-2011-ci illər). – Bakı: Bakı Univrsiteti Nəşriyyatı, 2011, 464 s.

32. Ön söz əvəzi. – S.3-6. / 80 yaşın ucalığı: Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xidimləri prof. A.A.Xələfov haqqında: Məqalələr məcmuəsi. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 228 s.

33. Ön söz. – S.3-6. / Xələfov A. Kitabxana və cəmiyyət. – Bakı: Azərnəşr, 2011, 308 s.

34. Ön söz. – S.3-6. / Əhmədov E. Azərbaycanda kitabxana işinin hüquqi bazası: Dərs vəsaiti. – Bakı: Bakı Univrsiteti Nəşriyyatı, 2011, 360 s.

35. Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsəri və Azərbaycan kitab mədəniyyəti: Elmi məruzə mətni // "Müasir informasiya məkanı və kitabxanalar" mövzusunda keçirilmiş Ümumrespublika elmi-praktiki konfransının materialları. – Bakı: AMEA MEK nəşri, 2011, s.209-219.

36. Professor Abuzər Xələfovun əsərlərində kitab, kitabxana və mütaliə məsələləri (Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 80 illik yubileyi qarşısında): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №1 (4), s.17-31.

37. ABŞ Konqres Kitabxanasının yaradılması tarixi və müasir vəziyyəti: Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2 (5), s.94-114.

38. Görkəmli elm və təhsil xadiminin həyat salnaməsi ("Arif Paşayev. Biblioqrafiya" (Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2011, 240 s.) göstəricisi haqqında): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2 (5), s.115-123. *(A.Xələfovla birlikdə).*

39. Unudulmaz Amerika səfəri: Elmi məqalə // Kitabxana.az: Müstəqil elmi, metodiki və praktiki jurnal, 2011, №2-3, s.17-21.

40. Uğurlu yollarla (Elçin Əhmədov-50): Elmi məqalə // Kitabxana.az: Müstəqil elmi, metodiki və praktiki jurnal, 2011 №2-3, s.22-24. *(Ş.İslamova ilə birlikdə).*

41. Dövlət qayğısına möhtacdır (Kitabxanalar müasir dövrdə) / Xələfov A. Məqalələr toplusu (1990-2011-ci illər): Elmi məqalə. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, s.26-29. *(A.Xələfovla birlikdə).*

42. Göyçə həsrəti (Akademik Hüseyn Əhmədovun "Xatirlərim və ya nəslimizin şəcərəsi" kitabı nəfis şəkildə işıq üzü görüb): Elmi məqalə / Xələ-

fov A. Məqalələr toplusu (1990-2011-ci illər). – Bakı: Bakı Univrsiteti Nəşriyyatı, 2011, s.201-203. *(A.Xələfovla birlikdə).*

43. “Baş vurdum Göyçə tək böyük ümmana...” (Akademik Hüseyn Əhmədovun “Xatirlərim və ya nəslimizin şəcərəsi” kitabı haqqında): Elmi məqalə / Xələfov A. Məqalələr toplusu (1990-2011-ci illər). – Bakı: Bakı Univrsiteti Nəşriyyatı, 2011, s.216-218. *(A.Xələfovla birlikdə).*

44. Görkəmli alim haqqında mükəmməl biblioqrafiya (“Arif Paşayev. Biblioqrafiya” göstəricisi haqqında): Elmi məqalə / Xələfov A. Məqalələr toplusu (1990-2011-ci illər). – Bakı: Bakı Univrsiteti Nəşriyyatı, 2011, s.456-461. *(A.Xələfovla birlikdə).*

45. Baş redaktor müavinindən (Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 80 illik yubileyinə həsr olunmuş xüsusi nömrəyə ön söz əvəzi): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №3 (6), s.7-8.

46. Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №3 (6), s.9-19.

47. Kitab mədəniyyəti problemləri: Azərbaycanda kitab nəşri və yayımı: Elmi məqalə // // Kitabxana.az: Müstəqil elmi, metodiki və praktiki jurnal, 2011, №4, s.22-30. *(A.Xələfov və P.Kazımi ilə birlikdə).*

48. “Səhər”in Məzahiri, Məzahirin səhəri: Səhər kimi işıqlı və nurlu ustad jurnalistimiz Məzahir Süleymanzadəyə: Elmi məqalə / “Məzahir Süleymanzadə. Bir qucaq çiçək” kitabında. – Bakı: Elm və təhsil, s.151-167.

**Müəl. Pərviz Kazımi**

49. İnformasiya mühəndisliyi: Monoqrafiya. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011. – 240 s.

50. 80 yaşın ucalığı: Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında: Məqalələr məcmuəsi. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 228 s.

51. İnformasiyanın təsnifatı: Elmi məqalə // Kitabxanaşünasliq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2010, №1, s.45-53.

52. Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisi Kitabxanası və müasir kitabxana xidməti: Elmi məqalə // Kitabxanaşünasliq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2, s.22-25. (M.Namazovla birlikdə).

53. İnformasiyanın təhlükəsizliyi və onun təminatı prinsipləri: Elmi məqalə // Kitabxanaşünasliq və informasiya: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2, s.71-79.

54. Görkəmli elm xadimi (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №2(5), s.31-32.

55. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti: Elmi məqalə // Kitabşünaslıq və nəşriyyat işi: Elmi-nəzəri və praktiki jurnal, 2011, №1, s.64-70.

56. Türkmənistanda kitab və kitabxana mədəniyyəti: Elmi məqalə // Kitabşünaslıq və nəşriyyat işi: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2, s.64-70.

57. İnformasiya bazarı: Elmi məqalə // Kitabxana.az: Elmi-nəzəri və praktiki jurnal, 2011, №1, s.45-53.

58. Kitabxana informasiya texnologiyaları: Elmi məqalə // Kitabxana.az: Elmi-nəzəri və praktiki jurnal, 2011, №2, s.45-53. *(Y.Məmmədova ilə birlikdə).*

59. Krım tatar xalqlarının mədəniyyət tarixindən (Kitabçılıq və kitabxanaçılıq mədəniyyəti): Elmi məqalə // Tarix və onun problemləri: Elmi-nəzəri və təcrübi jurnal, 2011, №1, s.45-53.

60. İnformasiya mühəndisliyi və kitabxana fəaliyyəti: Elmi məqalə // AMEA MEK-in Elmi əsərləri, 2011, №11, s.45-53.

**Baş müəl. Akif Cəfərov**

61. Görkəmli tədqiqatçı alim (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №2(5), s.78-80.

**Müəl. N.İsmayılova**

62. 80 yaşlı yenilikçi alim (Prof. A.Xələfov-80): Elmi məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal (Xüsusi nömrə), 2011, №3(6), s.105-107.

63. Informasiya cəmiyyəti və kitabxana işinin yeni formaları: “Müasir informasiya məkanı və kitabxanalar” mövzusunda Ümumrespublika elmi-praktiki konfransının materialları (Bakı, 5 may 2010).- B: AMEA MEK-in nəşri, 2011.- s. 203-208

## 5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ TƏDQİQAT İŞLƏRİ

Cari hesabat ilində Kitabxanaşünaslıq kafedrasında respublikadaxili və beynəlxalq qrantlar əsasında yerinə yetirilən elmi tədqiqat işləri olmamışdır.

Bununla belə, Kitabxanaşünaslıq kafedrasının 2 əməkdaşı elmi-tədqiqat işilərini yerinə yetirməklə yanaşı Bakı Dövlət Universitetində elan olunmuş "Universitetdaxili 50+50 qrant proqramı" layihəsi müsabiqəsində iştirak etmişlər. Belə ki, dos. Knyaz Aslan "Bakı Universitetinin Xəbərləri. Biblioqrafik məlumat kitabı (1991-2010)" biblioqrafik göstəricinin nəşrə hazırlanması (elektron və çap formasında)" mövzusunda, müəllim Nigar İsmayılova isə "Bakı Universitetinin Elmi Əsərlərinin və Elmi Xəbərlərinin elektron versiyasının yaradılması" mövzusunda layihə təqdim etmiş və ardıcıl olaraq ikinci il həmin müsabiqənin qalibi olmuşlar. BDU-nun rektoru, akademilk A.Məhərrəmovun imzaladığı 11.11.2010 R-73 nömrəli əmrlə onların hər ikisi 2009-2010-cu illərdə professor-müəllim nominasiyasında müvəffəqiyyətlə icra olunmuş və universitet üçün xüsusi əhəmiyyəti olan layihələri 2010-2011-ci illərdə də davam etdirmək hüququ qazanmış, onlara fərdi qrantlar ayrılmışdır.

Kitabxanaşünaslıq kafedrasının əməkdaşları dos. Knyaz Aslan və müəllim Nigar İsmayılovanın yaratdıqları elektron məlumat bazası Bakı Dövlət Universitetinin veb saytının *(www.bsu.edu.az)* ana səhifəsində jurnallar bölməsində yerləşdirilmişdir.

Eyni zamanda Nigar İsmayılova 2011-2012-ci illərdə "Universitetdaxili 50+50 qrant layihəsinin" üçüncü dəfə qalibi olmuş, eləcə də "Tarix və onun problemləri", "Folklorşünaslıq məsələləri", "Xəzəryanı ölkələri Universitetləri Assosiyasiyasının "Təbii Resurslar" jurnallarının elekron məlumat bazasını yaradaraq Bakı Dövlət Universitetinin veb saytının *(www.bsu.edu.az)* ana səhifəsində jurnallar bölməsində yerləşdirmişdir.

## 6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kitabxanaşünaslıq kafedrasının müdiri, prof. A.Xələfov və kafedranın aparıcı alimləri AMEA Mərkəzi Elmi Kitabxanası ilə sıx əməkdaşlıq şəraitində işləmiş, birgə elmi tədbirlərdə, o cümlədən elmi konfranslarda iştirak etmiş, qarşılıqlı fikir mübadilələri aparmış, kitabxananın elmi kadr potensialının artırılnmasında, eləcə də elektron kataloqun yaradılmasında müəyyən köməklik göstərmişlər.

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR

Kitabxanaşünaslıq kafedrasının dosenti Knyaz Aslan ABŞ Dövlət Departamentinin Azərbaycandan dəvət edilmiş mütəxəssislər üçün təşkil etdiyi və maliyyələşdirdiyi "ABŞ-da jurnalistika tədrisi" Xarici Qonaqlar Liderliyi Proqramı çərçivəsində 2011-ci il fevralın 12-dən martın 6-dək Amerika qitə-

sində işgüzar ezamiyyətdə olmuşdur. O, səfər zamanı Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları arasında birinci olaraq Kolumbiya dairəsindəki Vaşinqton şəhərində yerləşən məşhur Konqres Kitabxanasına da getmiş, orada müasir kitabxana-informasiya texnologiyalarının tətbiqi ilə tanış olmuş, zəngin təəssüratlarla qayıtmışdır. Müəllif "Kitabxanaşünaslıq və informasiya" jurnalının 2011-ci il 5-ci nömrəsində dərc etdirdiyi "ABŞ Konqres Kitabxanasının yaradılması tarixi və müasir vəziyyəti" adlı məqalədə həmin kitabxananın tarixi və müasir vəziyyəti haqqında maraqlı məlumatlara geniş yer ayırmışdır. K.Aslan ABŞ-da olarkən 2011-ci il fevralın 18-də Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində (CSIS) "ABŞ-ın Cənubi Qafqaz və Xəzər dənizində strategiyasına baxış" mövzusunda təşkil olunmuş nüfuzlu Beynəlxalq konfransda da iştirak etmişdir. ABŞ səfərinin uğurlu nəticəsi kimi dos. K.Aslan "ABŞ-da jurnalistika tədrisi" Xarici Qonaqlar Liderliyi Proqramı çərçivəsində fəaliyyətinə görə Birləşmiş Ştatlar Dövlət Departamentinin xüsusi sertifikatına layiq görülmüşdür.

Bundan başqa, dos. K.Aslan 2011-cu il ərzində elmi-mədəni həyatdakı uğurlu iştirakına görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı, Bakı Dövlət Universitüeti rektorunun təşəkkürnaməsi, Fəxri Fərmanı və pul mükafatı ilə təltif edilmişdir. O, eləcə də 27-28 may 2011-ci il tarixində Xəzər Universitəsində təşkil olunmuş "Azərbaycan dünya ədəbiyyatında" adlı Beynəlxalq simpoziumda çıxış etmiş, şəhadətnamə ilə təltif edilmişdir. Dos. K.Aslan 2011-ci il martın 25-də Marneuli şəhərində Heydər Əliyev adına Gürcüstan Azərbaycan Tədris Unversitetində keçirilən elmi-praktik konfransda maraqlı və aktual mövzuda çıxış etmiş, diploma layiq görülmüşdür.

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

Kitabxanaşünaslıq kafedrasında görülən elmi tədqiqat işləri bilavasitə respublikamızın bir çox kitabxanasında, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında, AMEA Mərkəzi Elmi Kitabxanasında, BDU Elmi Kitabxanasında, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında, eləcə də başqa universal elmi və universal kütləvi kitabxanalarında tətbiq edilmək məqsədilə tövsiyə olunmuşdur.

Kitabxanaşünaslıq kafedrasının nəzdində fəaliyyət göstərən "Kitabxana işinin kompüterləşdirilməsi" elmi tədqiqat laboratoriyasında yaradılan elektron kitabxana Bakı Dövlət Universitetində təhsilin informasiya bazasının təminatına xidmət edir.

## 9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ

*Yoxdur.*

## 10. DÖVLƏT PROQRAMLARININ TƏTBİQİ

Kitabxanaşünaslıq kafedrasının əməkdaşları "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının" həyata keçrilməsi üzrə tədbirlər planında nəzərdə tutilan "Ali təhsil müəsisələrində elektron kitabxanalarının yaradılması" tədbirinin icrası üçün Bakı Dövlət Universiteti Elmi Kitabxanasında "Kitabxanaların kompüterləşdirilməsi" elmi tədqiqat laboratoriyası ilə birlikdə Elektron kitabxananın yaradılması ilə əlaqədar müəyyən işlər görürlər.

## 11. KAFEDRADA KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI

2011-ci ildə Kitabxanaşünaslıq kafedrasında keçirilmiş elmi seminarların mövzusu və məruzəçisi aşağıdakı kimi olmuşdur:

***Mövzu:*** *"Azərbaycanda kitabxana proseslərinin kompüterləşdirilməsinin tarixi və müasir problemləri". Məruzəçi: N.İsmayılova.*

***Mövzu:*** *"BDU-nun Elmi Kitabxanasının beynəlxalq əlaqələri". Məruzəçi: M.Məmmədov.*

## 12. KAFEDRADA ELMİ VƏ ELMİ-REDAQOJİ KADRLARIN HAZIRLANMASI

2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində, o cümlədən Kitabxanaşünaslıq kafedrasında elmi və elmi-pedaqoji kadrların hazırlanması diqqət mərkəzində olmuşdur. Kitabxanaşünaslıq ixtisası üzrə təhsil alan magistrantların mövzuları və elmi rəhbərləri haqqında məlumat belədir:

***I kurs əyani şöbə üzrə:***

1. Nübar Hüseynova. "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası müstəqillik illərində (2003-2010-cu illər)". Elmi rəhbər: prof. A.Xələfov.
2. Aysel Cabbarova. "Azərbaycan Dillər Universiteti Kitabxanası müstəqillik illərində (1991-2010-cu illər)". Elmi rəhbər: prof. A.Xələfov.
3. Günel Hacıyeva. "M.F.Axundov adına Milli Kitabxanasının Azərbaycan ədəbiyyatı arxiv fondunun yaranması və inkişafı". Elmi rəhbər: fəl.dok. K.Tahirov.

***II kurs əyani şöbə üzrə:***

1. Günay Baxşıyeva. "Müstəqillik illərində kitabxana işinə dair qəbul edilmiş dövlət sənədləri və onların elmi-metodoloji əhəmiyyəti". Elmi rəhbər: prof. A.Xələfov

2. Lalə Ağayeva. "Kitabxana və kommunikasiya". Elmi rəhbər: prof. A.Xələfov.

3. Könül Əliyeva. "Kitabxanalarda oxucu sorğularının ödənilməsi və onların aradan qaldırılması yolları". Elmi rəhbər: dos. S.Rzayev

4. Günay Məmmədova. "XIX əsr Azərbaycan maarifçilərinin irsində kitab və mütaliə məsələləri". Elmi rəhbər: dos. K.İ.Aslan.

5. Ramilə Mehdiyeva. "Sumqayıt şəhər MKS-in filial kitabxanalarında informasiya xidmətinin təşkili (2003-2010)". Elmi rəhbər: dos. M.Ə.Məmmədov.

***I kurs qiyabi şöbə üzrə:***

1. Vüqar Hacıyev. "Müstəqillik illərində AMEA Mərkəzi Elmi Kitabxanasının diyarşünaslıq fəaliyyəti: ənənə və innovasiya". Elmi rəhbər: fil. elm. dok. A.Əliyeva-Kəngərli.

2. Xədicə Musayeva. "İnformasiya cəmiyyətində Respublika Elmi Pedaqoji Kitabxanasında oxuculara kitabxana-informasiya xidmətinin təşkili (1991-2010-cu illər)". Elmi rəhbər: dos. K.İ.Aslan.

3. Mümtaz Xəlilzadə. "İnformasiyalaşdırılmış cəmiyyətdə informasiya təhlükəsizliyi və kitabxanaların vəzifələri (M.F.Axundov adına Milli Kitabxananın, AMEA Elmi Kitabxanasının və Bakı Dövlət Universiteti Elmi Kitabxanasının iş təcrübəsi əsasında)". Elmi rəhbər: fəl.dok. P.Kazımi.

***II kurs qiyabi şöbə üzrə:***

1. Aygün Hacıyeva. "Müasir dövrdə oxucular arasında milli ideologiyaya və dövlətçiliyə dair ədəbiyyatın təbliği (M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi əsasında. 1991-2008-ci illər)". Elmi rəhbər: dos. K.Aslan.

2. Günel Hacıyeva. "Sahəvi respublika kitabxanalarında elmi işçilərə kitabxana xidməti". Elmi rəhbər: dos. S.Rzayev.

3. Zivər Bayramova. "Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının kompüterləşdirilməsi (2000-2010-cu illər)". Elmi rəhbər: fil.elm.dok. A.Əliyeva-Kəngərli.

***III kurs qiyabi şöbə üzrə:***

1. Zülfiyyə Hüseynova. "Bakı və Sumqayıt şəhər mərkəzləşdirilmiş kitabxana sistemlərində informasiya texnologiyalarının tətbiqi (2001-2010)". Elmi rəhbər: dos. Ə.Rüstəmov.

2. Ləman Qədimova. "Təhsil islahatlarının idarə edilməsində məktəb kitabxanalarının iştirakı (2001-2011)". Elmi rəhbər: dos. E.Əhmədov.

3. Aygün Muradova. "AMEA-nın Mərkəzi Elmi Kitabxanasının elektron resursları və ondan istifadə". Elmi rəhbər: fil.elm.dok. A.Əliyeva-Kəngərli.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ

29 oktyabr 2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində AMEA MEK-in dissertantı İradə Alekseyevna Tuliyevanın "Azərbaycanda elmin informasiya təminatında informasiya-kommunikasiya texnologiyalarının rolu" mövzusunda 05.25.03 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq; kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 8 aprel 2011-ci il tarixli 121 №-li əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının sədri prof. A.Xələfov olmuşdur. Kitabxanaşünaslıq kafedrasının dosenti K.Aslan Birdəfəlik Dissertasiya Şurasının üzvü kimi fəal iştirak və çıxış etmişdir.

26 noyabr 2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı Arzu Kazım qızı Vəliyevanın "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyəti" mövzusunda 05.25.03 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq; kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 6 aprel 2011-ci il tarixli 114 №-li əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının sədri prof. A.Xələfov olmuşdur. Kitabxanaşünaslıq kafedrasının dosenti K.Aslan Birdəfəlik Dissertasiya Şurasının üzvü kimi fəal iştirak və çıxış etmişdir.

3 dekabr 2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı Solmaz Azay qızı Sadıqovanın "Azərbaycan mətbuatının (kitab və dövri nəşrlər) biblioqrafik repertuarı: tarixi, müasir vəziyyəti və perspektivləri (1959-2000-ci illər)" mövzusunda 05.25.03 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq; kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 8 aprel 2011-ci il tarixli 121 №-li əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının sədri prof. A.Xələfov olmuşdur. Kitabxanaşünaslıq kafedrasının dosenti K.Aslan Birdəfəlik Dissertasiya Şurasının üzvü kimi fəal iştirak və çıxış etmişdir.

10 dekabr 2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dissertantı Tahirə Əbil qızı Bağırovanın "Azərbaycan klassik yazıçıları əsərlərinin nəşr tipləri: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri (M.Ə.Sabir və H.Cavidin ədəbi irsi əsasında)" mövzusunda 05.25.03 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq; kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 1 iyul 2011-ci il tarixli 194 №-li əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının sədri prof. A.Xələfov olmuşdur. Kitabxanaşünaslıq kafedrasının dosenti K.Aslan Birdəfəlik Dissertasiya Şurasının üzvü və rəsmi opponent kimi fəal iştirak və çıxış etmişdir.

Prof. A.Xələfovun sədrlik etdiyi Birdəfəlik Dissertasiya Şurasının iclaslarında dos. K.Aslan Ekspert Komissiyasının, eləcə də müdafiə prosesində Hesablayıcı Komissiyanın üzvü seçilmiş, dissertasiyaların yekun müzakirələrində çıxış etmiş, öz elmi mülahizə və tövsiyələrini bildirmişdir.

Bundan başqa, Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı Sima Məhəmməd qızı İsmayılovanın "Azərbaycanda ədəbiyyatşünaslığın biblioqrafik ehtiyatları" mövzusunda 05.25.03 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq; kitabşünaslıq" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq əmri ilə Bakı Dövlət Universitetində Birdəfəlik Dissertasiya Şurası yaradılmışdır. Kitabxanaşünaslıq kafedrasının müdiri, prof. A.Xələfov həmin Birdəfəlik Dissertasiya Şuralarının sədri, Kitabxanaşünaslıq kafedrasının dosenti K.Aslan isə Birdəfəlik Dissertasiya Şurasının üzvüdür.

Kitabxanaşünaslıq kafedrasının əməkdaşlarından dos.S.Rzayev, dos. M.Məmmədov, dos.E.Əhmədov, fəl. dok. P.Kazımi adları çəkilən dissertasiya işlərinə müsbət rəy yazmış, onların seminarlarında fəallıqla iştirak etmişlər.

## 14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ *(KONFRANSDA İŞTİRAKI)*

"Kitabxanaşünaslıq" ixtisası üzrə təhsil alan magistrantların müxtəlif aktual mövzularda hazırladıqları məruzələr magistrantların elmi konfransında dinlənilmişdir. Belə ki, 25 may 2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində "Müasir dövrdə kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq məsələləri" mövzusunda magistrantların elmi konfrans keçirilmiş, Kitabxanaşünaslıq kafedrasının bu tədbirdə xüsusi fəallıq göstərmişlər. II kurs

magistrantları Gülsəba Səfərova “Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında mütaliə məsələləri” (elmi rəhbər: prof. A.Xələfov), Aytəkin Əhmədova “Mütaliə və şəxsiyyətin formalaşmasında onun yeri” (elmi rəhbər: dos. S.Rzayev), Coşqun Rüstəmov “Müasir dövrdə bədii ədəbiyyat və mütaliənin təbliği ilə bağlı aparılan məqsədyönlü tədbirlər” (elmi rəhbər: dos. K.Aslan), Səbinə Məmmədova “M.F.Axundov adına Milli Kitabxanasının informasiya resurslarının inkişafı (2000-2008-ci illər)” (elmi rəhbər: fəl.dok. K.Tahirov) mövzularında maraqlı və aktual mövzularla çıxış etmişlər. Magistrantların elmi məruzələrinin mətnləri “Müasir dövrdə kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq məsələləri” mövzusunda magistrantların elmi konfransının materialları” toplusunda çap edilmişdir (Bakı, 2011, 60 s.).

Elmi konfransın təşkilat komitəsində Kitabxanaşünaslıq kafedrasını prof. A.Xələfov (üzv), dos. E.Əhmədov (sədr müavini), dos. M.Məmmədov (məsul katib) təmsil etmiş, redaksiya şurasında isə dos. K.Aslan, P.Kazımi, müəl. N.İsmayılova təmsil etmişlər.

Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik A.Məhərrəmovun 18 may 2011-ci il R-41 №-li əmri ilə Əməkdar elm xadimi, Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 illik yubileyi ilə əlaqədar 2011-ci il dekabrın 15-də “Müasir informasiya məkanı və kitabxanalar” mövzusunda elmi konfransın keçirilməsi nəzərdə tutulmuşdur. Elmi konfransı yüksək səviyyədə təşkil etmək məqsədilə Kitabxanaşünaslıq kafedrası iclasının qərarı ilə dos. K.Aslan (sədr), dos. E.Əhmədov, fəl. dok. P.Kazımi, b.m. A.Cəfərov, müəl.N.İsmayılovadan ibarət 5 nəfərlik təşkilat komitəsi yaradılmışdır.

Elmi konfransda kafedranın əməkdaşlarından dos. K.Aslanın geniş elmi məruzə ilə plenar iclasda, dos. S.Rzayevin “Alim-pedaqoq təfəkkürünün intellektual təzahürü”, eləcə də dissertant R.Namazovanın “Ali məktəb kitabxanalarında elmə və təhsilə kitabxana xidmətinin təşkili vəziyyəti”, magistrant L.Ağayevanın “Kitabxana və kommunikasiya”, tələbə K.Əliyarovanın “Müstəqillik dövründə Azərbaycanda kitabxana işinin tarixinə dair ilk dərsliklər” mövzularında məruzələrlə bölmə iclaslarında çıxışları planlaşdırılmışdır. Bu məruzlərin bir çoxunun mətnləri “Kitabxanaşünaslıq və informasiya” jurnalının 2011-ci il 3-cü nömrəsində xüsusi buraxılışda dərc olunmuşdur.

Kitabxanaşünaslıq kafedrasının baş müəllimi A.Cəfərovun rəhbərlik etdiyi “Kitabxanaşünaslıq” Tələbə Elmi Cəmiyyətinin xətti ilə keçilirlmiş konfransda isə prof. A.Xələfovun, dos. K.Aslanın, dos. E.Əhmədovun, dos. M.Məmmədovun rəhbərlik etdiyi tələbələr kitabxanaşünaslığın mühüm elmi-təcrübi məsələləri, Azərbaycanda kitabxana işinin tarixi, kitabxanaların informasiya-kommunikasiya texnologiyaları ilə təchizi və s. kimi aktual məruzələrlə maraqlı çıxışlar etmişlər.

## 15. ELMİ AVADANLIQLAR HAQQINDA MƏLUMAT
*(Cədvəl 16)*

## KİTABXANAŞÜNASLIQ KAFEDRASI ÜÇÜN LAZIM OLAN AVADANLIQLAR

| № | *Avadanlıqlarnın adı* | *Avadanlığın sayı* | *Avadanlıqların təqribi qiyməti (manatla)* |
|---|---|---|---|
| 1. | Kompüter dəsti Dual Core 2.6, Asus Hdd 250 Qb, DVD RW, 2 Qb RAM, VCD 512, Modem, Monitor 17’, mause, klaviatura. | 7 | 585x7=4095 |
| 2. | Printer Canon LBP 3000 – A12 katrici ilə<br>HP Lazer Jet 1200 | 1 | 200<br>140 |
| 3. | Skaner A4 | | 100 |
| 4. | Kseroks Canon Toshiba | 1 | 250 |
| 5. | Proyektor<br>Dell | 1 | 500<br>1000 |
| 6. | UPS-daimi qidalandırma qurğusu Triplate | 7 | 150x7=1050 |
| 7. | HUB 8-lik Switch | 1 | 80 |
| 8. | Dəftərxana ləvazimatları (kağız, qələm, yapışqan, skoç və s.) | | |

## 16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

1. Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrası Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi haqqında (2009-2015-ci illər) tədbirlər planı hazırlamışdır. Bu planda 2009-2015-ci illərdə Kitabxanaşünaslıq üzrə elmi-tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, regionların sosial-iqtisadi inkişafında kitabxana-informasiya təminatının təkmilləşdirilməsinə kömək edən elmi-tədqiqat işlərinin aparılmasının təmin edilməsi, tələbə və magistrantlar üçün elmi konfransların təşkili, AMEA MEK-ın kitabxanaşünaslıq şöbəsi ilə əməkdaşlığın möhkəmləndirilməsi, kitabxanaşünaslıq fənlərinin tədrisində informasiya və telekommunikasiya vasitələrinin tətbiqinin təmin olunması, kitabxa-

naşünaslıq fənlərinin tədrisinin yaxşılaşdırması məqsədilə elektron məlumat bazasının yaradılması, BDU-nun elektron kitabxanasının təşkilində kafedranın iştirakının təmin edilməsi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Kafedranın qarşısında duran əsas vəzifələrdən biri ölkədə və xaricdə Kitabxanaşünaslıq mərkəzləri ilə əlaqələrin gücləndirilməsi, Boloniya prosesinə uyğun olaraq kitabxanaşünaslıq fənlərinin metodik təminatının yaxşılaşdırılması, kafedranın nəzəri seminarların işinin canlandırılması və aparıcı mütəxəssislərin cəlb edilməsi praktikasının tətbiqi, tələbə elmi-tədqiqat işlərinin səviyyəsinin qaldırılmasıdır.

Kitabxanaşünaslıq kafedrası üzrə aparılan elmi-tədqiqat işlərinin nəticələri bilavasitə kitabxanaçılıq təhsili üzrə bakalavr və magistr pilləsi üzrə tədris prosesinin təkmilləşməsinə, elmi cəhətdən yeniləşməsinə yönəlir. Digər tərəfdən, alınan ən mühüm nəticələr ölkənin iri informasiya mərkəzlərinin sahə üzrə fəaliyyətlərinin yaxşılaşmasına kömək məqsədilə müvafiq icra hakimiyyəti orqanlarına tövsiyə şəklində təqdim olunur.

Elmi-tədqiqat işləri nəticəsində əldə edilən müddəalar belə bir qərara gəlməyə imkan verir ki, Kitabxanaşünaslıq kafedrasının gələcək tədqiqat istiqamətlərinin "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda əhaliyə kitabxana informasiya xidmətinin təşkilinin təkmilləşdirilməsi yolları (Problemlər, vəzifələr)" mövzusu üzrə uzunmüddətli perspektiv araşdırma kimi müəy-yənləşdirilməsi məqsədəuyğundur.

2. Əsas nəticələrə və təkliflərə əlavə olaraq qeyd etməyi lazım bilirik ki, BDU-nun "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiya heyəti keçən ildən başlayaraq kafedra müdiri, prof. A.Xələfovun təşəbbüsü ilə Kitabxanaşünaslıq kafedrasının yerinə yetirdiyi elmi-tədqiqat işinin nəticələrinin çap olunmasına məqsədəuyğun hesab etmişdir. Beləliklə, jurnalın 2012-ci il 1-ci nömrəsi kafedra əməkdaşlarının apardığı elmi-tədqiqat işinin nəticələrinə həsr edilmişdir.

**Kitabxanaşünasliq kafedrasinin müdiri,**
**"Kitabxananin kompüterləşdirilməsi"**
**elmi-tədqiqat laboratoriyasinin rəhbəri:**

**Əməkdar elm xadimi,**
**prof. A.A.XƏLƏFOV**

# AZƏRBAYCANDA ALİ KİTABXANAÇILIQ TƏHSİLİNİN İNKİŞAFI TARİXİNDƏN
*(1947-2011-ci illər)*

**A.A.XƏLƏFOV**
***tarix elmləri doktoru, professor***
***Bakı Dövlət Universiteti***

*Məqalədə Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin yüksək ixtisaslı peşəkar kitabxanaçı-informasioloq kadrları hazırlanması sahəsində keçdiyi 64 illik şərəfli yola nəzər salınmış, fakültə kollektivinin təhsil, elm və tədrisin təşkili sahəsində əldə etdiyi nailiyyətlər umimiləşdirilmişdir.*

***Acar söslər:*** *Kitabxanaçılıq təhsili, kitabxanaşünaslıq, tədris prosesinin təşkili, kitabxanaçı peşəsi.*

Azərbaycanda yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasına 1947-ci ildən Bakı Dövlət Universitetinin filoloji fakültəsinin kitabxanaçılıq şöbəsində başlanmışdır. Respublikamızda yüksək ixtisaslı-peşəkar kitabxanaçı kadrlara böyük ehtiyac olduğundan bu şöbə 1962-ci ildə müstəqil Kitabxanaçılıq-informasiya fakültəsinə çevrildi. Bu yaxınlarda 65 illiyini bayram edəcək fakültə böyük və şərəfli inkişaf yolu keçmiş, 6 mindən artıq yüksək ixtisaslı-peşəkar kitabxanaçı-informasioloq kadrları hazırlamışdır. Fakültənin hazırladığı kadrlar demək olar ki, respublikamızın bütün kitabxanalarında fəaliyyət göstərir, kitabxana işinin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində yenidən qurulmasında, əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində yaxından iştirak edir. Müasir dövürdə kitabxanaçılıq-informasiya fakültəsinin yüksək ixtisaslı kitabxanaçı-informasioloq kadrları hazırlanması sahəsində böyük xidmətini və keçdiyi tarixi yolun işıqlandırılmasına böyük ehtiyac duyulduğundan fakültənin tarixinə nəzər salaq.

SSRİ-də kitabxanaçı kadrlar hələ XX əsrin 20-ci illərində – Oktyabr inqilabından sonra Sovet dövləti tərəfindən yaradılmış Siyasi Maarif İnstitutlarında, sonralar isə Mədəni Maarif İnstitutlarında hazırlanırdı. 30-cu illərdə Mədəni-Maarif İnstitutlarının yerində Kitabxanaçılıq institutları fəaliyyət göstərirdi. 50-ci illərdə isə Kitabxanaçılıq İnstitutları Mədəniyyət İnstitutları adlanmağa başlandı. Mədəniyyət İnstitutlarında kitabxanaçılıq və mədəni-maarif fakültələri, sonralar isə incəsənət fakültələri yaradılmışdı. Artıq 70-ci illərdə SSRİ-də 10-a yaxın Mədəniyyət İnstitutları fəaliyyət göstərirdi. Bunlardan 5-i RSFSR-də, qalanları isə Ukraynada, Belarusiyada, Qazaxıstanda,

Özbəkistanda və s. yerləşirdi. Beş müttəfiq respublikada: Azərbaycanda, Litvada, Türkmənistanda, Moldovada və Qırğızıstanda isə kitabxanaçı-biblioqraf kadrlar universitetlərdə hazırlanırdı. Yerdə qalan respublikalarda isə kitabxanaçılıq fakültələri Pedaqoji İnstitutların yanında faəliyyət göstərirdi.

Ümumiyyətlə yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrların hazırlığında SSRİ ilə Avropa ölkələri və dünyanın digər ölkələri arasında ciddi fərq var idi. SSRİ-də yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrlar əsasən mədəniyyət institutlarında və universitetlərdə pedaqoji institutlarda, Qərb ölkələrində və dünyanın digər böyük ölkələrində, məsələn, ABŞ-da, İngiltərədə, Fransada, Almaniyada, İtalyada, İsapniyada, İsveçrədə, Çində, Hindistanda, Misirdə və s. ölkələrdə isə ancaq universitetlərdə hazırlanırdı.

Beləliklə, SSRİ-dən fərqli olaraq XX əsrdə demək olar ki, bütün dünyada kitabxanaçı-biblioqraf ixtisası həmişə universitet ixtisası hesab edilmiş və kitabxanaçı kadrlar universitetlərdə hazırlanmışdır.

Azərbaycan Respublikasında yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasına 1947-48-ci tədris ilindən Bakı Dövlət Universitetinin Filologiya fakültəsində başlanmış, indiyə qədər 6 mindən artıq yüksək ixtisaslı kadr yetişdirilmişdir. Öz yüksək ixtisas biliyi, intellektual səviyyəsi, peşəkarlığı ilə fərqlənən və doğma Bakı Dövlət Universitetinə baş ucalığı gətirən bu kadrlar demək olar ki, respublikamızın bütün kitabxana şəbəkələrində, o cümlədən elmi, elmi-texniki, xüsusi, təhsil və kütləvi kitabxanalarda müvəffəqiyyətlə çalışmaqdadırlar. Respublikamızda fəaliyyət göstərən 11 mindən artıq kitabxanada uğurla işləyən, kitabxana işinə rəhbərlik edən, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin məzunlarının fəaliyyəti geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu da universitetin professor-müəllim heyətinin, fakültənin bütün kollektivinin büyük müvəffəqiyyətidir.

1947-48-ci tədris ilində Kitabxanaçılıq şöbəsinin yaranması və onun inkişafı haqqında mühüm əhəmiyyət kəsb edən bir sıra tarixi faktları göz önünə gətirək.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi 1947-ci ildə “Respublikada mədəni-maarif müəssisələri üçün kadr hazırlamaq haqqında” xüsusi qərar qəbul etdi. Qərarda göstərilirdi ki, 1947-48-ci tədris ilində S.M.Kirov adına ADU-nun Filologiya fakültəsi nəzdnində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsi təşkil edilsin və bu şöbə gələcəkdə ayrıca fakültəyə çevrilsin. Şöbənin açılması işinin təşkili BDU-nun rektoru akademik Abdulla Qarayevə və Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri, Sosialist Əməyi Qəhrəmanı, xalq yazıçısı Süleyman Rəhimova tapşırıldı. Bu görkəmli şəx-siyyətlərin birgə səyi nəticəsində SSRİ Ali və Orta İxtisas təhsili Nazirliyi şöbənin yaranmasına icazə verdi.

Kitabxanaçılıq şöbəsinin sonrakı inkişafında, gənc mütəxəssis kadrlarla möhkəmləndirilməsində, şöbəyə tələbə qəbulunun artırılmasında 1950-1954-cü illərdə Bakı Dövlət Universitetinin rektoru işləmiş görkəmli filoloq alim, filologiya elmləri doktoru, professor Cəfər Xəndan Hacıyevin və 1954-1958-ci illərdə universitetin rektoru olmuş Azərbaycan elminin korifeylərindən akademik Yusif Məmmədəliyevin böyük xidməti danılmazdır.

Yusif Məmmədəliyev Azərbaycan Milli Elmlər Akademiyasına Prezident seçildikdən sonra - 1958-ci ildə Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin edilən görkəmli elm və təhsil təşkilatçısı akademik Şəfahət Mehdiyev Kitabxanaçılıq şöbəsinin inkişafına daha böyük qayğı ilə yanaşmışdır. Məhz onun rəhbərliyi dövründə 1955-ci ildə Kitabxanaçılıq şöbəsinin qiyabi Azərbaycan, 1959-cu ildə qiyabi rus, 1963-cü ildə isə qiyabi axşam bölmələri yarandılmışdır. Qeyd etmək yerinə düşərdi ki, qiyabi rus bölməsi Zaqafqaziya respublikalarında kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə rus dilində kadr hazırlayan yeganə şöbə idi.

1962-ci ildə Kitabxanaçılıq şöbəsinin müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilməsi Azərbaycan kitabının və kitabxanaçılığının böyük qələbəsi idi. Bu qələbəni Azərbaycan xalqına, kitabxana ictimaiyyətinə bəxş edən görkəmli şəxsiyyətlərdən – o dövrdə Azərbaycan Respublikası Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsində işləyən akademik Abdulla Qarayevin və Bakı Dövlət Universitetinin rektoru akademik Şəfahət Mediyevin misilsiz xidmətləri yüksək qiymətə və təqdirəlayiqdir. Bu iki məşhur akademikin imzası və xeyir-duası ilə Bakı Dövlət Universitetində yaradılan müstəqil Kitabxanaçılıq fakültəsi Azərbaycan elminin, mədəniyyətinin, kitabının və kitabxanalarının gələcəyinə açılan işıqlı bir pəncərə idi.

Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük təəssübkeşi olan bu görkəmli akademiklərin səyi nəticəsində yaradılmış Kitabxanaçılıq fakültəsi sonrakı dövrdə ona bəslənən bütün ümidləri layiqincə doğrultdu, SSRİ məkanında kitabxanaçılıq təhsili və elmi sahəsində ən qabaqcıl təhsil və elm mərkəzlərindən birinə çevrildi.

XX əsrin 70-80-ci illərində fakültənin elm, təhsil və tərbiyə sahəsində müvəffəqiyyətləri daha geniş miqyas aldı, fakültənin qəbul planı 3 dəfə artırıldı. Fakültənin gündüz, axşam və qiyabi şöbələrinə 250 nəfərdən artıq tələbə qəbul edilməyə başladı. O, dövrdə SSRİ məkanında iki seçki müddətində Birləşmiş Millətlər Təşkilatı Kitabxanasının direktoru işləmiş Vilnus Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri V.Vladimirov tərəfindən ABŞ üniversitetləri kitabxanaçılıq fakültələrinin tədris planı əsasında Vilnus Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi üçün tərtib olunmuş, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təsdiq edilmiş yeni tədris planı üzrə işləyən ilk fakültələrdən biri məhz Bakı Dövlət Universitetinin Kitabxanaçılıq

fakültəsi olmuşdur. Bu plana tamamilə yeni elmi və texniki fənlər daxil edilmiş, informatika, riyaziyyat, hesablama texnikası, proqramlaşdırma və s. kimi fənlər kitabxanaçılıq ixtisasının məzmununda ciddi dəyişikliklər yaratmışdı. Fakültə humanitar, təbiət və texniki elmlərin birləşməsi və yeni inteqrasiyası nəticəsində yeni ixtisas kompleksinin fəaliyyət göstərdiyi sahəyə çevrilmişdi.

ABŞ universitetlərinin tədris planlarına müvafiq tərtib edilmiş yeni tədris planının əsas istiqamətləri 80-ci illərdən başlayaraq SSRİ-nin bütün ali kitabxanaçılıq məktəblərində tətbiq edilməyə başlandı. Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində isə bu planın 70-ci illərdən tədbiq edilməyə başlanmasını kollektivin uğurlu kimi qiymətləndirmək olar.

Kitabxanaçılıq fakültəsinin 70-ci illərdəki nəailiyyətləri də diqqətə layiq olmuşdur. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə əlaqədar respublikada yaranmış işgüzar ab-hava, böyük və sürətli inkişaf Bakı Dövlət Universitetinin fəaliyyətinə də təkan vermişdi. Bu təsir özünü tezliklə Kitabxanaçılıq-informasiya fakültəsinin inkişafında da göstərdi. Ulu öndərin kitabxana işinə böyük qayğısının təzahürü olaraq, Azərbaycanın kənd rayonları üçün kitabxanaçı kadrlar hazırlamaq üçün müsabiqədənkənar qəbul planı müəyyənləşdirildi. Bu plana müvafiq olaraq hər il kənd rayonlarından fakültəyə 50-60 nəfər gənc qəbul edilirdi. Böyük əhəmiyyət kəsb edən bu tədbir o dövrdə kənd kitabxanalarını yüksək ixtisaslı kadrlarla təmin etmək üçün əlverişli şərait yaratdı.

1970-ci ildə Bakı Dövlət Universitetinin universitetə rektor təyin edilmiş akademik F.M.Bağırzadə 17 illik rektorluğu dövründə həmişə Kitabxanaçılıq fakültəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, kadr potensialının yaxşılaşdırılmasına, elmi kadrların yetişdirilməsinə qayğı ilə yanaşmış, məhz onun rəhbərliyi dövründə fakültə yeni binaya köçürülmüş, qəbul planı 3 dəfəyə qədər artırılmışdır.

1970-ci ildən Bakı Dövlət Universitetinin Elmi əsərlərinin "Kitabxanaşünaslıq və biblioqrafiya" seriyası nəşrə başlamış, ildə 3 nömrəsi çap edilən bu seriya Zaqafqaziya və Orta Asiya respublikaları içərisində yeganə elmi əsərlər kimi böyük nüfuz qazanmışdı. Bu seriyada BDU-nun professor-müəllim heyəti ilə yanaşı olaraq SSRİ-nin digər respublikalararının müvafiq sahədə fəaliyyət göstərən tanınmış mütəxəssislərin məqalələri də dərc edilirdi.

70-80-ci illərdə Kitabxanaçılıq fakültəsində elmi kadrların yetişdirilməsi sahəsində də ciddi nəailiyyətlər əldə edildi. Bu zaman artıq kitabxana işinin müvafiq sahələrinə dair 1 doktorluq dissertasiyası, 10 namizədlik dissertasiyası müdafiə edilmiş, elmi dərəcəsi olan mütəxssislərin sayı çoxalmışdı.

Təssüf hissi ilə onu da qeyd etməyi özümə borc bilirəm ki, 60-cı illərin axırlarında və 70-ci illərin əvvəllərində Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin başı üzərində bir kabus dolaşmaqda idi. Belə ki, respublikamı-

zın bəzi “ziyalıları” BDU-da formalaşmış Kitabxanaçılıq fakültəsini o dövrdə fəaliyyət göstərən İncəsənət İstitutunda verməyi təklif edirdilər. Onlar buna səbəb kimi Moskvada Kitabxanaçılıq fakültəsinin Mədəniyyət İstitutunda fəaliyyət göstərməsini əsas götürurdülər. Bu dar düşüncəli ziyalıların dünyada kitabxanaçılıq fakültələrinin harada fəaliyyət göstərmələrindən xəbərləri yox idi. Ancaq məsələ hec də onların söylədikləri kimi deyildi. Yenicə Teatr İnstitutundan İncəsənət institutuna çevrilmiş bu ali məktəb tələbə kontingenti az olduğuna görə onun formalaşması və böyük ali təhsil müəssisələrinə çevrilməsi üçün buraya kənardan tələbələr gətirmək lazım idi. Onlar da bu məsələnin ən asan yolunu BDU-nun Kitabxanaçılıq fakültəsinin İncəsənət İnstitutuna verilməsinində görürdülər. O zaman BDU-nun rektoru işləyən akademik Şəfaət Mehdiyev bu təklifi irəli sürən “ziyalılara” çox məntiqi bir sual vermişdi: “Deyin görək, kitabxanalar nə vaxtdan incəsənətin bir növü olub? Siz bilirsinizmi ki, kitab bütün elmlərin mənbəyidir. Kitabxanalar elmi qoruyan məbədgahdır!”

Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin İncəsənət İnstitutuna verilib-verilməməsi haqqında mübahisələrə 1969-cu ildə hakimiyyətə gəlmiş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş böyük şəxsiyyət Heydər Əliyev nöqtə qoydu. Bütün ömrü boyu kitabxana işinə yüksək qiymət verən, kitabxananı “xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi” hesab edən, kitabxanaya, burada çalışan insanlara həmişə hörmət və ehtiram göstərən ulu öndər, Heydər Əliyev o çətin dövrlərdə birmənalı şəkildə bildirdi ki, Kitabxanaçılıq fakültəsinin başında dolaşan bu kabus xalqımızın, dövlətçiliyimizin xilaskarı, müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əliyev tərəfindən qətiyyətlə və birdəfəlik dəf edildi.

XX əsrin 70-80-ci illərində Kitabxanaçılıq fakültəsinin həyatında yeni mərhələ başlandı. Belə ki, BDU-nun Tarix fakültəsinin elmi şurasında Kitabxanaçılıq fakültəsinin dekanı Abuzər Xələfov 05.25.03 Kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə “Azərbaycanda kitabxana işinin tarixi (1933-1969-cu illər)” mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. Bu müdafiə RFSFR-dən sonra kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə müvafiq respublikalarda müdafiə edilən ilk doktorluq dissertasiyası idi.

Bununla yanaşı, 70-80-ci illərdə Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin beynəlxalq əlaqələri xeyli genişlənmiş, bir çox müttəfiq respublikalarla qarşılıqlı elmi əlaqələr yaradılmışdı. Fakültə bir sıra beynəlxalq elmi konfransların, seminarların, metodik müşavirələrin keçirildiyi elmi-metodiki bazaya çevrilmişdi.

Bu dövrdə respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafı sahəsində olduqca böyük uğurlar əldə edilmişdi. BDU-nun Kitabxanaçılıq-informa-

siya fakültəsi SSRİ-nin ən qabaqcıl fakültələrindən biri hesab edilirdi. Fakültənin dekanı prof. Abuzər Xələfovun səmərəli fəaliyyəti respublikamızdan çox-çox uzaqlarda məlum idi.

Prof. Abuzər Xələfov SSRİ-də kitabxanaçılıq-biblioqrafiya təhsili üzrə elmi-metodiki şuranın üzvü, V.İ.Lenin adına SSRİ Dövlət Kitabxanasında fəaliyyət göstərən doktorluq dissertasiyası üzrə ixtisaslaşmış müdafiə şurasının üzvü, SSRİ Ali Attestasiya Komissiyasının eksperti idi. Fakültədə hələ RSFSR ali məktəblərində tədbiq edilməyən, Amerka və Avropa ölkələrinin kitabxanaçılıq fakültəsinin tədris planlarına müvafiq olaraq Vilnus Dövlət Universitetinin kitabxanaçılıq-biblioqrafiya ixtisası üzrə beşillik tədris planı əsasında yeni tədris planı tərtib edilmişdi. Fakültə kitabxanaşünaslıq-biblioqrafiya elmləri üzrə Bakı Dövlət Universiteti Elmi əsərlərinin xüsusi seriyasını nəşr edirdi. SSRİ miqyasında Moskva Dövlət Mədəniyyət İnstitutunun "Kitabxanaşünaslıq və biblioqrafiya" ixtisası üzrə müdafiə şurası müdafiyə təqdim edilmiş çoxlu sayda namizədlik və doktorluq dissertasiyalarını ekspertiza etmək üçün aparıcı müəssisə kimi BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasına göndərirdi. Fakültənin dekanı, tarix elmləri doktoru, prof. A.Xələfov Moskva Dövlət Mədəniyyət İnstitutunda 3 doktorluq və 5 namizədlik dissertasiyasının rəsmi oponenti olmuşdu. O, eyni zamanda Tibilisidə, Daşkənddə və başqa şəhərlərdə doktorluq dissertasiyalarının rəsmi oponenti kimi çıxış etmişdi.

Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin təhsil və elmi-tədqiqat işləri sahəsindəki uğurları SSRİ miqyasında qiymətləndirilirdi. Məhz buna görədir ki, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Kitabxanaşünaslıq-biblioqrafiya" təhsili üzrə Elmi Metodiki Şurası Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin iş təçrübəsini öyrənmək üçün öz növbəti iclasını 1981-ci ilin oktyabrın 28-30-da Bakı şəhərində keçirdi. Elmi-metodik şuranın iclasınada SSRİ-ni kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə ən görkəmli alimləri və təhsil təşkilatçıları, müttəfiq respublikaların yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf hazırlayan bütün ali məktəblərindən gəlmiş görkəmli alimlər, rektorlar, dekanlar, kafedra müdirləri iştirak edirdilər. İclasda RSFSR Mədəniyyət Nazirliyinin Elmi müəssisələr üzrə Baş İdarsinin rəisi L.N.Romonov, Bakı Dövlət Universitetinin rektoru akademik F.M.Bağırzadə, Moskva Dövlət Mədəniyyət İnstitutunun rektoru prof. L.P.Boqdanov, prof. A.A.Şilov, prof. S.M.Dubaskas, prof. K.İ.Abramov, prof. A.B.Sakalov prof. V.İ.Çepelov, dos. L.Ş.İliçova, prof. A.A.Xələfov və başqaları çıxış etmişdilər. Elmi Metodiki Şurada "Sov İKP MK-nın XXVI qurultayının qərarları ilə əlaqədar kitabxanaçılıq fakültələrinin və ali məktəblərin vəziyyəti və vəzifələri" məsələsini müzakirə edilmiş, geniş qərar qəbul olunmuş-

du. Elmi Metodik Şuranın qərarında Bakı Dövlət Universiteti Kitabxanaçılıq-fakültəsinin fəaliyyəti yüksək qiymətləndirilmişdi.

Elmi-metodik Şuranın iclasından sonra BDU Kitabxanaçılıq fakültəsi ilə Moskva Dövlət Mədəniyyət İnstitutu arasında əməkdaşlıq haqqında müqavilə imzalandı. Bu müqavilə Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin dekanı prof. A.Xələfov və Moskva Dövlət Mədəniyyət İnstitutunun rektoru prof. L.P.Baqdanov tərəfindən imzalanmışdı. Bu müqavilənin şərtlərinin yerinə yetirilməsi Kitabxanaçılıq fakültəsinin gələcək inkişafına və yüksək ixtisaslı kadr hazırlanmasına böyük kömək etdi.

80-ci illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi SSRİ miqyasında tədris planlarının hazırlanması sahəsində diqqətəlayiq uğurlar qazanmışdı. Fakültə kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə strateji əhəmiyyətə malik, XXI-ci əsrdə belə tədris planlarının baza hissəsi kimi istifadə edilən tədris planlarının hazırlanmasında mərkəzə çevrilmişdi. 1988-ci ildə SSRİ Dövlət Xalq Təhsil Komitəsinin göstərişi ilə SSRİ Mədəniyyət Nazirliyinin yanında fəaliyyət göstərən kitabxanaçılıq təhsili üzrə tədris-metodiki şurası ilə razılaşdırılmış və təsdiq edilmiş nümunəvi tədris planı əsasında işlənmiş yeni tədris planı tərtib etmək nəzərdə tutulmuşdu. SSRİ-də yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrlar hazırlayan dövlət universitetləri və pedaqoji institutlar üçün yeni tədris planı tərtib etmək məqsədi ilə xüsusi komissiya yaradılmışdı. Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin dekanı, prof. A.A.Xələfov həmin komissiyanın sədri təyin edilmişdi. Bu komissiyanın tərkibinə Bakı, Vilnus, Dağıstan, Türkmənistan, Kişinyov Dövlət Universitetlərindən, Tallin, Tibilisi, Cimkənd pedaqoji institutlarından 8 nəfər üzv daxil edilmişdi. Komissiyanın tərtib edilmiş və prof. A.A.Xələfov tərəfindən imzalanmış tədris planı 1989-cu ildə SSRİ Mədəniyyət Nazirliyi tərəfindən SSRİ-nin kitabxanaçılıq fakültələri olan bütün universitetləri üçün nümunəvi plan kimi təsdiq edildi.

XX əsrin 70-80-ci illərində əldə etdiyi böyük nailiyyətlərə görə Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin dekanı prof. A.A.Xələfov SSRİ dövləti tərəfindən dəfələrlə qiymətləndirilmişdir. O, 1970-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyyəti tərəfindən "V.İ.Leninin 100 illiyi yubiley medalı" ilə, 1984-cü ildə SSRİ Mədəniyyət Nazirliyi Kollegiyasının və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "N.K.Krupskaya medalı" ilə, 1987-ci ildə SSRİ "Bilik" cəmiyyətinin "Fəal işinə görə" döş nişanı ilə, 1989-cu ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əmək veteranı" medalı ilə və s. təltif edilmişdir.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi hər cür çətinliyə baxmayaraq öz işini müvəffəqiyyətlə davam etdirmişdir. Məlumdur ki, SSRİ dövründə digər ixtisas sahələrində olduğu kimi kitabxana-

çılıq ixtisası sahəsində də bütün dərsliklər, dərs vəsaitləri, xüsusiilə proqramlar Moskvada hazırlanıb müttəfiq respublikalara göndərilirdi. Müstəqillik əldə edildikdən sonra isə bu proses dayanmışdı. BDU-nun digər fakültələri kimi Kitabxanaçılıq fakültəsinin kollektivi də bu mühüm işin öhdəsindən özü gəlməli idi. Çox böyük çətinliklərlə olsa da fakültənin yaradıcı kollektivi özünün çoxillik təcrübəsinə arxalanaraq müstəqilliyin tələblərinə uyğun olaraq milli ideologiyaya dərindən yiyələnməklə, milli dövlətçilik və Azərbaycançılıq konsepsiyasının qarşıda qoyduğu vəzifələrə, milli ənənələrə söykənməklə yeni dərs proqramları, dərsliklər və dərs vəsaitləri hazırlayıb nəşr etdirməyə başladı.

Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi 1990-cı illərin əvvəllərindən başlayaraq ilk növbədə fakültədə tədris edilən bütün ixtisas fənləri üçün dərs proqramlarını yenidən işləməyə başladı. Proqramların yenidən işlənərək tərtib edilməsi olduqca məsuliyyətli idi. Bütün proqramlar suverenliyimizin qarşıda qoyduğu vəzifələrə cavab verməli, milli idealigoyamıza uyğun gəlməli, bəşəri sərvətlərlə zənginləşməli idi. Fakültə kollektivinin bu mühüm işin öhtəsindən müvəffəqiyyətlə gəlməsinə 1996-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilmiş ixtisas standartları və 1997-ci ildə “Bakalavr” pilləsi üzrə hazırlanmış yeni tədris planı kömək etdi. Prof. A.A.Xələfovun sədirliyi ilə hazırlanmış bu standartların fakültənin təcrübəsinə tətbiqində də şəxsən iştirakı bu mühüm prosesin həllinə yardımçı oldu.

Müstəqillik illərində yeni iqtisadi və siyasi sistemin təşəkkül tapdığı bir zamanda başlıca söhbət kitabxana işi sahəsində mövcud prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü sürətdə təzədən formalaşdırılmasından gedirdi. Bu da hər şeydən əvvəl keçmiş totolitar rejimdən, sosializimdən miras qalmış kitabxanaların idealogiyalaşdırılması, sinfilik, partiyalılıq kimi antielmi və qeyri humanist prinsiplərin rədd edilməsini, onun dünyəvi, milli idealogiyaya müvafiq prinsiplərlə əvəz olunmasını tələb edirdi.

Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin kollektivi bu ciddi və məsuliyyətli vəzifənin öhtəsindən müvəffəqiyyətlə gəldi. Kitabxanaşünaslıq, Kitabxana resursları və məlumat axtarış sistemləri, Biblioqrafiyaşünaslıq və Kitabşünalıq və nəşriyyat işi kafedraları yeni cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid şəraiti ilə əlaqədar öz tədris proqramlarını nəzəri və metodik cəhətdən yenidən işləyib təkmilləşdirdilər. Kitabxanaşünaslıq fənləri üzrə 30-dan artıq proqram, biblioqrafiyaşünaslıq fənləri üzrə 27 proqram, kitabşünaslıq və nəşriyyat işi fənləri üzrə 20-dən artıq proqram yenidən işlənib nəşr edildi.

Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin kollektivi müstəqillik illərində Azərbaycan tarixində ilk dəfə olaraq orijinal milli dərsliklər, dərs

vəsaitləri, monoqrafiyalar yazıb çap etdirməyə müvəffəq oldu. Kitabxanaşünaslıq kafedrası üzrə 7 dərslik, 25 dərs vəsaiti, 10 monoqrafiya, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası üzrə 12 dərs vəsaiti, 1 monoqrafiya Biblioqrafiyaşünaslıq kafedrası üzrə 1 dərslik, 6 dərs vəsaiti, Kitabşünaslıq və nəşriyyat işi kafedrası üzrə 4 dərslik, 3 dərs vəsaiti və 3 monoqrafiya nəşr edildi.

Müstəqillik illərində Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsində 1 elmlər doktorluğu, 8 fəlsəfə doktorluğu dissertasiyası müdafiə edilmiş, onların hamısı Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komitəsi tərəfindən təsdiq edilmişdir. Bu dissertasiyaların hamısının elmi məsləhətçisi və elmi rəhbəri prof. A.A.Xələfov olmuşdur.

Müstəqillik illərində Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin uğurlarından biri də kadr hazırlığının keyfiyyətində böyük dəyişikliklər edilməsi olmuşdur. Bu dəyişikliklər fakültənin tədris planının yenidən tərtib edilməsini, informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə müvafiq olaraq tədris planına kitabxana-informasiya texnologiyasına, kitabxana işinin kompüterləşdirilməsinə, elektron kitabxananın, elektron kataloqların yaradılmasına dair yeni fənlərin salınmasını tələb edirdi. Bu mühüm problemi həll etmək üçün 2004-cü ildə Kitabxanaçılıq fakültəsinin adının dəyişdirilib “Kitabxanaçılıq-informasiya fakültəsi” qoyulması təşəbbüsü irəli sürüldü. Bu ideya ulu öndərimiz Heydər Əliyevin fərmanı ilə 1999-cu ildən Bakı Dövlət Universitetinin rektoru təyin edilən, son on ildən artıq dövrdə universitetin inkişafında böyük işlər görən, universitetin beynəlxalq nüfuzunun artırılmasına xüsusi xidmətlər göstərən, kitaba və kitabxanaya yüksək qiymət verən akademik Abel Məhərrəmov tərəfindən müsbət qarşılandı. Yadımdadır, mən bu təklifi akademik A.Məhərrımova bildirərkən o, çox haqlı olaraq o dedi: “Abuzər müəllim, Siz fakültənin adını dəyişməzdən əvvəl tədris planına informatikaya, informasiya texnologiyasına, kitabxana işinin komplektləşdirilməsinə dair yeni fənlər salmalısınız.”

Biz böyük məmnuniyyətlə hörmətli rektorun bu məntiqəuyğun təklifini qəbul etdik və fakültənin yeni tədris planında onları nəzərə aldıq. Beləliklə, Kitabxanaçılıq fakültəsinin tədris planına “Kitabxana işinin kompüterləşdirilməsinin əsasları”, “Kitabxana iqtisadiyyatı”, “Kitabxana və informasiya texnologiyası”, “Kitabxana marketinqi”, “Kitabxana menecmenti”, “Kitabxana informatikası”, “Patent və normativ texniki sənədlər”, “Kitabxanalarda patent informasiya texnologiyası”, “Elektron kitabxana”, “Kataloqlaşdırmanın müasir problemləri”, “Predmet kataloqu və onun avtomatlaşdırılması”, “Biblioqrafik proseslərin texniki vasitələri və avtomatlaşdırılmış informasiya axtarış sistemləri”, “Normativ-texniki və patent sənədlərinin biblioqrafiyası”, “Kitab sosial və kütləvi kommunikasiya sistemində”, “Nəşriyyat işində menecment

və marketinq" və s. kimi tamamilə yeni predmetlər daxil edildi. Bundan sonra rektor Kitabxanaçılıq fakültəsinin "Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılması haqqında əmr imzaladı. Kitabxanaçılıq-informasiya fakültəsinin qədirbilən kollektivi ona göstərilən bu xeyirxahqlığa görə həmişə hörmətli rektorumuz akademik Abel Məhərrəmova minnətdardır.

Akademik Abel Məhərrəmovun Kitabxanaçılıq-informasiya fakültəsinə göstərdiyi əvəzsiz qayğılardan biri isə bu oldu ki, 1999-cu ilin axırlarında rektorun əmri ilə fakültənin Kitabxanaşünaslıq kafedrasının yanında "Kitabxana işinin kompüterləşdirliməsi elmi-tədqiqat labaratoriyası" açıldı. Bu laboratoriya respublikamızda kitabxana işinin informasiyalaşdırılmasının elmi istiqamətlərini müəyyənləşdirən ilk laboratoriyadır. Rektor akademik Abel Məhərrəmov laboratoriyaya BDU-nun Elmi Kitabxanasının yanında yer ayırdı və laboratoriya əməkdaşlarına BDU-nun Elmi Kitabxanasının kompüterləşməsinin həyata keçirilməsini məsləhət gördü. Rektorun uzaqgörənliklə istiqamətləndirilmiş bu məsləhəti laboratoriyanın sonrakı fəaliyyətinə və kitabxana işinin kompüterləşməsinə böyük təkan verdi, qısa müddətdə kitabxanada elektron kataloq, elektron kitabxana yaradıldı, kitabxananın köməkçı fondları və qəzet jurnalı fondu kompüterin yaddaşına köçürüldü. 2005-ci ildə laboratoriyanın köməyi ilə kitabxananın komplektləşdirmə işini kompleks aparmaq məqsədi ilə beynəlxalq təcrübədə sınaqdan keçmiş İRBİS proqramı tətbiq edilməyə başlanmışdır. Fərəhləndirici haldır ki, BDU Elmi Kitabxanası respublikamızın ali məktəb kitabxanaları icərisində informasiyalaşdırılan yeganə kitabxanadır.

Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin əsas göstəricilərindən biri də onun maddi-texniki bazasının möhəkəmləndirilməsi, tələbə qəbulunun stabilləşdirilməsi olmuşdur.

Müstəqillik illərində fakültənin yaradıcısı və ağsaqqalı prof. A.A.Xələfov respublikamızın və BDU-nun ictimai həyatında yaxından iştirak etmiş, 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununu hazırlayan işçi qurupunun rəhbəri, 1993 və 2010-cu illərdə Milli Məclisin qəbul etdiyi "Təhsil Qanunu"nun işçi qrupunun üzvü Bakı Dövlət Universitetinin Nizamnaməsini hazırlayan komissiyanın üzvü olmuşdur.

Müstəqlillik illərində ulu öndər prezident Heydər Əliyev prof. A.Xələfovun yüksək ixtisaslı kitabxanaçı-informasioloq kadrların hazırlanmasında, kitabxanaşüanslıq elminin inkişaf etdirilməsində, kitabxanaşünaslığa dair ilk milli dərsliklərin yaradılmasında xidmətlərini nəzərə alaraq 1999-cu ildə "Şöhrət" ordeni ilə təltif etmiş və 2001-ci ildə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 2008-ci ildən isə ona Prezident İlham Əliyev tərəfindən Prezident təqaüdü verilmişdir.

Burada göstərdiklərimdən bir daha aydın oldu ki, kitabxanaçılıq-informasiya ixtisası üzrə mütəxəssis kadrlar SSRİ-dən başqa dünyanın demək olar ki, bütün ölkələrində mədəniyyət və incəsənət institutlarında yox, kalssik universitetlərdə hazırlanmış, kitabxanaçılıq-informasiya ixtisası universitet ixtisası hesab edilmişdir. SSRİ dağıldıqdan sonra RSFSR-dən başqa bir çox müttəfiq respublikalarda (məsələn Latviya, Litva, Estoniya, Türkmənistan, Qırğızıstan və s.) bu səhvlər düzəldilmiş, kitabxanaçı kadrlar universitetlərdə hazırlanmağa başlanmışdır. Azərbaycan Respublikasına gəldikdə isə bu məsələ lap əvvəllərdən, yəni XX əsrin 40-cı illərindən dünya standartları səviyyəsində həll edilmiş, Kitabxanaçılq şöbəsi 1947-48-ci tədris ilində BDU-nun Filologiya fakültəsinin yanında təşkil edilmiş, 1962-ci ildə müstəqil fakültəyə çevrilmiş, ötən 64 il ərzində öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirmiş, universitetin ən qabaqcıl, nümunəvi fakültələrindən biri kimi şöhrət qazanmışdır.

Müstəqilliyin ilk illərində Azərbaycan Respublikası Təhsil Nazirliyinin özü elmlərin və təhsil prosesinin nomenklaturasını və indeksləşdirilməsini yeniləşdirə bilmədiyindən RSFSR-in indeksləşdirilməsindən istifadə edirdi. Rusiyanın fənlərin indeksləşdirilməsində olduğu kimi Azərbaycanda da "Kitabxanaşünaslıq informasiya" ixtisası bir müddət əvvəl "Mədəniyyət və incəsənət" indeksinə daxil edilirdi. Əlbəttə, bu, böyük səhv idi. Çox yaxşı və təqdirəlayiq haldır ki, "Kitabxanaşünaslıq və informasiya" ixtisasının "Mədəniyyət və incəsənət" ixtisasları qurupuna aid edilməsi ilə əlaqədar olan bu səhv Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli 8 №-li "Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı"nın təsdiq edilməsi haqqında qərarı ilə düzəldilmişdir. Nəhayət "Kitabxanaçılıq-informasiya" ixtisası bu sənəddə öz həqiqi yerini, özünəməxsus indeksini almışdır. Beləliklə, qanuna və məntiqəuyğun şəkildə "Kitabxanaçılıq-informasiya ixtisası"na "Humanitar və sosial elmlər bölməsi"ndə "05.02.15 Kitabxanaçılıq-informasiya" indeksi verilmişdir.

## ƏDƏBİYYAT

1. *Абрамов К.И. История библиотечного в СССР. Учебник. М., 1980,351 с.*
2. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B., 2006, 312 s.*
3. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. I hissə.- B., 2001, 398 s.*
4. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. II hissə.- B., 2003, 314 s.*
5. *Xələfov A.A. Azərbaycanda ali kitabxanaçılıq təhsili. B., 1998, 124 s.*
6. *Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı.B., 1987, 132 s.*

*7. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik: 3 hissədə (H.3 XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi). B., 2010, 432 s.*
*8. Xələfov A.A. Azərbaycan ali kitabxanaçılıq təhsili. B., 1998, 124 s.*

## ABOUT THE DEVELOPMENT HISTORY OF HIGHER LIBRARY STUDIES OF EDUCATIONIN AZERBAIJAN
***(The years of 1947-2011)***

**A.A.KHALAFOV**

***SUMMARY***

***Keywords:*** *The education of librarian studies, library studies; organization of teaching process; the profession of librarian.*

*The presented article deals with the training of high professional specialists, like librarian-informologist of the faculty of librarian studies and information of Baku State University and the passed 64 honoured years. The achievements, gained in the field of education, science and organization of teaching if the staff of the faculty have been generalized.*

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ ВЫСШЕГО БИБЛИОТЕЧНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ
***(1947-2011 гг.)***

**А.А.ХАЛАФОВ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *библиотечное образование, библиотековедение, организация учебного процесса, профессия-библиотекарь.*

*В статье анализируется славный 64-летний путь библиотечно-информационного факультета Бакинского Государственного Университета, каторый выпускает высако квалифицированных специалистов – библиотекарей-информациологов. А также обобщаются достижения в области методики обучения, науки и образования достигнутые коллективом факуьтета.*

# C.CABBARLI adına RESPUBLİKA GƏNCLƏR KİTABXANASINDA BƏDİİ ƏDƏBİYYATIN TƏBLİĞİ VƏZİYYƏTİ

***(2006-2011-ci illər)***

**Knyaz ASLAN**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***Bakı Dövlət Universiteti***
***knyazaslan@mail.ru***

***Açar sözlər:*** *Gənclər Kitabxanası, bədii ədəbiyyat, bədii ədəbiyyatın təbliği, oxucuların mənəvi tərbiyəsi, estetik zövq, estetik təhsil.*

*Məqalədə gənc oxucuların mənəvi-estetik tərbiyəsində kiatbxanaların vəzifələri təhlil edilmiş, bu baxımdan bədii ədəbiyyatın əhəmiyyəti yüksək qiymətləndirilmişdir. Mövzunun izahı zamanı 2006-2011-ci illərdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında bədii ədəbiyyatın təbliği haqqında aydın təsəvvür yaradılmış, konkret statistik məlumatlara isnad edilmişdir.*

Azərbaycan Respublikasının müstəqillyi şəraitində oxucuların dünyagörüşünün, vətənpərvərlik duyğularının formalaşmasında, mənəvi tərbiyəsinin inkişafında, əsl oxucu kimi yetkinləşməsində bədii ədəbiyyatın rolu və əhəmiyyəti böyükdür. Bədii ədəbiyyat həyatımızın ən dəyərli və ən kəsərli inikasıdır. Yaşından, təhsilindən, peşəsindən, milli mənsubiyyətindən, fərdi xüsusiyyətindən asılı olmayaraq hər bir oxucu bədii əsərlərə tez-tez müraciət edir, ondan geniş şəkildə bəhrələnir, özünün dünyagörüşünü zənginləşdirir, fəallığını artırır, asudə vaxtını səmərəli keçirir, mənəvi tələblərini ödəyir.

Son illərdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında bədii ədəbiyyatın təbliği sahəsində həyata keçirilən tədbirlər xüsusilə diqqətəlayiqdir. Kitabxananın bu istiqamətdəki geniş fəaliyyətinin tədqiqata cəlb edilməsi, müsbət işlərinin nümunə göstərilməsi, mövcud qüsurların aradan qaldırılması məqsədilə müəyyən tövsiyələrin verilməsi mühüm əhəmiyyətə malikdir.

Məlumdur ki, prezident Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında” 9 avqust 2001-ci il fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlikdə təmin etmişdir. Bununla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli və “2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında” 27 dekabr 2004-cü il tarixli sərəncamlarına əsasən son 3 il ərzində ümumi sayı 9 milyon nüsxəyə yaxın ədəbiyyat nəşr olunmuş, ölkə kitabxanalarına, o cümlədən C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasına 23.777 nüsxə ədəbiyyat hədiyyə verilmişdir. Yeni nəşrlər kitabxana fondalarını və onlardan istifadə imkanlarını xeyli genişləndirmişdir. Eyni zamanda Azərbaycandakı rusdilli oxucuların mütaliə marağını nəzərə almaq və tələbatını ödəmək üçün C.Cabbalı adına RGK Rusiyanın “Premyera” nəşriyyatı ilə 5 illik müqavilə bağlamışdır. Bu müqaviləyə əsasən hər il Rusiyadan 1200-1300 nüsxə ədəbiyyat, o cümlədən ölkəmizdə nəşr edilməyən lüğətlər, ensiklopediyalar, digər kitablar alınaraq oxucuların istifadəsinə verilir.

Hazırda C.Cabbarlı adına RGK-da zəngin mənəvi xəzinə toplaşmışdır. Bu sərvətdən bacarıqla istifadə edilməsi vətəndaşlarımızın estetik tərbiyəsini yüksəltmək, onları mənəvi cəhətdən kamilləşdirmək üçün etibarlı rəhndir. Əlbəttə, bu sahədə bədii ədəbiyyat mütaliəsinin rolu böyükdür. Fikrimizi əsaslandırmaq üçün RGK-nın iş təcrübəsinə müraciət edək.

C.Cabbarlı adına RGK-da oxucuların bədii-estetik tərbiyəsinin və zövqünün formalaşmasında müxtəlif kütləvi tədbirlərdən istifadə olunur. Bu kütləvi tədbirlərin üstünlüyü ondadır ki, onların vasitəsi ilə kitabxanaçılar oxucularla təmasda olur, onların marağını və oxuduqlarına münasibətlərini öyrənir. Həyata keçirilən kütləvi tədbirlərin başlıca məqsədi isə gənc oxucularda bədii ədəbiyyata maraq yaratmaq, onların mənəvi-estetik zövqlərinə təsir göstərə biləcək əsərləri təbliğ etməkdir. Bədii ədəbiyyatın təbliği zamanı kütləvi işin əsasən şifahi və əyani formalarından və onların üsullarından səmərəli şəkildə istifadə edilir. Şifahi təbligatda kitab müzakirələri, ədəbi-bədii gecələr, ucadan oxular (ifadəli oxular), görüşlər, şifahi jurnallar, biblioqrafik icmallar, səhərciklər və s. kimi üsullar tətbiq olunur.

2006-2011-ci illər ərzində C.Cabbarlı adına RGK-da bədii ədəbiyyata dair 15 kitabın müzakirəsi keçirilmişdir. Bu tədbirlərdə dahi şairlərimiz Xaqaninin, Nizaminin, Füzulinin, Xətainin, Nəsiminin və başqalarının “Lider” nəşriyyatında çap olunmuş “Əsərləri” oxucuların mühakiməsinə verilmişdir. Oxucular həmin kitabları fəallıqla müzakirə etmiş, bu əsərləri yenidən nəşrə hazırlamış nəşriyyat redaktorlarına və tərtibçilərə öz ürək sözlərini bildirmiş, kitabların bədii tərtibatı və poliqrafik icrası ilə bağlı tənqidi fikirlərini söyləməkdən belə çəkinməmişlər. Çox maraqlı keçən bu tədbirlərin hər birində orta hesabla 80-100 nəfər oxucu iştirak etmişdir.

C.Cabbarlı adına RGK-da 2006-2011-ci illərdə təşkil edilmiş bir sıra ədəbi-bədii gecələr oxucuların marağına səbəb olmuş, onların bədii-estetik zövqlərinin formalaşmasına müsbət təsir göstərmiş, eyni zamanda Azərbaycan incəsənət ustalarının yaradıcılığına oxucularda məhəbbət oyatmışdır. Məsələn, xalqımızın misilsiz yazılı abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanlarının təbliği ilə əlaqədar olaraq bir sıra silsilə tədbirlər təşkil edilmişdir. Belə ki, kitabxana Yasamal, Nizami və Xətai rayonları ərazisində yerləşən bir sıra ali və orta məktəblərdə “Xoş gördük, ulu Dədə Qorqud!”, “Gəlimli-gedimli dünya…”, “Xalqımızın ana kitabı” mövzularında sərgilər, ədəbi-bədii və musiqili ədəbi gecələr keçirmiş, bu tədbirlərə tanınmış qorqudşünasları, aktyorları və müğənniləri dəvət etmişdir.

2006-2011-ci illərdə C.Cabbarlı adına RGK-da bədii ədəbiyyatın təbliğinə həsr olunuş 56 biblioqrafik icmal keçirilmişdir. Bu tədbirlərdə ümumilikdə 1500 nəfər oxucu iştirak etmişdir.

Azərbaycanın ərazisinin bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından və müharibə təhlükəsi hələ də sovuşmadığından C.Cabbarlı adına RGK-da keçirilən şifahi tədbirlərin bir çoxu hərbi vətənpərvərlik tərbiyəsinə aid olur. Məsələn, 2006-cı ildə 16, 2007-ci ildə 21, 2008-cü ildə 32, 2009-cu ildə 24, 2010-cu ildə isə 17 kütləvi tədbir şair və yazıçıların vətənpərvərlik mövzusunda yazılmış əsərlərinin təbliğinə həsr olunmuşdur.

2006-2011-ci illərdə C.Cabbarlı adına RGK-da Xaqani, Nizami, Füzuli, Xətai, Nəsimi, M.F.Axundov, M.Ş.Vazeh, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, S.Ə.Şirvani, C.Məmmədquluzadə, C.Cabbarlı, S.Vurğun, M.Şəhriyar və başqa klassik şair və yazıçılarımızın yubileyləri ilə bağlı müxtəlif kütləvi tədbirlər hazırlanmış, onların həyat və yaradıcılıqları ilə xeyli oxucu tanış olmuşdur.

C.Cabbarlı adına RGK-da klassik bədii ədəbiyyatın təbliği zamanı əyani üsullardan da geniş istifadə edilir. Burada yeni daxil olmuş kitabların məlumat sərgiləri, tövsiyə mövzu sərgiləri, plakatlar, albomlar və s. tez-tez hazırlanır. Bədii ədəbiyyatın təbliğinə həsr edilən əyani təbliğat formaları bilavasitə konkret çap əsərlərinin özünü nümayiş etdirir, oxucuların nəzərinə çatdırır, gənc oxucu qruplarının Vətənə sədaqət, torpağa məhəbbət, xalqa sevgi ruhunda tərbiyələnməsinə mühüm təsir göstərir.

Oxucuların estetik tərbiyəsinə təsir edən vasitələrdən biri kitab sərgilərinin təşkilidir. Təcrübə göstərir ki, incəsənətə dair hər hansı bir mövzu üzrə kitab sərgisinin keçirilməsində, müvafiq şəkillərin seçilməsində, sərlövhələrin yazılmasında, ümumiyyətlə, sərginin bədii tərtibində oxucuların özlərinin iştirakı onların sonsuz marağına səbəb olur.

C.Cabbarlı adına RGK-da 2006-2011-ci illərdə Füzulinin anadan olmasının 510 illiyi ilə əlaqədar olaraq “Elmlə, ədəblə tapılar şərəf”, “Məni candan usandırdı...”, “Leyli və Məcnun məhəbbətinin işığında”, “ “Füzuli və

gənc nəsil" adlı kitab sərgiləri, xalq şairi Səməd Vurğunun 100 illiyi ilə bağlı "Elim, günüm, obam sənsən", "Nə gözəl yaraşır Muğana ceyran", "Demə, Səməd Vurğun gəldi-gedərdi..." adlı kitab sərgiləri təşkil olunmuşdur. Bu sərgilərə ümumilikdə 500 nəfərə yaxın oxucu tamaşa etmişdir.

Bədii ədəbiyyatın əyani təbliğinin geniş yayılmış üsullarından biri də kitabxana plakatıdır. Kitabxana plakatı tövsiyə olunan kitabı təsviri sənət vasitəsi ilə təbliğ edir, ən vacib məsələlərdən istifadə etməklə məsləhətçi rolunu oynayır. Plakatlar oxuculara istiqamət vermək, hər hansı bir əsər haqqında onlarda müəyyən təsəvvür yaratmaq məqsədi ilə də tərtib olunur.

2006-2011-ci illərdə C.Cabbarlı adına RGK-da Nizami, Füzuli, Vaqif, Sabir, Abbas Səhhət, Abdulla Şaiq, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Süleyman Sani Axundov, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Şəhriyar, Rəsul Rza, Osman Sarıvəlli və başqalarının yaradıcılığına həsr olunmuş plakatlar tərtib edilmişdir. Bu baxımdan dahi yazıçımız Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığına həsr edilmiş "Dünya şöhrətli satira ustadımız" adlı kitabxana plakatanın tərtibi maraq doğurur. Plakatda Cəlil Məmmədquluzadənin böyük portreti, şəklin altında yazıçının həyat və fəaliyyəti haqqında qısa məlumat verən mətn yazılmışdır. Mətndən sonra Mirzə Cəlilin nəşr etdiyi məşhur "Molla Nəsrəddin" jurnalının və ayrı-ayrı kitablarının üz qabığının şəkilləri verilmişdir. Plakatda "Yazıçı-dramaturqun müasirləri" başlığı altında onun sənət və məslək dostlarının şəkilləri də nümayiş etdirilmişdir. Bundan başqa, plakatda Mirzə Cəlilin əsərlərinin, xüsusilə "Anamın kitabı", "Ölülər", "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy", "Poçt qutusu", və başqa əsərlərinin əsas qəhrəmanlarının şəkilləri də yerləşdirilmişdir. Oxucular onları kitablardan, kinodan, teatrdan tanıyırlar. Bu plakat vasitəsi ilə oxucular Cəlil Məmmədquluzadənin həyatı, yaradıcılığı, dövrü, müasirləri, əsərləri, qəhrəmanları və s. haqqında yığcam məlumat almış, böyük yazıçımızı daha dərindən tanımışlar.

2009-cu ildə C.Cabbarlı adına RGK-da görkəmli dramaturqumuz Cəfər Cabbarlının həyat və yaradıcılığına həsr edilmiş kitabxana plakatanın tərtibi də maraq doğurur. "Sevimli dramaturqumuz" adlanan bu plakatda Cəfər Cabbarlının böyük portreti, şəklin altında ədibin həyat və fəaliyyəti haqqında qısa məlumat verən mətn yazılmışdır. Mətndən sonra yazıçının kitablarının üz qabığının şəkilləri verilmişdir. Plakatda "Ədibin müasirləri" başlığı altında onun qələm dostlarının şəkilləri də nümayiş etdirilir. Bundan başqa, plakatda Cəfər Cabbarlının yaratdığı Oqtay Eloğlu, Almaz, Sevil, Yaşar və başqa ədəbi qəhrəmanların rəssamlar tərəfindən şəkilmiş şəkilləri, eləcə də teatr tamaşalarında aktyorların ifası zamanı lentə alınmış fotoları da yerləşdirilmişdir. Bu plakat vasitəsi ilə gənc oxucular Cəfər Cabbarlının həyatı, yaradıcılığı, dövrü, müasirləri, əsərləri, qəhrəmanları və s. haqqında yığcam məlumat ala bilmişlər.

2010-cu ildə C.Cabbarlı adına RGK-da N.Gəncəvinin 860 illik yubileyi ilə bağlı tərtib olunmuş plakat-viktorina da olduqca diqqətəlayiqdir. Bu plakat gənc oxuculara dahi klassikimiz Nizami Gəncəvini tanıtmaq, onun ölməz əsərlərinə maraq oyatmaq baxımından çox faydalıdır.

2010-cu ildə təşkil olunmuş tədbirlər sırasında məşhur qəzəlxan şairimiz Əliağa Vahidin yaradıcılığına dair tədbirlər silsiləsi də C.Cabbarlı adına RGK-nın fəaliyyətində xüsusi yer tutur. Kitabxana böyük oxu zalında müxtəlif oxucu qruplarının iştirakı ilə “Vahidəm, xalqımın qəzəl şairi” adlı ədəbi-bədii gecə keçirmiş və sərgi təşkil etmişdir. Gecədə Vahid yaradıcılığına dair elmi əsərlər yazmış tədqiqatçılardan bir neçəsi çıxış etmiş, daha sonra şairin qəzəlləri dinlənilmiş, opera və balet teatrının solistləri, xalq artistləri Mənsum İbrahimovun və Nəzakət Teymurovanın ifasında tar və kamançanın müşayiəti ilə Vahidin qəzəlləri səslənmişdir. Həmin gün oxu zalında tərtib edilmiş “Ustad qəzəlxan” adlı plakat da tamaşaçıların xeyli marağına səbəb olmuşdur.

2006-2011-ci illərdə C.Cabbarlı adına RGK-nın keçirdiyi “Vurğunu da salar yada” adlı tədbirlər silsiləsi isə xalq şairi Səməd Vurğunun 100 illiyinə həsr olunmuşdur. Tədbirdə Səməd Vurğunun şeirləri səslənmiş, sözlərinə bəstələnmiş mahnılar ifa olunmuş, bəzi dram əsərlərindən kiçik səhnələr göstərilmişdir. Ədəbi-bədii gecənin ən yaddaqalan anlarından biri də böyük şairin öz şeirlərini oxuduğu lent yazısının səsləndirilməsi olmuşdur. Çoxsaylı oxucu-tamaşaçılar Səməd Vurğunun yadigar səsini ehtiram əlaməti olaraq ayaqüstə dinləmiş, bu səsin çalarlarını yaddaşlarına yazmışlar. Oxu zalında düzəldilmiş plakat və sərgi isə böyük şairin həyat və yaradıcılığının müxtəlif anlarını, həmçinin ayrı-ayrı illərdə Azərbaycan, rus və başqa dillərdə nəşr edilmiş kitablarını oxucuların mühakiməsinə vermişdir. Oxucuların həmin plakatlara və sərgiyə maraqla tamaşa etməsi bir daha sübuta yetirir ki, illər keçsə də, dövr dəyişsə də Səməd Vurğun yaradıcılığına məhəbbət azalmır, əksinə, gənc nəsil zaman-zaman bu böyük söz ustadının zəngin ədəbi-bədii irsi ilə daha yaxından tanış olmaq arzusu ilə yaşayırlar. Bunu həmin tədbirlərdən sonra kitabxanaçılara müraciət edərək, Səməd Vurğunun əsərlərini alıb oxumaq istəyən oxucuların sayının çoxalması bir daha təsdiqləyir.

C.Cabbarlı adına RGK-da bədii ədəbiyyatın rəngarəng üsullarla təbliği haqqında daha geniş təsəvvür yaratmaq üçün son illərdə təşkil olunmuş bəzi kütləvi tədbirləri nümunə kimi nəzərə çatdırmaq maraqlı olar.

11 aprel 2008-ci ildə kitabxananın Rus xidmət şöbəsi Milli Konservatoriyanın nəzdində fəaliyyət göstərən Respublika İncəsənət Gimnaziyasının IX sinfində müasir şair və yazıçılara həsr olunmuş “Azərbaycan ədəbiyyatı” mövzusunda açıq dərs xarakterli məşğələ keçirdi. Rus bölməsinin şagirdlərinə M.Müşfiq, N.Xəzri, R.Rza, İ.Əfəndiyev, S.Ə.Şirvani kimi Azərbaycan

ədiblərinə dair ətraflı məlumat verildi, bu şair və yazıçıların həyat və yaraıcılıqlarını əks etdirən kitab sərgisi də təşkil olundu.

15 aprel 2008-ci ildə C.Cabbarlı adına RGK-nın İctimai Hüquqi İnformasiya Mərkəzində görkəmli şair Mikayıl Muşfiqin 100 illiyinə həsr olunmuş "Müşfiqli günlərim" adlı musiqili-ədəbi-bədii gecə keçirildi. Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin Kitabxana işi sektorunun müdiri L.Məmmədova, Müşfiqşünas tədqiqatçı-yazıçı Gülhüseyn Hüseynoğlu, şair Vaqif Bəhmənli, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru F.Quliyeva, Xətai MKS-in direktoru O.Quliyev, Nizami MKS-in direktoru Ş.Qəmbərova, S.Mumtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru M.Teymurov, KİV nümayəndələri iştirak edirdilər. Tədbirin bədii hissəsində qonaqlar İ.Əbilov adına Mədəniyyət Mərkəzinin "Şəlalə" xalq çalğı alətlərinin ifasında Müşfiqin sözlərinə bəstələnmiş mahnılara qulaq asdılar. Tədbir "vaxtsız solan ömur" adlı kitab sərgisinə baxış ilə sona çatdı.

5 iyul 2008-ci ildə C.Cabbarlı adına RGK-da yazıçı-publisist Mustafa Çəmənlinin "Ruhların üsyanı" kitabının təqdimat mərasimi keçirildi. Tədbirdə S.Mumtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru M.Teymurov, yazıçı-dramaturq Əli Əmirli, filologiya elmləri doktoru Nazif Qəhrəmanlı, "Azərbaycan" qəzetinin şöbə müdiri Flora Xəlilizadə, tədqiqatçı Şəmistan Nəzirli, şair German iştirak etdilər. Çıxış edən qonaqlar kitabın mövzusunun aktuallığından, Qarabağ dərdinin unudulmazlığından, xalqımızın mətanət və qəhrəmanlığından söhbət açdılar. Belə səpkili əsərlərin çox olmasını arzuladıqlarını bildirdilər. Sonda söz musiqiyə verildi.

2009-cu il may ayının 19-da C.Cabbarlı adına RGK-da Azərbaycan yazıçılar və Jurnalistlər Birliyinin üzvü Ali "Dan ulduzu", Həsən bəy Zərdabi adına və "Qızıl Qələm" mükafatları laureatı İntiqam Mehdizadənin "Karvanın Sarvanı" kitabının təqdimat mərasimi keçirildi. Tədbiri kitabxananın direktoru T.Sadıqov açaraq qonaqları salamladı, kitabın müəllifinin fəaliyyətindən qısaca bəhs etdi. Sonra söz tədbir iştirakçılarına verildi.

Tədbirdə Azərbaycan radiosu Gənclik və idman redaksiyasının baş redaktoru Aybəniz Məmmədəliyeva, həmin radionun əməkdaşları Fəridə Hüseynqızı, Aynurə Məmmədli, tədqiqatçı Asif Rüstəmli, tanınmış şair və nasirlər Ramiz Rövşən, Seyran Səxavət, Çingiz Əlioğlu, Rafiq Səməndər, əməkdar artist Əli Nur, bədii qiraət ustası Zülfiyyə, "Mühit" qəzetinin baş redaktoru, "Təzadlar" qəzetinin əməkdaşı və başqaları iştirak etdilər.

Çıxış edənlər müxtəlif illərdə dövri mətbuatda dərc olunmuş, Azərbaycan radiosunun müxtəlif proqramlarında səslənmiş bu materialların bir kitabda toplanıb işıq üzü görməsinin ölkəmizin mədəniyyət salnaməsinə yazıçı- publisist İ.Mehdizadənin dəyərli töhfəsi olduğunu dönə-dönə vurğuladılar.

Tədbirin sonunda C.Cabbarlı adına RGK-nın direktoru T.Sadıqov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 oktyabr 2008-ci ildə imzaladığı Dövlət Proqramından irəli gələn vəzifələrin icrası barədə qonaqlara məlumat verdi, kitabxana sahəsində aparılan islahatların önəmindən danışdı. O, texnikanın böyük vüsətlə inkişaf etdiyi bir dövrdə kitabxanaların öz aktuallığını və əhəmiyyətini daha da gücləndirdiyini qeyd etdi. Son zamanlar kitabxananın tamamilə kompüterləşdirilməsindən, İRBİS 64 proqramının tətbiqindən söhbət açan T.Sadıqov dövlətimiz tərəfindən kitabxanalara göstərilən qayğının təqdirəlayiq olduğunu söylədi. Sonda tədbiri yekunlaşdıran T.Sadıqov kitabın müəllifi İ.Mehdizadəyə yaradıcılıq uğurları arzulayaraq belə görüşlərin bundan sonra da keçiriləcəyinə ümid bəslədiyini bildirdi.

2009-cu il iyun ayının 24-də Gənclər Kitabxanasında C.Cabbarlının anadan olmasının 110 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirildi. Gecəni giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açaraq qonaqları salamladı, dramaturqun həyat və yaradıcılığı haqqında qısa məlumat verdi.

Gecəyə C.Cabbarlının qızı Gülarə Cabbarlı, xalq yazıçısı Gülhüseyn Hüseynoğlu, ədəbiyyatşünas Asif Rüstəmli, yazıçı Firudin Qurbansoy, əməkdar mədəniyyət işçisi, teatrşünas Atababa İsmayılov, C.Cabbarlının ev muzeyinin əməkdaşları və KİV-in nümayəndələri dəvət olunmuşdu.

Yazıçı Gülhüseyn Hüseynoğlu öz çıxışında C.Cabbarlını XX əsrin ən böyük ədiblərindən biri adlandıraraq onun irsinin hələ də tam tədqiq olunmadığını tədbir iştirakçılarının nəzərinə çatdırdı. Tədqiqatçı Asif Rüstəmli xalqımızın haqlı olaraq C.Cabbarlı kimi qüdrətli sənətkarlarla fəxr etdiyini vurğuladı, dramaturqun keçdiyi keşməkeşli həyat yolundan, yaşadığı mühitdən danışdı. Teatrşünas Atababa İsmayılov ədibin məktəb və tələbəlik illərindən maraqlı epizodlar misal gətirdi. Filoloq Firudin Qurbansoy yazıçının ömrünün vaxtsız qırıldığını, lakin qısa zaman ərzində böyük xidmətlər göstərdiyini qeyd etdi. Kitabxananın qocaman oxucusu, müəllim Rafiq Əhmədov C.Cabbarlını ədəbiyyat tarixində parlayan ən nadir inci hesab etdiyini bildirdi.

Tədbirdə İ.Əbilov adına Mədəniyyət Mərkəzinin bədii rəhbəri Mirəhməd Əsgərovun rəhbərliyi ilə "Şəlalə" xalq çalğı alətləri ansamblı C.Cabbarlının sözlərinə yazılmış rəngarəng musiqi nömrələri çıxış etdi. Gecə tədbir iştirakçılarının "Vaxtsız qırılan ömür" kitab sərgisinə baxışı ilə sona çatdı.

12 noyabr 2009-cu ildə C.Cabbarlı adına RGK-da yazıçı Firudin Qurbansoyun Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin həyat və yaradıcılığına həsr etdiyi "Lacivərd göylərin ətəklərində" kitabının təqdimat mərasimi keçirildi. Tədbiri giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açıb xalqımızın M.Müşfiq yaradıcılığını həmişə yüksək dəyərləndirməsindən, oxucuların bu irsə yiyələnməyə böyük maraq və tələbatından danışdı.

Mərasimdə filologiya elmləri doktoru, professor Əsmət Məhsəti, tarixçi M.Rzayev, yazıçı M.İsmayılov, Azərbaycan Yazıçılar Birliyinin üzvü Şəhla Gündüz, tanınmış kaman ustası, əməkdar artist Şəfiqə Eyvazova, "Zirvə" ziyalılılar təşkilatının prezidenti, rəssam, yazıçı, jurnalist Minayə Dəyanətqızı, həmin təşkilatın Yasamal rayon bölməsinin sədri Elmira xanım, təşkilatın üzvü Afaq xanım, Ailələrə Sosial Dəstək İctimai Birliyinin sədri Esmira xanım, Respublika Əlyazmalar İnstitutunun əməkdaşı Şəlalə xanım, "Xızı Bərmək" qəzetinin baş redaktoru A.Ağayev, Bakı milyonçusu A.Nağıyevin nəvəsi Dilarə Nağıyeva, Azərbaycan Dövlət Mədəniyyət cə İncəsənət Universitetinin tələbələri, bir çox mətbuat işçiləri iştirak edirdilər.

M.Dəyanətqızı Firudin Qurbansoyun bu kitabının ərsəyə gəlməsi zamanı arxivlərdə uzunmüddətli araşdırmalar aparmasından, zəhmətinin mükafatı kimi layiqli əsər yaranmasından danışdı. Şairə Ş.Gündüz Müşfiqin varlığını zamanın, dövrün haqsız məhv etməsini ürək ağrısı ilə qeyd edəndən sonra ona həsr etdiyi "Müşfiqnamə", "Ömür sonsuz bir ümman" şeirlərini oxudu. M.Müşfiqin yaxın qohumu Leyla xanım onun haqqında doğmalarından eşitdiyi xatirələrdən söhbət açdı. "Xızı Bərmək" qəzetinin baş redaktoru A.Ağayev F.Qurbansoyun bu kitabı dəqiq faktlar əsasında yazmasından, yarımçıq qırılan ömür faciəsini əks etdirməsindən danışdı. D.Nağıyeva kitabda Bakı milyonçusu A.Nağıyevin nakam ömür tarixçəsinin qələmə alınmasını, "Zirvə" təşkilatının Yasamal rayon bölməsinin sədri Elmira xanım orta məktəblərdə Muşfiq irsinin mükəmməl tədrisinin vacibliyini qeyd etdi. Kaman ustası Ş.Eyvazova şairin ailəsi haqqında yaxın qohumlarından eşitdiyi xatirələrdən söz açdı.

Yazıçı F.Qurbansoy kitabın yazılması prosesində çox əziyyət çəksə də, bunu özünə mənəvi borc saydığını, əsərin Müşfiq irsinə yüksək qiymətin təzahürü olduğunu bildirdi.

Azərbaycan Dövlət Mədəniyyət cə İncəsənət Universitetinin tələbələri M.Müşfiqin bir neçə şeirini əzbər söylədilər. Qonaqlar tədbirlə əlaqədar Gənclər Kitabxanasında təşkil edilmiş "Müşfiq ömrü, Müşfiq poeziyası" başlığı altında kitab sərgilərinə maraqla baxdılar.

10 fevral 2010-cu ildə C.Cabbarlı adına RGK-da qəzəlxan Gularə Munisin yaradıcılığına həsr olunmuş dəyirmi masa keçirildi. Tədbirlə əlaqədar G.Munisin yaradıcılığını əks etdirən kitab sərgisi təşkil edilmişdi.

Dəyirmi masada "Məcməüs-şüəra" ədəbi məclisinin üzvü, "Qızıl Qələm", "Vicdanlı Qələm" diplomlarına layiq görülmüş ilk "Divan" yazan qəzəlxan qadın Gularə Munis, "A.M.Nağıyev adına Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin sədri Dilarə Nağıyeva, bacısı S.Nağıyeva, Azərbaycan Yazıçılar Birliyinin uşaq ədəbiyyatı şöbəsinin müdiri Qəşəm Nəcəfzadə, "Məlhəm" İctimai Birliyinin sədri, şairə Xədicə Murad, C.Cabbarlının ev muzeyinin elmi əməkdaşı Q.Seyfəddinqızı, hərbi müxbir Şəmistan Əlizamanlı,

musiqişünas, professor Şəfiqə Eyvazova, S.Mümtaz adına Mədəniyyət və İncəsənət Arxivinin direktoru M.Teymurov, yazıçı Firidun Qurbansoy, yazıçı-jurnalist İntiqam Mehdizadə, “Azyaşlıların Hüquqi Maariflənməsinə Kömək” İctimai Birliyinin sədri N.Zeynalova, musiqişünas A.Nəcəfzadə, “Məhsəti” jurnalının redaktoru Fəridə Ləman, “Zirvə” Ziyalılar İctimai Birliyinin sədri M.Dəyanətqızı, aktyor M.Ağabəyli, Ə.Vahid adına muzey-kitabxananın direktoru S.Seyidzadə, M.Qorki adına kitabxananın direktoru N.Ələkbərova, İ.Əbilov adına Mədəniyyət Mərkəzinin bədii rəhbəri M.Əsgərov, 234 saylı orta məktəbin direktoru S.Mehdiyeva, şairlər Nurəngiz Gün, Adil Şirin, S.İsaqqızı, Ş.Gündüz, digər mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə “A.M.Nağıyev adına Milli dəyərlərin qorunması” İctimai Birliyinin sədri Dilarə Nağıyeva açıb G.Munisin ədəbi yaradıcılığı haqqında geniş məlumat verdi, nəşr olunan hər bir yeni kitabının oxucular tərəfindən maraqla qarşılandığını, Heyran xanımdan sonra ilk “Divan” yazan qəzəlxan qadın olduğunu qeyd etdi.

Tədbir iştirakçıları öz çıxışlarında G.Munisin yaradıcılığına münasibətlərini bildirdilər, əruz kimi çətin vəznin incəliklərinə yiyələnməyi bacardığına, müasir dövrdə daha az müraciət edilən bu nəzm növündə əsərlər yaratdığına görə təşəkkürlərini yetirdilər. D.Nağıyeva İctimai Birliyin təşkil etdiyi tədbirlərin yüksək səviyyədə keçirilməsində fəal iştirakına görə kitabxanaya “Ağa Musa Nağıyev” diplomunu təqdim etdi.

17 iyul 2010-cu ildə C.Cabbarlı adına RGK-da yazıçı R.Orxanın “Ölməzliyə abidə” kitabının təqdimatı keçirildi. Tədbirdə “Respublika” qəzetinin müxbiri R.İlyasoğlu, “Milli dəyərlərin qorunması” İB-nin sədri D.Nağıyeva, Qafqaz Media İB-nin şöbə müdiri, şairə Sədaqət Rəşad, “Həkəri” qəzetinin baş redaktoru, yazıçı-publisist Ə.Xankişiyev, şair Zakir Ağdamlı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri iştirak edirdilər.

Tədbir Qarabağ uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Təqdimatı giriş sözü ilə açan R.İlyasoğlu “Ölməzliyə adidə” kitabının Vətənin hər şeydən ucada durduğunu öz canı-qanı ilə təsdiq edərək düşmən qarşısında cəsarət simvolu kimi dayanmış və adını Vətən tarixinə şərəflə yazılmış N.Cəbrayılova həsr olunmasından danışdı. D.Nağıyeva, S.Rəşad, Ə.Xankişiyev, Z.Ağdamlı, R.Hətəmov kitab haqqında öz rəylərini bildirərək, N.Cəbrayılovun qəhrəmanlıq şücaətlərindən söz açdılar.

R.Orxan öz çıxışında canını Vətən uğrunda qurban vermiş N.Cəbrayılovu xoşbəxt şəhid adlandırdı. Kitab təqdimatının sonunda müəllif “Ölməzliyə abidə” kitabının bir neçə nüsxəsini Gənclər Kitabxanasına bağışladı.

Gənclər Kitabxanasının elmi işlər üzrə direktor müavini X.Musayeva N.Cəbrayılovun həyat güzgüsü olan "Ölməzliyə abidə" əsərinin oxucuların stolüstü kitabına çevriləcəyini söylədi.

24 dekabr 2010-cu ildə C.Cabbarlı adına RGK-da Azərbaycan Yazıçılar Birliyinin üzvü, hüquq üzrə fəlsəfə doktoru Əli Eyvazovun "Bir batalyonun tarixi" adlı kitabının təqdimat mərasimi keçirildi. Tədbirlə əlaqədar "Vətən mənə oğul desə..." başlıqlı kitab sərgisi açılmışdı.

Təqdimat mərasimini kitabxananın direktoru T.Sadıqov açaraq, bu kitabda Azərbacan torpaqların toxunulmazlığı uğrunda mübarizəyə atılmış oğulların qəhrəmanlıqlarından bəhs edildiyini, kitabın mütləq nəsillərdən-nəsillərə keçəcəyini vurğuladı.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyi Kitabxana işi sektorunun müdiri Lətifə Məmmədova, filologiya elmləri namizədi Esmira Şükürova, əməkdar mədəniyyət işçisi Xuraman İsmayılova, "Milli qəhrəman" qəzetinin baş redaktoru Mirbəşir Seyidzadə, yazıçı-publisistlər İntiqam Mehdizadə, Nüşabə Məmmədli və KİV nümayəndələri iştirak edirdilər.

L.Məmmədova bu kitabın yaranmasında, nəşr olunmasında mədəniyyət və turizm naziri Ə.Qarayevin xidmətindən danışaraq qeyd etdi ki, 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun döyüş yolunu əks etdirən bu kitab dəqiq faktlar, real hadisələr əsasında yazılmış elə bir əsərdir ki, onu həm də Azərbaycanın tarixi adlandırmaq olar. Hər bir kəs bu kitabı İnternet məkanında da izləyə bilər. X.İsmayılova dedi ki, mən çiyinlərimdə həmişə Vətən, xalq yükünü daşımışam. Kitabın yaranmasına da öz xidmətimi əsirgəməmişəm. Mən təklif edirəm ki, bu kitab bütün məktəb kitabxanalarına verilsin, orada hər bir şagirdin stolüstü ədəbiyyatına çevrilsin. Ə.Şükürova kitaba ön söz yazarkən keçirdiyi ağır hisslərdən, Quba-Qusar batalyonunun simasından, Azərbaycanın mərd, mübariz, ölümü vətənsizlikdən uca tutan oğulların tərənnümündən danışdı. M.Seyidzadə, Y.Sadıqlı, İ.Mehdizadə, R.Cavadov Quba-Qusar batalyonunun torpaqlarımızın toxunulmazlığı uğrunda şərəfli mübarizə yolunun kitabda geniş əhatə olunması barədə söz açdılar.

Müəllif Ə.Eyvazov qəhrəmanlığın təcəssümü olan bu kitabın təqdimatının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum gününə düşməsini xüsusi vurğuladı. O dedi ki, ulu öndərimiz Heydər Əliyevin tövsiyəsi ilə hər il 27 dekabr günü 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun yaranma günü kimi qeyd edilir. Batalyonun itkin düşən və şəhid olan əsgərləri Azərbaycan xalqının ürəyində daim yaşayacaqdır.

Tədbir boyu Quba-Qusar batalyonunun döyüş səhnələrini əks etdirən slaydlar nümayiş etdirildi. Bədii hissədə Prezident təqaüdçüləri, gənc ifaçılar Z.Quliyeva və N.Qəhrəmanovanın ifasında xalq mahnıları səsləndi.

25 dekabr 2010-cu ildə C.Cabbarlı adına RGK-da Zərifə Orxan Quliyevanın “Sənsiz səninlə”, “Ömrün son baharı”, “Son ümidim”, “Tale yazısı” kitablarının təqdimat mərasimi keçirildi. Mərasimi kitabxananın direktoru T.Sadıqov açaraq, son illər kitabxananın informasiya məkanındakı rolundan, dövlətimizin kitabxana sahəsinə göstərdiyi qayğı və diqqətdən, müasir texnologiyalar sayəsində istənilən kitabın, oxucunun maraq dairəsində olan əsərin İnternetdə kitabxanaların veb sayt vasitəsilə oxunması imkanından danışdı.

Tədbirdə “Respublika” qəzetinin xüsusi müxbiri Rauf İlyasoğlu, Azərbaycan Televiziyasının xüsusi müxbiri Firuzə Nadir, “Həkəri” qəzetinin baş redaktoru, yazıçı Hacı Əli Xankişiyev, Ümumrusiya-Azərbaycan Konqresi Murmansk vilayətinin mətbuat katibi Əlihüseyn Şükürov, Azərbaycan Tibb Universitetinin müəllimi Aidə Bəndəliyeva, bədii qiraətçi Tahirə Ağasiyeva, əməkdar mədəniyyət içşisi, yazıçı Afət Sadıqov, şair Paşa Ağaoğlu, “Qoşa ulduz” jurnalının redaktoru Gülzar Şəmkirli, “Azad qələm” qəzetinin redaktoru Nəcibə İlkin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşı Rəhilə Cəbrayılova, “Bütöv Azərbaycan” qəzetinin təsisçisi Tamxil Ziyəddinoğlu, “Respublika şəhid anaları” xeyriyyə mərkəzinin sədri Rəfiqə Əsgərova, Tamilla xanım və başqaları iştirak edirdilər.

Sonra R.İlyasoğlu Z.Quliyevanın yaradıcılığından, həkim kimi peşəkarlığından, ictimai-siyasi fəaliyyətindən ətraflı söhbət açdı. Zərifə Orxanın qələmə aldığı kitabın hər səhifəsində yaşadığı itkinin nə qədər ağır, dözülməz olduğunun aydın şəkildə hiss olunmasından danışdı. Firuzə Nadir öz çıxışında bu kitabın dərdini bölüşmək istəyən, həyatda övlad itkisi ilə qarşılaşan analara bir dəstək olduğunu vurğuladı. Ə.Xankişiyev Zərifə xanımın kitablarını həyəcansız oxunmasının mümkün olmadığını, qəlbləri riqqətə gətirən əsərlərinin böyük ana fəryadı ilə yazıldığını vurğuladı. Bu ananın övlada olan sevgisinin bütün analara nümunə ola biləcəyini dönə-dönə qeyd etdi, müəllifə dözümlü, təmkinli olmağı arzuladı. Bədii qiraətçi Tahirə Ağasiyeva Zərifə xanımın vaxtsız itirdiyi sevimli oğlu Orxana həsr edilmiş şeirləri özünəməxsus tərzdə söylədi. O bildirdi ki, Zərifə xanım öz qələmi ilə Azərbaycan qadınının ucalığını, Azərbaycan anasının fədakarlığını bir daha təsdiq etdi.

Tədbir boyunca mərhum Orxan Quliyevin xatirəsinə həsr olunmuş və iştirakçılar tərəfindən ürək ağrısı ilə qarşılanan videoçarx nümayiş etdirildi.

Axırda müəllifin kitabları tədbir iştirakçılarına təqdim olundu.

11 mart 2011-ci ildə C.Cabbarlı adına RGK-da Rusiyadan alınan yeni kitabların təqdimat mərasimi keçirildi. Oxucuların böyük marağına səbəb olan təqdimat zamanı kitabxananın direktoru T.Sadıqov qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı təsdiq edilmişdir. Dövlət Proq-

ramında irəli gələn tədbirlərin həyata keçirilməsi istiqamətində C.Cabbarlı adına RGK daim kitabxana fondunun zənginləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirir, oxucuların marağına uyğun olan Azərbaycan və dünya ədəbiyyatının klassik və müasir nəşrlərini alaraq oxucuların istifadəsinə verir. Bu, kitabxanamızın Rusiya ilə ilk əməkdaşlığı deyil. Neçə illərdir ki, kitabxana Rusiyanın aparıcı nəşriyyatları ilə mütəmadi əlaqə saxlayır, oxucuların tələblərinə uyğun şəkildə öz fondunu komplektəşdirməyə çalışır. Bu isə Azərbaycan-Rusiya mədəni əlaqələrinin inkişafının əyani təzahürüdür.

Sonra T.Sadıqov oxuculara müraciətlə dedi ki, adlarını qeyd etdiyim və digər yeni kitabları Siz bizim kitabxanaya gələrək oxuya bilərsiniz: Джеймс Джойс. "Дублинцы" (Böyük Britaniya); Джейн Остен. "Доводы рассудка" (Böyük Britaniya); Эмили Бронт. "Грозовой перевал" (Böyük Britaniya); Мартин Бут. "Американец" (Böyük Britaniya); Альбер Комю. "Чума" (Fransa); Лион Фейхтвангер. "Лисы в винограднике" (Almaniya); Эрих Мария Ремарк. "Три товарища" (Almaniya); Курт Воннегут. "Сирены титана" (Amerika); Ирвин Шоу. "Богач, бедняк" (Amerika); Джон Апдайк. "Кролик, беги" (Amerika); Хулио Кортасар. "62. Модел для сборки" (Argentina); Карлос Фуэнтес. "Старый гринго" (Meksika); Пауло Коэльо. "Заир" (Braziliya); Достоевский Ф.М. "Идиот" (Rusiya); Владимир Набоков. "Смотри на Арлекинов" (Rusiya). və s.

30 aprel 2011-ci ildə C.Cabbarlı adına RGK-da “Zirvə” Ziyalılar Təşkilatının prezidenti, “Qızıl Qələm”, M.Müşfiq, “Min bir mahnı” mükafatları laureatı Minayə Dəyanətin “Həyat davam edir” kitabının təqdimatı keçirildi. Təqdimat mərasimində Yaponiya səfirliyinin nümayəndəsi Tori Nişivasi, Rusiya Pedaqoji və Sosial Akademiyasının həqiqi üzvü Ə.Ağayev, Ankara Tədris Mərkəzinin direktoru Asya xanım, Ə.Tuncay, “Yenilməz xalq” qəzetinin baş redaktoru K.Kamranoğlu, “Xızı-Bərmək” qəzetinin baş redaktoru A.Əzimov, əməkdar incəsənət xadimi Z.Salahova, “Milli dəyərlərin qorunması” ictimai birliyinin sədri D.Nağıyeva, “Ailələrə dəstək” ictimai birliyinin sədri E.Rəhimova, Səhiyyə Nazirliyinin əməkdaşı S.Əlizadə, ”Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək” İctimai Birliyinin sədri T.Əlizadə, C.Cabbarlının nəvəsi Q.Cabbarlı, rəssam E.Hacızadə, şairlər O.Rza, M.Şahbuzlu, yazıçı K.Dünyamalı və başqa mədəniyyət xadimləri iştirak edirdilər.

Kitab təqdimatını giriş sözü ilə kitabxananın elmi işlər üzrə direktor müavini X.Musayeva açıb qeyd etdi ki, M.Dəyanət rəssam kimi bir çox elm, mədəniyyət, siyasət adamlarının portretlərini yaratmış, ölkəmizdə və xaricdə müxtəlif sərgilərin iştirakçısı olmuşdur. M.Dəyanət yazıçı kimi də qələmini uğurla sınamış, “Həyat davam edir” xatirə-sənədli povestini qələm almışdır. Bu, onun ilk kitabı olsa da az müddətdə oxucuların diqqətini cəlb etmişdir.

Yaponiya səfirliyinin nümayəndəsi Tori Nişvasi öz çıxışında Azərbaycan xalqını sənətsevər, sənəti qiymətləndirən xalq adlandırdı. O, M.Dəyanətlə dostluq əlaqələrindən, onun istər rəssam kimi, istərsə də yazıçı kimi yaradıcılığı ilə maraqlanmasından və yüksək qiymətləndirməsindən danışdı. Z.Salahova qeyd etdi ki, M.Dəyanət həm bir sıra oçerk və məqalələrin müəllifidir, həm də Ankara Tədris Mərkəzinin pedaqoqudur. Ümidvarıq ki, "Həyat davam edir" kitabını oxucular layiqincə qiymətləndirəcək.

Ə.Tuncay Minayə xanımın öz təşəbbüsü ilə "Zirvə" Ziyalılar Təşkilatını təsis etməsindən, yarandığı gündən respublikamızın tanınmış elm, mədəniyyət, siyasət adamları, ziyalılarla iş aparmasından, ədəbiyyat sahəsində uğur qazanmasından danışdı. E.Rəhimova, Ə.Ağayev, E.Hacızadə, M.Şahbuzlu, K.Dünyamalı, O.Rza və Q.Cabbarlı da M.Dəyanətin ölkəmizdə fəaliyyət göstərən xarici diplomatik korpuslar ilə fəal əməkdaşlığından, təşkilatçılığından danışıb ədəbi yaradıcılığını xüsusi vurğuladılar. Qeyd etdilər ki, bu səpkidə yazılan xatirə-sənədli povestlər ailə səmimiyyətinin, doğmalığının təcəssümü və tərənnümüdür. M.Dəyanət kitabının yazılma və yaranma tarixindən danışandan sonra əsərlə bağlı çoxsaylı suallara cavab verdi.

Kitab təqdimatının sonunda müğənnilər Ş.Naxçıvanlı, N.Nağıvev, gənc skripkaçı S.Səlimov, çıxış etdilər.

17 mart 2011-ci ildə C.Cabbarlı adına RGK-da Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı, şair, nasir, publisist Qəşəm İlqar Ruhdaşın 70 illik yubileyi ilə bağlı tədbir keçirildi.

Tədbiri giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açaraq iştirakçıları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi. O bildirdi ki, tanınmış şair Qəşəm İlqarın həyat və yaradıcılığında vətənə, torpağa, doğma yurda bağlılıq öz əksini tapmışdır.

"Dünya Azərbaycanalılarının Həmrəyliyinə Dəstək" İB-nin prezidenti T.Əlizadə Qəşəm İlqarın həyat və yaradıcılığının dəyərli məqamlarından söhbət açdı. O, şairin yüksək insani keyfiyyətlərindən, saf duyğularından, səmimiyyətindən danışaraq, onu müdrik insan, əsl ziyalı kimi qiymətləndirdi. "Millətçi" qəzetinin redaktoru Sevda Əsgərova və pedaqoq Tofiqə Mütəllim qızı şairin "Yaddaşa yazın". "And içirəm", "Ana yurdum","Qarabağ", "Siz xəbər verin" şeirlərini oxudular, onun vətən həsrətini, doğma yurd sevgisini tərənnüm edən duyğularından riqqətə gəldiklərini vurğuladılar. Mütləqə İnam Ocağının Yükümlüsü İşıqlı Atalı öz çıxışında qeyd etdi ki, zaman insanlığın duyğularının, milli ölçü isə bəşəriyyətin təsdiqidir. O, insan hisslərini musiqi tək çağladır. Şair Qəşəm İlqar Asif Ata ocağının dostu, onun dəyərləndirdiyi bir insandır. Politoloq Taleh Əliyev Qəşəm İlqarın şeirlərindəki müdriklikdən, vətənə sevgidən söhbət açdı, onu Azərbaycan ədəbiyyatı tarixində qalan şairlərdən hesab etdiyini vurğuladı.

Gənc xanəndələr Tural Salmanov, Şahin Babayev, qarmon ustası Vaqif Əliyev və musiqi qrupu muğam dəstgahını məharətlə ifa edərək tədbiri daha da rövnəqləndirdilər. Tədbir boyu şair ömrünün səhifələrini və yaralıcılıq yollarını əks etdirən slaydlar nümayiş etdirildi.

Görüş tədbir iştirakşılarının xatirə şəklinin çəkdirilməsi ilə başa çatdı.

6 may 2011-ci ildə C.Cabbarlı adına RGK-da gənc yazıçı-jurnalist Tamara Nahidin "Həsrət göz yaşlarını axtarır" kitabının təqdimat mərasimi keçirildi. Tədbiri giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açıb qeyd etdi ki, "Həsrət göz yaşlarını axtarır" kitabı T.Nahidin ilk şeirlər və publisistik məqalələr toplusudur. Bu kitabda müəllifin illərdən bəri ürəyində bəslədiyi, hər kəsdən gizlin yaşatdığı ən ülvi hisslərlə qələmə aldığı həsrət nəğmələri, sevgi çələngi toplanıb. Kitabda Mingəçevirin sənətsevər insanlarının həyat və fəaliyyətindən də bəhs olunur.

Kitab təqdimatında "Qafqaz Media" İctimai Birliyinin sədri A.Taleh, "Təbəssüm" Uşaq İctimai Birliyinin sədri L.Cavadqızı, "İnsanlığın keşiyində" qəzetinin baş redaktoru Ə.Mustafayeva, "Respublika" qəzetinin müxbiri R.İlyasoğlu, şairələr Z.Bəhmənli, N.Yusifqızı, Türkiyəli tələbə R.Özdəmir, müəllifin sənət dostları iştirak edirdilər.

A.Taleh 24 yaşlı gənc bir qız üçün kitab nəşr etdirməyin çox böyük iş olduğunu, xüsusi vurğuladı, kitab haqqında öz təəssüratını bildirdi, sonra Tamara Nahidə "Qafqaz Media" İB-nin "Cəsarətli qələm" diplomunu təqdim etdi. R.İlyasoğlu müəllifin şəhid əmisi Nahidin adını özünə təxəllüs götürdüyünü, yaradıcılığında vətənpərvərlik hissinin uca tutduğunu söylədi. L.Cavadqızı T.Nahidin bədii yaradıcılığını bəyəndiyini, mənsur şeirlərinin yüksək məna daşıdığını, yazılarında istedadın aydın göründüyünü söylədi. Z.Bəhmənli T.Nahidin müxtəlif mövzuları əhatə edən şeirlərində əsl ədəbi yaradıcılığın nəzərə çarpmasından, gənc müəllifin qələmin dili ilə düşünüb öz hisslərini büruzə verməsindən danışdı. Ə.Mustafayeva, R.Özdəmir, L.Əliyeva, Ü.Musayeva, T.Nahidin "Qafqaz-Press", "Hakimiyyət və gələcək", "Borçalı", "Kredo", "İnsan haqları" qəzetlərindəki fəaliyyətindən danışıb ona uğurlar arzuladılar.

Kitab təqdimatının sonunda T.Nahidqızı yeni yaradıcılıq planlarından danışıb, tədbir iştirakçılarına yeni kitabını hədiyyə verdi.

7 may 2011-ci ildə C.Cabbarlı adına RGK-da şair Leonid Skvortsov ilə görüş keçirildi. Görüşü giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açdı. O, Azərbaycan xalqının poeziya vurğunu olduğunu vurğulayaraq qeyd etdi ki, hər dəfə şairlərlə, yazıçılarla, müxtəlif sənət adamları ilə keçirilən görüşlər hamının sevincinə və marağına səbəb olur. Hər il kitabxanamız öz fondunu Azərbaycan və rus dillərində yüzlərlə nəzm əsərləri ilə zənginləşdirir, müasir oxucuların tələbatını ödəməyə çalışır. T.Sadıqov L.Skvortsovun yaradıcılığı haqqında məlumat verərək onun vətənpərvər şair olduğunu vurğuladı.

Tədbirdə tarixçi R.Ağayev, "Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək" İB-nin sədri T.Əlizadə, şair Q.Ruhdaş və başqaları iştirak edirdilər.

R.Ağayev şair L.Skvortsovun şeirlərinin ilk dinləyicisi olmasından, uzun illər boyu onunla dostluq etməsindən danışdı, tezliklə yaradıcılığının kitab halında oxuculara təqdim olunmasını arzuladı. Kitabxananın elmi işlər üzrə direktor müavini X.Musayeva kitabxananın rusdilli oxucularının tələbatına əsasən hər il Rusiyadan müxtəlif ədəbiyyatın alınmasından, dünya xalqlarının poeziyasının oxucular tərəfindən mütaliə olunmasından danışdı, çıxışını özünün yazdığı şeirlə bitirdi. Q.Ruhdaş son dövrlərdə müasir poeziyada vətənpərvərlik ruhunun daha çox duyulmasından, gənclərin nəzm əsərlərinə çox meyl göstərməsindən danışıb, çıxışını öz şeiri ilə bitirdi. T.Əlizadə L.Skvortsovun şeirlərindəki müasirlikdən, fəlsəfi cəhətlərindən danışdı.

Şair L.Skvortsov oxucuların çoxsaylı suallarını cavablandırdıqdan sonra "Bakı və bakılılar", "Vətən", "Bağışla ata", "9 May" şeirlərini oxuyub, yeni yaradıcılıq planlarından danışdı.

21 may 2011-ci ildə C.Cabbarlı adına RGK-da görkəmli alim və şair Nazim Rizvanın anadan olmasının 60 illiyi münasibəti ilə anım günü keçirildi. Tədbiri giriş sözü ilə "Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi" cəmiyyətinin prezidenti T.Əlizadə açdı. O, N.Rizvanın keçdiyi həyat yolundan, onunla dostluğundan danışıb qeyd etdi ki, alim 1981-2003-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsində çalışmış, 1995-2003-cü ildən ömrünün sonuna kimi "Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi" cəmiyyətinin ağsaqqallar şurasının sədri olmuşdur.

Anım günündə Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi, filologiya elmləri namizədi E.Cəfərova, Ə.Tuncay, əməkdar incəsənət xadimi Z.Əliyev, sənətşünaslıq doktoru R.İbrahim, Bakı Şəhər Təhsil İdarəsində metodiki mərkəzin direktor müavini S.Məmmədova, "Respublika" qəzetinin müxbiri R.İlyasoğlu, şairlər Q.Ruhdaş, Z.Ağdamlı, N.Rizvanın bacıları Z.Cəfərova, X.Kərimova, qızları Ülkər, Günel, Leyla iştirak edirdilər.

Z.Əliyev çıxışında qeyd etdi ki, N.Rizvan Azərbaycan ədəbiyyatı tarixinə böyük töhfələr verən alimdir. Onun yaradıcılığından bəhrələnənlərin sayı-hesabı yoxdur. R.İbrahim N.Rizvanla tələbəlik illərindən dostluq etməsindən, özünə hədsiz tələbkarlığından, əsl qiymətini öz yaratdığı əsərlərin verməsindən söhbət açdı. E.Cəfərova elmi rəhbəri olmuş N.Rizvanın vətənpərvərliyindən, milli mənafeyi yüksək qiymətləndirməsindən danışdı. R.İlyasoğlu N.Rizvanın "M.H.Şəhriyar yaradıcılığında vətənpərvərlik" mövzusunda yazdığı dissertasiyasından, şeirlərində vətənərvərlik hissinin ön planda olmasından, "Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi" cəmiyyətinin himnini yazmasından danışdı, dövlət səviyyəsində əsərlərinin çapını təklif etdi.

Görkəmli alimin bacıları Z.Cəfərova, X.Kərimova, qızları Leyla, Günel N.Rizvanın həyatı ilə bağlı xatirələrini danışıb ona verilən qiymətə görə öz təşəkkürlərini bildirdilər. Tədbir boyu cəmiyyətin təşkilinin 40 illiyi münasibəti ilə keçirilən tədbirdə N.Rizvanın çıxışının videolenti nümayiş etdirildi.

7 iyun 2011-ci ildə C.Cabbarlı adına RGK-da gənc yazar Elnur Fərəcovun "Nağıllar" kitabının təqdimatı keçirildi. Təqdimatı giriş sözü ilə eimi işlər üzrə direktor müavini X.Musayeva açdı. O dedi ki, ədəbi yaradıcılığa çox erkən yaşlardan başlamış E.Fərəcovun yaradıcılığını sanki pak, təmiz xəyal aləmi izləyir, təxəyyülün məhsulu olan əsərləri oxucular tərəfindən sevilir.

Tədbirdə "Qafqaz Media" İctimai Birliyinin sədri A.Taleh, Milli Elmlər Akademiyasının əməkdaşı G.Ənsərli, İran İslam Respublikasında Azərbaycanın daimi nümayəndəsi S.Şahtatlı, AzərTac-ın xüsusi müxbiri Z.Dəmirçiqayalı, "Qurtuluş" qəzetinin baş redaktoru R.Məhərrəmova, "Azərbaycan dəmiryolçusu" qəzetinin müxbiri E.Məmmədli, şairələr G.Cahan, N.Yusifova, əlillər arasında şahmat üzrə çempion H.Rüstəmov, 153 saylı orta məktəbin müəllimi Ə.Əliyeva iştirak edirdilər.

A.Taleh öz çıxışında E.Fərəcova ədəbiyyat aləmində atdığı ilk qədəmlərin uğurlu olmasını arzulayıb kitabın redaktoru olduğu üçün qürur hissi duyduğunu, istedadlı gənclərə kömək etməyin vacibliyini söylədi, müəllifə "Qızıl Kitab" diplomunu təqdim etdi. G.Cahan E.Fərəcovun ədəbi yazılarından yüzlərlə yaşıdlarının bəhrələndiyindən danışdı, Z.Dəmirçiqayalı onun yazılarını insan beyninin saf fantaziyası adlandırdı, H.Rüstəmov, S.Şahtatlı, G.Ənsərli, N.Yusifova, R.Məhərrəmova E.Fərəcovun tutduğu ədəbi yolu alqışladılar.

Kitab təqdimatının sonunda E.Fərəcov yeni yaradıcılıq planlarından danışıb bütün tədbir iştirakçılarına "Nağıllar" kitabını hədiyyə verdi.

12 iyul 2011-ci ildə C.Cabbarlı adına RGK-da şairə Nəcibə İlkinin "İllərin o tayı gözləyir məni" kitabının təqdimat mərasimi keçirildi. Tədbiri giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açıb "Azad qələm" qəzetinin təsisçisi, "Xan qızı Natəvan", "Xalqın nüfuzlu ziyalısı" mükafatları laureatı, "Qızıl Qələm" diplomçusu şairə N.İlkinin gözəl lnsani keyfiyyətlərindən, öz səmimiyyəti ilə ürəklərə yol tapan yaradıcılığından danışdı. Qeyd etdi ki, onun ürəklərə nüfuz etmək qabiliyyəti və insani duyğuları riqqətə gətirən misraları vardır. O, Nəcibə xanımın vətənpərvərlik ruhunda yazılmış kitablarının gələcək nəslə örnək olduğunu da xüsusi vurğuladı.

Təqdimat mərasimində "Ədəbiyyat" qəzetinin şöbə müdiri, şair-publisist S.Hüseynoğlu, yazıçı-dramaturq, rejissor A.İdrisoğlu, həkim Z.Orxan, şairə G.Munis, Azərbaycan radiosunun diktoru E.Bayramov, şair-tədqiqatçı H.Rüstəm, "Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək" İctimai Birliyinin sədri T.Əlizadə, yazıçı-publisist A.Muxtarov, şairlər Q.İlqar, Z.Məlikzadə, O.Zəngilanlı, G.Könül, K.Nehrəmli, M.Şahbuzlu da iştirak edirdilər.

Şair S.Hüseynoğlu N.İlkinin şeirlərindəki poetik düşüncələrdən, lirik axıcılıqdan, şirinlikdən, səmimiyətdən söhbət açıb bu keyfiyyətlərə görə oxucuların rəğbətini qazandığını bildirdi. H.Rüstəm N.İlkinin klassik nümunələrdən qidalandığını, bunun şairənin yaradıcılığında öz əksini göstərməsindən danışdı. G.Munis N.İlkinin vətənpərvər şair kimi cəsarətli yazıları ilə sözünün arxasında duran qələm sahibi olduğunu, vətənpərvərlik ruhunun bütün yaradıcılığı boyu onu izlədiyini vurğuladı. A.Muxtarov, G.Könül, K.Nehrəmli N.İlkinin yaradıcılığında insanı düşünməyə məcbur edən fikirlərdən, incə poetik duyğulardan danışdılar.

Şairə N.İlkin 50 illik yubileyi ərəfəsində keçirilən tədbiri yaradıcılıq hesabatı adlandırıb gələcək ədəbi planlarından söhbət açdı. O, mərasimin sonunda yeni kitabını bütün tədbir iştirakçılarına hədiyyə verdi.

5 avqust 2011-ci ildə C.Cabbarlı adına RGK-da yazıçı-publisist Qəhrəman Şükürlünün “Vətənə gedən yol”, “Atəş”, “Mənim anasız dünyam” kitablarının təqdimatı keçirildi. Tədbir Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş igidlərimizin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Kitab təqdimatını giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açıb Q.Şükürlünün həyat və yaradıcılığı haqqında məlumat verdi. O dedi ki, onun tez-tez mətbuatda çap olunan yazıları əsasən Qarabağ müharibəsi mövzusundadır. Bu əsərlərdə həyat həqiqətləri, müharibənin törətdiyi dəhşətlər qələmə alınmışdır. Müəllifin Vətən mövzusuna müraciəti bu torpağa möhkəm bağlılığının sübutudur.

Tədbirdə “Qafqaz Media” İctimai Birliyinin sədri A.Taleh, “Zirvə” Ziyalılar İctimai Birliyinin prezidenti M.Dəyanətqızı, Azərbaycanlıların Rusiyadakı cəmiyyətinin üzvü T.Şıxməmmədova, “Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək” İctimai Birliyinin prezidenti T.Əlizadə, Azərbaycan Dövlət Neft Akademiyasının dosenti, “Respublika” qəzetinin müxbiri R.Teymurova, Azərbaycan Respublikası Beynəlmiləlçi Döyüşçülər Fondunun prezidenti S.Orucov, “Qarabağ Həqiqətlərini Beynəlxalq Aləmə Tanıtma” İctimai Birliyinin sədri Ə.Qasımov, Azərbaycan Dövlət Radiosunun əməkdaşı İ.Cəfərova, şair Q.İlqar, şəhid anası D.Əliyeva iştirak edirdilər.

T.Şıxməmmədova çıxışında qeyd etdi ki, Qarabağ bütün Azərbaycan xalqının dərdidir. Biz Rusiyada daim Qarabağın qaytarılmasını təbliğ edirik. Mən təklif edirəm ki, belə mövzuda yazılan kitabların daha geniş miqyasda oxunması üçün məktəb kitabxanalarına da verilsin.

T.Əlizadə bildirdi ki, Qarabağımızda gedən qanlı döyüşləri və oğullarımızın göstərdikləri igidlikləri əks etdirən əsərlərin yaranmasına çox ehtiyacımız var. Q.Şükürlünün bu kitabları da Qarabağda baş verən qanlı hadisələrin real güzgüsüdür. Q.İlqar belə missiyanı üzərinə götürməyin böyük məsuliyyət olduğunu qeyd edib müəllifin bu kitabları öz təqaüdü ilə çap etdirdiyini xüsusi vurğuladı. Hər üç kitabın oxucular üçün böyük əhəmiyyət kəsb etməsindən

danışandan sonra çıxışını Qarabağ mövzusunda yazdığı şeiri ilə bitirdi. A.Taleh belə kitabların gənc nəslin əsl vətənpərvər kimi yetişməsində böyük əhəmiyyət kəsb etməsindən danışıb müəllifə "Cəsarətli qələm" diplomunu təqdim etdi. Ə.Qasımov, R.Teymurova və İ.Cəfərova da bu əsərlərin Azərbaycanın Qarabağ tarixini əks etdirən qiymətli sənət nümunəsi olduğunu bildirdilər.

Q.Şükürlü öz çıxışında dedii ki, Qarabağ uğrunda gedən döyüşlərin real iştirakçısı olub və hər üç kitabda qələmə aldıqları həqiqətdir, yazılarında heç bir fantaziyaya yol verməyib. Bu kitabda şərəfli ana obrazı yaradıb.

5 oktyabr 2011-ci ildə C.Cabbarlı adına RGK-da "Zirvə" Ziyalılar Təşkilatı İB-nın təşkilatçılığı və Azərbaycan Respublikası Prezidenti yanında QHT-yə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə gənc şair Günəşin "Xəyallar" adlı kitabının təqdimat mərasimi keçirildi. Tədbiri giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açdı. Tədbirdə professor Əminə Tuncay, diktor Eldost Bayramov, Cahangir Qocayev, D.Nağıyeva, Novosibirsk diasporunun nümayəndəsi Mirkazım Seyidov, şairə Mərcan Şahbuzlu, T.Əlizadə, Əlikram Müzəffər, Şəhla Gündüz və başqaları iştirak edirdilər. Tədbirin sonunda "Qafqaz ulduzları" ansamblı maraqlı müsiqi proqramı ilə çıxış etdi.

5 dekabr 2011-ci ildə C.Cabbarlı adına RGK-da "Sürgün Həyatı Repressiya Qurbanlarına Dəstək" İctimai Birliyi ilə birlikdə 1937-ci il repressiyası qurbanı, görkəmli şair-dramaturq Hüseyn Cavidin anım gününün 70 illiyi ilə əlaqədar tədbir keçirildi. Tədbiri direktoru Tahir Sadıqov açaraq qeyd etdi ki, bu gün kitabxanaların qarşısında böyük vəzifələr durur. Belə ki, kitabxanalar tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi irsin toplanıb qorunmasında, nəsildən-nəsilə çatdırılmasında, müasir Azərbaycan cəmiyyətinin intellektual-mənəvi potensialının inkişafında mühüm rol oynayır. Odur ki, indi bizim müqəddəs mənəvi borcumuz görkəmli yazıçıların, dramaturqların, şairlərin anım günlərini, yubileylərini, kitab təqdimatlarını qeyd edib geniş oxucu auditoriyasına çatdırmaqdan ibarətdir. Bu baxımdan biz bu gün XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan, milli poeziyamızda fəlsəfi-lirikanın əvəzolunmaz nümunələrini yaradan, xalqımızın qəlbində dərin iz qoyan böyük şəxsiyyət Hüseyn Cavidin vəfatının 70 illiyinə toplaşmışıq.

Hüseyn Cavidin və repressiya qurbanı olmuş digər şair-yazıçı-dramaturqlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra T.Sadıqov sözü "Sürgün Həyatı Repressiya Qurbanlarına Dəstək" İB-nin sədri Lalə Quliyevaya verdi. O, Hüseyn Cavidin həyat və yaradıcılığı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verərək bu tədbirin təşkil olunmasında ona yardımçı olan Gənclər Kitabxanasının əməkdaşlarına dərin təşəkkürünü bildirdi, bu səpkili tədbirlərin zəruriliyini vurğuladı.

Tədbirdə fəlsəfə doktoru, dosent, əməkdar müəllim İsgəndər Orucəliyev, polkovnik Zakir Nəsirov, ehtiyatda olan polkovniklər Həmid Cəfərov və

Telman Əliyev, Dövlət mükafatı laureatı, xalq artisti Ramiz Məlik, Rəssamlıq Akademiyasının dosenti Asif Azəri, şair Vahid Əziz və digər qonaqlar Hüseyn Cavidin ömür yolu və ədəbi irsi barədə düşüncələrini bölüşdülər.

Gənclər Kitabxanasında Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən fotosərgiyə iştirakçılar maraqla baxdılar.

Beləliklə, 2006-2011-ci illərdə C.Cabbarlı adına RGK-nın hesabatlarının təhlilinə əsasən, istər fondun formalaşması, istər oxuculara xidmətin təşkili, istər kütləvi tədbirlərin keçirilməsi, istərsə də gənclərin kitabxanaya cəlb edilməsi istiqamətlərində müəyyən nailiyyətlər qazanılmış, eyni zamanda bir sıra nöqsanlara da yol verilmişdir. Məsələn, RGK-da kitab fondunda bədii ədəbiyyatın miqdarı tələb olunan səviyyəyə uyğun gəlmir. Doğrudur, son illərdə bu kitabların sayı müəyyən qədər artmışdır. Başqa sözlə, bədii ədəbiyyatın çəkisi 2008-ci ildə 32,5 faizə, 2005-ci ildə isə 34,5 faizə çatmışdır. Halbuki kitab fondunda bədii ədəbiyyatın norması ən azı 50-60 faiz təşkil etməlidir. Bununla yanaşı, kitab fondunda ədəbi tənqidə və ədəbiyyatşünaslığa dair kitablar da olduqca azdır, yəni 2008-ci ildə bu sahəyə dair ədəbiyyat cəmi 12,8 faiz olmuşdur ki, bu da tələb olunan normanı ödəmir: 30,5 faiz üstəgəl 12,8 faiz bərabərdir 43,3 faiz. Əslində isə bu rəqəm ən azı 55,5 olmamalıdır.

Əlbəttə, gənclərin mənəvi tərbiyəsi problemi kompleks proqramdır. O, ayrı-ayrı təsisatlar tərəfindən təkbaşına və fərdi həyata keçirilə bilməz. Gənclərin mənəvi tərbiyəsinin səmərəli təşkili və keçirilməsində kitabxanaların iştirakı ümumi problemin yalnız bir hissəsidir. Hərtərfli inkişaf etmiş şəxsiyyət formalaşdırılması üçün gənclərin mənəvi tərbiyəsi prosesində səmərəli və məzmunlu təşkili, onların dünyagörüşünü genişləndirməyə imkan verən şəraitin yaradılmasını tələb edir. Bu istiqamətdə aparılan təcrübə və axtarışlar kitabxanalarda bədii ədəbiyyatın təbliği sahəsində mühüm tədbirlərin həyata keçirilməsi vacibliyini irəli sürür.

## ƏDƏBİYYAT

1. *Aslan K. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 324 s.*
2. *Aslan K. İnformasiya cəmiyyəti şəraitində gənclərə kitabxana xidmətinin müasir problemləri // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2010, №3, s.15-25.*
3. *Xələfov A. Kitabxanaşünaslığa giriş: 3 hissədə: H.2. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003, 314 s.*
4. *Sadıqov T. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası müstəqillik illərində // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2010, №2, s.38-46.*

*5. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 2006-2011-ci illərə dair hesabatları.*

**PROPAGANDA OF THE ART LITERATURE IN THE REPUBLIC YOUNG LIBRARY BY AFTER J.JABBARLI**
***(The 2006-2011th years)***

**Knyaz ASLAN**

***SUMMARY***

***Key words:*** *Young library, art literature, propaganda of the art literature, spiritual upbringing reader, aesthetic taste, aesthetic education.*

*In the article basic posts of the libraries of the young reader analysed in the mənəvi-estetik upbringing, importance and role of the art literature have been valued from this point of view highly. Subject explain in 2006-2011 named after J.Jabbarli in the Republic young library, reference have been done to concrete statistical information.*

**ПРОПАГАНДА ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В РЕСПУБЛИКАНСКОЙ ЮНОШЕСКОЙ БИБЛИОТЕКИ им. Дж.Джаббарлы *(2006-2011 г.г.)***

**Князь АСЛАН**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *Юношеская библиотека, художественная литература, пропаганда художественной литературы, нравственное воспитание читателей, эстетический вкус, эстетическое образование.*

*В статье проонализировано основные задачи работы библиотек в области нравственно-эстетического воспитания читателей. Здесь же даны широкое понятие о художественной литературы, а также излагается современное состояние пропаганды художественной литературы в библиотеках. Статические данные охарактеризует работы республиканской юношеской библиотеки им. Дж.Джаббарлы в 2006-2011-х годах.*

# TÜRK XALQLARININ ƏLYAZMA KİTABI VƏ ONUN YAYILMA AREALI

**P.F.KAZIMİ**
***tarix üzrə fəlsəfə doktoru***
***Bakı Dövlət Universiteti***
***pkazimi@mail.ru***

*Tədqiqat Türk xalqlarının əlyazma kitabı ənənələrini, onların yayılma areallarını müəyyənləşdirir. İslam dövrü mədəniyyətinin ümumi cəhətləri, dövrün kitab repertuarı və kitabxana mədəniyyəti ümumiləşdirilir.*

***Açar sözlər:*** *Kitabçılıq mədəniyyəti, kitabxana mədəniyyəti, Şərqi Türküstan, Orta Asiya, Kiçik Asiya, Qafqaz arealı, Türk xalqları.*

İnsan cəmiyyətinin yaratmış olduğu ilk Şumer yazılarından müasir dövrdə istifadə olunan latın əlifbasına qədər Türk xalqları zəngin və məzmunlu bir tarix keçmiş, yaratmış olduqları bütün nailiyyətləri az bir müddətdə bəşəri nailiyyətə çevrilmişdir. İlk Şumer şəkilli yazı, mixi yazıları, orxan – yenisey yazıları, uyğur əlifbası Türk xalqlarının islama qədər yaratmış olduqları böyük mədəni abidərlərdir.

Türk dilli əlyazma kitabı-çox mürəkkəb və spesefik hadisədir: o, öz ifadəsini tarixən bir neçə növ yazıda tapmışdır. Onlardan axırıncı on üş əsrdə (VII-XX əsrin başlanğıcı) ərəb yazısı olmuşdur. Islamın ilk əsrlərində ərəb əlifbası ilə yanaşı türk xalqları məskunlaşdığı coğrafi arealdan asılı olaraq müxtəlif yazı sistemlərindən də istifadə etmişdilər. Heraqrif yazıları, uyğyr əlifbası, Alban əlifbası, pəhləvi yazılarından istifadə edən türk xalqlarının böyük əksəriyyəti artıq islamın 2-ci əsrinə doğru tədricən islamı qəbul edərək ərəb dilini və ərəb əlifbasını mənimsəmiş, ədəbi və elmi abidələrini bu dildə yazıya köçürməyə başlamışdır. Qorunub saxlanılmış ən qədim ərəb yazılı türk dilli əsərlər etik-didaktik mövzuda "Kudadqu biliq" ("Necə xoşbəxt olmaq haqqında elm") poeması XI əsrə aiddir. Yusif Balasaqunlu bu əsəri 462/1069-70-ci ildə tərtib etmişdir. Onun qorunub saxlanılmış ən qədim nüsxələri XIII əsrdə köçürülmüşdür. Mahmud Kaşqarinin "Divani lüğət ət-türk" ("Türk dillərinin lüğəti") əsəri 466/1073-74-cü illərdə yazılmış, köçürmə tarixi 27 şəvval 664 və ya 1 avqust 1266-ci ildir. Axırıncı əsərlər və əlyazmaları XX əsrin başlanğıcında yaradılmışdır: RF EA Şəqşünaslıq İnstitutunda Başqırdıstanda olan İsmayıl adlı şəxsin 1930-cu ildə yazdığı və üzünü köçurdüyü tatar başqırd "Səcərə"sinin əlyazması var. Özbəkistan EA Şərqşünaslıq İnstitutunda 1944-cü ildə Ləfasi tərəfindən tərtib olunmuş Xivəli şair və yazıçılar antologi-

yasının 1951-ci il əlyazması saxlanılır. Türk ərəbyazılı əlyazma kitablarının yuxarıda qeyd etdiyimiz nümunələri rus şərqşünasları tərəfindən müəyyənləşdirilmişdi. Bu yanaşmanı düzgün hesab etmirik. Türk dünyasında bu günlərimizə qədər ərəb yazılı türk əlyazma kitabları Cənubi Azərbaycanda tərtib olunmaqdadır. Xüsusilə 1945-46-cı illərdə Cənibi Azərbaycanın milli hökuməti illərində nəfis kitablar tərtib olunurdu. Orta əsr əlyazma kitabları ənənələri Türkiyədə bu gün də həssaslıqla qorunub saxlanmaqdadır. Bu kitaba olan ehtiyacı ödəmək deyil, ənənəyə ehtiram olaraq, gözəl xətt nümunələrini nümayiş etdirmək üçün edilirdi. Düşünürük ki, XIX əsrin sonlarına doğru türk xalqları kitab ehtiyaclarını bir mənalı olaraq çap məhsulları vasitəsilə ödəyirdi və artıq əlyazma kitabları dövriyədən çıxmış, tarixi abidəyə çevrilirdi. Türk dillərində yazılmış əsərlərin əlyazmalarının əksəriyyəti XVIII-XIX əsrlərə aiddir, XI-XIII əsrlərə aid əsərlərin və əlyazmaların isə çox az nümunələri qorunub saxlanmışdı.

Türkdilli əlyazma kitabı çox böyük ərazidə müasir Orta Asiya, Şərqivə, Qərbi Sibir, Ural, Volqabayu, Şimalı və cənubi Qafqazda, Krım, Türkiyə, İran, Əfqanstan, Pakistan, Hindistan, Sinszyan, Çin, Misir, İrak, Suriya, Balkan yarımadasının bir sira ölkələri-Bolqarıstan, Ruminiya, Yuqoslaviya daxil olmaqla çoxlu türk dillərində (hazırda qəbul edilmiş qaydada onlar türk, Azərbaycan, türkmən, özbək, uyğur, tatar, hətta onun Qərbi Sibir dialekti, krım tatar, başqırd, qazax dilləri adlanır) yaradılmış, üzü köçürülmüş və yayılmışdır. Orta əsrlərdə, bəzən isə XIX əsrin əvvəlinədək yaradılmış əlyazmaların dili türki sözü ilə müəyyən edilmişdir. Bu, hər bölgədə spesifik lokal müxtəlifliyi olan xalq danışıq dilindən ədəbi yazı dilini fərqləndirməyə xidmət edirdi.

Müasir türk xalqları ayrı-ayrı ailə-qəbilə və qəbilə ittifaqlarının uzun və mürəkkəb inkişafı nəticəsində formalaşmışdır. Bu inkişaf nəticəsində yaranmış millətlər Mərkəzi və Orta Asiyadan, Sibirdən, Qafqaza, Kiçik Asiyaya və Şərqi Avropaya qədər çox böyük bir əraziyə yayılmışlar. XI-XIV əsrlərdə baş verən proseslər xüsusilə əhəmiyyətli olmuşdur. Onlar etnik kantaklara, dəyişmələrə, konkret şəraitdə yazı dili kimi formalaşan özünə məxsus interdialektlərin yaranmasına gətirib çıxarmışdır (3, s.98). Qaraxani dövrünün dili bu cür yaranmış və XII-XIV əsrlərdə başqa türk dilli rayonlarda yazı dillərinin yaranmasına və inkişafına təsir göstərmişdir. Qramatik normaların az "fəallığı" və leksikanın ümumiliyi, "ifadə normalarının məlum azadlığı" onların hamısı üçün xarakterik idi. Bu da XIII-XIV əsrlərdə həmin dillərin qarışıqlığına səbəb olurdu (3, s.49). Ona görə də XI-XIV əsrlər türk dilli yazı abidələrini müəyyən etmək üçün bir sıra tarixi faktorları: onların yarandığı yeri və zamanı, müəllifin etnosunu, ərazinin əhalisini və s. nəzərə almaq lazımdır. Buna əlavə etmək lazımdır ki, ərəb qrafikası türk dillərində saitlərin, bəzi hallarda hətta, samitlərin fonetik tərkibinə uyğun gəlmirdi.

Şərqşünasların hazırladığı əlyazma kitablarının kataloqları və aparılan digər tədqiqatlara əsaslanaraq türk xalqlarının kitab və kitabxana mədəniyyəti-ni bir sıra əsas tarixi-coğrafi areallara ayırmaq olar: Şərqi-Türkistan, Orta Asiya, Kiçik Asiya (Türkiyə), Zaqafqaziya (Azərbaycan), Krım-Volqaboyu-Ural. Bunların hamısı türk mədəniyyətinin əsas tarixi arealı ilə o qədər bağlıdır ki, onların mərkəzləri haqqında, eynilə göstərilən kitab mədəniyyəti üçün mərkəzlər barədə, ancaq sərhədlərin bəzi fərqləri nəzərə alınmaqla danışmaq olar. "Mədəni" və "kitab" areallarının müəyyən olunması, onların müqayisəsi, türk xalqlarının tarixən istifadə etdikləri müxtəlif variantlı yazı növlərinin əlaqəsinin aydınlaşdırılması xüsusi tədqiqat mövzusudur. Buna baxmayaraq bu məqalədə bir sıra inteqrasiya prosesləri haqqında məlumat verməyə çalışacağıq.

Ərəbyazılı kitab və onun mədəni arealları bir-biri ilə çox bağlı idi. Vaxtilə ümümi türk dövləti və qəbilə tərkibində eyni olmuş və ya eyni icmaya daxil olmuş qonşuların əlaqələri sıx olmuşdur. Buna ərəb yazısı da imkan verirdi. Deməliyik ki, XIX əsrə qədər Qafqaz (Azərbaycan) və Kiçik Asiya (Türkiyə) kitab arealları dil və ədəbi ənənə baxımından oğuz-türk qrupu ilə sıx bağlı olmuşlar. Mədəni və ədəbi mənbələrinə, repertuarına, əlyazmaların tərtibinə görə oğuz-türk qrupuna daxil olan "türkmən qolu" XIV-XV əsrə qədər Azərbaycan və Kiçik Asiya ilə inteqrasiya olunmuş, sonraki əsrlərdə Orta Asiya arealı ilə bağlıdır. Krımın türk əlyazma kitabını dilinə, ənənəsinə, repertuarına, tərtibatına görə onun bir qolu kimi Kiçik Asiya arealına daxil etmək lazımdır. Demək olar ki, XIX əsrə qədər Krımda türk dilli əsərlər türk-oğuz dilində, arxivlərdə olan mənbələrə əsasən bundan sonra Krım-tatar dilində yazılırdı. Bu əlaqələrə baxmayaraq, hər "kitab" arealının öz mənbəyi, inkişaf tarixi, ənənəsi, başqa dillərlə qarşılıqlı münasibəti olmuşdur. Lakin burada türk dili yaxud dilləri, repertuarı, və ayrı-ayrı hallarda əlyazmanın tərtibatı özünə məxsusluğu baxımından üstünlük təşkil etmişdir.

Baxdığımız areallerın hamısına xas olan ümümi bir cəhət var ki, bu da poetik əsərlərin nəsrdən, dünyavi əsərlərin dini əsərlərdən nisbətən sayca üstünlük təşkil etməsi; tərcümənin (fars və ərəb dilindən) az miqdarda "Şərh" ədəbiyyatının, həmçinin sahəvi ədəbiyyatın və müxtəlif janrların varlığı; ərəb yazılı əlyazma kitabı yaradıcılarının, xüsusilə də çox tanınmış və mahir ustaların bir "mədəni" arealdan başqasına, az hallarda bir kitab arealından başqasına, bir hökmdarın yanından başqasının yanına getməsinin adiliyi göstərilə bilər. Bu, daim ənənələrin, repertuarın və s. yerinin dəyişməsinə, müsəlman kitab mədənyyətinin inkişafına səbəb olurdu. Hakimiyyət nümayəndələrinin kitabçı sənətkarlara münasibəti də bu sahənin inkişafına öz təsirini göstərdi. Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin bir tədqiqat obyekti kimi bütövlükdə öyrənilməsi, xalqın tarixi inkişafda mədəniyyətinin diferensiallığı və inteqrasiya proseslərində rolu ilk təcrübədir. Dilin, yazının, kitabçılığın və

kitabxanaçılığın inkişaf dinamıkası türk xalqlarının təkamülündə mühüm rol oynamışdır. Eləcə də islam mədəni arealına, həmçinin əhatəsində olan qeyri müsəlman xalqların inkişafında təsiredici qüvvəyə malik olmuşdur. Bu problemlə məşğul olmuş tədqiqatçılar türk xalqlarının ayrıca götürülmüş bir arealına, hər hansı bir problemin tədqiqatı məqsədi ilə formal və texniki xüsusiyyətlərin analizinə uzun-uzadı yer vermiş olduqları halda, daxili məzmunda mövcud olan xüsusiyyətləri, bu xalqı fərqləndirən və onu dünyəvi edən əlamətləri görməmiş, bəzi hallarda görmək istəməmişlər. Tarixi mənbələri məhv etmək, mövzud mənbələrin üzünü köçürərkən faktları saxtalaşdırmaq və ilkin mənbəyi itirmək, mənbələrdəki tarixi faktları, bəzi hallarda şərhə ehtiyacı olan faktları qeosiyasi maraqlarla təqdim etmək, termin və tarixi anlayışlar arasında bilərəkdən, bəzən bilməyərəkdən səhv yozumlar etmək, tarixi hadisələrin dini, milli və ideoloji prizmadan baxılması hallarına tez-tez rast gəlirik. Bu kimi hallara yeri gəldikcə münasibət göstərəcəyik.

XI-XVIII əsrlərdə türk xalqlarının müxtəlif dövrlərdə hazırladıqları lüğətlərin təxmini siyahısının tədqiqi göstərir ki, lüğət və qramatika qaydalarını özündə əks etdirən kitabların əksəriyyəti, ya türk əsilli tərtibatçılar tərəfindən hazırlanmışdı, ya bu lüğətlərin əksəriyyəti ərəb və fars sözləri ilə yanaşı türk sözləri ayrıca bir fəsil kimi özündə əks etdirmiş, ya da farsdilli poeziyanın daha geniş oxucu kütləsi tərəfindən başa düşməsi məqsədi ilə tərtib edilmişdi. Deyilənləri ümumiləşdirərək qeyd etməliyik ki, kitab məhsullarının böyük əksəriyyəti islam mədəniyyətinə türk xalqlarının böyük töhfəsidir və dünya mədəniyyəti tarixində müştərək mədəniyyətin misilsiz bir nümunəsidir.

Çap kataloqlarına əsasən Dünya kitabxanalarında farsdilli və türkdilli əlyazmaları say nisbətinin müqayisəsi belə fikir yürütməyə imkan verir ki, əgər dünyada 200 min farsdilli əlyazma varsa, onda türkdilli əlyazmaların sayı 100 min ədəddən az olmamalıdır. Bu statistika farsdilli kitabların etnik mənsubiyyətini ifadə etmir. Əlimizdə olan bəzi rəqəmləri misal gətirək: Özbəkistan EA Şərqşünaslıq İnstitutunda saxlanılan 17 minə qədər əlyazmanın 10%-dən çoxu (yəni 1700 ədəddən çoxu) (4, s.127), Sankt-Peterburq Dövlət Ümumi Kitabxanasında 400-ə yaxın (5, s.165), Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutunda bizim hesablamalara görə 1500-ə qədəri türkdillidir. Türklərin məskunlaşdığı ərazilərdə yaradılan əlyazmaların çoxluğu və bizə gəlib çatan nüsxələrin qədimliyi baxımından, demək olar ki, türk xalqlarının əlyazma kitab mədəniyyəti geniş inkişaf yolu keçmiş və bu əlyazmalara qayğı ilə yanaşılmışdır. Eləcə də farsdilli ərəb yazılı əlyazma kitabların da böyük bir kütləsi türk xalqlarının elmi və ədəbi irsinin nümunəsi kimi qorunub saxlanılmışdır.

Türk əlyazmalarının mövzusu çox rəngarəngdir. Tarix, xronologiya (təqvimlər), rəsmi sənədlər, yazışmalar, coğrafiya, bioqrafiya, nəsil şəcərəsi, biblioqrafiya, ensiklopediya, astronomiya və astrologiya, təbabət, mineralogi-

ya, riyaziyyat, dilçilik (leksikoqrafiya, qrammatika), məktub nümunələri məcmuəsi, etika və fəlsəfə, musiqi, ovçuluq, hərbi iş, folklor (şeir və nəsr), bədii ədəbiyyat (poeziya və nəsr), sənətkarların adətləri, mistik ədəbiyyat, dərs vəsaitləri. Müsəlman əlyazma ədəbiyyatına müxtəlif mövzu qrupları və janrları materiallarını bir əsərdə toplamaq xarakterikdir. Orta əsərlərin müsəlman alimləri xüsusi ərəb terminologiyası ilə onları işarə etmək üçün özlərinin elmi təsnifatını işləyib hazırlamışlar (6, s.162).

Türk əlyazma əsərlərinin əksəriyyəti poeziyadan, dini ədəbiyyatdan, az miqdarda isə tarixdən ibarətdir. Poetik formada yazılmış əsərlərin də yarıdan çoxu dini motivlərlə olmuşdur. Bu dövrün xüsusiyyətlərinin kitabçılıq işində inikası idi. Şeirlə yazılmış əsərlərin sayı nəsr ilə yazılanlardan iki dəfə çoxdur. Görünür, birinci və axırıncı tematik qruplar, xüsusilə də birinci əlyazma sifarişçiləri və oxucular arasında daha çox tələb olunurdu. Dini ədəbiyyatın sayının tarixi mövzudakı ədəbiyyatı üstələməsi isə ona olan tələbatdan deyil, ənənə ilə bağlı idi. Müsəlman ictimai mühiti tərəfindən yaradılmış və daim möhkəmləndirilən bu ənənə, həmçinin dini möhkəmləndirən bu ənənə, həmçinin dini hakimiyyətin cəmiyyətin bütün təbəqələri, həyatın bütün sahələri üzərindəki təsiri belə vəziyyətin yaranmasına səbəb olmuşdu. Belə vəziyyət bütün orta əsrlər üçün xarakterikdir, çünki, "ilahiyyat orta əsr adamının sosial təcrübəsinin ən yüksək ümumiləşməsi" kimi özünü təqdim edir, feodal cəmiyyət üzvləri özlərini, öz dünyalarını anladıqları və inandıqları hamı kimi eyni mənalı işarələr sistemi verirdi (7, s.12).

Amma oxucu sorğuları, əhalinin savadlılığı və təhsili, onun tələbatı, özlərinin və digərlərin, Şərq və ğərb ənənələrinin təsiri, hökmdarların və onların məmurlarının maraqları türk dilli orjinal, tərcümə kitabları yuxarıda göstərilən müxtəlifliyi təmin edirdi. Bununla bərabər başqa dillərdən olunan tərcümələr türkcə elə şərh olunurdu ki, dünyavi ədəbiyyatı həm də formaca (şeirlə yazılmış) ilahiyyat ədəbiyyatını üstələyirdi.

Türk əlyazmaları arasında, ərəbcədən, daha çox isə fars dilindən tərcümələrə, bu dillərdə olan əsərlərin türk dilində şərhinə rast gəlinir. Türk dilində tərcümələr və şərhlər türk əhalisinin ərəb və fars dillərini yaxşı başa düşmədiyi, yaxud bilmədiyi səbəbindən meydana gəlirdi. "Dərbəndnamə" ("Dərbənd haqqında kitab") və "Tarixi Rəşidi" ("Rəşidinin tarixi") əsərlərinin tərcüməsində olan və başa düşülməyən ərəb və fars ifadələrindən, həmçinin "monqol və kalmık mənşəli sözlərdən" qaçaraq onları "təmiz türk dilinə tərcümə etmək tələb olunurdu.

Tarixi, coğrafi, ədəbi (poeziya və nəsr), ilahiyyat, etika, təbabət və bir sıra başqa mövzularda əsərlər tərcümə edilirdi, onların seçimi hakimiyyət dairələri nümayəndələrinin, ruhani silkinin sifarişləri türk cəmiyyətinin yüksək və orta təbəqəsinin faktiki tələbatı ilə müəyyənləşirdi. Əsasən ilahiyyat-etik və

az hallarda ədəbi əsərlər şərh olunurdu. Tarixi əsərləri və yüksək keyfiyyətli əlyazmalar əyanların göstərişi yaxud onlara hədiyyə məqsədilə yerinə yetirilirdi. Burada məqsəd türk dilli rayonlarda yaşayan orta təbəqəni türk sülalələri və qəbilələrinin tarixi ilə tanış etmək-beləliklə də həmin hökmdarları "göylərə qaldırmaq" idi.

XI əsrin ikinci yarısından XVI əsrin baçlanğıcına qədər tərcümələrə az hallarda rast gəlinir, onların yerini orjinal əsərlər tutur. Adətən tərcüməni bir qayda olaraq müsəlman kitabçılığının üç əsas dilini yaxşı bilən saray yaxud peşəkar tarixçilər, yazıçılar, şairlər yerinə yetirirdilər. Məsələn, türk tarixçiləri Məhəmməd Sahib Pirizadəni, Əhməd Çavuşu, Xivə tarixçisi və şairi Agahini, Məhəmməd Sadiq Kaşqarini, özbək şairi və yazıçısı Binaini buna misal göstərmək olar. Adətən hər əsərin tərcüməsi ilə bir tərcüməçi məşğul olurdu, ancaq elə hallar da olurdu ki, onu başqa adam sona çatdırırdı, yaxud da tərcümə üzərində tərcüməçilər qrupu çalışırdı (8, s.16-18).

Bəzən bütöv bir əsərin tam tərcüməsi deyil, orjinalın sifarişçiyə və ya tərcüməçiyə daha vacib görünən, onların dövrü üçün daha əhəmiyyətli olan hissələrin və bölmələrin tərcüməsi yerinə yetirilirdi. Tərcüməçilər bütün müsəlman Şərqində olduğu kimi, adətən öz tərcümələrinin dəqiqliyinə deyil, oxucular üçün maraqlılığına daha çox fikir verirdilər. Bundan ötrü bəzi hallarda orjinala ağıla gəlməyən məlumatlar və qeyri-dəqiq tarixlər əlavə edirdilər (9, s.522-524), hərdən onun tarixini dəyişir, orjinala əlavə və ixtisarlar edirlər. Bütün bunlar sifarişçinin marağı və zövqü nəzərə alınmaqla edilirdi. Ona görə də ön sözün yaxud son sözün axırında tərcüməçinin ənənəvi özünü əhv etdirmək yaxud " yalvarışı" iltimasla üzr istəməsi kimi halları müşaət edirik. Məhəmməd Niyaz oxuculara məhz bu cür müraciət etmişdir: "Bu kitabın tərcüməsi zamanı dəyərsizin buraxdığı bütün səhvləri və nöqsanları acizanə xahiş edirəm bağışlayın, qələmin gücü ilə düzəldin, gücsüzü qınaq hədəfinə çevrilməyin, məzəmmət daşına tutmayın, xeyirxahlıq ibadəti zamanı bağışlayın və yada salın" (10, s.149).

Bütün müsəlman xalqlarının əlyazmaları kimi türk əlyazmasında da bir abidənin müxtəlif əlyazma mətnlərində fikir ayrılığı və variantların olması xarakterikdir. Onlar xəttatların yol verdikləri əlavələr, ixtisarlar, dəyişikliklər, təhriflər, səhvlər nəticəsində əmələ gəlmişdir. Həm də bu təhriflərin bir hissəsi müəllifin sağlığında özü, sonra isə başqa şəxslər tərəfindən bir çox əsərlərin redaktəsi prosesində baş verə bilirdi. Təəssüf ki, əlyazmaların tədqiqatçıları bəzi hallarda əsərlərin redaktəsi zamanı yol verilmiş nöqsanları tapmağa səy göstərmək əvəzinə əksər hallarda nəinki səhvlərin, həm də ciddi təhriflərin buraxılmasında ancaq xəttatları günahlandırırlar. E.N.Nəcip "Kutadqu bilig"in nüsxələri timsalında bunu yaxşı göstərmişdir. O, həmin əsərin iki müəllif redaksiyasını müəyyən etmişdir. Birincisi – müəllif tərəfindən Gu çayı sahilində

yaşayarkən; ikincisi – Kaşqara köçdükdən sonra tərtib edilmişdir (11, s.75-85). Nəvai "Məclis ən-nəfaisin ("Daş-qaşların kolleksiyası") iki redaksiyasını yerinə yetirmişdir: birincini 896/1490-91-ci ildə, ikincini, görünür, 905/1499-cu ildə. Nəvainin Divanı müəllif tərəfindən bütün ömrü boyu tərtib olunmuş və redaktə edilmişdir. Müəllif Divanı hər dəfə redaktə edəndə ona yeni şeirlər əlavə etmiş, çox vaxt quruluşunu dəyişdirmiş, ayrı-ayrı ilkin şeirlərini yenidən yazmış, onlara yeni fikirlər gətirmiş, poetik formalarını təkmilləşdirmişdir. Təəssüf ki, Divanın müəllif avtoqrafı bizə gəlib çatmamışdır. Nəvainin lirik şeirlərini divanlara toplayaraq, başqa şəxslər həm müəllifin öz sağlığında, həm də ölümündən sonra redaktə etmişlər. İndiyədək Nəvainin Divanının 5 müəllif və qeyri-müəllif redaksiyasını müəyyən etmək mümkün olmuşdur: 1) müəllifin ilkin əsərlərinin materialları əsasında yığma qeyri-müəllif divanları (bir əlyazma): 2) birinci müəllif Divanı "Bədai əl-bidayə" ("Başlanğıcın əsas prinsipləri", dörd əlyazma); 3) ikinci müəllif Divanı "Nəvadir ən-nihayə" ("Axırın boşluğu", bir əlyazma); 4) müəllifin həyatının müxtəlif dövrlərində yaradılmış dörd divandan ibarət "Xəzani əl-maani" ("Mənaların xəzinəsi") lirik külliyyat (43 əlyazma). 5) "Xəzani əl-maani"nin materialları əsasında tərtib olunmuş qeyri-müəllif yığma divanları (304 əlyazma) (12,1964, s.3-11).

Ərəb əlifbasından istifadə etmək və onun əsas strukturuna toxunmamaq məcburiyyətində qalan türklər, farsdilli xalqlarda olduğu kimi imkan daxilində fonetik cəhətdən əsaslandıraraq ona müəyyən yeniliklər gətirmişlər. Mənsur oğlu (13, s.162) hesab edir ki, ərəbyazılı türk əlyazma kitablarında iki ənənənin təsiri özünü göstərməkdə idi. Uyğur və ərəb-iran təsirləri. Bu təsirlər türk dilinin xüsusiyyətləri, dilin fonetik imkanlarına təsir edir, tədricən ənənəyə çevrilirdi.

Ərəb yazılı türk abidələrində sözlərin yazılışında tədricən belə bir ənənə və möhkəmlənmişdir. Türk artıq yazıldığı kimi yox, onun dilində fonetik normaların tələb etdiyi kimi oxuyurdu. Ona görə də müəlliflər və xəttatlar ərəb əlifbasının bütün imkanlarından və göstərilən ənənələrdən istifadə edərək yazılışda çoxlu dəyişmələr yaradan müxtəlif çətinliklərə əl atırdılar. Dəyişmələr həm də tələffüzün qeyri-sabitliyi, xəttatlar tərəfindən mətnin təhrifi, üz köçürənin və yerli əhalinin öz dilinin xüsuiyyətlərini əks etdirmək, xüsusilə orta əsrlərdə müxtəlif xəttatlıq məktəblərinin "tələblərinin təsiri, xətt üslublarının" qaydaları, təhriflər və s.).

Türkdilli əlyazma kitabının istehsalı (kağızın, mürəkkəbin, cildləmə üçün dərinin və kartonun hazırlanması, üz köçürmə və surətçıxaran, əlyazmanın tərtibatı və tərtibatçı, cildləmə və cildləyici) ümumiyyətlə müsəlman əlyazmalarında xüsusilə də xarakterinə və istehsal texnikasına görə fars-tacik eləcədə ərəb əlyazmalarına lazım olanlardan elə də seçilmirdi.

Azərbaycan əlyazma kitabının hazırlanmış texnologiyası barədə A.Y.Qazıyev də geniş məlumat verir (14). Konkret arealın icmalında türkdilli əlyazma kitabının təsvirində bir sıra xüsusiyyətləri qeyd etmək üçün bu mənbədən istifadə edəcəyik.

Türkdilli əlyazmaların təxminən yüzdə bir hissəsinin axırında əsərlərin siyahısı, üzköçürənin adı, tarix, az hallarda onların surətlərinin çıxarıldığı yer yazılır. Bu, yalnız kalliqrafik tərtibatlı deyil, həm də sıravi xəttatlar, xüsusilə də adi savadlı adamlar tərəfindən üzü köçürülmüş kitablara da aiddir. Qədim abidələr saxlanılan böyük mərkəzlərdə bir xəttatın iki əlyazmasına az hallarda (üç və ya daha nadir halda) rast gəlmək olur, adətən hər xəttat bir əlyazma ilə təmsil olunur. Yüksək xəttatlıq nümunələri isə 200-250-yə qədərdir. Təəssüf ki, çap kataloqları və bilavasitə əlyazmaların özləri üzrə üzköçürənlərin adlarının, onların üzlərini köçürdükləri əsərlərin dairəsinin, imkan daxilində onların həyatlarının və yaradıcılıqlarının üzə çıxarılması işi ilə hələlik heç kim məşğul olmamışdır, bu həm türk, həm də başqa dillərdə əlyazmalara aiddir. Belə bir tədqiqat əlyazma kitabı və ümumiyyətlə, türk və ərəb yazısından istifadə edən başqa şərq xalqlarının mədəniyyəti tarixi üçün vacib materiallar verə bilərdi.

Türk əlyazmaları arasında bədii tərtibatlı əlyazmalar əsasən qədim nüsxələrdir. Onlar hökmdarların, əyanların, digər məşhur şəxslərin sifarişi ilə yaxud, onlara hədiyyə məqsədilə hazırlanmışdılar. Kataloqlar üzrə belə əlyazmaların sayı azdır, güman ki, 150-200-dən, bədii miniatürlülər isə 50-80-dən çox deyildir. Miniatürlərlə bəzədilmiş, ümumiyyətlə, bədii illüstrasiyalı nüsxələrin çoxu türk, özbək (xüsusən, köhnə özbək), bir hissəsi. Azərbaycan əlyazmalarının payına düşür. Başqa türkdilli əlyazmalar arasında bədii tərtibatlı nüsxələrə rast gəlinmir. Türk əlyazma kitabının yayıldığı ərazilərdə yaşayan xalqların mədəniyyət və incəsənət tarixinin xüsusiyyətləri, qeosiyasi problemləri və inteqrasiya prosesləri əlyazma kitablarının qorunub saxlanılmasına və ya nüsxələrin ümumi kütləsinə öz təsirini qoymuşdur.

Demək olar ki, dünyanın əlyazmalar saxlanılan mərkəzlərində cəmləşən dil və tematik cəhətdən bütün türk əlyazmaları qrupları arasında unikal yaxud, nadir, nisbətən dəqiq və tam yerinə yetirilmiş bir neçə müəllif orjinalı saxlanılır. Müəlliflərin, tərcüməçilərin, şərhçilərin avtoqrafları, həmçinin tanınmış və ya az tanınmış, ancaq yüksək səviyyəli usta xəttatlar tərəfindən köçürülmüş nüsxələr də var. Lakin bədii tərtibatlı əlyazmalardan avtoqrafların sayı azdır, və adi xəttatlar tərəfindən köçürülmüşlərin sayı nəfis nüsxələrin sayından çoxdur. Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutunda avtoqrafların sayı başqa kitab saxlayıcılara nisbətən daha çoxdur. Bunlar əsasən türk avtoqraflarıdır. Amma bu külliyyatda bədii miniatürlərlə və cildlərlə bəzədilmiş əlyazmalar tək-tükdür.

Əlyazmaların əvvəlinci və sonuncu vərəqlərində (bəzən ağ yerlərdə) olunan qeydlər böyük əhəmiyyət kəsb edir, çünki onlar əlyazmanın sahibləri, qiyməti, bəzi hallarda məzmunu, müəllifi, hətta, konkret əlyazmanın yayıldığı əyalətlərdə əhalinin tarixi, sosial-iqtisadi münasibətləri haqqında məlumatlarla zəngindir. Xəttatlar kitabın kolofonunda özləri, üzköçürmələrin yerləri, yazılma səbəbləri, yazılma tarixi, bəzən kitabın tarixi və s. barədə məlumat verə bilərdi. Ancaq türkdilli əlyazmalardakı göstərilən qeydlər və kolofonlar kataloqlarda və digər nəşrlərdə nadir hallarda qeyd edilir. Onların öyrənilməsi hələ də qaneedici deyil. Ona görə də türkdili kitabın yayılma icmalında bu cür qeydlərdən və kolofonlardan alınan natamam məlumatları yeri gəldikcə tədqiqata cəlb edəcəyik.

Türkdilli əlyazmaların yayım ərazilərinin araşdırılmasına tədqiqatçı L.Dmitriyevanın tətbiq etdiyi qruplaşmaya əsaslanaraq diqqət edək. Onların hər birinə həsr olunmuş icmalda biz hər arealda inkişafın mənbəyini, tarixini, ənənələri, əlaqələri, üstünlük təşkil edən türk dilini (yaxud dillərini), repertuarın rəngarəngliyini, əlyazmaların tərtibatı xüsusiyyətləri, bir sözlə, arealların bir-birindən nə ilə fərqləndiyini göstərməyə çalışacaqıq. Əlbəttə, gətirilən dəlillər tamlıqdan uzaq, hətta, ilkin və ümumidir. Bu, onunla izah olunur ki, qarşıya qoyulmuş vəzifə böyük və mürəkkəbdir və belə işə uzunmüddətli və dərin tədqiqatlar gərəkdir. Burada Şərqi Türkistan arealı tematik planda, digərləri isə xronoloji qaydada araşdırılır. Bu onunla əlaqədardır ki, birinci arealda ərəbyazılı ədəbiyyatın inkişafı XII əsrdə qırılır və ancaq XVIII əsrdə bərpa olunur. Bunun səbəbi bir tədqiqatın mövzusudur. Digər regionlarda belə qırılmalar müşühidə edilmir. Hər arealda ərəbyazılı əlyazma məhsullarının mənbəyini və tarixini göstərmək vəzifəsi ona görə qarşıya qoyulmuşdur ki, tərəfimizdən gətirilən dəlillər tarixi-etnik və tarixi-linqivistik xarakter daşıyır. Ərəbyazılı türkdilli əlyazma kitabının yayıldığı ərazilərin müəyyən edilməsi böyük bir mədəniyyətin ümumi mənzərəsini yaratmaq kimi vacb bir vəzifə daşıyır. Konkret areallarda Türk xalqlarının kitab və kitabxana mədəniyyəti araşdırılarkən Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu türkdilli əlyazmalar nüsxələrinə daha çox istinad edilir. Bu, hazırkı toplunun türk dilləri tematik qruplar, əsərlərin və onların əlyazmalarının xronoloji və coğrafi əhatəliliyi, unikallığı və nadirliyi, avtoqrafların bolluğu cəhətdən hələlik yeganə mənbədir.

Bu arealın ərazisikeçmiş Şərqi Türkistan, orta əsrlərin ilkin dövrlərində isə Qaraxanilər dövlətinin şərq rayonları olmuşdur. Arealın abidələri dilinə görə uyğur, ilkin orta əsrlər üçün türkdillidir. O dövrdə Qaraxanilər dövlətinin göstərilən ərazilərində türk dilləri işlənirdi. Qorunub saxlanılmış tək-tək abidələr içərisində, uyğur əlyazmaları təxminən 300 nüsxə müxtəlif kitablar təşkil edir.

Haqqında söhbət açdığımız arealın müsəlman əlyazma kitabının, xüsusi olaraq türk əlyazmasının öyrənilməsi çox vacibdir, çünki, Orta Asiyanın özünəməxsus darvazası rolunu oynayan Şərqi Türkistan, Hindistan, Çin, Yaxın Şərq mədəniyyətlərinin qarşılaşdığı əraziyə çevrilmişdir. Uyğur və Orta Asiyada işlənən digər dillərdə olan əlyazma materialları bunu aydın göstərir. Arealın ərəbyazılı türkdilli əlyazmaları Şərqi Türküstan mədəniyyətində müqayisə etsək bir qədər sonrakı mərhələni təşkil edir.

X-XII əsrlərdə onun ərazisi etnik əsası karluk türk qəbilə ittifaqı olan Qaraxanilər dövlətinin tərkibinə daxil idi. X əsrin axırında bu rayonlarda İslam bərqərar oldu. O dövr üçün inkişaf etmiş iki Türk xalqının mədəniyyətləri şərqdə uyğur, qərbdə isə orta Asiya türkləri birləşdi. Birincinin mərkəzləri Balasaqun və Kaşqar, ikincininki-Sırdərya üstündə Üzgend idi: Bu ərazidə İran dilli ədəbiyyat və İran dilləri tədricən böyük təsir gücü və yazı imkanları qazanmağa başladı.

Kuçaradan Şərqdə, Şərqi Türkistanın Şərq hissəsində, Tyanşanın ətəyində artıq IX əsrdə budizmi və budizm mədəniyyətini qəbul etmiş Uyğur dövləti yerləşirdi. Özünün şifahi xalq ədəbiyyatından başqa burada "təqlid" yaxud budda-türk yazılı tərcümə ədəbiyyatı da vardı. XIV əsrin sonuna, Uyğur və Qaraxanilər dövlətləri Caqataylar tərəfindən zəbt edilənədək onlarda müstəqil etnik və mədəni inkişaf mövcud olması haqqında mənbələrdə məlumatlar verilir. Caqataylar bu dövlətlərin ərazisində paytaxtı Yarkənd olmaqla və sonradan Şərq tarixçiləri tərəfindən "Monqolustan" adlandırılan öz dövlətlərini qurdular. Onun bütün ərazisində İslam hakim din oldu. Daxili miqrasiya gücləndi. XV əsrdə bu torpaqlarda vahid mədəniyyət və ümumi adətlər bərqərar oldu. Orta Asiya ilə əlaqələr gücləndi. Monqolustanın siyasi tarixində uzun müddətli feodal çəkişmələri başladı.

XVII əsrin 80-ci illərində hakimiyyət XVIII əsrin 50-ci illərində Şərqi Türkistan Çinə birləşdirildikdən və burada Sintszyan əyaləti yarandıqdan sonra da öz təsirini saxlamış müsəlman xocalarının əlinə keçdi. XIX əsrin 60-70-ci illərində əyaləti ölkədəki siyasi qarışıqlıqdan istifadə edən, əslən Kokand xanlığından olan Yaqub bəy idarə edirdi.

Bu arealın bizə gəlib çatan abidələri içərisində ikisi daha qədimdir. Yusuf Balasaqaqunskinin 462/1069-70-ci ildə yazdığı (Çu çayı üstündə, indiki Tokmak şəhərinin yaxınlığında) və yuxarıda qeyd etdiyimiz "Kutadqu biligi" poeması; birinci türk filoloqu Mahmud Kasqarskinin 466/1073-74-cü ildə tərtib etdiyi "Divani lüğət ət-türk" ("Türk dillərinin lüğəti") əsəridir. Birinci əsərin üç əlyazması qorunub saxlanılmışdı: Vyana əlyazması uyğur yazısı ilə 842/1439-cu ildə Heratda köçürülmüşdür; Qahirə və Namanqan əlyazmaları ərəb əlifbası ilə köçürülmüş və köçürülmə tarixləri məlum deyil. Asiya muzeyi üçün V.V.Radalovun sifarişi ilə 1898-ci ildə yerinə yetirilmiş Qahirə əlyaz-

masının surəti Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutunda D12 şifrəli əlyazmasıdır. Əlyazmanın ağ yerlərində V.V.Radalovun və həmin vaxt Qahirədəki Hediv kitabxanasının direktoru olmuş E.Morisanın qeydləri var. İkinci əsər müəllifin öz avtoqrafından 644/1266-cı ildə Dəməskda Məhəmməd b. Abu-Bəkr b. Əbül-Fəth əs-Savi əd-Dimişki tərəfindən köçürülən (xəttatların qeyd etdiyi kimi) bir əlyazma nüsxəsidir. Buraxılan bir çox səhvlərdən belə qənaətə gəlmək olar ki, o, türk dillərini bilmirmiş, ərəb dilini isə çox zəif bilirmiş. Bu əlyazma İstanbulda Millət kitabxanasında saxlanılır. Müəllif "lüğətdə" göstərir ki, öz əsərini abbasilər xəlifəsi əl-Müqtədiyə (şaban 467-məhərrəm 487/aprel 1075-fevral 1094) bağışlamışdır. Kitabın kolofonunda qeyd olunur: "tərtibata camadanın birinci günü I (4) 64 başlanmış və düzəlişlərdən, yaxşılaşdırmadan və dörd dəfə üzü köçürüldükdən sonra bazar ertəsi cumadanın 10-da II 466-cı ildə qurtarmışdır".

Deməli, Mahmud Kaşqari "Lüğəti" çərşənbə 25 yanvar 1072-ci ildə başlamış, "düzəlişlərdən, yaxşılaşdırmadan, və dörd dəfə üzünü köçürdükdən sonra 10 fevral 1074-cü ildə qurtarmışdır. Öz əsərini xəlifəyə bağışlamaq üçün müəllif aprel 1075-ci ildə əl-Müqadi xəlifə elan olunanda Bağdada gəlməli idi. Əgər Dimiski öz kitabçasını (səliqəsiz və nöqsanlara) müəllifin avtoqrafından köçürmüşsə, həmin avtoqraf (məhz xəlifəyə bağışlandığına görə əla vəziyyətdə hazırlanmış olan bu nüsxə) Kaşqarda yaxud Şərqi Türkistanın başqa bir şəhərində deyil, Bağdadda olmalı idi. Əslən Savədən olan suriyalı (Dəməşkli) xəttat kitabın nə üçünüzünün köçürülməsi faktını aydınlaşdırmır. L.V.Dmitrieva öz tədqiqatında Kononova istinad edərək yazır: "qəribədir, niyə orta əsr ensiklopediyaçıları, biblioqrafları və bioqrafları, Haci Xəlifin (1609-1657) "Kəsf əz-zümin" ("Sirlərin açılması") əsərində ötəri qeyddən başqa, Mahmud Kaşqarinin və onun əsərinin adını çəkmişlər" (15, s.6-8). Adları çəkilən tədqiqatçıların təəccübünə cavab olaraq qeyd etməliyik ki, islam dünyasında üçdilli tədqiqatçılar və alimlər əsasən türk mənşəli olmuşlar. Kaşkarinin ensklopedik ədəbiyyatda öz yerini tapması üçün tərtibatçının ərəb dilli ilə birlikdə türk dilini mükəmməl bilməyi vacib idi.

Mahmud Kaşqarinin "Lüğəti" ərəb dilində yazılmış, lakin özündə çox geniş türk illüstrativ materialarını toplamışdır. Burada türk tayfalarının yerləşməsi, tayfa mənsubluğunu göstərməklə türk leksikası, türk tarixi fonetikası və qramatikası haqqında zəngin məlumatlarla yanaşı türk dillərinin təsnifatı, tarix, coğrafiya, etnoqrafiya, poeziya və folklor üzrə materiallar, qədim türk dünyasının xəritəsi də verilir. Müəllifin göstərdiyi kimi, bütün bunlar onun türklər yaşayan torpaqlara səyahət edərkən topladığı dəlillərə əsaslanır. Çox güman ki, müəllif özündən əvvəlkilərin əsərlərindən də faydalanmışdır. Müəllif tərəfindən Lüğət dörd dəfə redaktə olunmuşdur (16, s.23-24).

Əsərlərin qorunub saxlanılmış nüsxələrinə görə Şərqi Türkistan arealının ərazisində XII-XVI əsrlərdə yazılmış əsərlər, həmçinin XI-XVI əsrlərdə köçürülmüş əlyazmalar yoxdur. Bu arealın əsərləri əsasən XI və XVIII-XX əsrin başlanğıcına aiddir. Qaraxodca şəhərindən olan Dila Umbulmehdenin avtoqrafı 1909-cu ildə tərtib edilmişdir. Yenidən əlyazmaların köçürülməsinin tarixi XVIII-XX əsrin əvvəllərinə təsadüf edir (17).

Bütün məlum uyğur əlyazmalarının tematik tərkibi kifayət qədər rəngarəngdir: Tarixi xronika, poetik, dini, aqroqrafik əsərlər, falçılıq, zəvvarların marşurutu, sənətkarların rəsmləri; həmçinin təbabət, mineralogiya, ovçuluq; dini və az miqdarda ədəbi-bədii əsərlərin İran dillərindən tərçümələri var. Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutunda saxlanılan Şərqi Türkistan türk əlyazmalarının tematik tərkibi məhz belədir. Şərqi Türkistanda köçürülmüş uyğur və özbək əlyazmalarının bu külliyyatda üz köçürənə yerinə görə ilk "ixtisaslaşdırılmış" təsvirini A.M.Muqinov yerinə yetirilmişdir (17). M.Hartmanın kolleksiyasında həmin tərkib eynilə təkrar olunur (133 kitabçadan bir neçəsi özbək, həmçinin Urumçi muzeyinin toplusunda (74 kitabçanın dövrdə bir hissəsi özbək (18). Araşdırdığımız arealın əlyazmaları arasında coğrafi, kosmoqrafik, filoloji (leksikoqrafiya, qramatika, məktub nümunələri məcmuəsi) manuskriptlər, ensiklopediyalar, biblioqrafiyalar şairlərin antalogiyası, aktlar və rəsmi yazışmalar, riyaziyyat əsərləri, hərbi və dərs vəsaitləri çox azdır.

XVII-XIX əsrlərin hadisələri, aqioqrafik əsərlər də daxil olmaqla, tarixi memuar ədəbiyyatında geniş əks olunmuşdur. Tarixi xronikalar arasından nadir olanları göstərək: Şəhərin tanınmış adamlarının xahişi ilə Qasım bəyin Gülcədə 1862-ci ilə qədər olan hadisələr haqqında tərtib etdiyi əsər (Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu əly. V 4018); Məhəmməd Əlyamin 1279/1862-63-cü ildən 1295/1878-ci illədək Kaşqarinin tarixi üzrə 1311/1894-cü ildə yazdığı əsər (Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu əly. V. 2322); Ümidinin "Bədövlətnamə" ("Bədövlət haqqında kitab") poemasının 1308/1890-ci ildə tərtib edilmiş avtoqrafı (Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu əly. s. 578); Elə həmin müəllifin "Cəngnamə ("Döyüşlər haqqında kitab; Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu əly V 292) və "Məktubçayı xan" ("Kiçik xan məktubu"; Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu əly. s.575) poemalarının nadir nüsxələridir. Axırıncı poema 1842-1885-ci illərdə Kokandda baş verən hadisələrə həsr olunmuşdur.

Repertuarda poeziyanı aşağıdaki müəlliflərin əsərləri təmsil edir: Zəlilinin (XVII-XVIII əsrlər, Yarkənd) və onun müasiri Nəbatinin (Hotan) poemaları; Erşinin (XVIII əsr, Kaşqar), məhəmməd Sadiq Kaşqarinin (XVIII əsrin sonu XIX əsrin I yarısı), Nizarinin (1770-1849 Kaşqar), Qəribinin (1841-ci ildə o, 32 müxtəlif sənət sahibinin mübahisəsi haqqında "Kitab-qərib" ("Əcaiblər haqqında kitab") poemasının yazmışdır, Ziyainin (XIX əsr) Bilal Nazi-

min (1824-1899, Gülcə), Molla Şairin (XIX əsr, Üc turfan), Məhəmməd Salih Yarkendinin (1866-ci ildə onun 60 yaşı olanda Xan-Xocam padişahın şərəfinə "Risaləyi-məktub" ("Əsər-məktub") poemasını yazmışdır.

Agioqrafik əsərlər XVIII əsrin sonu – XIX əvvəllərində yazılmış 14 məcmuədə toplanmışdır. Onlar peyğəmbərin, Fatimənin, "mağara dostlarının", "doğranmış dörd imamın", imamlar Zeyn Əl-Abidin, Məhəmməd Bakirin, Cəfər Sadiqin, Zəbihin, Mühaşirin, Əbul Keys Hicazinin, Aftahin, Yusufun, Hakim atanın, Əbu Nəsr Samaninin, Əbul Fəttahın, Bahəddinin, Numan b. Sabihin, Setuk Boqra xanın və başqalarının tərcümeyi-halın, təşkil edir.

Sənətkarların ənənələri (dəmirçilər, bənnalar, toxucular, çəkməçilər, qəssablar, ticarətçilər və s.) haqqında əlyazmalarda hər bir sənətin meydana gəlməsi barədə rəvayətlər danışır; sənətlərin hər birində yüksək tutulan pir-müəllimlər haqqında qısa məlumat verilir.

Təbabət haqqında əlyazmaları arasında xalq təbabəti üzrə ananim əsərlər daha çoxdur Burada qiymətli daşlar, onların çıxarıldığı yerlər və qiymətləri təsvir edilən nadir bir əsər "Cavahirnamə" ("Qiymətli daşlar haqqında kitab") vardır. Ovçuluq (XIX əsr) marşrutları haqqında tək-tək əsərlər var. Məlik, Şahqərib, Yusif və Əhməd, Hurlıq haqqında əfsanələr, S.F.Oldenburqun xahişi ilə 1909-cu ildə yazılmış uyğur mahnı və nağıllarının toplusuda burada özlərinə yer almışlar.

O vaxtlar Orta Asiyada populyar olan fars-tacik tarixi əsərlərin XVIII-XIX əsrlərdə hakim dairələrin tanınmış şəxslərinin yaxud əyanların təşəbbüsü ilə üzü köçürülmüşdür. Bunlar: "Tarixi xəzanəçi" ("Xəzanəçinin tarixi")-"Tarixi Benakəti" ("Benakətinin tarixi", XIV əsr) əsərinin tərcüməsi 1117/1706-cı ildə yerinə yetirilmişdir; Mirhondun (XV əsr) "Raüzət əs-səfa" ("Sevinc bağı") əsərinin I cildi 1150/1737-ci ildə Mir Fazil tərəfindən tərcümə edilib; Məhəmməd Haydarın (XVI əsr) "Tarixi-Rəşidi" ("Rəşidin tarixi") əsərinin üç tərcüməsi: Biri - 1160/1747-ci ildə naməlum tərcüməçi tərəfindən, digəri-1253/1837-38-ci ildə Məhəmməd Niyaz tərəfindən, üçüncüsü - 1265/1849-cu ilə qədər Məhəmməd Sadiq Kaşqari tərəfindən icra olunmuşdur.

Ədəbi əsərlər də tərcümə olunmuşdur: "Kəlilə və Diminə", "Darabnamə" ("Dara haqqında kitab") məcmuələri, "Kırk tuti" ("Qırx tutuquşu") nağılı, Firdovsinin "Şahnamə", Caminin "Yusif və Züleyxa" poemaları və s. təşkil edir.

Şərhlərə çox az hallarda rast gəlmək olur. Onların birini – özbək Baburun "Mübayyin" ("İzah edən") etik poemasına Əbül-baki Aksunun üyğur şərhi əlyazmasını misal göstərmək olar. Tərtib olunduğu vaxt məlum deyil; Urumçi muzeyində əlyazması saxlanılır (18, s. 34).

Şərqi Türkistan əlyazmaları bu arealın müxtəlif şəhərlərində və yaşayış yerlərində yaradılmış və üzü köçürülmüşdür: Kaşqarda, Hotonda, Yarkənddə,

Aksuda, Qaradaşda, Yangixisarda, Tüküzkənddə, Fuskamada, Təşimlikdə v. b. Əlyazmaların üzünü müxtəlif xəttatlar hazırlamış, ancaq onların arasında elələri var ki, bir neçə kitabın tətibatçısıdır (ikidən dördədək): Məhəmməd Yusif xoca (4 kitabın), Məhəmməd Yaqub (3), Əyyub axund və Əbul Mömin axund (3), Əhməd Mişkin Gəday (2), Turduş molla (2) Zakir iman Aksun (2) və i. a.

Şərqi Türkistan arealının əlyazmaları arasında müəlliflərin avtoqrafları və nadir kitabları mövcuddur. Dəyərləri barədə qeydlər olan nüsxələr də var; məsələn, belə qeydə görə “Tarixi Rəşidi” əsərinin Məhəmməd Sadiq Kaşqari tərəfindən edilən tərcüməsi 30 təngəyə alınmışdır. S.F.Oldenburqun kolleksiyasındakı bütün kitablarda onların vaxtı, alındığı yer və Şərqi Türkistanın neçə lani və çonu ilə qiymətləndirildiyi barədə onun qeydləri movcuddur: Alıcı quşlar haqqında əsərin əlyazması (XVIII əsrdən tez olmayaraq) Kuçarada 5 fevral 1910-cu il tarixdə 2 çona alınmışdır. “Təzkireyi Boqra xanın” (“Boqra xanın tərcümeyi-halı”) kitabı elə orada 6 fevral 1910-cu ildə 5 lana alınmışdır (1256/1840-41); Qaraxoca sakini Dila Übülmehdinin (XX əsrin əvvəli) tərcümeyi-halı əlyazması Turfanda 29 noyabr 1909-cu il tarixdə 3 lana alınmışdır. Bəzən Şərqi Türkistanda XVIII-XIX əsrlərdə sosial-iqtisadi münasibətləri xarakterizə edən qeydlərə rast gəlmək olur. Məhəmməd Sadiq Kaşqarinin “Təzkirayi əzizan” (“Müqəddəslərin tərcümeyi-halı”) əsərinin XVIII əsr əlyazmasındakı qeyddə deyilir ki, Məhəmməd Salih adlı şəxs 1253/1838-39-cu ildə (qeyd əlyazmanın köçürülməsindən xeyli sonra edilmişdir) öz oğlu Axund xocanı bir il müddətinə Sadiq bəyə işçi vermiş və bunun müqabilində üç şahidin yanında 23 təngə almışdır. Bu manuskriptin cildinin iç tərəfində başqa bir qeyd də var. Göstərilir ki, 1260/1844-cü ildə Xacir xoca adlı bir şəxs öz oğlu Yuldaş xocanı 11 təngə müqabilində işçi vermışdir (12 s.423).

Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutu türk əlyazmalarının təsviri zamanı diqqəti cəlb edir ki, Şərqi Türkistandan olan uyğur və özbək əlyazmalarını çox adi və müqayisədə nadir həndəsi basmanaxislı (qızıl suyuna çəkilməmiş) tünd-palıdı kobud dəriyə bükülmüş karton cildlərdədir; kağız qalın, kobud, bozumtul, üzünə lazımınca işlənməmiş liflər çıxır; xətt iridir, səliqəsizdir, elə bil mətn tələsik, pis qəddənmiş qələmlə yazılmışdır.

Elə əlyazmalar da var ki, Orta Asiya nümunəli, daha nazik, parıldayan, açıq kağıza yazılmışdır. Belə əlyazmaların hamısı tərtibatı baxımından Orta Asiya nümunəsinə yaxındır. Lakin bu cür nüsxələrin sayı azdır və adətən poetik, ədəbi-bədii, bəziləri dini və tərcümə əsərləridir.

Kağızın yazı stilinin (iri, səliqəsiz) xarakterinə əsasən güman etmək olar ki, Şərqi Türkistan arealında kağızın yerli növlərindən istifadə olunmuş və öz yazı stili saxlanılmışdır. Bu, uyğur yazısı ilə tərtib edilmiş qədim uyğur əlyazmalarının xüsusiyyətləri ilə izah olunur.

Şərqi Türkistan şəhərlərinin yerli hakimlərinin saraylarında şəxsi kitabxanaları vardı. “Tarixi Rəşidi” əsərinin tərcüməçisi Məhəmməd Niyazın məlumatına görə XIX əsrin 30-40-cı illərində Xotan hökmdarı Məhəmməd Əziz - Vanqın belə kitabxanası fəaliyyət göstərirdi. Orada tərtibatına və qorunub saxlanmasına görə diqqəti cəlb edən əlyazmaları saxlanılırdı.

Uyğur əlyazmaları Sankt-Peterburqda (Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutun), Daşkənddə (Özbəkistan EA Şərqşünaslıq İnstitutu), iri xarici kitab saxlayıcılarında mühafizə edilir. Urumçi və Berlin (M.Hartmanın kolleksiyası) muzeylərində onlardan ibarət kolleksiyalar nümayiş etdirilir. N.F.Petrovski, Y.Y.Lütşa (onların ikisi də Şərqi Türkistanda konsulluqda, ticarət missiyalarında və s. işləmişlər), S.F.Oldenburq uyğur dilində ixtisaslaşmış uyğur əlyazmalarını toplamaqla məşğul olmuşlar .

Şərqi Türküstan ərazisində kitab və kitabxana mədəniyyətinin mükəmməl bir mənzərəsini yaratmaq son dərəcə çətindir. Bunu aşağıdakı problemlər səciyyələndirir.

1. Şərqi Türküstan arealı tarix boyu mürəkkəb geosiyasi məntəqə olmuş, ardi kəsilməyən müharibələr kitab sərvətinin və kitabxana mədəniyyətinin dağılmasına səbəb olmuşdur.

2. Şərqi Türküstan islam və buddist mədəniyyətlərinin qovşağında olduğundan türk xalqlarının bütün dinlərə və millətlərə toleyrantlığı digər trəfdən eyniylə qarşılanmamış, türk yazılı abidələri yanğınlara, qarətlərə, bir sıra hallarda vandalizmə belə məruz qalmışdır.

3. Orta əsr türk əlyazma kitablarının böyük bir hissəsində nə zaman və harada yazılması haqqında qeydlər yoxdur. Bu növ əlyazma nüsxələri hazırda dünyanın müxtəlif kitabxanalarında saxlanılır. Bu nüsxələrin Şərqi Türküstan arealına aid olması haqqında heç bir tədqiqat qəti fikir yürüdə bilmir.

4. Türk xalqları, eləcə də Şərqi Türküstanda erkən orta əsrlərdən insanların dünyavilik ideyaları onları daim qonşu xalqların dillərinə maraq yaradır, alim və ziyalılar iki və ya üç dildə yazıb oxumaq vərdişlərinə yiyələnmişdilər. Şərqi Türküstanda türk dili ilə yanaşı çin, ərəb və hətta fars dilində yazıb oxuyan ziyaılar olmuşdur. Bu xüsusiyyət də türk dilli əlyazmaların kütləsinə təsir göstərməyə bilməzdi.

5. Şərqi Türküstanda avropalıların, rus missioner və tədqiqatçıların, eləcə də çinlilərin türk əlyazma kitablarına XIX əsrin əvvəllərindən göstərdikləri maraq, nadir nüsxələrin alınması, qarəti, dəyişdirilməsi və s. əməliyyatlar da kitab kütləsinin arealda azlığını səciyyələndirirdi.

Çin hakimiyyəti altına keçən Şərqi Türküstanda milli məsələlər təqib olunmağa başlanır və kitabxanalar dağıdılır. əlyazmaların ən kütləvi saxlayıcısı olan kitabxanaların dağıdılması da əlyazma kitablarının kütləsinin azlığını səciyyələndirir.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2011.*
2. *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində dastan və asatirlər. Bakı. Kitabxanaşünaslıq və informasiya. 2010, N3*
3. *Грунина Э.А. К вопросу о письменной традиции в анатолиских памятниках.*
4. *Азимджанов С.А., Вороновский Д.Г. Собрание восточных рукописей Академии Наук Узбекской ССР. Москва. 1963*
5. *Демидова М.И., Костыгова Г.И. Фонды рукописи и печатных изданий на языках народов Востока. Москва. 1963*
6. *Бартолд. Культура мусульманства (сочинения том 1). Москва.1966*
7. *Гуревич А.Я. Категории средневековой культуры. Москва. 1972*
8. *Крачковский И.Ю. Арабская географическая культура. Избранные сочинения том 4. Москва. 1957*
9. *Султанов Т.И. Некоторые вопросы Тюркской среднеазиатской переводной литературы. Москва. 1978*
10. *Наджин Э.Н. Сравнительный анализ текстов наманганского Каирского списка «Китадгу-билиг». СТ. 1974*
11. *Дмитреева Л.В. Алишир Наваи. Диван. Москва. 1964*
12. *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində müqəddəs kitablar. Bakı, "Kitabşünaslıq və nəşriyyat işi", 2010. N2*
13. *Казыев А.Ю. Художественное оформление азербайджанской рукописной книги XIII-XVIII в.в. Москва. 1977*
14. *Кононов А.Н. Махмид Кашгарский и его «Дивану-лугат ит турки», СТ. 1972*
15. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Cild 1. Bakı. 2002*
16. *Мугинов А.М. Описание Уйгурских рукописей института народов Азии. Москва. 1962*
17. *Дмитреева Л.В. Тюркоязычная арабописьменная рукописная книга не ее ареалам. Москва. 1987*
18. *Султанов Т.И. Среднеазиатская и восточнотюркестанская позднее-средневековая рукописная книга. Москва. 1987*
19. *Дмитреева Л.В. Турецкая арабописменная рукописная книга. Москва. 1987*

## MANUSCRIPT BOOK OF THE TURK PEOPLE AND HIS SPREAD AREAL

**P.F.KAZIMI**

***Key words:*** *Book culture, library culture, Eastern Turkistan, Middle Asia, Little Asia, Caucasian areal, Turk people.*

*Investigation defines traditions of manuscript book of the Turk people, their spread areals. Culture of general sides of the culture of Islam period, book repertoire of the time and library is generalized.*

## РУКОПИСНАЯ КНИГА ТЮРКСКИХ НАРОДОВ И ЕЕ АРЕАЛЫ

**П.Ф.КАЗЫМИ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *Книжная культура, библиотечная культура, Восточный Туркестан, Средняя Азия, Малая Азия, Кавказский ареал, Тюркские народы.*

*В статье рассматривается история рукописных традиций Тюркских народов, определяет ее ареалы, сравнивает общность особенно период исламской культуры. Обобщается книжный репертуар и библиотечная культура средних веков.*

# OXUCULARA KİTABXANA XİDMƏTİ SİSTEMİ

**S.M.RZAYEV**
*Bakı Dövlət Universiteti*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
*knyazaslan@mail.ru*

***Açar sözlər:*** *abonement, oxu zalı, oxucu.*

*Elmi tədqiqat işində kitabxanalarda oxuculara xidmət işinin məzmunu, məqsədi və icra olunma sistemi təhlil edilərək izah olunmuşdur. Bununla əlaqədar obonement şöbəsinin və oxu zalının iş xüsusiyyəti, oxucu sorğularının ödənilməsində onların qarşılıqlı faəliyyəti şərh olunmuşdur.*

Mütaliəyə ehtiyacı olan hər bir şəxs öz sorğusunun tam ödənilməsi üçün kitabxanalara müraciət etməli olur. Kitabxanalar isə oxucuların çap məhsullarından ictimai istifadəsinin, bütövlükdə kütləvi mütaliəsinin təşkilatçısıdır. Kitabxanalar öz fondlarında mühafizə etdikləri çap məhsullarından oxucuların həm kitabxana şəraitində, həm də kitabxanadan kənarda istifadə etmələri üçün hər cür şərait yaratmağı özünə borc bilir. Kitabxanalar oxuculara xidmətini həm abonement, həm də qiraət salonlarının köməyi ilə həyata keçirirlər. Abonement şöbəsində işləyən kitabxanaçı özünün bilik və təcrübəsilə fərqlənməli, hər bir oxucunun özünəməxsus marağı, mütaliə sorğusu, oxucu keyfiyyəti, psixoloji xüsusiyyəti vardır ki, onlarla iş aparmalı olan şəxs bütün bu cəhətlərə hazır olmalıdır.

Məlum həqiqətdir ki, abonement və qiraət zallarında oxuculara xidmət işi fəal və məqsədyönlü xarakter daşıyır. Oxucuların ümumi inkişafında, müxtəlif elmlər üzrə ən yaxşı kitabların oxucular arasında təbliğində həlledici rol oynayırlar. Kitabxanaya müraciət edən oxucuların bir qismi abonement şöbəsinin, bir qismi isə qiraət zalının xidmətindən istifadə etməli olurlar. Elə hal da olur ki, oxucu bəzi kitabları abonementdən evdə oxumaq üçün ala bilir, bəziləri isə yeganə nüsxə olduğundan, yaxud həmin kitab əldə-yəni başqa oxucunun istifadəsində olduğu üçün ala bilmir. Belə olduqda oxucu həmin kitabı qiraət salonunda əldə edib, yalnız kitabxana şəraitində istifadə etməli olur. Odur ki, hər bir kitabxananın abonement və qiraət zalları bir-biri ilə sıx şəkildə işləməli olurlar.

Abonement kitabxananın müstəqil şöbəsi olub, kitabxana fondunda mövcud olan çap məhsullarının, kitabların və qeyri-kitab məhsullarının kitab-

xana divarlarından kənar, yəni ev şəraitində istifadə üçün oxucuların istifadəsinə verilməsini təşkil edir. Çap məhsullarının oxucuların istifadəsinə verilmə prosesi müəyyən müddətə və müəyyən miqdarda olması şərtləri nəzərə alınır. Onu da qeyd edək ki, bütün kütləvi kitabxanaların abonement şöbəsi olur. Kütləvi kitabxanalarda həm fondun məzmunu və həcmi etibarilə, həm də oxucunun miqdarına görə abonement şöbəsi əsas yer tutur.

Kütləvi kitabxanalardan bəhs edən professor A.A.Xələfov yazır: "Respublikamızın bütün regionlarında əhaliyə kitabxana xidmətini həyata keçirən kütləvi kitabxanalar ən böyük şəbəkəyə, zəngin fonda və geniş oxucu dairəsinə malikdir. Müasir dövrdə respublikamızda on mindən artıq kitabxana vardır ki, bunlardan 4 mindən artığı universal kütləvi kitabxanalrdır. Bu kitabxanaların fondunda 50 milyona qədər kitab toplanmışdır və onlar 2 milyondan artıq oxucuya xidmət edirlər". Bu faktlardan aydın olur ki, hazırda yalnız kütləvi kitabxanalarda 4 mindən artıq abonement şöbəsi sosial fəaliyyət göstərir, oxucu kontingentinin əksəriyyətinin mütaliə sorğularını ödəyir. Abonement şöbəsində fəaliyyət göstərən kitabxanaçı öyrənmək sahəsində kitabxana şəraitində oxucuların lazımi ədəbiyyatı araşdırmasında köməklik göstərməsində eləcə də mütaliəyə rəhbərlik işində böyük imkanlara malikdir.

Məlumdur ki, kitabxanaların abonement şöbələrindən oxucular evdə istifadə üçün yalnız kitablar və dövri mətbuat nəşrləri deyil, həm də kitabxana fondunda mövcud olan audiovizual materiallar da götürə bilərlər. Oxucular üçün yaranan bu imkanların müqabilində gərək oxucular da kitabxanadan istifadə qaydalarına riayət etmək sahəsində məsuliyyət hissini dərk etsinlər. Belə ki, kitabxanadan ictimai istifadə qaydalarına müvafiq olaraq götürülən hər bir çap məhsulu və başqa audiovizual materiallar yaxşı mühafizə olunmaqla bərabər, həm də müəyyən edilmiş vaxtda kitabxanaya qaytarılsın. Çünki evə götürülən hər bir çap məhsulu kitabxanada başqa oxucular tərəfindən soruşula bilər.

Kitabxanaların abonement şöbələrində oxuculara xidmət işi bir qayda olaraq fərqli yanaşma əsasında həyata keçirilir. Fərqli yanaşma formal xarakter daşımır, əsas oxucu qruplarının xüsusiyyətlərini, eləcə də ayrı-ayrı oxucuların fərdi xüsusiyyətlərini, intellektual imkanını, mütaliə mədəniyyəti səviyyəsini nəzərə almaqla həyata keçirilir. Abonement şöbəsində oxuculara fərqli xidmət prosesində oxucuların mütaliə maraqları, mütaliə sorğuları öyrənilir, ədəbiyyat tövsiyyəsi və oxunmuş kitabların qəbulu işi gedir, eləcə də oxucuların mütaliəsinə rəhbərlik, məlumat-biblioqrafiya və informasiya işi aparılır.

Hazırda əksər ölkələrdə kütləvi və elmi kitabxanalarda müxtəlif formalı abonement növləri təşkil edilir. Fəaliyyət göstərən abonement növləri ümumi, funksiyalı, sahəvi və qrup xidməti prinsiplərinə əsaslanarq tətbiq edilir. Bu baxımdan kitabxanaların xidmət xüsusiyyətlərindən, imkanlarından asılı olaraq,

xüsusilə kitabxananın oxucularının miqdarından və tərkibindən asılı olaraq hansı abonement şöbələrindən istifadə etmək məsələsi həyata keçirilir.

Kütləvi kitabxanalarda ən çox tətbiq edilən abonement növü ümumi abonementdir. Ümumi abonementdə oxuculara kitab verilişi bir kafedradan həyata keçirilir. Bu şəraitdə bir nəfər kitabxanaçı bütün oxuculara xidmət işi üzrə funksiyaları tək yerinə yetirməli olur. O, həm oxucuları kitabxanaya üzv yazır, oxuculara kitab tövsiyyəsi üzrə iş aparır, yəni oxucuların mütaliə sorğularının ödəyir, oxucuların fonddan ədəbiyyat seçməsində onlara kömək edir, oxucular tərəfindən götürülən ədəbiyyatın oxucu formulyarında qeydini aparır, eyni zamanda oxucular tərəfindən qaytarılan kitabları qəbul edir.

Ümumi abonement şəraitində oxuculara fərqli yanaşma üçün ayrı-ayrı oxucu qruplarına xidmətlə əlaqədar xüsusi vaxt ayrılır. Məsələn, kənd kitabxanalarında məktəbli oxuculara xidmət üçün, məktəb kitabxanalarında isə məktəblilərin yaş qrupları əsasında konkret oxucu qrupuna xidmət məqsədilə xüsusi vaxt müəyyənləşdirilir. Belə ki, kiçik məktəbyaşlılar qrupu saat 10-12 arasında, böyük məktəbyaşlılar saat 12-14 arasında, orta məktəbyaşlılar - yeniyetmə yaşlılar isə 14-16 arasında kitabxanaya müraciət etməli olurlar.

Əlbəttə, ümumi abonement hər cür növdən və tipdən olan kitabxanalar üçün münasib sayıla bilməz. Belə ki, zəngin kitab fonduna və çoxmiqdarlı oxucuya malik olan kitabxanalarda ümumi abonement vasitəsilə oxuculara xidmət işini təşkil etmək qeyri-mümkündür. Çünki çoxsaylı oxucuların həm kitabxanaya yazılışı, onların çoxsaylı sorğusunun ödənilməsi, eləcə də oxunmuş kitabların qəbul edilməsi abonementdə bir nəfər işçinin imkanı xaricindədir. Ona görə də bu cür kitabxanalarda başlıca olaraq funksiyalı abonementdən istifadə olunur.

Funksiyalı abonementdə 2-3 kitabxanaçı işləyir. Burada oxuculara xidmət işi müəyyən əməliyyatlar üzrə kitabxanaçılar arasında bölgü aparmaq əsasında qurulur. Məsələn, kitabxanaçılardan biri yeni oxucuları kitabxanaya üzv yazır. İkincisi, oxucu sorğularını qəbul edir və oxucuya verilən kitabların qeydini aparır. Üçüncüsü, oxucular tərəfındən oxunub qaytarılan kitabları qəbul edir. Əlbəttə, abonement şöbəsində bu cür fəaliyyət bölgüsü kitabxanaçıların əməyinin səmərəli təşkili üçün mühüm şərt olub, iş vaxtından səmərəli istifadə etmələrinə imkan verir. Kitabxanaçılar arasında bu cür funksiya bölgüsü heç də daimi xarakter daşımır. Həmin funksiyalar, yəni vəzifə bölgüsü müəyyən vaxt müddətindən sonra dəyişə bilər.

Böyük kitabxanaların təcrübəsindən məlum olur ki, funksiyalı abonement başqa formalı abonementlərlə əlaqəli şəkildə tətbiq edilir. Məsələn, hər hansı böyük kitabxanada qrup abonementi tətbiq edilir. Buradakı qrup abonementlərində bir kitabxanaçı işin öhdəsindən tək gələ bilmədiyi üçün oraya ikinci kitabxanaçı da əlavə edilir. Şöbədə işləyən iki kitabxanaçı arasında iş

bölgüsü aparılmaqla oxucu sorğularını operativ ödəmək, oxucuların vaxtına qənaət etmək, eləcə də həm oxucu sorğularını araşdırmağa, həm də tövsiyə olunan kitablar barədə söhbət aparmağa vaxt imkanı yaranır. Bununla da qrup abonementi ilə funksiyalı abonementin əlaqəli tətbiqi baş verir. Bu isə oxuculara xidmət işinin daha da təkmilləşməsinə təkan vermiş olur.

Bir sıra kitabxanalarda xüsusilə uşaq, məktəb və gənclər, eləcə də ali məktəb kitabxanalarında hökmən qrup abonementinin tətbiqi həyata keçirilir. Çünki bu kitabxanalarda konkret oxucu qruplarına xidmət olunur ki, bu da hər bir oxucu qrupu üçün abonementin təşkilini zəruri edir. Qrup abonementdə oxuculara kitabxana xidməti daha uğurla aparılır və oxucular bu xidmət növündən razı qalırlar. Qrup abonementdə işləmək kitabxanaçılar üçün də rahat olur. Çünki qrup abonementdə kitabxanaçılar öz oxucularını daha yaxşı tanıyır. Belə ki, burada kitabxanaçı müntəzəm olaraq eyni oxucuları görür, oxşar maraqlara əsaslanan oxşar sorğularla qarşılaşır.

Qrup abonementdə işləmək kitabxanaçı üçün başqa bir cəhətdən də səmərəli hesab olunur. Belə ki, konkret bir oxucu qrupu üçün nəzərdə tutulan abonementin kitab fondu da yalnız həmin qrup üçün nəzərdə tutulan kitablardır. Beləliklə, kitabxanaçı xidmət işi ilə əlaqədar həm oxucularını, həm də kitab fondunu yaxşı tanıyır ki, bu da hər oxucuya öz kitabını, hər kitabı öz oxucusuna prinsipinə uyğun olaraq qurulan qrup abonementində işləmək kitabxanaçılar üçün həm də maraqlı olur.

Böyük kitab fonduna və çoxlu oxucu kontingentinə malik olan kitabxanalarda xüsusilə respublika kitabxanalarında abonementin daha bir növündən – sahəvi abonementdən istifadə edilir. Sahəvi abonement dedikdə ayrı-ayrı konkret elm sahələri üzrə ədəbiyyatı fondunda toplayan və kitabxanadan kənarda, həm də kitabxana şəfaitində istifadə üçün oxuculara tövsiyə edən abonement şöbələri nəzərdə tutulur.

Böyük kitab fonduna malik kitabxanada müxtəlif elm sahələri üzrə ədəbiyyata olan sorğuların hamısını bir abonement vasitəsi ilə ödəmək ciddi çətinliklər yaradır. Bu sahədə oxuculara xidmət işini asanlaşdırmaq üçün ayrı-ayrı elm sahələrinə dair ədəbiyyatı əks etdirən abonement şöbələrinin təşkilinə ehtiyac yaranmışdır. Bu cəhətdən böyük kitabxanalarda təbiətşünaslıq elmləri üzrə, humanitar elmlər üzrə və texnikaya dair ədəbiyyat üzrə abonementlər təşkil edilir. Əlbəttə, kitabxananın həm imkanlarından, həm də ehtiyacından asılı olaraq sahəvi abonementlərin sayını həm artırmaq, həm də azaltmaq olar.

Kitabxanada sahəvi abonementin təşkili bir çox cəhətdən səmərəli sayıla bilər. Üstün cəhətlərdən biri odur ki, bir elm sahəsi üzrə abonementdə işləyən kitabxanaçı həmin elm sahəsi üzrə ixtisaslaşır, fondu yaxşı tanıyır və nəticədə bu elm sahəsi üzrə hər hansı oxucu sorğusunu operativ şəkildə ödəmək imkanı əldə edir. Kitabxanaçı həm də bir elm sahəsi üzrə mütaliə edən mütəxəssis

oxucuları tədricən tanıdığı üçün onların sorğusunu ödəməkdə çətinlik çəkmir. Sahəvi abonementin məlumat aparatı da konkret bir sahə üzrə ədəbiyyatı əks etdirdiyi üçün oxucuların ondan istifadəsi kifayət qədər uğurlu olur.

Hər bir oxucu kitabxana xidmətindən daha geniş istifadə üçün kitabxananın oxu zalına müraciət etməyə üstünlük verir. Oxucuların mütaliə tələbatının tam və dolğun ödənilməsi, hər bir oxucunun müəyyən mövzu üzrə daha çox ədəbiyyata müraciət edə bilməsi, eləcə də mövcud ədəbiyyatdan daha dolğun səmərələnməsi üçün kitabxananın oxu zalı daha münasib hesab olunur.

Oxu zalı oxucuların kitabxana şəraitində mütaliəsi ilə əlaqədar məşğul olması, müxtəlif dövri nəşrlər, kitablar, eləcə də audiovizual materiallarla səmərəli işləyə bilməsi üçün nəzərdə tutulan, xüsusi binası və avadanlığı olan şöbədir. Oxu zalının özünəməxsus xüsusi köməkçi fondu olur. Oxu zalının köməkçi fondundan mütaliə üçün evə heç bir material verilmir. Bununla belə oxu zalı oxucu sorğularının ödənilməsi və oxuculara kitabxana xidməti ilə əlaqədar abonement şöbəsi ilə müqayisədə böyük üstünlüklərə malikdir.

Qeyd etdiyimiz kimi, oxuculann kitabxana xidmətindən səmərəli istifadə etməsi baxımından abonement şöbəsi ilə müqayisədə qiraət salonlarının üstünlüyü böyükdür. Hər şeydən əvvəl nadir nüsxələr, lüğətlər, ensklopediyalar, məlumat kitabları və dövri nəşrlər oxucuların kitabxanadan kənar istifadəsi üçün abonement şöbəsindən verilmir. Oxucular qiraət salonuna hər cür sorğu ilə müraciət edirlər. Belə ki, müxtəlif səviyyəli oxucuiar buraya tədrislə, peşə marağı, ictimai fəaliyyətlə bağlı müxtəlif məsələlərin mahiyyətini öyrənmək üçün müvafiq ədəbiyyatı araşdırmaq məqsədilə gəlirlər. Gələn oxucular burada kitabxananın kitab fondunun bütün nəşr növlərindən, nəşr tipindən istifadə etmək imkanna malik olduqlarını bilirlər. Oxucular adətən gündəlik olaraq dövri mətbuatla tanış olmaq istəyirlər. Kitabxananın aldığı bütün dövri nəşrlər məhz qiraət salonunda oxucuların istifadəsinə verilir. Burada nəinki gündəlik dövri mətbuat, həm də əvvəlki illərin belə ayrı-ayrı qəzet və jurnal nömrələri oxucular tərəfindən istifadə oluna bilir.

Məlum olduğu kimi, ayrı-ayrı kitabxanalar öz oxucularının mütaliə sorğularının hamısını öz kitabxanaları hesabına ödəyə bilmirlər. Yəni öz fondlarında olmayan ədəbiyyatı kitabxanalararası abonement vasitəsilə başqa kitabxanalardan müvəqqəti istifadə üçün götürürlər. Müəyyən müddətə başqa kitabxanalardan alınmış kitablar, jurnallar, mikrolentlər oxucuların istifadəsi üçün evə verilmir. Belə materiallardan ancaq kitabxanın qiraət salonunda istifadə etmək ixtiyarı verilir. Qiraət salonlarında məşğul olan oxucular məşğuliyyət prosesində tez-tez kitabxanaçının köməyinə ehtiyac duyurlar. Hər hansı termini, ifadəni müəyyənləşdirmək, hər hansı məlumatı dəqiqləşdirmək, hər hansı məlumat kitablarına, ensklopediyalara, lüğətlərə baxmaq və s. məsələlərin həllində kitabxanaçının operativ köməyinə ehtiyac duyurlar. Qiraət salo-

nunda işləyən kitabxanaçı isə belə məsələlərdə oxuculara böyük məmnuiyyətlə kömək edir. Bütün bu cür xidmət sahəsi nəticəsində qiraət salonlarında həyata keçirilən mütaliə prosesi səmərəli olmaqla bərabər, həm də oxucular kitabxanadan daha səmərəli istifadə etmək anlayışı qazanır və onların ümumi mütaliə mədəniyyətləri yüksəlir.

Qiraət salonunda məlumat aparatının, xüsusilə kataloq və kartoteka sisteminin, eləcə də məlumat ədəbiyyatından ibarət xüsusi fondun mövcudluğu oxucuələr üçün mühüm əhəmiyyət kəsb edir. Onu da demək lazımdır ki, bu cür məlumat xarakterli nəşrlərin və kataloq-kartoteka sisteminin qiraət salonlarında yaradılması kitabxanaların oxucuların mütaliə sorğularını tam, dolğun və məqsədyönlü ödəyə bilməsi işində mühüm rol oynayır. Çünki qiraət salonunda məşğul olarkən, oxucular onları maraqlandıran istənilən məsələ barədə, istənilən suala cavab tapmaq barədə, eləcə də istənilən mövzuya dair ədəbiyyatı harada və necə axtarmaq barədə kitabxanaya müraciət etməli olurlar. Bütün bunlar qiraət salonunda mükəmməl məlumat aparatının olmasını vacib etməklə bərabər, həm də oxucuların rəngarəng suallarına cavab verməkdə kitabxanaçıdan lazımi hazırlıq və pedaqoji bacrıq tələb olunur. Çünki, müasir şəraitdə zəngin məhsulları ümmanından, eləcə də konkret kitabxananın kitab fondundan məqsədəmüvafiq istifadə etmək, kitabxana şəraitində əldə edilən çap məhşullarından maksimum səmərələnmək əksər oxucular üçün müəyyən çətinliklər törədir. Bu problemin həllində qiraət salonunda işləyən kitabxanaçının məqsədyönlü pedaqoji fəaliyyəti həlledici rol oynaya bilir. Bu baxımdan qiraət salonunda kitabxanaçıya müraciət edən hər bir oxucunun köməkçisi olan kitabxanaçı özünün təbdiğatçılıq və tərbiyəedici fəaliyyətini oxucu və kitabla dialektik vəhdətdə əlaqələndirməli olur.

Məlum olduğu kimi, qiraət salonunda kitabxanaçıya istər psixoioji baxımdan, istərsə də elmi səviyyə və ümumi dünyagörüşü cəhətdən müxtəlif oxucular müraciət edir. Bu cür müraciət edənlərin mütaliə tələbatlarını təmin etmək, bu işdə onların köməkçisi və istiqamətləndirici olmaq, bu işi nümunəvi qaydada icra etmək üçün qiraət salonunda çalışan kitabxanaçı yüksək intellektual və mədəni səviyyəyə malik bir şəxsiyyət olmalıdır. Oxucularla birbaşa təmasda olan kitabxanaçı geniş mütaliəçi, eləcə də yaradıcı oxucu tipinə məxsus olmalıdır. Bu cür oxucu tipinin xüsusiyylərinə malik olmadan oxucunu münasib ədəbiyyatın mütaliəsinə istiqamətlətləndirmək tələb etdiyi ədəbiyyatın onun sorğusuna nə dərəcədə cavab verdiyini müəyyənləşdirmək olmaz.

Hər bir kitabxana öz oxucularının mütaliə tələbatlarını ödəmək üçün qiraət salonlarının köməkçi fondunu təkmilləşdirməyə xüsusi fikir verməlidir. Ümumiyyətlə qiraət salonlarında oxucularla işin müvəffəqiyyətli həllində köməkçi fondlar xüsusi rol oynayır. Hətta böyük kitabxanalrda belə qiraət salonlarının köməkçi fondlarının hesabına oxuculara ümumi kitab verilişinin

böyük bir qismi həyata keçirilir. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının qiraət salonlarının köməkçi fondunun hesabına gündəlik ümumi oxucu sorğularının üçdə iki hissəsi ödənilə bilir.

Əlbəttə, bu hal oxucuların sorğularının tez, operativ ödənilməsində mühüm rol oynayır ki, bu da oxucuların lazımi odəbiyyatı uzunmüddət gözləmələrinin, nəticədə səmərəli vaxtın itirilməşinin qarşısını alır.

Bir cəhəti qeyd etmək lazımdır ki, hər bir qiraət salonu üçün köməkçi fondun düzgün seçilməsi burada oxucularla aparılan fərdi işi asanlaşdırır, hər bir oxucunun gündəlik mütaliə sorğularının tam və dolğun ödənilməsi üçün imkan yaradır. Hər bir qiraət salonunun koməkçi fondu həmin qiraət salonunun vəzifələrinə müvafiq olaraq, eləcə də oxucuların tələblərinə və mütaliə maraqlarına uyğun şəkildə komplektləşdirilir.

Hər bir kitabxanada fəaliyyət göstərən qiraət saionunun köməkçi fondu oxucuların gündəlik mütaliə sorğularını operativ, tam və dolğun ödəməyi eləcə də sorğulan ən aktual ədəbiyyat hesabına ödəməyi nəzərdə tutulduğu üçün bu fonda, əsasən yeni nəşr olunan ədəbiyyat toplanmalıdır. Onu da qeyd edək ki, müxtəlif nəşr növlərinin, nəşr tiplərinin istifadə olunma müddəti, yəni ömrü müxtəlifdir. Məsələn, nəşr olunan elmi əsərlər uzunmüddət oxucuların mütaliə sorğularına sabit şəkildə cavab verə bilir. Elmi təfəkkürün məhsulu olan hər bir elmi əsər uzun bir dövrün elmi anlayışlarını əks etdirdiyi üçün uzun müddət istifadədə qalır. Ona görə də qiraət salonlarının köməkçi fondunun tərkib hissələri olan müxtəlif növlü çap məhsullarının saxlanma müddəti müxtəlif olmalıdır.

Qiraət salonlarının köməkçi fondunu oxucuların sərbəst istifadəsinə vermək üçün burada açıq rəf üsulunu tətbiq etmək vacib sayılır. Ona gərə də oxucuların bu fonddan daha səmərəli istifadəsinə nail olmaq üçün qiraət salonundakı köməkçi fondun ya bir qismini, ya da tamamilə bütövlükdə açıq rəf üsuluna - sərbəst istifadəyə keçirmək məsləhətdir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, əgər qiraət salonundakı köməkçi fondu bütövlükdə sərbəst istifadəyə verməyə imkan olmazsa, onda heç olmazsa ən aktual ədəbiyyatı, oxucuların gündəlik daha çox soruşduqları kitabları, həmçinin məlumat kitablarını, lüğətləri, ensklopediyaları eləcə də cari dövri mətbuatı sərbəst istifadəyə vermək lazımdır.

Universal respublika kitabxanalarında müxtəlif oxuculara fərqli xidməti həyata keçirmək üçün ümumi və ixtisaslaşdırılmış qiraət salonları sistemi təşkil olunur. Çünki oxu salonları müxtəlif kateqoriyalı oxucuların müxtəlif istiqamətli maraqlarına uyğun tələbatlarını ödəmək məqsədinə xidmət edir.

İxtisaslaşdırılmış qiraət salonları isə mütəxəssis oxucuların peşə sorğularını tam və dolğun ödəmək, eləcə də onların kitabxananın fondundan daha səmərəli istifadəsini təmin etmək üçün təşkil olunur. Daha böyük kitabxana-

larda qiraət salonları ixtisaslaşdırılmış, eləcə də xüsusi təyinatlı qaydada təşkil edilir. Belə ki, belə qiraət salonları: a) elm sahələri və elmlər kompleksi üzrə (təbiətşünaslıq üzrə qiraət salonu, ictimai elmlər üzrə qiraət salonu, texniki elmlər üzrə qiraət salonu və s.) b) Nəşrlərin xarakteri, növü və başqa materiallar üzrə (cari dövri nəşrlər salonu, yeni daxil olan ədəbiyyat, məlumat biblioqrafiya materialları, mikrofilimlər, not nəşrlər və s. üzrə qiraət salonları), c) oxucuların hazırlıq səviyyəsinə görə (ümumi və elmi qiraət salonları. akademiklər üçün qiraət salonları, eimlər doktorları və professorlar üçün qiraət salonları) təşkil edilir.

Respublika kitabxanalarında ixtisaslaşdırılmış patent-texniki, kənd təsərrüfatı, not-musiqi ədəbiyyatı şöbələri yanında, eləcə də dövri nəşrlər üzrə xüsusi qiraət salonları yaradılır. Bu baxımdan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasını xüsusi nümunəsi kimi göstərmək olar. Bu kitabxanada oxuculara differensial (fərqli) xidmət etmək məqsədilə hazırda 13 oxucu zalı fəaliyyət göstərir. Elmi işçilərə və mütəxəssisiərə dəqiq elmlər, texniki, humanitar elmlər zallarından əlavə not-musıqi, xarici ədəbiyyat zalı, dövri mətbuat, mikrofilimlər, nadir kitablar və s. zallarda xıdmət edilir. Gənclərə, ali, orta ixtisas məktəbləri tələbələrinə isə 280 oxucu tutan işıqlı ümumi oxu zalında xidmət olunur.

Elmi zallarda alimlərə aspirantlara, ali, orta-ixtisas, orta məktəb müəllimlərinə, xalq təsərrüfatının bütün sahələrində olan mütəxəssislərə xidmət edilir. Sahəvi qiraət zallarında oxucuların fonddan səmərəli istifadəsi üçün müvafiq şərait yaradılmışdır.

Kitabxananın elmi qiraət zalında oxucuların mütaliə sorğularının ödənilməsi ilə bərabər, müntəzəm olaraq tarixi və əlamətdar günlərə və qiraət salonlarının köməkçi fondlarına daxii olan yeni ədəbiyyatın təbliğinə dair müxtəlif əyani və şifahi kütiəvi tədbiriər keçirilir. Bu qiraət salonlarının hər birində məlumat aparatı yaradılmışdır ki, bu də hər bir qiraət salonunun oxucularının köməkçi fondundan yaxşı istifadə edə bilməsinə kömək edir.

Kitabxanalarda konkret oxucu qruplarına xidmət məqsədilə yaradılan qiraət salonlarına ən yaxşı nümunə uşaq kitabxanalarında təşkil edilən qiraət salonlarıdır. Uşaq kitabxanalarının qiraət salonlarının başqa kitabxanalardan ciddi şəkildə fərqlənən özünəməxsus xüsusiyyəti vardır. Bu xüsusiyyətlər böyük uşaq kitabxanalarında daha qabarıq şəkildə özünü göstərir. Məsələn M.Seyidzadə adına Bakı Şəhər Mərkəzi uşaq kitabxanasında uşaqların üç yaş qrupu üzrə xüsusi qiraət saloniarı fəaliyyət göstərir. Belə ki, burada məktəbəqədər yaşlılar, kiçik məktəbyaşlılar, həm də orta məktəbyaşlı uşaqlar üçün həm abonement; həm də müstəqil qiraət salonları yaradılmışdır.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. 2 cilddə. C. 1-2. B. 2001.- 352 s.*
*2. Rzayev S.M. Kitabxana xidməti. Dərslik. B., 2009.- 337 s.*
*3. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2008-ci il hesabatı*

## SYSTEM OF LIBRARY SERVICE TO READERS

**S.M.RZAYEV**

***SUMMARY***

***Keywords:*** *subscription, reading-hall, reader.*

*The scientific research paper presents the contents of the libraryservice with the readers of this particular work of screenedlending and reading room, and mutually connected to provide the reader on demand.*

## СИСТЕМА БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЯМ

**С.М.РЗАЕВ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *обонемент, читательный зал, читатель.*

*В научно исследовательской работе изложены содержания системы библиотечного обслуживании читателями связи, в этом обследованы особенности работы отдела абонемента и читательного зала и взаимно связные отношении в обеспечении читательского спроса.*

# BİLİKLƏR CƏMİYYƏTİ VƏ KİTABXANALAR

**E.Y.ƏHMƏDOV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***Bakı Dövlət Universiteti***
***knyazaslan@mail.ru***

*Məqalədə biliklər cəmiyyətinin mahiyyəti açıqlanır. Bu cəmiyyətdə kitabxanaların klassik modelinin saxlanılmasına üstünlük verilir. Qeyd edilir ki, ənənəvi mütaliə bəşəri problem olaraq bütün cəmiyyətlər üçün xarakterikdir.*

***Açar sözlər:*** *biliklər, cəmiyyət, təhsil, kitabxana, məktəb.*

Son zamanlar qloballaşma, informasiyanın sürətli yayılması informasiya kommukasiya sistemlərinin inkişafı, kitabxana-informasiya sistemlərində yeni texnoloji problemlərin və texnologiyaların yüksələn xətlə inkişafı və s. kımi mühüm əhəmiyyət kəsb edən proseslərin dinamikası insan şüurunun qavrama tezliyindən daha sürətlə baş verir. İlk növbədə onu qeyd etməliyik ki, bu proseslər öz dinamik inkişafı və yüksək sürəti nəticəsində qarşıya çıxa biləcək fəsadları aradan qaldırmaq üçün qlobal ölçüdə "İnformasiya cəmiyyətindən yeni "Biliklər cəmiyyəti"nə keçid prosesi düzgün şəkildə qurulmalıdır. Şübhəsiz ki, bu qlobal məsələdir. Doğrudur, biliklər cəmiyyətinin vahid universal modeli yoxdur. Çünki universal model "Biliklər cəmiyyəti" anlayışı məhdud çərçivəli bir anlayışa çevrilə, daha aydın desək bu universal model konkret ölkənin, regionun dil mədəniyyətindəki fərdiliyi, milliliyi özündə əks etdirə bilməz. Buna baxmayaraq tarixən olduğu kimi ümumdünya təcrübəsinə isnad edərək cəmiyyətin Azərbaycan modelinin qurulması qarşıda duran ən zəruri şərtdir. Dünya təcrübəsində artıq belə bir fikir formalaşmışdır ki, "Biliklər cəmiyyəti"nin milli modelini qurmaq istəyən hər bir ölkənin və xalqın başlıca kriteriyası canlı insan və bu insanın mənsub olduğu mədəniyyətin tipi və ənənələridir. Daha doğrusu, bu mədəniyyət tipinə aid insanların yüksək intellekti, onun təfəkkürü, bilik və bacarıqlarıdır. Çünki mədəniyyət ötən yüzilliyin əsas göstəricisidır və hər bir xalq tarixdə məhz bu mədəniyyəti ilə yadda qalır.

Qeyd etdik ki, yeni "Biliklər cəmiyyəti"nə keçid qlobal bir prosesdir. Bu haqda YUNESKO-nun sənədlərində maraqlı fıkirlər var. Biliklər cəmiyyətinin milli modelini yaradarkən ilk zəruri meyara diqqət yetirmək lazımdır:

1. Dəyərlər iqdisadiyyatına keçid.
2. Mədənjyyətin sistemli idarə olunmasının zəruriliyi.

Məhz bu baxımdan yeni cəmiyyət quruculuğu, bazar iqtisadiyyatı şəraitində kitabxana işinin, kitabxanaşünaslıq elminin elmi-nəzəri və metodolojı

əsaslarının yenidən işlənməsi və kitabxanaların gələcəyinin müəyyənləşdirilməsi zərurəti meydana çıxır. Yeni iqtisadi və siyasi sistemin formalaşdığı bir şəraitdə başlıca söhbət kitabxana işi sahəsində mövcud olan prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə yenidən formalaşmasından gedir. Bu isə öz növbəsində kitabxana işinin bütün sahələrində köklü islahatların aparılmasını, kitabxana quruculuğunu informasiyalaşdırılmış cəmiyyətin tələbləri səviyyəsinə yüksəltməyi, yeni informasiya texnologiyası ilə təmin etməyi tələb edir.

Belə bir strateji əhəmiyyət kəsb edən islahat mərhələsi təhsil kitabxanalarının da təşəkkülünə və inkişafına, habelə müasir durumuna baxışların və iş metodlarının yaradılmasını tələb edir. Azərbaycanda təhsil kitabxanalarının yaranıması, formalaşması və inkişafı çox mürəkkəb və çətin tarixi yol keçmiş və böyük uğurlar qazanmışdır. Məhz buna görədir ki, respublikamızda təhsil kitabxanalarının tarixi, onların gənc nəslin təhsil və tərbiyəsindəki fəaliyyəti, ciddi tədqiqat obyekti kimi diqqət mərkəzində olmuşdur Azərbaycan kitabxanaşünaslıq elminin banisi, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfovun kitabxanaşünaslığın nəzəri və təcrübi problemlərinin öyrənilməsi sahəsindəki səmərəli elmi-tədqiqat fəaliyyəti təhsil kitabxanalarının da tarixinin araşdırılması həmçnin müasir dövrdəkı fəaliyyəti və gələcək perspektivləri üçün geniş imkanlar açmışdır. Təhsil kitabxanaları uşaqların mütaliəsinə, tədris-tərbiyə prosesinə, sinifdənkənar fəaliyyətin təşkilinə xidmət edən mədəni-maarif müəssisələridir. Məlumdur ki, respublikamız müstəqillik qazandıqndan sonra ölkəmizdə təhsil islahatları aparılır, təhsil milli zəmin əsasında yenidən qurulur: Təhsil islahatlarının apanlması təhsil müəssisələrinin o cümlədən bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən məktəb kitabxanalarının işlərinin yenidən qurulmasını tələb edir. Təhsil kitabxanaları məktəbin tədris ədəbiyyatı mərkəzi, məktəbin sinifdənkənar təlim və tərbiyə mərkəzi olduğundan onların təhsil islahatlarında yaxından iştirak etməsini təmin etmək üçün kitabxanaların işının də yenidən qurulması zərurəti böyük aktuallıq kəsb edir. Məhz buna görədir ki, beynəlxalq təşkilatlar məktəb kitabxanalarının işinin yenidən qurulmasına böyük diqqət yetirilməsini ön plana çəkirlər. Təhsil kitabxanasının ümumi və xüsusi statusunun müəyyən edilməsi, dəyişən informasiya məkanında onun yerinin və perspektivinin rnüəyyən edilməsi beynəlxalq kitabxana təşkilatlarının da diqqətini cəlb edir. Artıq neçə ildir ki, kitabxana elm aləmində «YUNESKO-nun kitabxanalar haqqında manifesti» fəaliyyət göstərir. Bu sənəd dünyanın 20 "dilinə tərcümə edilmişdir. IFLA-nın 2000-ci ildə İsrailin Qüds şəhərində keçirilmiş konqresində bu sənədin yeni variantını («Məktəb kitabxanaları haqqında manifest») qəbul etmişdir. Manifest təhsil kitabxanalarının statusunu müəyyənləşdiril-

məklə onların fəaliyyət sahəsi, vəzifələri, hüquqi vəziyyəti haqqında məsələlərə aydınlıq gətirmişdir.

Manifestdə göstərilir: Müasir cəmiyyətdə bilik müstəsna rola malikdir. Belə bir şəraitdə təhsil prosesinin uğurla həyata keçirilməsi üçün lazım olan informasiyanı təqdim edən təhsil kitabxanaları şagirdlərdə təxəyyülü, həmçinın özünütəhsilə olan tələbatı inkişaf etdirir, informasiya məkanından baş çıxarmağa alışdırır, vətəndaş məsuliyyəti tərbiyə edir. Təhsil kirabxanaları şagirdlərə öyrədici kompüter proqramları, kitablar, digər informasiya resursları təqdim etməklə onlarda tənqidi düşüncəni inkişaif etdirir və onlara informasiyanın bütün növlərindən istifadə etmək vərdişləri aşılayır. YUNESKO-nun "İctimai kitabxanalar haqqında manifestin"in prinsiplərinə uyğun olaraq məktəb kitabxanası daha geniş kitabxana-informasiya sisteminin tərkib hissəsidir.

Məlumdur ki, kitabxanaçılarla və müəllimlərlə əməkdaşlıq şagirdlər öz savad səviyyəsinin, mütalə vərdişlərinin, yaddaşının inkişafına və həm də informasiya kommunikasiya texnologiyalarından istifadə etmək bacarığının yaranmasına köınək edir.

Təhsil kitabxanalarından səmərəli istifadə bərabər şəkildə hamıya həm şagirdlərə, həm də məktəb işçilərinə müyəssər olmalıdır. Bu zaman həm şagirdlərə, həm də məktəbin işçilərinə yaş, cins, irq, dini əqidə, milliyət, sosial status əlamətlərinə görə ayrı seçkilik qoyulmamalıdır. Əsas xidmət növlərindən və materiallardan istifadə edə bilməyən, istifadə etmək iqtidarında olmayanlara xüsusi xidmət göstərməlidir. Kitabxananın xidmət növləri və fondlarının yaradılması BMT-nin "Ümumdünya insan haqları və azadlıqları bəyannaməsi"nin prinsiplərinə əsaslanmalı və ideoloji, siyasi və dini senzuranın hər hansı bir formasının təsirinə və ya kommersiya təzyiqinə məruz qalmamalıdır.

Daha sonra manifestdə göstərilir:

Təhsil kitabxanası təhsilin inkişafına, informasiyanın təbliğ edilməsinə, iqtisadi, sosial və mədəni inkişafa yönəlmiş hər hansı uzunmüddətli fəaliyyətin ən vacib sahəsidir. O, yerli, regional və dövlət inzibati rəhbərliyin tabeliyindədir və onun fəaliyyət göstərməsi xüsusi qanunvericilik aktları və siyasi proqramlar tərəfindən dəstəklənir. Təhsil kitabxanası sabit qaydada və kifayət miqdarda maliyyələşdirilməlidir ki, bu vəsaitə yüksək peşə səviyyəli ştat saxlamaq, lazımi materiallar, texnika və avadanlıq almaq mümkün olsun. Təhsil kitabxanaları pulsuz olmalıdır. Əgər təhsil kitabxanaları digər tip kitabxanaları ilə məsələn ictimai kitabxana ilə eyni bir avadanlıq və resurslardan artıq istifadə edirsə, təhsil kitabxanasının xüsusi vəzifələri tanınmalı və göstərilməlidir. Manifstdə kitabxanaların vəzifələri belə müəyyənləşdirilmişdir.

• Təhsil konsepsiyasında və məktəb proqramında nəzərdə tutulan təhsil vəzifələrini dəstəkləmək və onu təmin etmək;

• Usaqlarda mütaliə və təlimə olan maraq və bundan sevinc duymaq qabiliyyətini inkişaf etdirmək;

• Həm biliklərin əldə edilməsi, həm təffəkürün inkişafı, həm də həzz almaq üçün informasiyanın yaradılması və istifadəsi imkanların təşkil etmək;

• Şagirdlərin sənədin növündən,formatından, maddi daşıyıcı formasından asılı olmayaraq informasiyanın tənqidi qiymətləndirilməsi və istifadəsi vərdişlərini əldə etmələrinə, əldə edilmiş məlumatları praktikada istifadə etmələrinə maraq yaradılması və bu zaman cəmiyyət daxilində kommunikasiya üsullarına ciddi diqqət yetirilməsinə kömək etmək

• Şagirdlərin müxtəlif ideyalarla, rəylərlə və təcrübə ilə tanış olmasına imkan verən yerli, regional, milli və beynəlxalq resurslarla təmin etmək və həm də digər imkanlar yaratmaq;

• Mədəni və sosial özünü dərki tərbiyə edən şagirdlərdə emosional inkişafa xidmət edən tədbirləri təşkil etmək;

• Müəllim və şagirdlərlə, məktəb müdriyyəti və valideynlərlə məktəbin vəzifələri həllinə yönəlmiş iş aparmaq;

• İnformasiya ilə azad müyəssərliyin və zehni azadlığın demokratik prinsiplərinə əsaslanan fəal vətəndaş mövqeyinin tərbiyə edilməsinin vacib şərti olması ideyasının təəssübkeşliyi;

• Mütaliənin məktəb kitabxanasında həm məktəbdən kənarda olan resurslarını təmin etmək;

Bu vəzifələrin həyata keçirilməsi üçün təhsil kitabxanası öz siyasətini işləyib hazırlayır. Xidmət istiqamətlərini inkişaf etdirir, resurslarını komplektləşdirir, lazımi informasiya mənbələrinə fiziki və zehni müüəssərliyi təmin edir və bu zaman məsləhət verir və həmin vəzifələrin həlli üçün peşəkar səviyyədə təhsil almış əməkdaşları işə götürür.

Manifestdə təhsil kitabxanalarının kadrlarla təmini və onların vəzifələri haqqında məlumat verilmişdir. Manifestdə göstərilirki, təhsil kitabxanasının müdiri planlaşdırma və fəaliyyətin tənzimlənməsi üçün məsul olan, mövcud olan imkanları nəzərə almaqla kitabxananın ştatını formalaşdıran məktəb kollektivinin üzvüdür. Təhsil kitabxanalarının fəaliyyəti konkret təhsil müəssisələrində mövcud olan maliyyə imkanına, təhsil proqramları xüsusiyyətlərinə, tədris metodikalarına uyğun şəraitdə qurulur və dövlətin hüquq və maliyyə sistemınə müvafiq olaraq həyata keçirilir. Təhsil kitabxanaları iş şəraitinin müxtəlifliyinə baxmayaraq hər bir kitabxanaçı kitabxana xidmətini səmərəli şəkildə həyata keçirmək üçün zəruri olan biliklərə malik olmalıdır ki, bunlara da informasiya resursları, kitabxana işi, informasiya siyasəti və informasiya təhsilin metodikası sahəsində dolğun biliklər tələb edir. İnformasiya bazasının və informasiya şəbəkələrinin fasiləsiz inkişafı şəraitində təhsil kitabxanaçılarının üzərinə, şagird və müəllimlərə, informasiya vasitələrinin işlənməsi vərdiş-

lərinin öyrədilməsi funksiyası qoyulur ki, bu da kitabxanaçıdan öz peşə səviyyəsinin daim artırılması tələb edir.

Dövlət orqanları, təhsilə cavabdeh nazirliklər vasitəsilə bu manifestin prinsiplərinin həyata keçirilməsinə yönəldilmiş, strategiyanı, siyasəti və planlaşdırmanı təşkil edir, həm də müəllimlərin və kitabxanaçıların peşə təhsili sistemi vasitəsilə həmin manifestdədə əks olunmuş ideyaların təbliğini həyata keçirir. Təhsil sisteminə həm baza təhsili, həm də ixtisaslaşdırma sistemi daxildir. Beynəlxalq səviyyədə təhsil kitabxanalarının fəaliyyətini tənzimləyən hüquqi sənədlərin qəbul edilməsi və ratifikasiyası Azərbaycan təhsil kitabxanalarının inkişaf perspektivlərinə səmərəli təsir göstərə bilər

Bildiyimiz kimi, informasiya axını və onun köhnəlməsi sürətlə baş verən bir prosesdir. İstər informasiya, istərsə də kommunikasiyaların nəzərə çarpacaq dərəcədə artması "informasiya xətaları"nın da artmasına səbəb olur. İnformasiya istifadəçisi sürətli informasiya axınını izləməkdə və lazımi. məlumatı əldə etməkdə çətinliklərlə üzləşir. Dəyərlər iqlisadiyyatına keçid meyarı da məhz bu neqativ halların aradan götürülməsinə yönəldilmişdir. Yəni, ən dəyərli, ən lazımlı, konkret informasiyanın saxlanılması. Burada məzmun anlayışı ortaya çıxır. Dəyərlər unikal məzmun kəsb etməlidir. İnformasiya əhəmiyyətli, mahiyyətli, konkret və dəyərli məzmuna malik olmalıdır. Belə informasiya istifadəçinin işini asanlaşdırır, onun tələbatına uyğun olur ki, nəticə etibarilə sorğu ödənilir. Hansı ki, bu kitabxana-iformasiya sisteminin əsas vəzifəsidir.

Mədəniyyətin sistemli idarə olunmasının zəruriliyi meyarına gəldikdə isə onu deyə bilərik ki, milli mədəniyyət özlüyündə unikal dəyərlərin məcmusudur. Buradan görünür ki, hər iki meyar bir-biri ilə görünməz, incə tellərlə bağlıdır. Mədəniyyət hər bir xalqın tarixdə sonsuz yaşamasının ən etibarlı qarantıdır. Mədəniyyət hər bir millətin milli irsini, milli mentalitetini, adət və ənənələrini, əxlaqi keyfıyyətlərini özündə təcəssüm etdirən, onun hər bir sahəsini ayrılıqda işıqlandıran universal bir anlayışdır. Kitabxanalar isə tarixən milli mədəniyyətin əsas qoruyucusu rolunu oynamışlar. Göründüyü kimi, yeni yaranan "Biliklər cəmiyyəti" və cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanalar bilavasitə və ya dolayı yolla vəhdət təşkil edirlər. "Biliklər cəmiyyəti" adlanan müasir qlobal bir mühitin informasiyalaşmasına kitabxanalar əsaslı surətdə təsir edir. Biliyin kitablarda, kitabların isə kitabxanalarda toplanıb mühafızə olunması kitabxanalar "Biliklər cəmiyyəti"nin əsas atributuna çevirir. Qloballaşan dünyada milli mədənivyət çox mühüm əhəmiyyət kəsb edir. O cümlədən Azərbaycan xalqının mədənivyəti, onun zəngin ənənələri, Qərb və Şərq arasında tutduğu mövqe, dünyada baş verən bütün yenilikləri sistemli qaydada mənimsəmək qabiliyyəti bir daha sübut edir ki, Azərbaycan mədəniyyəti məhz gələcəyə istiqamətləndirilmişdir

İnformasiyalaşmış cəmiyyət elə sürətlə inkişaf etmişdir ki, müasir dövrdə demək olar ki, öz inkişafının kulminasiya nöqtəsinə çatmaqdadır. Bu da inkişaf edən böyük bir kütləni öz ardınca apara bilən, qlobal miqyası əhatə etməyə qadir olan, insanlann mənəvi potensialının inkişafına zəmin yaradan, yüksək keyfiyyət göstəricilərinə malik yeni bir cəmiyyətin yaranmasına yol açır. Sadaladığımız bütün bu keyfıyyətləri özündə ehtiva edən belə bir cəmiyyət yeni yaranmaqda olan "Bilikiər cəmiyyəti"dir. Təbii ki, bu cəmiyyət birdən-birə yarana bilməz. Əvvəlcə "informasiya cəmivyəti"ndən "Biliklər cəmiyyəti"nə keçid dövrü keçməli, daha sonra hər iki cəmiyyət müəyyən müddət paralel olaraq inkişaf etməlidir. Hazırda hər iki anlayışa çox tez-tez rast gəlinir. Bu sahə üzrə mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, istər informasiya cəmiyyəti istərsə də biliklər cəmiyyətinə aid aktual məsələlərin heç biri öz mahiyyəti etibarilə texniki məsələlər deyildir. Aralarında oxşar cəhətlərin olmasına baxmayaraq hər iki anlayışı bir-birindən fərqləndirən mühüm amillər mövcuddur. "İnformasiya cəmiyyəti" anlayışı kompüter texnologiyalarının nailiyyətlərinə, qlobal inlormasiya və kommunikasiya şəbələlərinin inkişafına əsaslanır. "Biliklər cəmiyyəti" anlayışı isə daha geniş sosial, etnik və siyasi parametrlərə sirayət edir. Fərz edək ki, müəyyən qiymətli sənəd rəqəmsal formaya salınmış, lakin həmin sənədin orijinalı itirilmişdir. Bu halda həmin sənədin sürətinin həqiqiliyinə pesə təminat vermək olar. Deməli, mədəni yaddaşın təsadüfı şəkildə və ya qərəzli qaydada redaktə edilməsinə vol verilməməlidir. "Kompüter savadının" əks tərəfi də mövcuddur. Elementar təffəkür, oxuma və yazma vərdişləri itirilə bilər.

Cəmiyyətin bütün sferalarında baş verən dəyişikliklər kitabxana üçün konseptual əhəmiyyət daşıyır. Cəmiyyət kitabxananın sosial institut kimi mövcudluğuna və fəaliyyət sferalarına təsir edir, kitabxananın cəmiyyətlə əlaqələndirilməsində sosial missiya meydana çıxır, təcrübi kitabxanaşünaslığın tələb və funksiyaları ilə uzlaşan idarəetmənin fəaliyyətinin yeni forması yaranır. İlk növbədə kitabxananın texnoloji rejimdə resursların təyin edilməsində kitabxanaya rəqabət aparmaq imkanı verən inkişafın daha effektli istiqamətləri təzahür edir.

Kitabxanaların fəaliyyətinin optimallaşdırılmasının universal modelini yaratmaq qeyri mümkündür. Belə ki, hər bir kitabxana sistemi unikal şəraitdə inkişaf edir, ona görə də inteqrativ modelin cəmiyyətin sosial mədəni həyatında optimallaşdırılmasının alqoritmlərinin yaradılmasma ehtiyac duyulur. Cəmiyyətdə insan fəaliyyəti də daxil olmaqla istənilən sistemin funksiyalaşdırılması o zaman effektli olur ki, nəticə etibarı ilə struktur və onun elementləri arasında şərait və imkanlara, həm də qarşıya qoyulmuş məqsədlərin dəqiqliyinə görə müəyyən edilir.

Kitabxana və cəmiyyət inteqrasiyası sosioloji mexanizmə daha çox əsaslanır və burada effektli təzahürlər əmələ golir. Belə ki, sosiologiya bir çox ölkələrdə idarəetmə mexanizminə müvəffəqiyyətlə daxil edilir, çünki o, cəmiyyət haqqında elmi bilik verir. Hələlik kitabxanalar sosioloji mühitə zəif nüfuz edir, sosial yanaşmaya çox meyl göstərmir, onun metodlarına epizodik müraciət edirlər. Kitabxana fəaliyyəti çox vaxt oxucu sorğusu üzrə istiqamətlənmir. Bu problemi kitabxanaçının sosial həssaslıq səviyyəsinə gətirməklə həll etmək olur: bir şərtlə ki, cəmiyyətdə sosioloji metodlarla informasiya bazasının ümumi maraqlarını öyrənilsin, istifadəçilər uğrunda mübarizə aparsın.

Son illərin təcrübəsindən məlum olmuşdur ki, cəmiyyətdə kitabxanaların mövqeyinin möhkəmləndirilməsi üçün idarəetmənin effektli texnoloji sistemi hazırlanmışdır. Kitabxanalar cəmiyyətə sübut edir ki, istifadəçilərə yüksək keyfıyyətli informasiya xidmətini təşkil etməyə qadirdir. Çünki bu cəmiyyətin özünü təkmilləşdirməsindən irəli gələn tələbatdır. Nəzərə alsaq ki, informasiyalaşdırılmış cəmiyyət yaranır və nəticədə biliklər cəmiyyəti adlanan müasir qlobal bir mühitin formalaşmasına kitabxana əsaslı sürətdə təsir edir.

Beləliklə, cəmiyyətin özünün formalaşmasında kitabxananın təsiri yox deyil. Kitabxana "İnformasiya cəmiyyəti"nə və Biliklər cəmiyyətinə təsir etməklə differensial formada öz mövqeyini çatdırır.

- Cəmiyyətdə kitabxananın missiyasının düzgün təyini;
- Bilik tələbatçılarının prioritet qruplarının aşkarlanması;
- Peşəkar fəaliyyət üçün optimal şəraitin yaradılması;
- Bilik tələbatçılarının tələblərini öyrənmək, onların tələbatının ödənilməsi;
- Görülən işi qoyulan məqsədlə müqayisə edib nəticə çıxartmaq;

Bu normalara əməl olunması formal qaydada olmamalıdır. Kitabxana informasiya proseslərinin həyata keçirilməsi cəmiyyətin tələbindən yaranır və bu proses mütəxəssislər tərəfindən icra və idarə olunur. Beləliklə, kitabxanada peşəkarlıq fəaliyyəti vacib faktor kimi nəzərə alınır və bu inteqrativ meyllərə müsbət təsir edir. Kitabxana cəmiyyət əlaqələrinin optimallaşdırılması mütəxəssislərin fasiləsiz təkmilləşdirilməsindən, peşəkarlıqla cəmiyyət tələbatına uyğunlaşdrılmasından da çox asılıdır. Belə ki, informasiyalaşdırılmış cəmiyyət anlayışı kompüter texnologiyalarına və qlobal informasiya şəbəkələrinin-inkişafına əsaslanır. Biliklər cəmiyyəti anlayışı isə daha geniş sistemliləri və parametrləri nəzərdə tutur. Buna görə də "Biliklər cəmiyyəti" və kitabxana informasiya daha çox güclənir cəmiyyət eyni zamanda kitabxananın hamisinə çevrilir. Kitabxana isə bütün fəaliyyət parametrləri ilə biliklər cəmiyyətinin modernləşdirilməsinə xidmət edir. Bunun üçün cəmiyyət itabxanalar qarşısında bəzi normaların yerinə yetirilməsini tələb edir. İFLA-nın fəaliyyətdə olan proqramlarında çox düzgün qeyd edilmişdir ki, texnoloji yeniliklər zəruri

olması vacibdir. Lakin "Biliklər cəmiyyəti" təkcə bu yeniliklərin tətbiq olunmasından ibarət deyildir. Kitabxana və biliklər cəmiyyətinin inteqrasiyası məhz sosial mexanizmə əsaslanır ki, burada effektli təzhürlər meydana gəlir. Belə ki, sosiologiya bir çox ölkələrdə idarəetmə mexanizminə müvəffəqiyyətlə daxil edilir. Çünki o, cəmiyyət haqqında elmi biliklər verir. Bu cəmiyyət insanların həyatına daha dərindən nüfuz etməyə qadirdir. Cəmiyyət həyatında baş verən hadisələrə təsir edə bilir. Cəmiyyətin sosial həyatı ilə daha sıx əlaqəyə girir. Son zamanlar sürətlə artan şəbəkələrin tənzimlənməsinə zəruri ehtiyac var. Biliklər cəmiyyəti bu artımın məhz sosial və mədəni nöqteyi-nəzərdən tənzimlənməsi prosesini icra edir. Bunsuz "Biliklər cəmiyyəti" öz fəaliyyətini yetərincə lazımi səviyyədə təşkil edə bilməz.

İnformasiyalaşmış cəmiyyətdə daha çox elektron kitabxanaların, elektron kitabların inkisafına üstünlük verilirdisə, yeni yaranan "Biliklər cəmiyyəti"ndə artıq yenə də ənənəvi kitabxanalara əbədi ehtiyacın olması bir daha öz təsdiqini tapdı. Sübut olundu ki, elektron kitabxanalar klassik kitabxanalara bir əlavədir. Lakin heç bir halda onları sıxışdırıb aradan çıxara bilməzlər. Çünki mədəni yaddaşın təsadüfi şəkildə, yaxud qərəzli formada redaktə olmasına heç cür yol verilə bilməz. Elektron sənədlər, rəqəmsal şəkilə salınmış materiallar çox cüzi diqqətsizlik nəticəsində yararsız hala düşə bilər. Bu milyonlarla sənədin məhvi deməkdir. Bu hadisənin baş verə biləcəyi təqdirdə yaranan problemləri bir anlıq tesevvür etsək onda aydın basa düşmək olar ki, kitabxanalardan bir dəfəlik imtina ümumbəşəri bir səhv ola bilər. Cəmiyyət isə heç vaxt belə riskə gedə bilməz. Kitabxanalar hər iki cəmiyyətə təsir edərək differensial formada öz mövqeyini çatdırır.

"Biliklər cəmiyyəti" klassik kitabxanalara, ənənəvi mütaliə vərdişlərinə əsaslanır. Buna daha çox dünya sivilizasiyası tarixində mövcud olan "ənənələrə qayıdış dövrü" kimi xarakterizə etmək olar . Bu yeni tipli cəmiyyət insanlarda intellektual səviyyəni, mədəniyyətin yüksək, mənəvi əxlaqi keyfiyyətlərin formalaşmasına, peşəkar mütəxəsis olmasına, dünya görüşünün genişlənməsinə, mütaliə və nitq mədəniyyətinin təkmilləşməsinə, yeni mütaliə vərdişlərinin yaranmasına, nəhayət, bir şəxsiyyət kimi formalaşmasına istiqa¬ mətləndirilib. Çünki kompüter savadının, bilik və bacarıqlanın əks tərəfləri də mövcuddur. Elementar təfəkkür, oxuma və yazma vərdişlərini itirilə bilər. Elektron kitab və kağız kitab bir-birindən tam fərqli intellektual məhsullardır. Təbii ki, onları oxumaq üçün tam fərqli mütaliə vərdişləri tələb olunur. Lakin informasiyanın tərkib hissələrinin mütləqləşdirilməsi elementar savadı, ana dilində oxumaq və yazmaq, danışmaq bacarığını təhlükə altına alır. Buna görə də üstünlük klassik kitabxanalara, ənənəvi kitab və mütaliyəyə verilir.

## ƏDƏBİYYAT

*1. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik: (3 hissədə) h.3-B.-: Bakı Universiteti Nəşriyyatı,2003.-314s.*

*2. Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda лitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar).-B., 2006.- 106 s.*

*3. Xələfov A."Kitabxana işi" anlayışının öyrəlmisəsinə dair // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.-B.: BUN, 2000.-№2. s.3-8*

*4. Əhmədov E. Biliklər cəmiyyəti kitabxana işinin modernləşdirilməsinə təsir edən amil kimi: Elmi-nəzəri təcrübi jurnalş-B., 2009.-№5(8).s.5-9*

## THE KNOWLIDGE SOCIETY AND LIBRARIES

**E.Y.AKHMEDOV**

***SUMMARY***

***Keywords:*** *knowledge, society, education, library, school*

*Given article describes the main issue of Knowledge Society on this society great impotence has classical model of libraries. Noted? That traditional reading is typical for all society as the problem of mankind.*

## БИБЛИОТЕКИ И ОБЩЕСТВО ЗНАНИЙ

**Э.Ю.АХМЕДОВ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *знание, общество, учеба, библиотека, школа.*

*В статье раскрывается сущность Общества Знаний. В этом обществе предпочтение отдается сохранению классической модели библиотек. Отмечено, что традиционное чтение, характерно для всего общества, как проблема человечества.*

# KİTABXANALARIN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

**M.Ə.MƏMMƏDOV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***Bakı Dövlət Universiteti***
***m.mehmanəli@.mail.ru***

***Açar sözlər:*** *kitabxanaların maliyyələşdirilməsi, xeyriyyə və donor təşkilatları, qrantverən beynəlxalq təşkilatlar, kitabxanaların fandrayziq fəaliyyəti, Soros fondu, Avrasiya fondu*

Müasir informasiyalaşdırılmış cəmiyyətin ən mühüm atributlarından biri olan kitabxanalar informasiya ehtiyatlarını qoruyub saxlayan, onu cəmiyyətin istifadəsinə verən, cəmiyyət üzvlərinin hər birinin sorğu və tələbatını ödəyən, internet vasitəsilə bəşəriyyətin yaratmış olduğu mənəvi sərvəti oxuculara yaxınlaşdıran bir müəssisədir. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə əsasən demək olar ki, kitabxanalar dünyada iqtisadi tərəqqinin, elm, təhsil və mədəniyyətin inkişaf bazasıdır. Məhz buna görədir ki, müasir informasiyalaşdırılmış cəmiyyətdə onların qarşısında daha böyük, daha qlobal vəzifələr: dünya elminə, mədəniyyətinə inteqrasiya etmək, onun nailiyyətlərini oxucuya çatdırmaq, insanların informasiya tələbatını ödəmək, ölkənin iqtisadi, elmi və mədəni həyatında yaxından iştirak etmək vəzifəsi qoyulmuşdur.

12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsində göstərilir ki, «Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir» (1, s.6). Məhz belə bir şəraitdə cəmiyyətimizin bütün sferalarına, o cümlədən kitabxanalara iqtisadi amillərin təsiri getdikcə genişlənir. Bazar iqtisadiyyatı şəraitində dünya kitabxanaçılıq təcrübəsində təsərrüfatçılıq və kommersiya fəaliyyətinin genişlənməsi, kitabxana işinin təşkili və idarə olunmasında iqtisadi göstəricilərin ön plana çəkilməsi, cəmiyyətdə kitabxanaların həyata keçirdikləri elmi, mədəni, informasiya, təhsil və tərbiyə funksiyaları ilə yanaşı, iqtisadi funksiyaların da öyrənilib təhlil edilməsi zərurəti yaranmışdır. Cəmiyyətin iqtisadi münasibətlərində baş verən kəmiyyət və keyfiyyat dəyişiklikləri əhaliyə kitabxana xidmətinin təşkilinə, hər bir kitabxananın fəaliyyətinə ayrılıqda təsir göstərir, əsasən kitabxanaların sosial funksiyalarının müvafiq şəkildə formalaşdırılmasında əhəmiyyətli rol oynayır (6, s.3).

Müstəqilliyimizin möhkəmləndiyi bazar iqtisadiyyatına keçidin reallaşdığı bir şəraitdə kitabxana işinin yaxşılaşdırılması, kitab fondunun zənginləşdirilməsi, inkişaf etmiş ölkələrin kitabxanaları ilə əlaqələrin qurulması, oxucu

sorğularının təmin edilməsi, kitabxanaların yerinin və rolunun müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Belə bir şəraitdə kitabxanaların fəaliyyətində yeni dönüş yaratmaq, onları müasir dövrün yeniliklərinə uyğunlaşdırmaq, oxuculara göstərilən xidmətin səviyyəsini yüksəltmək məqsədilə bir sıra tədbirlər həyata keçirmək müasir dövrdə kitabxanaların qarşısında duran ən mühüm vəzifələrdəndir.

Hazırki şəraitdə azad bazar münasibətlərinə keçirilməsi ilə əlaqədar olaraq cəmiyyətimizin sosial-iqtisadi həyatında bir sıra çətinliklər mövcuddur ki, onlar da elmin, mədəniyyətin bütün sahələrinə, o cümlədən kitabxanaların fəaliyyətinə bu va ya digər dərəcədə təsir etmişdir. Hazırda kitabxanaların fəaliyyətini bir növ kölgədə qoyan, onların inkişafına maneələr törədən əsas problemlərdən ən mühümü kitabxanaların maliyyələşdirilməsi ilə yaranan problemlərdir. Bütün idarə, müəssisələrdə olduğu kimi kitabxanaların da büdcəsi dövlətin büdcə vəsaitindən maliyyələşdirilir.

Dövlət sosial-mədəni tədbirlərin maliyyələşdirilməsi üçün büdcə vəsaiti ilə yanaşı, büdcədənkənar dövlət fondlarının və digər yardımçı fondların vəsaitindən də istifadə etmək məcburiyyətindədir (8, s.81). Şübhəsiz, hazırkı şəraitdə kitabxanalar öz fəaliyyətlərini müasir dövrün tələbləri səviyyəsində həyata keçirməsi üçün dövlət büdcəsindən ayrılan vəsait olduqca azlıq təşkil edir.

Kitabxanaların qarşısında duran problemlər büdcədənkənar maliyyələşdirmə proqramının köməyilə qismən ödənilir. Adətən hökumət belə proqramların təşəbbüsçüsü kimi çıxış edir və ilk növbədə onları maliyyələşdirir, onların sonrakı reallaşdırılması prosesi isə yerli hökumət nümayəndəsinin fəallığından çox asılıdır. Kitabxanalarda büdcədənkənar maliyyələşmə proqramı həmçinin müxtəlif xidmət növlərinin təkmilləşdirilməsinə də yönəldilə bilər. Hazırda hökumət dövlət bölmələrinin xüsusi bölmələrlə qarşılıqlı inkişafına cəhd etməklə kitabxanaların xeyriyyəsi təşkilatlarla, o cümlədən donor təşkilatlarla sıx əlaqə yaradaraq inkişafı üçün stimul yaradır. Ona görə də ayrı-ayrı kitabxanalar inkişaf istiqamətlərini səmərəli şəkildə qurmaq üçün büdcədənkənar maliyyələşmə mənbələri axtarmağa təşəbbüs göstərirlər.

Məlum olduğu kimi dövlət büdcəsi ölkənin maliyyələşdirilməsinin əsas ünsürlərindən biridir. İstənilən ölkədə dövlət büdcəsi maliyyə sisteminin əsas həlqəsi rolunu oynayır. Dövlətin tabeliyində olan idarə, müəssisə, təsisatlar kimi kitabxanaların da 90 %-i məhz dövlətin büdcə vəsaiti hesabına maliyyələşdirilir. Ümumiyyətlə, maliyyələşdirmənin xarakterinə görə kitabxanaların maliyyələşdirilməsi 2 yolla: müstəqil və qeyri-müstəqil yolla aparılır. Müstəqil yolla maliyyələşmə qrupuna Mədəniyyət Nazirliyi sistemində olan rayon, şəhər, uşaq və respub-lika əhəmiyyətli kitabxanaların maliyyələşdirilməsi aiddir.

Həmkarlar ittifaqı kitabxanaları, tədris müəssisələrinin kitabxanaları, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların kitabxanaları isə böyüklü-

yündən və işin həcmindən asılı olmayaraq qeyri-müstəqil yolla maliyyələşdirilir. Hazırki bazar iqtisadiyyatı şəraitində kitabxanaların maliyyələşdirilməsində ciddi problemlər meydana çıxır. Ona görə də kitabxanalarda büdcədənkənar maliyyə fondunun formalaşmasına zəruri ehtiyac duyulur.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxanaların dövlət büdcəsindən və büdcədənkənar fondlardan maliyyələşdirilməsi haqqında hüquqi baza yaradılmışdır. Qanunun 27-ci maddəsində göstərilir ki, "Dövlət kitabxanaları və büdcədən maliyyələşdirilən təşkilatların tabeçiliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir". Burada hüquqi və fiziki şəxslərin könüllü ayırmaları dedikdə hədiyyələr, xeyriyyəçilər, sponsorlar tərəfindən könüllü verilən maliyyə vəsaitləri nəzərdə tutulur. Həmin maddənin 2-ci bəndində qeyd olunur ki, «Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir» (1). Lakin onu da qeyd etmək lazımdır ki, hazırda kitabxanalarda kitab fondlarının müntəzəm surətdə ədəbiyyatla komplektləşdirilməsi qənaətbəxş deyildir.

Büdcədənkənar pul vəsaiti fondlarının formalaşması da «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»nda öz əksini tapmışdır. Həmin qanunun «Dövlət kitabxanalarının büdcədənkənar vəsaitləri» başlığı altında olan 28-ci maddəsində göstərilir ki, «Dövlət kitabxanasının işinin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi və əməyin stimullaşdırılması məqsədilə nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmətlər əsasında büdcədənkənar fondlar formalaşdırılır». Digər bir maddədə isə həmin büdcədənkənar fondların hansı mənbələr hesabına yaradılmasından bəhs olunur. Qanunun 29-cu maddəsində göstərilir: «Bu fondlar təsisçilərin payları, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları, qanunvericilikdə müəyyən olunmuş qaydada keçirilən lotoreya və digər məqsədli kommersiya tədbirlərindən daxil olan vəsaitlər hesabına yaradılır» (2).

Kitabxana işinin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, əməyin stimullaşdırılması və əhaliyə kitabxana-informasiya xidmətinin optimallaşdırılması məqsədilə gəlirlərin və müxtəlif büdcədənkənar vəsaitlərin əldə edilməsi bazar iqtisadiyyatı şəraitində kitabxanaçılıq fəaliyyətinin irəliyə doğru atılmış mühüm istiqaməti hesab olunur.

Qeyd edilməlidir ki, büdcədənkənar maliyyələşmə hesabına əldə olunan vəsait ilk növbədə kitabxana fondlarının zənginləşdirilməsinə, kitabxana xid-

mətinin təkmilləşdirilməsinə yönəldilmiş işlərə, daha sonra isə kitabxana işçilərinin sosial müdafiəsinə yönəldilməlidir.

Kitabxana iqtisadiyyatı üzrə tanınmış mütəxəssis R.Kazımovun qeyd etdiyi kimi kitabxanaların büdcədənkənar maliyyələşdirmə mənbələrinə aşağıdakılar aid ola bilər:

1) Təsərrüfat fəaliyyəti hesabına kitabxanaya daxil olan mənfəət;

2) Marketinq fəaliyyəti, o cümlədən pullu xidmətlər hesabına kitabxanaya daxil olan vəsait;

3) Kitabxanalara xeyirxah cəmiyyətlər, sponsorlar tərəfindən ayrılan vəsaitlər;

4) Donor təşkilatlarından qrantların hesabına vəsaitin əldə olunması.

«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununun 31-ci maddəsində qeyd olunmuşdur ki, «Kitabxanalar qanunvericilikdə müəyyən olunmuş qaydada nizamnamələrinə uyğun olaraq təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər. Bu fəaliyyətdən əldə edilən vəsait bütövlükdə kitabxananın sərəncamında qalır». Bu bənddən göründüyü kimi qanunda təsərrüfat fəaliyyəti hesabına kitabxanaya əlavə mənfəətin daxil olması nəzərdə tutulmuşdur. Lakin hazırda kitabxanalarımızda qeyd olunan mənfəət əsasında əlavə vəsaitin alınması həyata keçirilmir.

Kitabxanalar üçün büdcədənkənar maliyyələşdirmənin əsas mənbələri xeyriyyəçilik, messenantlıq və sponsorluqdur. Maliyyələşdirmə mənbəyini və xeyriyyəçilər dairəsini müəyyənləşdirərkən kitabxananın hansı yardım növünə üstünlük verdiyini də dəqiqləşdirmək vacibdir.

Müasir dövrdə kitabxanalarda sponsorların, xeyriyyə cəmiyyətlərinin, hamilərin maliyyə dəstəkliyinə böyük ehtiyac duyulur.

Sponsorluq – qarşılıqlı qazanc əldə edilməsi üçün məqsədli maliyyə yardımının verilməsindən ibarətdir. Xeyriyyəçilik isə, ianə alana heç bir maliyyə və digər öhdəçiliklər yükləməyən yardımdır. Xeyirxah cəmiyyətlər öz istəklərinə müvafıq olaraq ayrı-ayrı təşkilatlara, institutlara, o cümlədən kitabxanalara yardım göstərirlər.

Xeyriyyəçilərdən yardım almaq istəyən kitabxana öz ərazisində yerləşən müəssisələrin, firmaların təhlilini aparır və bununla da onların hansından yardım almağın mümkün olduğunu müəyyənləşdirir. İri müəssisələrin, firmaların, kompaniyaların əksəriyyəti xeyriyyəçilik məqsədilə xüsusi büdcə ayırırar. Kitabxananın əsas vəzifəsi vaxtında müraciət etmək və yardımın məhz ona lazım olduğuna inandırmaq, kommersiya və korporasiyanın kommersiya məqsədlərini öyrənmək, qarşılıqlı maraqlılıq axtarmaqdır. Yerli soraq-məlumat kitablarının, qəzetlərin, statistik məcmuələrin dəqiq təhlili xeyriyyəçiliklə artıq çoxdan məşğul olan, öz fəaliyyətini reklam edən, böyük gəlirlərə malik və s. firmaların aşkar olunmasma kömək edə bilər. Maliyyələşdirmə mənbəyini,

yardımın təqdim edilməsi formasını və potensial sponsorlar dairəsini müəyyənləşdirmək büdcədənkənar maliyyələşdirmənin bir pilləsini təşkil edir ki, kitabxananın öz donorlar dairəsinin və onların miqdarının müəyyənləşdirilməsi və genişləndirilməsi bundan asılıdır. Reytinqi, yəni potensial donorlar arasında ianələr vermək imkanı və arzusu olanları müəyyənləşdirmək vacibdir.

Dünya iqtisadiyyatında əlavə maliyyələşdirmə mənbələrinin axtarılıb tapılmasının nəzəri və təcrübi məsələləri ilə məşğul olan Fandrayzinq strategiyası artıq 90-cı illərdə formalaşmışdır. İlk dəfə olaraq bu strateji fəaliyyətin kitabxana işində tətbiqi ilə ABŞ kitabxanaları məşğul olmağa başlamışdır. Kitabxana işində Fandrayzinq strategiyasının mahiyyəti cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin genişləndirilməsi və optimallaşdırılmasına yönəlmiş əlavə maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi və səmərəli istifadəsindən ibarətdir. ABŞ-da kitabxanalar üçün əlavə maliyyələşdirmə mənbələrinin axtarılması məqsədilə yaradılan «ABŞ kitabxanalarının dostları» adlı xüsusi cəmiyyətin konsepsiyasına görə kitabxanaların Fandrayzinq fəaliyyətinin mühüm istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1) Yeni, mütərəqqi məqsədlərin müəyyənləşdirilməsi və layihələşdirilməsi; layihənin əhəmiyyəti haqqında ictimai fikrin formalaşdırılması;

2) Potensial donorların (şəxslərin və təşkilatların) müəyyənləşdirilməsi və onların imkanlarının öyrənilməsi;

3) Layihə ilə əlaqədar təlim-tərbiyə tədbirlərinin həyata keçirilməsi; əməkdaşlara layihə haqqında ümumi informasiyanın təşkil edilməsi; ictimai fikrin öyrənilməsi;

4) Vəsait xahiş etmək yollarının müəyyənləşdirilməsi; poçt, telefon vasitəsilə söhbətdən, internetdən istifadə etməklə;

5) Vəsaitin alınmasından sonra donorlara xüsusi minnətdarlığın bildirilməsi; əlaqələrin davam etdirilməsi; görülən işlərin nəticələri haqqında onlara müntəzəm məlumatların verilməsi (6, s.60).

Donor təşkilatlardan qrantlar hesabına vəsaitin əldə edilməsi kitabxanaların büdcədənkənar maliyyələşdirilməsinin bir növüdür.

Müasir dövrdə kitabxanaların iqtisadi fəaliyyətində qrant layihələrinin işlənib hazırlanaraq donorlara təqdim edilməsi kitabxanalara yüksək məbləğdə gəlir gətirən, yəni əlavə vəsaiti cəlb edən mühüm maliyyələşdirmə mənbələrindəndir.

Qrant – haqq gözləmədən cəmiyyət tərəfindən verilən (pul və ya avadanlıq), hər hansı konkret işi (layihəni) həyata keçirmək üçün qrant alan və qrant verən arasında danışılmış məbləğdir. Borcdan fərqli olaraq qrant geri qaytarılmır. Lakin alınan məbləğ yalnız cəmiyyətlə danışılmış istiqamətdə xərclənə bilər. Qrant verən öz şərtlərini bildirmək, məhdudiyyət qoymaq və qaydaları müəyyənləşdirmək hüququna malikdir. Bütün bunlar layihəni

həyata keçirənlə qrant verən cəmiyyət arasında imzalanan müqavilədə öz əksini tapır. Qrant alan isə layihə və görülən işlər haqqında mütləq hesabat yazmalı və bütün vəsaitin nəyə xərclənəcəyini orada qeyd etməlidir.

Donor dedikdə cəmiyyətdə müəyyən bir sahənin inkişafına öz vəsaiti hesabına kömək etmək istəyən şəxslər, dövlət və ya qeyri-dövlət təşkilatları, əksər hallarda isə məqsədli fondlar nəzərdə tutulur. Ümumiyyətlə, donor təşkilatlarını (fondları) aşağıdakı qruplara bölmək olar:

1) Dövlət fondları - dövlətdən əldə edilmiş vəsaiti müvafiq sahənin və ya sahələrin inkişafına sərf edən təşkilatlardır.

2) Şəxsi donorlar (fondlar) - cəmiyyətdə bu və ya digər sahənin inkişafı üçün pul ayıran şəxslərdir.

3) Müstəqil fondlar - bir ölkə daxilində və ya beynəlxalq miqyasda zəngin kapital sahibləri, ailələr tərəfindən cəmiyyətin bütövlükdə və ayrı-ayrı sahələrinin inkişafına maddi köməklik göstərmək üçün təsis edilmiş fondlardır. Belə fondlar - Nobel qardaşları fondu, Rokfellerlər fondu, Soros fondu və b. bir qayda olaraq təsisçilərin adlarını daşıyır.

4) Yerli fondlar - əsasən bir regionun əhalisinin könüllü ayırmaları əsasında yaradılaraq həmin regionun inkişafı üçün zəruri sayılan tədbirlərin maliyyələşdirilməsinə yönəlir.

5) Assosiativləşdirilmiş fondlar - bir qayda olaraq iri şirkət və ya müəssisənin gəlirləri əsasında formalaşıb, yalnız onun mənafeyinə xidmət edən layihələri maliyyələşdirir (6, s.61).

Azərbaycanda tarixi ənənələrə müvafiq olaraq son 10 ildə bir çox xeyriyyə fondları formalaşmışdır. Açıq Cəmiyyət İnstitutu, Avrasiya Fondu, Ayreks, Aysar, BMT-nin İnkişaf Proqramı (UNDP) və s. bir sıra beynəlxalq təşkilatlar vardır ki, bunlar ölkədə elm, səhiyyə, təhsil, mədəniyyət sahələrinin, o cümlədən kitabxana işinin inkişafına yönəldilmiş layihələrə qrantlar ayırır. 1998-ci ildən başlayaraq müasir dövrə kimi respublikamızın bir neçə iri kitabxanası, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, AMEA-nın MEK, BDU-nun Elmi Kitabxanası, M.Seyidzadə adına Bakı Mərkəzi Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Zabrat kənd kitabxanası, eləcə də, Kitabxana İşinin İnkişaf Assosiasiyası tərəfindən müəyyən qrantlar alınıb, ölkədə kitabxana işinin inkişafına sərf edilmişdir.

Qrantlarm alınması kitabxana tərəfindən cəmiyyət üçün əhəmiyyətli, mütərəqqi iş üsullarının tətbiqi ilə əlaqədar qrantların verilməsi şərtlərinə tam cavab verən xüsusi proqramların layihələrinin işlənib müvafıq donorlara təqdim edilməsini tələb edir. Qrant sifarişi isə ümumilikdə lakonik, məntiqi üslubda işlənilməli, problemin əhəmiyyəti, zəruriliyi və gözlənilən nəticələr

elmi şəkildə əsaslandırılmalıdır. Əsasən də xərclər, yəni tələb edilən vəsait real bazar mühitinə uyğunlaşdırılmalıdır.

Xüsusilə qeyd etmək lazımdır ki, müasir dövrdə respublikamızın iri elmi kitabxanaları, kitabxana şəbəkələri və MKS-ləri, xüsusən də kitabxana assosiasiyaları donor təşkilatların maliyyə imkanlarından hələ lazımi səviyyədə, səmərəli istifadə edə bilmirlər. Bu, hər şeydən əvvəl kitabxana işçilərinin iqtisadi biliklərinin zəif olmasından irəli gəlir. Elə buna görə də respublikamızın kitabxanalarının qrantlarının ümumi həcmi qonşu respublikalardan 10-20 dəfə aşağı səviyyədədir. Büdcədənkənar maliyyələşmə əsasında dünya ölkələrinin kitabxanaları, ayrı-ayrı cəmiyyətləri ilə beynəlxalq əlaqələr genişlənmiş, ölkəmizin kitabxana işi üzrə mütəxəssis və alimləri, kitabxana işçiləri müxtəlif seminar və konfranslarda məruzələrlə çıxış etmişlər. Xüsusilə 1998-ci ildən genişlənən beynəlxalq əlaqələr müasir dövrdə daha da geniş vüsət almışdır.

Son illər respublikamızda kitabxanaların əksəriyyəti müxtəlif proqramlarda qrantlar almaq məqsədilə müxtəlif fondlar üçün layihələr işləməyirlər. Bunun vasitəsilə kitabxanalara əlavə vəsaitlər cəlb edilir. Donor təşkilatlardan qrantların alınması kitabxanaları regionun mədəniyyət və informasiya mərkəzinə çevirəcək yenilikləri həyata keçirməkdə kömək edir. Kitabxanalar maliyyə çatışmazlığı ucbatından yaranmış problemləri aradan qaldırmaq məqsədilə tez-tez müxtəlif təşkilatların köməyinə müraciət etməli olurlar. Belə təşkilatlardan biri də Açıq Cəmiyyət İnstitutu - Yardım Fondudur. Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu (Soros Fondu) - qeyri-hökumət və qeyri-kommersiya təşkilatı olub, dünyanın 50-dən artıq ölkəsində fəaliyyət göstərən və müstəqil qrant verən fonddur. Bu fond açıq cəmiyyəti inkişaf etdirmək və ona yardım göstərmək məqsədilə 1996-cı ilin dekabrında Azərbaycanda fəaliyyətə başlamışdır. Açıq Cəmiyyət İnstitutunun Azərbaycan üçün nəzərdə tutulan vəsaitlərinin əsas mənbəyini məşhur sahibkar və xeyriyyəçi Corc Sorosun investisiyaları təşkil edir. Fond informasiya və internetin Azərbaycanda inkişafına dair pulsuz İNTERNET istifadəsi mərkəzlərinin, İNTERNET resurslarının yaradılması kursları, kitabxanaların inkişafı və təminatı kimi bir sıra uzun müddətli layihələri Bakıda və respublikamızın bir sıra rayonlarında həyata keçirir.

Azərbaycanda kitabxanalar öz inkişafına görə Qərbi Avropa və Rusiya kitabxanalarından geri qalır. Vəziyyətin belə olmasının başlıca səbəbləri Azərbaycan hökuməti tərəfindən maliyyə köməyinin olmaması, erməni lobbisinin təzyiqi nəticəsində ABŞ-ın humanitar kömək göstərməməsi, respublika kitabxanalarının Moskvadan uzun müddətli tarixi asılılığı kitabxanaların inkişafına maneələr törətmişdir. Soros Fondu bu geriliyi aradan qaldırmağa, Azərbaycan kitabxanalarının müasir səviyyəyə çatması üçün şərait yaratmağa çalışır. Bu məqsədlə müxtəlif kurslar təşkil edilir, müxtəlif mövzularda təlimlər keçirilir. Kitabxanaçılar üçün «Kitabxanaların avtomatlaşdırılması», «Layihələrin ha-

zırlanması metodları», «UNİMARC və qeydiyyat», «Müasir kitabxananın idarə olunması» və s. mövzulara həsr olunmuş bir neçə təlim və dəyirmi masa müzakirələri keçirilmişdir.

Təşkilatın həyata keçirdiyi növbəti layihələrdən biri “Regional ictimai kitabxanalarda informasiya resurs mərkəzləri” adlı layihə böyük maraq doğurur. Bu layihə əsasında Əli-Bayramlı, Gəncə, Şamaxı, Şəki, Bərdə, Quba və Lənkəran regional mərkəzi kitabxanalarında 7 ictimai informasiya resurs mərkəzi (İİRM) yaradılması nəzərdə tutulmuşdur. Hər bir İİRM 2 əsas tərkibdən ibarətdir.

• Geniş qəzet və jurnal abunəsi olan oxu zalı;

• E-mail/İNTERNET-ə giriş və təlim üçün kompüter tədris mərkəzi.

Layihə aşağıdakı məqsədlərə nail olmağı planlaşdırır:

• İnformasiya boşluğunun Azərbaycan bölgələrinə, xüsusilə məcburi köçkünlər yaşayan bölgələrə ünvanlanması;

• Regional kitabxana və sakinlər üçün informasiya çıxışının daha yaxşı təşkil olunması;

• Vətəndaş təşəbbüsü üçün katalist və ictimai mərkəzlər kimi regional kitabxanaların yaradılması

Açıq Cəmiyyət İnstitutu - Yardım Fondunun həyata keçirdiyi ən geniş miqyaslı xeyriyyəçilik aksiyası fondun Rusiya təmsilçiliyinin hazırladığı «Puşkin kitabxanası» meqalayihəsidir. Bu layihənin əsas məqsədi rus mədəniyyətini, kitab nəşrini, onların yayılmasını təşkil etmək və kitabxanaları inkişaf etdirməkdən ibarətdir. Bu layihə çərçivəsində ədəbiyyatın ən imkansız kitabxanalara təmənnasız verilməsi proqramın əsas hissəsini təşkil edir. Kitabxanalarda ədəbiyyat tamamilə Soros Fondunun yardımı əsasında komplektləşdirilir. Nəzərdə tutulan, bərbad vəziyyətdə olan 300 kitabxana əvəzinə 700 kitabxanaya təmənnasız ədəbiyyat göndərilmişdir. 1998-1999-cu illər ərzində proqrama qoşulan kitabxanalar 3 milyon 500 min manat məbləğində kitablarla öz fondlarını zənginləşdirmişlər.

Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu kiçik kitabxanaların inkişafı üçün mümkün olan bütün şəraiti yaradır. Artıq məlumdur ki, kiçik həcmli şəhər və əyalət kitabxanalarının avtomatlaşdırılması əsas problem kimi qarşıda durur. Yardım Fondu kömək məqsədilə kiçik qrantlar müsabiqəsi elan etmişdir. Bütün bunların nəticəsində Salyan, Sumqayıt, Mərəzə, Qobustan, Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu, Pedaqoji Kitabxana bu qrantlara layiq görülərək hər biri bir kompüter əldə etmişdir.

«Azərbaycan Respublikasının Qrantlar haqqında qanunu»na və Açıq Cəmiyyət İnstitutu - Yardım Fondunun daxili reqlamentlərinə uyğun olaraq bütün qrantlar sırf açıq rəqabət prinsipləri əsasında verilir. Qrant elanları geniş tirajla yayılan kütləvi informasiya vasitələrində dərc olunur. Əvvəllər Soros

Fondundan qrantlar almış və Fondun qrant müqaviləsinin şərtləri ilə razılaşmayan ayrı-ayrı şəxslər və təşkilatlar Açıq Cəmiyyət İnstitutunun sonradan maliyyə vəsaitlərini əldə etmək hüququndan məhrumdurlar. Soros Fondu yalnız özünün hər hansı bir il üzrə Milli Şurası tərəfindən təsdiq edilmiş sahələr çərçivəsində layihələri maliyyələşdirir.

Kitabxanalara maliyyə dəstəkliyi verən donor təşkilatlardan biri də Avrasiya Fondudur. Əsası 1993-cü ildə qoyulan bu fond yeni yaranmış müstəqil dövlətlərdə demokratik institutların, azad sahibkarlığın, habelə kitabxanaların inkişafına maliyyə yardımı göstərir. Yeni Müstəqil dövlətlərin (YMD) təşkilatlarına kiçik qrantlar ayırır. Avrasiya Fondu öz fəaliyyətində bazar iqtisadiyyatının demokratik prinsiplərinin gücləndirilməsində və inkişafında dövlət orqanlarına, ictimai təşkilatlara, ticari təşkilatlara yardım göstərməyi nəzərdə tutur. Eyni zamanda Avrasiya Fondu yerli təşkilatlarla digər ölkələrin təşkilatları arasında əlaqələrin yaradılmasında vasitəçilik edir. Özəl təşkilat olan bu fond əsasən Amerikanın Beynəlxalq İnkişaf Agentliyindən (USAİD) və eyni zamanda digər fondlardan, fərdi şəxslərdən, hökumətlərdən maliyyə yardımı alır.

Avrasiya Fondu M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına və fakültəmizə qrantlar ayırmışdır. Müasir dövrdə donor təşkilatlara təqdim olunan layihələr əsasında yüksək məbləğdə vəsait əldə edən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi böyük maraq doğurur.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 1998-2003-cü illərdə müxtəlif donor təşkilatlarla sıx əlaqə yaradaraq, onların elan etdikləri müsabiqələrdə iştirak etmiş və qrantlar udmuşdur. Belə layihələrdən biri və eyni zamanda birincisi «M.F.Axundov adına Dövlət Kitabxanasının beynəlxalq İNTERNET şəbəkəsinə qoşulması» layihəsi olmuşdur. Kitabxananın bu layihəsi ABŞ-ın USAİD təşkilatının vəsaiti hesabına Avrasiya Fondundan qrant udmuşdur. Təşkilat tərəfindən verilən bu vəsaitin ümumi məbləği 27047 ABŞ dolları həcmindədir. Bu layihə əsasında 11648 ABŞ dolları həcmində müasir avadanlıqlar əldə olunmuşdur. Bu avadanlıqlara 6 ədəd kompüter, 1 ədəd server, 2 ədəd printer, 1 ədəd skaner, 1 ədəd surətçıxarma aparatı, 2 ədəd faks modemi və proqram təchizatının alınması daxildir. Eyni zamanda həmin layihə, otaqlar ofis mebeli ilə təmin olunmuşdur.

Bütün bu sadalanan avadanlıqlarla kitabxananın təmin olunması nəticəsində Dövlət Kitabxanasında modernləşdirilmiş kitabxana quruculuğunun əsası qoyulmuşdur. Bütün bunlara nail olmaq üçün isə kitabxana öz qarşısına aşağıdakı vəzifələri həyata keçirməyi bir məqsəd kimi qoymuşdur:

- Müasir standartlara uyğun İNTERNET zalı açmaq;

- qlobal şəbəkəyə qoşulmaq üçün lazımi avadanlığı və proqram təchizatını əldə etmək;
- kadr hazırlığını həyata keçirmək;
- fondu kitabxananın profilinə uyğun yeni növ informasiya daşıyıcıları ilə zənginləşdirmək;
- informasiyanı öz oxucusuna təqdim etmək üçün daima yeni xidmət növlərinin təşkili üzərində işləmək;
- kitabxana resurslarının gücləndirilməsi üçün büdcədənkənar vəsaitlərin əldə olunmasına nail olmaq;
- dövlət kitabxanasında modernləşdirilmiş kitabxananın yeni-yeni fəaliyyət sahələrinin əsasını qoyub inkişaf etdirmək.

Kitabxana çoxtərəfli beynəlxalq layihələrdə iştirakın Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq gələcəkdə YUNESKO, Avropa Şurası, Avropa İttifaqı, TÜRKSOY, İSESKO və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirməyi nəzərdə tutmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası tərəfindən son illərdə öz fəaliyyətini daha da genişləndirmək, sayı və tələbatı ildən-ilə artan oxuculara xidmətin səviyyəsini müasir dövrün tələbləri çərçivəsində qurmaq, kompüterlər vasitəsilə dünya informasiya şəbəkəsinə qoşulmaq, beynəlxalq əlaqələri inkişaf etdirmək məqsədilə bir sıra layihələr hazırlanaraq Soros fonduna təqdim olunmuşdur. Bu layihələrdən bir neçəsi Soros fondunun qrantına layiq görülmüşdür.

Hazırda Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası respublika ərazisində fəaliyyət göstərən ABŞ, Misir, Türkiyə, İran və b. səfirliklər, digər beynəlxalq təşkilatlar, o cümlədən Soros Fondu ACİ-YF, ABŞ səfirliyi nəzdində kitabxanaçılar üçün Tədris və İnformasiya Mərkəzi və s. ilə əməkdaşlıq edir. Kitabxanada ixtisaslı kitabxanaçı mütəxəssis kadrların müvəffəqiyyətli səyi nəticəsində yalnız 2002-ci ildə ümumi məbləği 31365 ABŞ dolları həcmində olan dörd layihə Soros Fonduna təqdim olunmuşdur. Həmin layihələr Açıq Cəmiyyət İnstitutu - Yardım Fondunun ekspert komissiyası tərəfindən yüksək qiymətləndirilmiş və onların maliyyələşdirilməsinə qərar verilmişdir. Onu da qeyd etmək lazımdır ki, Soros Fondu çox nadir hallarda bir ildə eyni təşkilatın 2-3 layihəsini maliyyələşdirir. Kitabxana tərəfindən təqdim edilən layihələrin dövrün tələblərinə cavab verməsi və orada qoyulan məsələlərin aktuallığı onların müsbət həllini təmin etmişdir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası tərəfindən Soros Fonduna iki layihə təqdim olunmuş və kitabxana qrant əldə edərək bir sıra tədbirlər həyata keçirmişdir. «C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının Soraq Biblioqrafiya Aparatının yenidən təşkili» adlı layihəsi 3 ay müddətində (2003-cü ilin yanvar, fevral, mart) göstərilən bu kitabxananın biblioqrafiya

aparatının müasir tələblərə uyğun şəkildə yenidən qurulması məqsədini qarşıya qoymuşdur. Bunun üçün Biblioqrafıya şöbəsinə müasir avadanlıqlar, mebel, kompüter, printer və digər ləvazimatlar alınması və burada işin yüksək səviyyədə qurulması üçün bir sıra işlər görülməsi nəzərdə tutulmuşdur.

Respublikamızda bütün uşaq kitabxanaları üzrə baş metodiki mərkəz funksiyasını yerinə yetirən F.Köçərli adına Respublika Uşaq Kitabxanası kiçik yaşlı oxuculara xidmətin səviyyəsini təkmilləşdirmək, öz fondunu müxtəlif ədəbiyyatla zənginləşdirmək, ən önəmlisi isə kitabxananı müasir kompüter texnologiyaları və avadanlıqları ilə təchiz etmək məqsədilə 2001-2003-cü illərdə müxtəlif mövzulara həsr olunmuş layihələr hazırlamışdır.

Nəticə olaraq qeyd edilməlidir ki, bazar iqtisadiyyatına keçid şəraitində stabilliyə nail olan ölkədə geniş populyarlıq qazanan bir çox beynəlxalq təşkilatlarla - Soros fondu (Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu), Avrasiya Fondu, İRTCL ilə respublikamızın kitabxanaları arasında beynəlxalq əlaqələr daha da genişləndirilmişdir. Bu təşkilatların maliyyə dəstəklikləri ilə kitabxana proqramları çərçivəsində Azərbaycan kitabxanalarının həyata keçirdikləri bir sıra layihələr respublikamızda kitabxana işinin daha da inkişaf etdirilməsinə yeni-yeni imkanlar açmışdır.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikasının Konstitutsiyası. – B.;1995.*
2. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu //Azərbaycan. – 1999. – 14 mart.*
3. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. 3 hissədə. I hissə. – B.: Bakı Universiteti Nəşriyyatı, 2003. – 314 s.*
4. *İsmayılov X.İ. Təhsil və kitabxana işində beynəlxalq əlaqələrin rolu//Kitabxanaşünaslıq və biblioqrafiya. – 2003. – №1. – 116 s.*
5. *Kazımov R. Bazar iqtisadiyyatı və kitabxanalar: Dərs vəsaiti. – B.; 1996.-32 s.*
6. *Kazımov R. Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti.-B.:Bakı Universiteti Nəşriyyatı,2004.-87 s.*
7. *Kitabxanalar və Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu// Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının Elmi əsərləri, bur.IV.-B.;2003.-129 s.*
8. *Quliyev N. və b. Azərbaycanın sosial-iqtisadi inkişafında büdcənin və büdcədənkənar fondların rolu// Dirçəliş (XXI əsr).-2001.- №3.-240 s.*

## ROLE OF THE INTERNATIONAL ORGANIZATIONS IN FINANCING OF THE LIBRARIES

**M.A.MAMMADOV**

***SUMMARY***

***Main words:*** *Funding of libraries. Charity and donor organizations. International organizations which gives grant. Fundrazation activity of libraries. Fund of Soros. Fund of Eurasia.*

*The goals and objectives of the funding in libraries are explained and financial sources are shown in the scientific article. Furthermore, the role of the international organizations in the funding of libraries are indicated and the information about them is given.*

## РОЛЬ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ В ФИНАНСИРОВАНИИ БИБЛИОТЕК

**М.А.МАМЕДОВ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *Финансирование библиотек. Благотворительные и донорские организации. Международные организации выдающие грант. Фандрайзическая деятельность библиотек. Фонд Сороса. Фонд Евразии.*

*В научной статье были показаны источники финансирования, их цели и роли в финансировании библиотек. Также здесь была показано роль международных организаций в финансировании библиотек и информация о них.*

# ABONEMENTDƏ VƏ QİRAƏT ZALINDA OXUCULARA KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**A.Ə.CƏFƏROV**
***Baş müəlllim***
***Bakı Dövlət Universiteti***
***m.mehmanəli@.mail.ru***

*Məqalədə müasir dövrdə oxuculara abonementdə və qiraət zalında kitabxana xidmətinin vəziyyəti konkret fakt və rəqəmlər əsasında təhlil edilmiş, işi yaxşılaşdırmaq üçün bir sıra tövsiyələr verilmişdir. Bu zaman Tərtər rayon zona təcrübə stansiyası kitabxanasının iş təcrübəsinə isnad edilmişdir.*

***Açar sözlər:*** *abonement, oxu zalı, oxucu, kənd təsərrüfatı.*

Azərbaycan Respublikasında həyata küçirilən aqrar islahatlara uygun olaraq aqrar sahədə aparılan elmi tədqiqat işçilərinin istehsalatda tətbiq edilməsinin səmərəliliyini artırmaq məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə 9 müxtəlif regional elmi mərkəzlər yaradıldı. Bunlara Quba, Salyan, Beyləqan, Kürdəmir, Tərtər, Lənkəran, Gəncə, Şəki və Naxçıvan REM-lər aiddir [1.1]

Həyata keçirilən tədbirlər bir çox sahələrdə oldugu kimi bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının strukturunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bütün bunları nəzərə alaraq Kənd Təssərrüfatı Nazirliyinin Aqrar Elmi Mərkəzi sistemində yerinə yetirilən elmi-tədqiqat mövzularının əksəriyyəti praktik əhəmiyyət daşıyaraq yeni sortların və becərilmə texnologiyalarının təkmilləşdirilməsinə, bitkiçilikdə və heyvandarlıqda səmərəli mühafizə üsullarının işlənməsi məsələlərinin öyrənilməsinə həsr edilmişdir [2.5].

Kənd təssərrüfatında həyata keçirilən iqtasadi islahatların hüquqi əsasını isə Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi normativ hüquqi sənədlər təşkil edir. İqtisadi islahatların həyata keçirilməsində və mütəxəssislərin elmi biliklərinin artırılmasında kitabxanalar böyük rol oynayır. Xalqın mənəvi zakası, tarixi yaddaşı, bəşəri biliklərin ”qızıl fondu” sayılan kitabxanalar müasir elmi tərəqqinin aparıcı qüvvələrindən biri kimi elmi informasiya və mədəni tərbiyə işinə səmərəli təsir göstərən bir sosial istitut səviyyəsində hazırki şəraitdə daha ardıcıl fəaliyyət göstərilməlidir [3, №3].

Hazırkı dövrdə ktab, kitabxana və cəmiyyət problemi bilavasitə xalqın tərəqqisinin əsas amillərindən biri oldugundan, əhalinin çap əsərlərindən ictimai istifadəsinin mühüm vasitəsi kimi meydana çıxır. Hər bir kitabxana qarşı-

sında duran məqsəd və vəzifələrin ugurla həyata keçirmək üçün elm və bilik sahələri üzrə məlumat mənbəsi hesab edilən kitabları, dövrü nəşrləri, ümumiyyətlə çap məhsulunun bütün növlərini öz fondunda toplamalı və həmin materialların-nəşrlərin, o cümlədən çap olnmamış materiaalların hər vasitə ilə təbliğinə çalışmalıdır. Təbii ki, bu zaman kitabxanaların xidmət profili qarşısında duran məqsəd və vəzifələr əsas amil hesab olunur. Son məlumata görə ölkəmizdə 10 mindən artıq kitabxana vardır ki, bunların da 4 mindən artıgı universal kütləvi kitabxanalardır. Bu kitabxanaların fondunda 50 milyon nüsxəyə qədər kitab toplanmışdır və ondan 2 milyondan artıq oxucu istifadə edir [1].

Alim və mütəxəssislərə kitabxana xidmətinin təşkili sahəsində kənd təsərrüfatı kitabxanalarının özünəməxsus yeri və rolu vardır. Müasir mərhələdə kənd təsərrüfatı kitabxanalarının baçlıca vəzifəsi dövlətin aqrar siyasətinin həyata keçirilməsində kənd təsərrüfatı mütəxəssilərinə və qulluqçularına, elmi işçilərə, fermer təsərrüfatlarına, aqrar-sənaye birliklərində fəaliyyət göstərən bütün oxuculara səmərəli kitabxana-biblioqrafiya və informasiya xidmətinin təşkil etməkdən ibarətdir. Respublikanın ixtisaslaşdırılmış kənd təsərrüfatı kitabxanaları sistemində 728622 nüsxəyə yaxın olan 27 kitabxana fəaliyyət göstərir. Kənd təsərrüfatı kitabxanaları şəbəkəsinə respublika əhəmiyyətli mərkəzi elmi kitabxana, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə elmi tədqiqat institutlarının kitabxanaları, təcrübə stansiyalarının kitabxanaları daxildir. Təhsil müəssisələrinin kitabxanaları isə bu şəbəkədən çıxarılmış və Təhsil Nazirliyə tabe edilmişdir [4].

İqtisadiyyatı bazar münasibətləri əsasında qurmaq və kənd təsərrüfatı böhranını aradan qaldırmaq üçün ölkədə kənd təsərrüfatı sahəsi üzrə elmi işçilərinin, aspirantların, mütəxəssislərinin ixtisas səviyyəsini daha da artırmaq, onların sorgularını tam hərtərəfli ödəmək lazımdır. Müasir şəraitdə kənd təsərrüfatı elminin son nailiyyətlərinin, eləcə də qabaqcıl təcrübənin məqsədəuygun şəkildə geniş təbliginə bu kitabxanadan Tərtər Zona Təcrübə Stansiyasının xüsusi rolu vardır. Bu kitabxana 1976-ildən fəaliyət göstərir [1].

ZTS-in qarşısında duran elmi-tədqiqat və təcrübi vəzifələrin yerinə yetirilməsində onun kitabxanasının da çox büyük əhəmiyyəti vardır. Məlum olduğu kimi təcrübə stansiyasının kitabxanaları qapalı tipli dar profilli kitabxanalardır. O, əsas etibarilə ancaq ZTS-in işçilərinə xidmət edir və öz işini onun həyata küçirdiyi vəzifələrə müvafik olaraq qurur [8]. Kitabxana elmi işçilərə və mütəxəssislərə xidmət işini abonement, qiraət zalı və qismən də KAA vasitəsiə həyata keçirir. Kitabxana öz fondunun qismən kitabxana kollektorundan və kitab mağazasından aldıgı qiymətli baglamalar hesabına genişləndirmişdir. 2007-ci ildə kitabxananın fondunda 9.592 nüsxə ədəbiyyat olmuşdur. Mübadilə fondunda 675 nüsxə, müasir fondda 675 nüsxə ədəbiyyat olmuşdur. Həmin il kitabxananın 70 nəfər daimi oxucusu olmuş, kitabxanaya gəliş 3.250 olmuş-

dur. Onlara verilmiş sənədlərin sayı isə 9235 olmuşdur ki, bunlardan da 975 nüsxəsi ictimai-siyasi ədəbiyyat, 3477 nüsxəsi kənd təsərrüfatı ədəbiyyatı, 912 nüsxəsi isə bədii ədəbiyyat və s.-dir [1].

Bu göstərici qapalı tipli, dar profilli kitabxana üçün o qədər də pis deyil.

İndi isə kitabxanada abonement və qiraət zalı vasitəsilə mütəxəssislərə və elmi işçilərə, ümumiyyətlə, oxuculara xidmət işinin təşkili xüsusiyyətlərinin fakt və rəqəmlərlə izah etməyə, burada olan nöqsan və çatışmamazlıqları aşkara çıxarmaga çalışaq. Məlum oldugu kimi, istənilən tip və növdən olan kitabxanaların abonement və qiraət zallarının işində spesifik xüsusiyyətlərlə bərabər, bütün kitabxanalar üçün ümumi olan xüsusiyyətlər də xasdır. Başqa bir tərəfdən isə bütün kitabxanaların abonement və qiraət zallarında oxuculara, eləcə də mütəxəssis oxuculara xidmət işinin tabe oldugu ümumi nəzəri əsaslar mövcuddur. Bütün bunlara görə də Tərtər ZTS kitabxanasında abonement və qiraət zalında oxuculara xidmət işini izah edib ümumiləşdirməzdən əvvəl bu ümumi xüsusiyyətlər və nəzəri əsaslar haqqında məlumat vermək, sonrakı izahat zamanı isə məhz bu məlumatlara isnad etmək məqsədəuygun olar.

Abonement fondda olan çap əsərlərinin və digər materialların kitabxanadan kənarda istifadəsini müəyyən şərtlərlə (qaytarma müddəti, mühafizə təminatı və s.) təşkil edib həyata keçirən kitabxana şöbəsidir. Abonement həm kütləvi, həm də elmi kitabxanada təşkil edilir. ”Abonement” sözünün mənası müəyyən müddət ərzində nədənsə istifadə etmək, xidmət hüququ deməkdir [7].

Kitabxanadan elə kitab almaq hüququ ayrı-ayrı vətəndaşlara (fərdi abonement), bəzi xüsusi kitabxanalarda isə mütəxəssislərə və digər təşkilatların işçi kollektivlərinə (kollektiv abonement) verilir. Elmi kitabxanalarda kütləvi kitabxanadan fərqli olaraq evə daha şox kitab verilir ki, bu da elmi işçilərin və mütəxəssislərin əməyinin xarakteri ilə müəyyən edilir. Elmi kitabxanaların oxu zallarında əsas fonddan evə kitab verilişi məntəqələri də yaradılır. Əksər hallarda abonement kitabxananın müstəqil şöbəsi kimi təşkil edilir. Böyük elmi kitabxanalarda ixtisaslaşdırılmış abonementlərin müxtəlif növləri olur.

Tərtər ZTS kitabxanasında abonement şöbəsi çox sadə quruluşa malikdir. Bu isə kitabxananın xarakteri, daha dogrusu, onun qaralı tirli dar profilli kitabxana olması ilə xarakterizə edilir. 2007-ci ildə kitabxananın 70 nəfər oxucusu olmuşdur ki, onların da əksəriyyəti abonement şöbəsindən fəal şəkildə istifadə etmişlər. Onlara 9235 nüsxə ədəbiyyat verilmişdir ki, bunun da 975 nüsxəsi ictimai-siyasi ədəbiyyat, 3477 nüsxəsi isə kənd təsərrüfatı ədəbiyyatıdır. Bunlardan 6600-ü kitab və broşüra, 2635-i isə dövri və ardı davam edən nəşr olmuşdur. Ümumi kitab fondu isə 9592 nüsxə olmuşdur. Bu ildə müraciət edən oxuculara 16 adda ədəbiyyat üçün “rədd cavabı” verilmişdir. 2007-2008-ci illərdə kitabxananın abonement şöbəsi vasitəsilə kitab verilişi ümumi kitab verilişinin nisbətən az hissəsini təşkil etmişdir [1].

Tədqiq olunan dövrdə kitabxananın daimi oxucularının gah artıb, gah da azalması ilə əlaqədar olaraq abonementin istifadə edən oxucuların sayı da müxtəlif olmuşdur. Lakin buna baxmayaraq oxuculara xidmət işində aparıcı yeni yenə də oxu zalı tutmuşdur. Kitabxananın əksəriyyəti ancaq ZTS-in öz əməkdaşları olmuşdur. Kitabxananın 2007-2008-ci illərdəki işi ilə daha yaxından tanış olmaq üçün aşagıdakı cədvələ müraciət edək.

| *İllər* | *Oxucu ların sayı* | *Fərdi abonem ent* | *Oxu zalı* | *K/t mütəx* | *Elmi işçilər* | *Başqa oxucu lar* | *Gələn lərin sayı* |
|---|---|---|---|---|---|---|---|
| 2007 | 70 | 50 | 20 | 14 | 51 | 6 | 6220 |
| 2008 | 72 | 55 | 20 | 19 | 48 | 9 | 6712 |

**Nəşrlər üzrə sənədlərin verilişi**

| *İllər* | *V.ə.m.* | *İ.s.ə.* | *K.t.ə.* | *B.ə.v.d.e.s.* | *K.v.K/x.* | *D/n* |
|---|---|---|---|---|---|---|
| 2007 | 9235 | 975 | 3477 | 4783 | 6600 | 2635 |
| 2008 | 9250 | 950 | 3510 | 4790 | 6610 | 2640 |

Cədvəllərdən göründüyü kimi, müxtəlif illərdə kitabxananın abonement və oxu zalının göstəriciləri müxtəlif cür olmuşdur, il ərzində verilən ədəbiyyatın miqdarı gah artmış, gah da azalmışdır. Lakin abonement şöbəsində çox zaman oxuculara "rədd" cavabının verilməsi kitabxananın fondunun oxucu sorgularının xarakterinə müvafiq olaraq istənilən şəkildə komplektləşdirilmədiyi baxımından narahatlıq dogurmaya bilməz. Ümumiyyətlə, bir çox çatışmazlıq və nöqsanlar vardır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, abonement şöbəsinin işi daha çox texniki xarakter daşıyır, daha dogrusu, şöbə öz işini yalnız kitab verilişi ilə kifayətlənmiş hesab edir. Burada oxuculara kitab seçilməsi işinə kömək, mütaliəyə rəhbərlik, oxucu sosrgularının istiqamətləndirilməsi məsələlərinə, demək olar ki, az fikir verilir. Kitabxanada oxucularla fərdi isə bir o qədər də fikir verilməmişdir. Nəhayət, abonement şöbəsinin oxu zalı ilə əlaqəsi çox zəifdir. Tərtər ZTS kitabxanasının oxu zalının işi abonement şöbəsinə nisbətən daha yaxşı təşkil edilmişdir. Oxucuların dövri nəşrlərlə, kitablarla, audiovizual materiallarla işləyə biləcəkləri xüsusi yeri olan kitabxana şöbəsi oxu zalı adlanır [1].

Oxucuların təhsil və peşə sorgularının mürəkkəbləşməsi ilə əlaqədar olaraq hazırda əhaliyə kitabxana-biblioqrafiya xidmətinin təşkilində oxu zallarında əhəmiyyəti nəzərə çarpacaq dərəcədə artır. Lakin bir çox kütləvi, habelə

elmi kitabxanaların oxu zallarının vəziyyəti oxucuların artmaqda olan tələblərinə cavab vermir. Oxu zalının işinin təşkilində onun yardımçı fondu mühüm rol oynayyır. Ümumiyyətlə, bu fond kitabxana üzrə kitab verilişinin təşkilində mühüm yer tutur. Oxu zalının yardımçı fondu oxucu sorğularının operativ şəkildə ödənilməsinə xidmət etdiyinə görə, burada əsas etibarilə son illərdə dərc edilmiş nəşrlər öz əksini tapmışdır. Lakin nəzərə almaq lazımdır ki, müxtəlif tipli ədəbiyyat üçün "köhnəlmə" mexanizmi müxtəlifdir. Məsələn, elmi əsərləri oxucular daha uzun müddət ərzində soruşur. Bu halda yardımçı fondda müxtəlif tipli kitabların saxlanma müddəti də müxtəlif olmalıdır. Oxu zalında kitab verilişinin texnikası və uçotu abonementdən bir qədər sadədir.

Tərtər ZTS kitabxanasının oxu zalı başlıca kitab verilişi məntəqəsidir. 20 nəfərlik bu oxu zalının yardımçı fondundan istifadə açıq rəf üsuluna əsaslanır. Burada soraq-biblioqrafiya nəşrləri, müxtəlif növ ensklopediyalar, lügətlər, qəzet və jurnallar oxucuların açıq istifadəsinə verilir. Stansiyanın işçiləri oxu zalından tez-tez istifadə edirlər. Oxu zalının işini tam şəkildə aydınlaşdırmaq və izah etmək məhz bu səbəbə görə mümkün olmamışdır. Daha dəqiq desək, oxucuların yardımçı fondun bir hissəsindən sərbəst şəkildə istifadə etmələrinin uçotunun aparılmaması oxu zalının işi haqqında tam təsəvvür əldə etməyə imkan vermir. Lakin kitabxananın, xüsusilə də oxu zalının gündəlik iş təcrübəsinin öyrənilməsi göstərir ki, ZTS-in bütün işçiləri bu və ya digər dərəcədə oxu zalının sərbəst yardımçı fonduna müraciət edirlər. Oxu zalına 2008-ci ilin bir ayı ərzində 216 gəliş olmuş, oxucular daha çox qəzet və jurnallardan, habelə soraq kitablarından istifadə etmişlər.

Ümumiyyətlə, 2008-ci ildə kitabxanaya 2335 nəfər oxucu gəlişi olmuş və onlara 9250 nüsxə ədəbiyyat verilmişdir ki, bunun da çoxu oxu zalının payına düşür. Bu rəqəmin qeyri-tamligını, daha dogrusu ozu zalının sərbəst fondundan istifadənin uçotunun aparılmadıgını da nəzərə alsaq, oxu zalının kitab verilişindəki rolu haqqında tam təsəvvür əldə edə bilərik. ZTS-nin kitabxananın oxu zalının işində də bəzi nöqsan və çatışmazlıqlar lmuşdur. Hər şeydən əvvəl, tədqiq olunan dövrdə zalın yardımçı fondunun genişləndirilməsi, onun tərkibi zalın qarşısında duran vəzifələrlə uygunlaşdırılmamışdır. Burada kənd təsərrüfatı üzrə soraq-biblioqrafiya nəşrlərinin miqdarı çox az olmuşdur.

Kitabxananın oxu zalı abonementdən fərqli olaraq fərqli xidmət işinə müəyyən dərəcədə yer vermişsə də bu işdə bəzi nöqsanlar olmuşdur. Bunlara baxmayaraq oxu zalının kitabxananın fəaliyyətində tutdugu rol çox mühüm və əhəmiyyətli olmuşdur. Buna görə də Tərtər ZTS kitabxanasının bəhs edilən dövrdəki fəaliyyətinin qənaətbəxş hesab etmək olar.

## ƏDƏBİYYAT

1. *REKTK-nın 2009-cu il hesabatı.*
2. *Elmi-tədqiqat müəssisələrinin 2008-ci ildəki fəaliyyətinin əsas yekunları.-B.,2009, s.5.*
3. *Niftullayev V. Kənd təsərrüfatının iqtisadiyyatı.-B.:Elm,1996, s.3.*
4. *Rzayev S. Kitabxana xidməti. Dərslik.- B.:"Turan evi",2009, s.142.*
5. *Сельскохозяйственные библиотеки Азербайджанской ССР (Справочник). -Б., 1976.-с.11.*
6. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. - B., 2003, s.156-157.*
7. *Работа с читателями: Учебник.-М.: Книга. 1981,с.254.*

## ABOUT THE ORGANIZATION PROBLEMS OF LIBRARY SERVICE FOR READERS IN READING HALLS

**A.A.JAFAROV**

### *SUMMARY*

***Keywords:*** *subscription, reading-hall, reader, agriculture.*

*In the presented article the situation of library service in reading halls has concretely been analysed on the base of facts and some advise are put forword for improving the guality of service.*

## ОРГАНИЗАЦИЯ БИБЛИОТЕЧНОЕ ОБСЛУЖИВАНИЕ ЧИТАТЕЛЕЙ В АБОНЕМЕНТЕ И В ЧИТАЛЬНЫХ ЗАЛАХ

**А.А.ДЖАФАРОВ**

### *РЕЗЮМЕ*

***Ключевые слова:*** *абонемент, читальный зал, читатель, сельское хозяйство.*

*В статье освешено библиотечное обслуживание читателей в абономенте и читальном зале и указано некаторые рекомендация для улучшения библиотечного обслуживание читателей в современном этапе.*

# "AZƏRBAYCANDA KİTABXANALARIN KOMPYUTERLƏŞDİRİLMƏSİNİN TARİXİ VƏ MÜASİR PROBLEMLƏRİ"

**N.N.İSMAYILOVA**
***Bakı Dövlət Universiteti***
***n.musaeva@rambler.ru***

***Açar sözlər:*** *Azərbaycanda kitabxanaların kompyuterləşdirilməsinin tarixi, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, M.F.Axundov adına Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası*

*Məqalədə Azərbaycanda sosial-siyasi və iqtisadi faktorların kitabxana işinin kompyuterləşdirilməsinə təsiri qeyd edilərək, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, M.F.Axundov adına Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və Prezident Kitabxanasının timsalında kitabxana işinin kompyuterləşdirilməsinin tarixi və müasir problemləri şərh edilmişdir.*

Azərbaycan kitabxanalarının qarşısında, dünyanın qabaqcıl ölkələrində olduğu kimi, müasir elektron kitabxana xidmətini yaratmaq, kitabxana-informasiya və biblioqrafik ehtiyatların dünya informasiya sisteminə inteqrasiyasına nail olmaq kimi ciddi problemlər durur. Bu problemlərin həlli ilk növbədə Azər-baycan tarixi, mədəniyyəti, elmi, təhsili, incəsənəti, maddi və mənəvi dəyərləri haqqında informasiya yaymağa, torpaqlarının işğalına və bədnam düşmənlərinin dezinformasiyasına məruz qalmış Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına imkan verəcəkdir.

Azərbaycanda zəngin ədəbiyyat fonduna malik geniş kitabxana şəbəkəsinin olmasına baxmayaraq, kitabxanalarda yeni informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən çətinliklər olmuşdur. Düzdür, ötən əsrin ortalarında - yəni 1960-cı illərdə Azərbaycanda kitabxana proseslərinin avtomatlaşdırılmasına başlanılmış, yəni Azərbaycan SSR EA-nın fundamental elmi kitabxanasında və Respublika Elmi Texniki Kitabxanasında informasiyanın seçilib yayılmış sistemi işlənmişdir. 1970-ci illərdən isə Respublika Elmi Texniki kitabxanasında Regional Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi (RABİS) işlənmişdir. Sənədlərin informasiya bankı və «kitabxana xidməti» altsistemi sənaye istismarında olmuş, «avtomatlaşdırılmış komplektləşdirmə», «ədəbiyyatın işlənməsi», «biblioqrafik informasiya» və s. bu kimi altsistemlər təcrübi istismarda olmuşdur. Lakin 1990-cı illərdə respublikadakı vəziyyətlə əlaqədar olaraq bu avtomatlaşmış sistemlərin fəaliyyəti, mövcudluğu dayanmışdı.

Azərbaycan kitabxanalarında yeni texnologiyaların tətbiqinə, daha doğrusu, kitabxanaların kompyuterləşdirilməsi işinə ölkəmiz müstəqilliyini bərpa etdikdən və kitabxana işini beynəlxalq standartlara uyğun qurmaq zərurəti meydana gəldikdən sonra diqqət verilməyə başlanmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə siyasi və iqtisadi vəziyyət çox çətin idi. Mədəniyyətin digər sahələri kimi, kitabxanalar da lazımi vəsaitlərlə təmin edilmir, oxucuların sayı azalır, fondlar cari ədəbiyyatla təmin edilmirdi. Bu vəziyyət kitabxanalarda, xüsusilə yeni kitabxana-informasiya texnologiyası sahəsində özünü göstərirdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra 5-6 il ərzində kitabxana fəaliyyətini yeni şərtlərlə qaydaya salan heç bir rəsmi və metodiki sənədlər qəbul edilməmişdi. Respublika Kitab Palatasının fəaliyyəti dayanmışdı. Respublikada buraxılan nəşrlərin dövlət biblioqrafik uçotu M.F.Axundov adına Milli Kitabxanaya həvalə edilmişdi. Həmçinin bu dövrdə nəşriyyatlar məcburi nüsxələri qeyri-müntəzəm və lazımi qaydada təqdim etmirdilər. Buna görə də respublikada kitab və jurnal salnamələri buraxılmırdı.

1995-ci ildən başlayaraq ayrı-ayrı əməliyyatları yerinə yetirmək məqsədilə kompyuterlərdən istifadə edilməyə başlandı. İlk vaxtlar kompyuterlər kitabxanalarda kargüzarlıq, qismən də maliyyə xərclərinin hesablanmasını avtomatlaşdırmaq məqsədilə istifadə olunurdusa, 90-cı illərin axırlarından kitabxanaların İnternet kompyuter informasiya şəbəkəsinə qoşulması oxucuların informasiya tələbatının elektron formada ödənilməsinə, kitabxanalararası əlaqələrin qurulmasına, ədəbiyyat sifarişlərinin avtomatlaşdırılmasına, daha doğrusu, kitabxana işi kollektiv əmək olduğundan onun kompyuterləşdirilməsini kompleks həyata keçirən, özündə kitabxana işinin bütün sahələrini əhatə edən avtomatlaşdırılmış sistemlərin yaradılmasına və ya alınmasına böyük ehtiyac yaranmışdı.

Bu dövrdə kitabxanalar yaranan bu çətin vəziyyətdən çıxış yolları, ələlxüsus da maliyyə mənbələri axtarmaq məcburiyyətində idilər. Belə bir şəraitdə bir çox iri kitabxanalar müxtəlif beynəlxalq fondlardan, xeyriyyəçi təşkilatlardan qrantlar almağa başladılar ki, bu da kitabxanaların müəyyən dərəcədə iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb oldu.

1990-cı illərin ikinci yarısından başlayaraq respublika kitabxanalarına ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Azərbaycanda fəaliyyət göstərən xarici neft kompaniyaları, bir çox humanitar və qeyri-hökumət təşkilatları maliyyə yardımı göstərməyə başladılar. Bu dövrdə kitabxanaların dövlət tərəfindən də maliyyə vəsaiti ilə təmin edilməsi tədricən genişlənirdi.

1998-ci ilin dekabr ayının 22-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən «Kitabxana işi haqqında» qanun qəbul edildi. Bu qanun kitabxanaların statusunun rəsmi şəkildə bərpa edilməsinə imkan verdi, onların

fəaliyyəti üçün hüquqi baza yaratdı, kitabxanaların demokratikləşdirilməsini gücləndirdi və respublika kitabxanalarının dünya kitabxanaları ilə müstəqil qarşılıqlı əlaqələrinin genişlənməsinə imkan yaratdı.

Artıq kitabxana quruculuğu sahəsində həyata keçirilən bu kimi tədbirlər 1990-cı illərin sonu - 2000-ci illərin əvvəlindən Azərbaycan kitabxanalarında yeni kitabxana-informasiya texnologiyalarının tətbiqini zəruri etdi və bir çox iri kitabxanalar bu sahədə ilk addımlarını atdı.

Məsələn, ***Bakı Dövlət Universitetinin Elmi Kitabxanası*** respublikamızın kitabxanaları içərisində kompyuterləşmə prosesini həyata keçirməyə çalışan ilk kitabxanalardan biri olmuşdur. Bu mühüm işdə "Kitabxanaların kompyuterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının çox böyük rolu olmuşdur. Belə ki, 1990-cı illərin sonlarında BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfov BDU-nun fəaliyyətində kitabxana işinin informasiya cəmiyyətinin tələblərinə uyğun kompyuterləşdirilməsini zamanın ən aktual məsələlərindən biri hesab edərək, BDU-nun Elmi Kitabxanasının kompyuterləşdirilməsi üçün "Kitabxanaların kompyuterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının yaradılması təşəbbüsü ilə çıxış etmişdi. Bu dövrdə BDU-da tədris prosesinin informasiyalaşdırılması və onun keyfiyyətinin yüksəldilməsi sahəsində böyük islahatlar həyata keçirən rektor, Əməkdar elm xadimi, akademik Abel Məhərrəmov BDU-nun Elmi Kitabxanasının fəaliyyətini modernləşdirmək məqsədilə professor A.A.Xələfovun təşəbbüsünü bəyənmişdi. Beləliklə, 1 mart 1999-cu ildə BDU-nun Elmi Şurası Kitabxanaşünaslıq kafedrasının nəzdində «Kitabxanaların kompyuterləşdirilməsi» elmi-tədqiqat laboratoriyasının yaranması haqqında qərar qəbul edilmiş və Respublika Təhsil Nazirliyinin 1999-cu il 171 saylı əmrinə müvafiq olaraq bu laboratoriya professor A.A.Xələfovun rəhbərliyi ilə 2000-ci ildə fəaliyyətə başlamışdı. Akademik A.M.Məhərrəmov laboratoriyanın kitabxananın yanında fəaliyyət göstərməsini və kitabxana işinin kompyuterləşdirilməsini həyata keçirməsini məsləhət bilmişdi. Rektorun uzaqgörənliklə istiqamətləndirilmiş bu məsləhəti laboratoriyanın sonrakı fəaliyyətinə və kitabxana işinə mühüm təsir göstərmişdi. Bu laboratoriyanın yaradılması ölkədə kitabxana işinin kompyuterləşdirilməsi prosesinə güclü təkan vermiş, müasir informasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi bundan sonra ölkə miqyasında daha geniş yayılmağa başlamışdı.

Laboratoriyada Azərbaycanda ilk dəfə olaraq vahid virtual elektron kitabxana şəbəkəsinin yaradılmasının elmi əsasları hazırlanmışdı və BDU-nun elmi kitabxanasının bazasında onun mərhələ-mərhələ həyata keçirilməsinə başlanmışdı. Tədqiqatların ilkin nəticəsi olaraq laboratoriyanın proqramçı

əməkdaşı tərəfindən «Kitabxana-1.0» Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) yaradılmışdır. Daha sonra «Kitabxana-1.0» AKİS-nin təkmilləşdirilmiş «Kitabxana-2.0» versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazı əsasında Azərbaycan dilində kitabların informasiya bazasına malik olub, 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirirdi. Sistem qeyri-məhdud sayda istifadəçisi olan ixtiyari tip lokal kompüter şəbəkələrində işləyə bilirdi. Sistemdə əsas kitabxana prosesləri, o cümlədən sistemləşmə, kataloqlaşma, abonent xidmətinin avtomatlaşdırılmış işçi yerləri nəzərdə tutulmuşdur. Sistem qeyri-məhdud sayda verilənlər bazası yaratmaq və istifadə etmək qabiliyyətinə malik idi. Sistem oxucu sorğusunun tez formalaşması üçün müxtəlif rubrikaların avtomatik yaradılmasını təmin edirdi. Sistem sadə, rahat, qrafiki istifadəçi interfeysinə malik olub, səhvsiz informasiyasının daxil olmasını təmin edən xidmət vasitələrinə malik idi. Həmçinin "açıq" texnologiya əsasında yaradılmış - sistem konkret kitabxana üçün asan adaptasiya oluna bilər.

Bu AKİS-lər Azərbaycanda virtual vahid kitabxana informasiya sisteminin yaradılması sahəsində atılan ilk addım olduğundan və 90-cı illərdə qüvvədə olan QOST 7.1-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir problemlərini, o cümlədən beynəlxalq biblioqrafik məlumat mübadiləsini təmin etmirdi. Buna görə də 2003-cü ildən etibarən BDU-nun elektron kataloqunun yaradılmasında keçmiş MDB-nin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan «MARC-Sql-1,5», daha sonra isə «İRBİS-64» proqramını tətbiq etməyə başladılar.

2000-ci ildə laboratoriyanın əməkdaşları tərəfindən beynəlxalq biblioqrafik məlumat mübadiləsini həyata keçirməyə kömək edən UNİMARC formatının təhlili, öyrənilməsi, ondan istifadə qaydaları və Azərbaycanın elmi kitabxanalarında tətbiqi istiqamətində ciddi iş aparılmışdır. Laboratoriyanın işçiləri tərəfindən UNIMARC formatı Azərbaycan dilinə tərcümə edilmiş və onun tətbiqinə kömək etmək məqsədilə təsvir nümunələri hazırlanmışdır.

Laboratoriya yarandığı vaxtdan Elmi Kitabxananın elektron kataloqunun yaradılması üzərində işlər aparmış və bütün bunlar müsbət nəticələnmişdir. Hal-hazırda elektron kataloqun məlumat bazasının yaradılmasında laboratoriyanın əməkdaşları ilə bərabər, kitabxananın işçiləri də məşğul olurlar. Artıq Elmi Kitabxananın «Nadir kitablar fondu»ndan 7100 adda kitab, «Dissertasiyalar və avtoreferat» fondundan 3170 adda dissertasiya rus dilində, 580 adda Azərbaycan dilində, «Xarici ədəbiyyat və dövri mətbuat» şöbəsində isə bütün elm sahələri üzrə müxtəlif xarici dillərdə (ingilis, alman, fransız və Qərbi Avropa dillərində) 1525 jurnal (son illərin nəşrləri), texniki elm sahələrinə aid rus dilində 13 768 jurnal, Azərbaycan dilində 976 jurnal elektron kataloqa

daxil edilmiş və oxucuların istifadəsinə verilmişdir. Həmçinin laboratoriyanın işçiləri rus dilində kitabxananın sistemli kataloqunda kimya elminə aid olan kitabları elektron kataloqa daxil etmişdir. Hazırda biologiyaya aid kitablar elektron kataloqa daxil edilməkdədir. Kitabxananın fondunda Azərbaycan dilində olan bütün kitablar, həmçinin nadir xarici ədəbiyyat və dövri mətbuat fondu bütünlüklə elektron kataloqa daxil edilmişdir. Azərbaycan dilli dövri mətbuat fondu və rus dilində təbiət və texniki ədəbiyyat fondunun biblioqrafik məlumat, informasiya-sorğu bazası yaradılaraq elektron kataloqa əlavə edilmişdir.

BDU Elmi Kitabxanasının elektron kataloqunun iki versiyası mövcuddur: Azərbaycan və rus versiyaları. Elektron kataloqun Azərbaycan versiyasında olan informasiya axtarışını beş baza üzrə həyata keçirmək mümkündür: 1) Yeni Kitablar (burada 2000-ci ildən bu günə qədər kitabxanaya daxil olan Azərbaycan dilində nəşrlər yerləşdirilmişdir); 2) Kitablar (1921-2002); 3) Jurnallar; 4) Dissertasiyalar; 5) Məqalələr.

Elektron kataloqun rus versiyasında məlumat bazalarının sayı digərinə nisbətən daha çoxdur. Burada 8 baza mövcuddur: 1) Kimyaya dair kitablar (11037 adda); 2) Yeni kitablar (sayı tez-tez dəyişir); 3) Nadir kitablar (15 920 adda); 4) Dissertasiyalar (3 290 adda); 5) Humanitar elmlərə dair jurnallar (12 361 nüsxə); 6) Texniki elmlərə dair kitablar (15 930 adda); 7) Xarici jurnallar (1 942 nüsxə); 8) Məqalələr (22 131 adda).

Elektron kataloqda UOT-a, müəllifə, sərlövhəyə, nəşriyyata, nəşr yerinə, nəşr ilinə, predmet təsnifatına, topluya, açar sözlərə və s. ünsürlərə görə kompleks axtarış aparmaq mümkündür. Elektron kataloq vasitəsilə oxucular aşağıdakı elektron nəşrlərdən də istifadə edə bilərlər: dərsliklər (Azərbaycan və rus dillərində), siyasi ədəbiyyat, ensiklopediyalar, lüğətlər, bədii ədəbiyyat, milli folklor, poeziya, nəsr əsərləri və s.

Laboratoriyada həmçinin bəzi dərslik və dərs vəsaitlərinin elektron variantı hazırlanaraq onların elektron informasiya fondu yaradılmış və kitabxananın serverində yerləşdirilərək İnternet şəbəkəsində istifadəyə verilmişdir.

İnformasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi nəticəsində kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində gərəkli addımlar atan kitabxanalardan biri də ***M.F.Axundov adına Milli Kitabxanadır***. Milli Kitabxana Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan dilində nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mənəviyyat xəzinəmiz və elm məbədimizdir.

Milli Kitabxanada avtomatlaşdırma işinə 1990-cı illərin sonlarında Açıq Cəmiyyət İnstitutu Yardım Fondu (və ya Soros Fondu) və Avrasiya Fondu kimi beynəlxalq təşkilatların kitabxanaçılar üçün elan etdiyi xüsusi layihələrdə iştirak edərək dəfələrlə qrantlar udması yolu ilə başlanılmışdır. Alınan qrantlar hesabına elektron resursların yaradılması üçün zəmin yaranmış və modernləşdirilmiş kitabxana quruculuğunun əsası qoyulmuşdu. Hələ 1998-ci ildə Milli Kitabxana ABŞ-ın USAID təşkilatının vəsaiti hesabına Avrasiya Fondundan qrant udaraq, qlobal informasiya şəbəkəsinə qoşulmuşdu. Respublikamızda kitabxanada ilk İnternet zalı, 2000-ci ildə isə yenə də həmin ictimai təşkilatların qrant vəsaiti hesabına Tədris Mərkəzi məhz M.F.Axundov adına Milli Kitabxanada yaradılmışdı. Bu mərkəzdə ilk dəfə olaraq respublikamızın kitabxana işçiləri üçün kompyuter təlimi və İnternetdə axtarış aparmaq vərdişlərinin aşılanması üzrə treninqlər təşkil olunmuşdur.

2002-ci ildə Avrasiya Fondu tərəfindən elan olunmuş qrant əsasında Milli Kitabxana “Maşınla oxunan elektron kataloq” adlı layihə təqdim edərək qalib gəlmişdi. Həmin ildən M.F.Axundov adına Milli Kitabxanada avtomatlaşdırılmış kitabxana sistemlərinin tətbiqi istiqamətində ilk addımlar atılmışdı. ABŞ-ın Azərbaycandakı səfirliyi, Soros və Avrasiya fondlarının maliyyə dəstəyi ilə ABŞ-ın Virciniya ştatı Texniki Universitetinin 1981-ci ildə məxsusi olaraq kitabxanalar üçün işləyib hazırladığı və dünyanın 100-dən çox kitabxanasında tətbiq edilən VİRTUA-VTLS (Virginia Technical Library System) proqramı seçilərək alınmışdı. Bu layihənin kompyuter avadanlıqları və texnoloji təminatı Soros Fondu tərəfindən, proqram təminatı isə Avrasiya Fondu tərəfindən həyata keçirilmişdi. Bütün hazırlıq işləri başa çatdırılaraq 2003-cü ilin yanvarından elektron kataloqun tərtibinə start verilmiş və elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdi.

2004-cü ilin martından Milli Kitabxanada digər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdir. Bu gün Milli Kitabxana VİRTUA proqramının 9 moduldan ibarət tam komplektinə malikdir və hazırda kitab fondunun komplektləşdirilməsi, kitabların işlənməsi və sistemləşdirilməsi, diyarşünaslıq və milli biblioqrafiyaların tərtibi, kataloq kartoçkalarının çapı, dövri mətbuatın analitik bazasının yaradılması, qramplastinkaların və səs yazılarının elektron bazasının yaradılması işləri avtomatlaşdırılmış formada həyata keçirilir.

2006-cı ilin mayında kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi keçirilmişdi. Respublikamızda ilk kitabxana saytı və elektron kataloqun təqdimatı beynəlxalq ekspertlərin, respublika kitabxana ictimaiyyətinin və mətbuat nümayəndələrinin iştirakı ilə baş tutmuşdu. 2006-cı ilin mayından Milli Kitabxananın saytı vasitəsilə bir sıra beynəlxalq məlumat bazalarında - dünyanın ən iri kitabxanaları olan ABŞ-ın Konqres

Kitabxanasının və Rusiyanın Milli Dövlət Kitabxanasının, 2010-cu ildən isə Türkiyə Milli Kitabxanasının elektron məlumat bazalarında birbaşa axtarış aparmaq imkanı əldə edilmişdir.

İnformasiya cəmiyyəti quruculuğu dövrünün tələblərinə müvafiq olaraq 2006-cı ildən etibarən Milli Kitabxananın strukturu yenidən işlənmiş və yeni tələblərə uyğun müvafiq struktur şöbələri və bölmələri - "Elektron informasiya xidməti", "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları", "Elektron resurslarının yaradılması", "Kitabxana siyasəti və metodik rəhbərlik", "Analitik elektron məlumat bazasının yaradılması", "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" və s. yaradılmışdır. İlk növbədə kitabxananın elektron resurslarının yaradılmasına olan böyük ehtiyac nəzərə alınaraq yeni strukturda Milli Kitabxananın qiymətli fondlarının elektron daşıyıcılara köçürülməsi kimi mühüm bir prosesə başlanğıc verilmişdir. Elektron məlumat bazasına ədəbiyyat 3 istiqamətdə daxil edilir: kitabxanaya daxil edilən yeni ədəbiyyat; arxiv şöbəsinə toplanmış və əks-xronoloji ardıcıllıqla seçilən ədəbiyyat; kitab verilişi məntəqəsində oxucular tərəfindən qaytarılan və daha çox tələb olunan ədəbiyyat.

Məlumatlar bazası yaradıldıqda ən yeni biblioqrafik nəşrlərdən istifadə olunur ki, bu da təsvirin tam dolğun şəkildə aparılmasına imkan verir. Biblioqrafik yazılar AACR 2-yə əsaslanan "Biblioqrafik təsvirin tərtibi qaydası"na uyğun tərtib olunur. Ədəbiyyatın komplektləşdirilməsi və kitabxana qaydası ilə işlənməsi, kataloq kartoçkalarının çap olunması prosesləri də kompyuter avadanlıqları vasitəsi ilə həyata keçirilməyə başlanmışdır.

Bu gün Milli Kitabxanada hər gün kitabxanaya daxil olan dövri mətbuatın - 100 adda ən çox oxunan qəzetin və 50 adda jurnalın analitik elektron məlumat bazası yaradılmışdır. Yəni dövri mətbuat orqanlarında dərc olunan materialların tammətnli məlumat bazası yaradılaraq oxucular üçün mövzu və predmet üzrə axtarış imkanı yaradılır. Milli Kitabxana 2006-cı il tarixindən etibarən bütün idarə və sistemlərin kitabxanalarına virtual rejimdə metodik xidmət göstərir, yəni ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi müxtəlif sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayır və gün ərzində bu sorğular Milli Kitabxananın əməkdaşları tərəfindən cavablandırılır.

Milli Kitabxananın oxucularına virtual kitab sifarişi vermək imkanı yaradılmışdır. Yəni internetə çıxışı olan hər bir oxucu yaşayış və yaxud iş yerindən kitabxananın saytındakı "Virtual xidmət" bölməsinə daxil olaraq istənilən kitabı sifariş edə bilər və dərhal ona həmin kitabın kitabxanada olub-olmaması barədə məlumat verilir. Əgər oxucunun istədiyi kitab kitabxanada yoxdursa, əlavə vaxt itkisinə ehtiyac qalmır. Azərbaycan Milli Kitabxanasının əsası 2002-ci ildə qoyulmuş Elektron Kitabxanası 2006-cı ilin fevral ayından aktiv fəaliyyətə başlamışdır. Elektron kitabxana müəllif hüquqlarını qoruyub

saxlamaqla, milli ədəbiyyat nümunələrini elektron daşıyıcılarına köçürməklə yaradılır. Eyni zamanda elektron kitabxanaya müəllifin öz arzusu ilə onun təqdim etdiyi əsərin elektron versiyası da daxil edilir. İlk olaraq elektron kitabxanaya "Qutenberq" layihəsi çərçivəsində işlənmiş klassik yazıçıların əsərləri daxil edilmişdir. Hal-hazırda klassiklərimizin əsərləri ilə yanaşı, müasir yazıçılarımızın, alimlərimizin kitabları da kitabxananın saytında yerləşdirilərək Azərbaycan və dünya oxucularının diqqətinə çatdırılmaqdadır.

***AMEA-nın Mərkəzi Elmi Kitabxanası***nda (MEK) proseslərin kompyuterləşdirilməsinə 2002-ci ildə «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsinin fəaliyyətə başlaması ilə start verilmişdir. Kitabxana işinin bütün fəaliyyət sahələrinin bütövlükdə avtomatlaşdırılması və kompyuterləşdirilməsini qarşısına məqsəd qoyan bu şöbə qısa zaman kəsiyində ölkəmizdə və xarici ölkələrdə kitabxana işinin kompyuterləşdirilməsində baş verən prosesləri öyrənməklə, dünya təcrübəsindən istifadə əsasında öz işini yerli şəraitlə uyğun qurmağa müvəffəq olmuşdur. İlk əvvəl şöbə kitabxana-informasiya işi sahəsində avtomatlaşdırılmış kitabxana-informasiya sisteminin yaradılmasını həyata keçirmiş, şöbənin bir qrup kitabxanaçı-proqramçı əməkdaşı Rusiyanın "Biblioteka - 5.0" avtomatlaşdırılmış kitabxana informasiya sistemi əsasında yeni "Kitabxana - 1.0" sistemi yaratmışdı. Proqram vasitəsilə faktiki olaraq kitabxanada gedən bütün prosesləri avtomatlaşdırmaq mümkün idi. Proqram özündə "Kataloqlaşdırıcı", "Komplektləşdirici", "Kitab verilişi", "Oxucu" avtomatlaşdırılmış işçi yerlərini birləşdirirdi. Proqramın "Veb Kitabxana 1.0" versiyası da hazırlanmışdır ki, bu da kitabxananın saytında elektron kataloqu təqdim etməyə imkan yaradırdı. Proqram UNİMARC standartı əsasında qurulmuş, yeni dəyişikliklərə imkan verən interfeyslə birlikdə hazırlanmışdır. İlkin yoxama zamanı proqram normal işləsə də, sonralar onun kitabxanalararası abonement üçün vacib olan inteqrasiyalılığının çatışmaması problemi üzə çıxdı. Bu isə o demək idi ki, proqramla yalnız kitabxanaya gələn oxuculara xidmət etmək olardı. Bütün bu proseslər 2003-2004-cü illəri əhatə edirdi. Sistemində olan çatışmazlıqları nəzərə alaraq 2005-ci ildən MEK-in rəhbərliyi iş proseslərinin avtomatlaşdırılmasını Rusiya istehsalı olan "İRBİS-64" avtomatlaşdırılmış kitabxana-informasiya sistemi vasitəsilə reallaşdırır.

Kitabxananın elektron kataloqunun yaradılması ənənəvi kartoçka kataloqunun maşınla oxunan formaya keçirilməsi əsasında həyata keçirilir. "Azərbaycan dilində elmi ədəbiyyatın elektron kataloqlarının yaradılması" işi üzrə Azərbaycan dilində cari ədəbiyyatın biblioqrafik təsviri və elektron kataloqa daxil edilməsi mərhələsi başlanmışdır ki, bunun nəticəsində də elektron kataloqa 5400 adda yeni kitabın biblioqrafik yazısı daxil edilmişdir. MEK-in elektron kataloquna hələlik yalnız cari və qismən retrospektiv ədəbiyyat daxil edilir. Kitablar bir qayda olaraq yazıldıqları dildə elektron kataloqda öz əksini

tapır. Daha dəqiqi, MEK-in elektron kataloqundakı təsvirlər 7 - Azərbaycan, rus, ingilis, fransız, fars, ərəb və türk dillərindədir. Proqram təminatı UTF-8 kodlaşmasını dəstəklədiyi üçün burada fars və ərəb şriftləri ilə bərabər, heroqliflər, Çin və yapon dillərində də təsvirlər mümkündür. Elektron kataloqa daxil edilən təsvirdə müəllif, sərlövhə, müəllif işarəsi, nəşr ili, səhifə, illüstrasiya, həcm, cild və s. məlumatlar əks olunur. Daxil olan hər bir ədəbiyyat "Kataloqlaşdırıcı" AİY-nin bloklarındakı bazalar uyğun bölünür.

"Azərbaycanda neft" elektron göstəricisinin məlumat bazası yaradılmışdır və orada Azərbaycanda neft sənayesinin tarixini, müasir vəziyyətini və perspektivlərini əhatə edən müxtəlif dillərdə 1500 adda sənədin elektron kataloqu yaradılmışdır. Bunlardan 120-nin isə tam mətni hazırlanaraq elektron kitabxanaya daxil edilmişdir. Həmçinin "Azərbaycan Milli Elmlər Akademiyasının alimləri. Humanitar və ictimai elmlər" adlı elektron biblioqrafik göstərici Azərbaycan, rus və ingilis dillərində hazırlanmışdır.

2003-cü ildən fəaliyyətə başlayan ***Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Kitabxanası*** da İRBİS-64 AKİS-nin köməyi ilə elektron kataloqun yaradılmasına başlanılmış və oxuculara məsafədən xidmət texnologiyası tətbiq edilmişdir. Bu sistem vasitəsilə analitik təhlil, elmi-tədqiqat, ictimai-siyasi fəaliyyətlə məşğul olan oxucu qruplarına kömək etmək məqsədilə 12 adda daim yeniləşən tammətnli elektron nəşr, 7 adda cari elektron biblioqrafik nəşr hazırlanmışdır. Kitabxanada yaradılmış elektron toplular arasında nisbətən aktual əhəmiyyət kəsb edən "Odlar yurdu Azərbaycan" adlı tammətnli ölkəşünaslıq elektron nəşrlər toplusunda ölkəmizin tarixinə, mədəniyyətinə, iqtisadiyyatına və xarici siyasətinə dair zəngin materiallar toplanmışdır.

İnformasiya tutumu baxımından zəngin mənbələrdən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ilin oktyabr ayından başlayaraq etdiyi bütün nitqlərin, çıxışların və müsahibələrinin tammətnli elektron nəşridir. Elektron biblioqrafik göstəricilərdən isə "Azərbaycan Respublikası Prezidentinin gündəlik fəaliyyətinin xronikası" (rüblük), "Azərbaycan Respublikası Qanunları" (rüblük), "Yeni kitablar" (rüblük) adlı elektron nəşrləri göstərmək olar.

Hal-hazırda Prezident Kitabxanasında İRBİS-64 AKİS-nin 5 AİY-i («Komplektləşdirici», «Kataloqlaşdırıcı», «Oxucu», «Kitab verilişi», «İnzibatçı») tətbiq edilir. Kitabxanaya daxil olan hər bir çap məhsulu elektron kataloqa daxil edilir. Kitabxanada sistemin veb modulu da tətbiq edilir ki, bu da kitabxananın elektron kataloquna uzaq məsafədən daxil olmaq üçün proqram xidmətidir. Kitabxananın elektron kataloqunda axtarış aparmaq üçün axtarışın 3 növü vardır: standart, tam və genişləndirilmiş.

Standart axtarış növündə açar söz, müəllif və ya sərlövhə üzrə axtarış aparmaq olar. Tam axtarış növündə açar söz, müəllif, sərlövhə, nəşr növü, nəşr ili, nəşriyyat üzrə axtarış aparmaq olar. Genişləndirilmiş axtarış növündə açar söz, müəllif, sərlövhə, nəşr növü, nəşr ili, nəşriyyat, ISBN və s. üzrə axtarış aparmaq olar. Elektron kataloqun «Avtorizasiya» sahəsində kitabxanada qeydiyyatdan keçmiş oxucu öz soyadını, adını və parolunu daxil etməklə formulyarlarını yoxlaya və istədiyi sənədi sifariş edə bilər.

Yuxarıda deyilənlərdən görünür ki, Azərbaycanın respublika səviyyəli bəzi kitabxanalarında avtomatlaşdırma sahəsində xeyli nəticələr əldə edilmişdir. Respublikanın adları çəkilməyən bir çox iri kitabxanalarında və mərkəzləşdirilmiş kitabxana sistemlərində də internet xidməti bölmələri yaradılaraq bu işə başlanılsa da, bəzi məsələlərin həlli problem olaraq qalır. Ümumiyyətlə, Azərbaycanda kitabxanaların kompyuterləşdirilməsinin müasir problemlərini aşağıdakı kimi səciyyələndirmək olar:

1.Ənənəvi texnoloji proseslərin - kataloqlaşdırma, komplektləşdirmə, abonement və s. kompyuterləşdirilməsi üçün kadr və texniki təminat istiqamətində;
2. milli maşınla oxunan formatların yaradılması istiqamətində;
3. elektron kataloqun yaradılması istiqamətində;
4. elektron sənəd mübadiləsi xidmətinin təşkil edilməsi istiqamətində;
5. elektron kitabxanaların yaradılması istiqamətində;
6. korporativ kitabxana-informasiya şəbəkələrinin yaradılması istiqamətində olan problemlər;
7. Vahid kitabxana informasiya sistemində informasiya təhlükəsizliyinin təmini (icazəsiz istifadəyə, virusa qarşı mübarizə və s) istiqamətində;
8. Bir sıra linqvistik, tezaurus, rubrikalaşma, əlifba kodlaşması və s. istiqamətdə olan problemlər və s.

## ƏDƏBIYYAT

1.Xələfov A.A., Qurbanov A.İ.: Kitabxanaların kompyuterləşdirilməsinin əsasları: Dərslik, Bakı, Bakı Universiteti nəşriyyatı, 2007. - 200 s.

2.Xələfov A.A., Hüseynova A.S.: Elektron kataloqun əhəmiyyəti və təşkili prinsipləri//Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). – 2004 .-№4. -s. 288-290

3.Xələfov A.A., Mehdiyeva N.D.: BDU-nun Elmi Kitabxanasının elektron kataloqu // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası).- 2007. -№3. -s. 198-201

4.Rüstəmov Ə., Mustafayeva N. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2007. - №2. - s. 15-27

5.Rüstəmov Ə., Mustafayeva N. Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və şəbəkələri. - B., 2007. s.124-135

6.Rüstəmov Ə., Baxşəliyev Z. Elektron kitabxanaların formalaşdırılmasının bəzi məsələləri //Kitabxanaşünaslıq və biblioqrafiya.-2002.- №2.-s.39-49

7.Azərbaycan Milli Elmlər Akademiyasının web-saytı: www.csl.az. jom.

8.M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın web-saytı: www.anl.az

9.BDU-nun Elmi Kitabxanasının weб-сайты: www.bsu.edu.az

10. Prezident Kitabxanasının weб-сайты: www.preslib.az

## ИСТОРИЯ И СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ КОМПЬЮТЕРИЗАЦИИ БИБЛИОТЕК В АЗЕРБАЙДЖАНЕ

***Н.Н.ИСМАИЛОВА***

### РЕЗЮМЕ

**Ключевые слова:** история компьютеризации библиотечного дела в Азербайджане, Национальная библиотека имени М.Ф.Ахундова, Центральная научная библиотека НАНА, Президентская Библиотека, Научная библиотека Бакинского Государственного Университета.

В статье комментируется влияние социально-политических и экономических факторов на компьютеризацию библиотечного дела, рассказывается об истории и современных проблемах компьютеризации библиотечного дела в лице Национальной библиотеки имени М.Ф.Ахундова, Центральной научной библиотеки НАНА, Библиотеки президента и Научной библиотеки Бакинского государственного университета.

## HISTORY AND MODERN PROBLEMS OF COMPUTERIZATION OF LIBRARIES IN AZERBAIJAN

**ISMAILOVA N.N.**

### *SUMMARY*

**Keywords:** the history of the computerization of libraries in Azerbaijan, M.F.Akhundov National Library, ANAS Central Scientific Library, President’s Library, Baku State University’s Scientific Library.

The influence of socio-political and economic factors on the computerization of libraries in Azerbaijan was underlined, the history and modern problems of the computerization of librarian work was researched in the example of M.F. Akhundov National Library, ANAS Central scientific Library, President’s Library and Baku State University’s Scientific Library in the article.

# AZƏRBAYCAN KİTABXANALARININ İNFORMASİYALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

**R.M.NAMAZOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə ali məktəb kitabxanalarının informasiyalaşdırılması işini tənzimləyən hüquqi və normativ sənədlər təhlil edilir. Kitabxanaların informasiya funksiyasının əhəmiyyyətindən bəhs edilir.*

***Açar sözlər:*** *kitabxana, informasiya, ali məktəb kitabxanaları.*

XX əsrin sonu-XXI əsrin əvvəlləri dünya miqyasında informasiyalaşdırma, informasiya cəmiyyətinin qurulması ilə səciyyəvidir. İnformasiya cəmiyyətinin əsas məqsədi bütövlükdə cəmiyyətin və ayrı-ayrı şəxslərin informasiya tələbatını ödəmək üçün müasir informasiya texnologiyaları bazasında müxtəlif təyinatlı informasiya resurs və fəzalarının formalaşdırılmasıdır (3, 99).

İnformasiyalaşdırma həm də bütünlükdə təhsil sisteminin və onun ayrılmaz tərkib hissəsi olan ali məktəblərin kitabxanalarının, eləcə də, bütünlükdə Azərbaycan kitabaxanalarının tarixində bir sıra hadisələrlə, əhəmiyyətli yeniliklərlə əlamətdar olmuşdur. Bunların sırasında bütünlükdə təhsil sisteminin, kitabaxanaların, o cümlədən, ali təhsil müəssisələrindəki kitabxanaların informasiyalaşdırılması xüsusi qeyd edilməlidir. Azərbaycanın görkəmli pedaqoqları və təhsil xadimləri ölkəmizdə təhsil islahatlarından bəhs edərkən bu prosesdə informasiyalaşdırma komponentinə böyük önəm verirlər. Məsələn, Təhsil Problemləri İnstitutunu direktoru, görkəmli təhsil mütəxəssisi, professor Abdulla Mehrabov təhsil prosesinin informasiyalaşdırılması və onun səciyyəvi xusisiyyətlərindən bəhs edərkən qeyd edir ki, təhsilin informasiyalaşdırılması, pedaqoji innovatikanın çox vacib sahəsidir (6, 56).

İnformasiya və kommunikasiya texnologiyalarının insan fəaliyyətinin bir sıra sahələrində olduğu kimi kitabxana işində də tətbiqi ənənəvi kitabxana prosesləri-nin sürətlənməsinə və optimallaşmasına gətirib çıxarır (2, 77).

Azərbaycanda təhsil sisteminin kütləvi informasiyalaşdırılması, keçən əsrin sonunda başlasa da, rəqəmli informasiya texnologiyaları cəmiyyət və təhsil sistemi tərəfindən tamamilə mənimsənildikdən, onları sistemli olaraq dəyişdirdikdən sonra başa çatacaq və yenidən perspektiv inkişafı təmin edən texnologiyaların tətbiqinə başlanacaqdır. Ona görə də müasir dövrdə məktəblərdə (təhsil müəssisələrində) innovasiya proseslərinin əsasını təşkil edən informasiyalaşdırılmanı tədris-təlim prosesində ön plana çəkməli, onun səmərəli tətbiqinə xüsusi fikir verilməlidir. Bu səbəbdən də müasir dövrdə Azərbayca-

nın təhsil müəssisələrinin, ilk növbədə ali məktəb kitabxanalarının vəziyyətindən, onun inkişafından danışılarkən mütləq informasiyalaşdırılma problemindən bəhs edilməli, həmin məsələyə diqqət yetirilməlidir. Lakin bu problemi ətraflı təhlil etməzdən əvvəl müasir kitabxana tipologiyasında təhsil, ali məktəb kitabxanalarının mövqeyinə nəzər salınmalı, eləcə də informasiyalaşdırmanın mahiyyətinə, bu prosesin meydana gələrək kitabxanalara yol tapmasına mütləq diqqət yetirilməlidir. Həmin problemə diqqət yetirərkən onun bir sıra amillərin təsiri ilə formalaşdığını, bir sıra məsələlərdən asılı olduğunu görmək mümkündür. Ümumilikdə Azərbaycanın kitabxanalarının, ilk növbədə ali məktəb kitabxanalarının informasiyalaşdırmasından bəhs edərkən onunla sıx bağlı olan çoxsaylı məsələlər, suallar içərisində xüsusi olaraq aşağıdakı əsas tərkib hissələri fərqləndirmək mümkündür:

- kitabxanalarının informasiyalaşdırmasının hüquqi-normativ bazası;
- kitabxanalarının informasiyalaşdırması üçün texniki baza;
- kitabxanalarının informasiyalaşdırmasına imkan verən proqram təminatı, o cümlədən avtomatlaşdırma üçün tətbiqi proqramlar paketi;
- kitabxanalarının informasiyalaşdırmasına imkan verən maliyyə resursları.
- kitabxanalarının informasiyalaşdırmasını həyata keçirə bilən bilik və vərdişlərə malik mütəxəssisllər;
- kitabxanalarının informasiyalaşdırmasına imkan verən inzibati resurslar (müvafiq şöbələrin mövcudluğu və onların öz funksiyalarını effektiv yerinə yetirmələrinə nəzarət).

Qeyd edək ki, sonuncu şərt müəyyən qədər birinci ilə hüquqi-normativ baza ilə səsləşir. Çünki kitabxananın strukturu, orada informasiyalaşdırmanı həyata keçirən bölmələrin olması məhz müvafiq normativ sənədlərlə, əsasnamə ilə tənzimlənir.

Məlumdur ki, Azərbaycan Respublikasında tarixən formalaşmış və müasir dövrdə də davam edən statusa əsasən ictimai fəaliyyətin bir çox sahələrində, eləcə də təhsildə dövlətin rolu çox güclüdür. Məktəbəqədər, natamam və tam orta təhsil verən müəssisələrin demək olar ki, hamısı dövlətindir. Ali təhsil səviyyəsində də aparıcı mövqe dövlət təhsil müəssisələrinə məxsusdur. Təbii ki, bütün dövlət təhsil müəssisələri əsasən dövlət tərəfindən maliyyələşir. Bundan əlavə, təhsil sistemində dövlət çox güclü tənzimləyici funksiyaya malikdir. Təhsil müəssisələrinin statusu, onların təhsil, təlim-tərbiyə prosesinin necə aparmaları, hansı fənləri keçməyi, hansı ixtisaslar üzrə kadrları necə aparmaları və təhsillə əlaqədar bir çox digər məsələlər dövlətin qəbul etdiyi normativ-hüquqi sənədlərlə tənzimlənir. Bu aparıcı rol və funksiya ali məktəb kitabxanalarının fəaliyyətini də müəyyənləşdirir. Bu səbəbdən ali məktəb kitabxanalarının fəaliyyətinin qurulmasından bəhs edərək bu işin əsasında du-

ran qanun və digər direktiv sənədlər nəzərdən keçirilməlidir. Beləliklə, müstəqillik şəraitində Azərbaycanın milli təhsil, o cümlədən, ali təhsil sisteminin, kitabxana fəaliyyətinin zamanın tələblərinə müvafiq şəkildə yenidən qurulmasının, transformasiya edilməsinin ilk və vacib şərti bu sahənin müvafiq qanunvericilik bazasının, normativ-hüquqi sənədlərin yaradılması oldu.

Ümumilikdə kitabxanaların, eləcə də ali məktəb kitabxanalarının işini tənzimləyən, onun hüquqi və normativ sənəd bazası rolunu oynayan sənədlər sisteminin tərkibinə Azərbaycan Respublikasının Konstitusiyasının, qanunların, Prezidentin sərəncamlarının və fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının, Dövlət Proqramlarının, Azərbaycan Respublikasının Dövlət Strategiyalarının, tabeliyində kitabxanalar olan ayrı-ayrı nazirlik və ali səviyyəli digər qurumlarının qərar və sərəncamlarının, milli standartların, MDB üzvi kimi Azərbaycan Respublikasının ərazisində qüvvədə olan Dövlətlərarası Standartların (QOST-lar) daxil olduğunu görərik. Əlbəttə, bu hüquqi-normativ bazanın geniş təhlili, buradakı müddəaların ölkədə kitabxana quruculuğuna təsiri və funksiyaları xeyli maraq doğuran və əhəmiyyətli məsələdir. Bu məqalədə həmin sənədlərin ancaq kitabxanaların informasiyalaşdırılması ilə bağlı olanlarını nəzərdən keçirəcəyik.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra qəbul edilmiş və bilavasitə kitabxana işini tənzimləməyə yönəlmiş ilk qanun "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanun Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin imzası ilə 1999-cu ilin 12 mart tarixində qüvvəyə minmişdir. Qanun 6 fəsil və 34 maddədən ibarətdir. Burada ölkəmizdə kitabxana işinin zamanın tələblərinə müvafiq olaraq inkişaf etdirilməsi üçün ən zəruri məsələlər öz əksini tapmışdır.

Azərbaycan kitabxanalarının informasiyalaşdırılması məsələləri Qanunun V fəslinin "Kitabxanaların maddi-texniki təchizatı" adlı 30-cu maddəsində öz əksinin tapmışdır. Burada qeyd edilir ki, "kitabxanalar kitab fondunun saxlanılması və oxuculara xidmət etmək üçün xüsusi layihə ilə tikilmiş binalarla və kitabxana işini avtomatlaşdırmaq üçün zəruri vasitələrlə təmin edilməlidirlər" (5, 3). Bu Qanunun yaradılması və tətbiqi məsələləri görkəmli kitabxanaşünas alim professor A.Xələfovun bir sıra elmi əsərlərində tədqiq edilmişdir. Əlbəttə, Qanun qəbul edilərkən hələ heç bir iri kitabxana informasiyalaşdırma, o cümlədən kompleks avtomatlaşdırma ilə məşğul olmurdu. Lakin müvafiq şərait yarandıqdan, maliyyə mənbələri əmələ gəldikdən sonra bu müddə həyata keçirilməyə, bu sahədə planlı şəkildə işlər görülməyə başladı.

Azərbaycanda informasiyalaşdırma ilə əlaqədar fəaliyyətin bütün istiqamətlərini (informasiyanın yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə

olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri) müəyyənləşdirən və tənzimləyən və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edən əsas qanun ümummilli lider Heydər Əliyevin imzası ilə 3 aprel 1998-ci il tarixində qüvvəyə minmiş **“**İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanun oldu. 6 fəsil və 21 maddədən ibarət olan bu Qanun ölkəmizdə informasiyalaşdırma ilə əlaqədar əsas məsələləri tənzimləyən, bu sahədə görüləcək işlər üçün hüquqi baza yaradan başlıca dövlət sənədidir**.** Qanunun əsas faydalarından biri burada verilmiş başlanğıcda-terminoloji hissədə bu sahə ilə əlaqədar əsas terminlərin tərifinin verilməsidir. Burada ilk termin kimi informasiyaya “yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar” kimi izah verilir. Daha sonra burada sənədləşdirilmiş informasiyanın (sənədin), açıq informasiyanın, konfidensial informasiyanın, informasiya proseslərinin, informasiya texnologiyalarının, informasiya sistemlərinin, informasiya xidmətlərinin, informasiyanın istifadəçisinin, informasiya sistemlərinin tərifləri verilir**.**

Təqdirəlayiq haldır ki, bu Qanunda informasiyalaşdırma üçün kitabxanaların da əhəmiyyəti unudulmamışdır. Qanunun I fəslinin 2-ci maddəsində İnformasiya ehtiyatlarına nələrin daxil olduğu sadalanarkən göstərilir ki, “İnformasiya ehtiyatlarına informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri”dir. Beləliklə, burada kitabxanalar informasiya sistemlərinin bir növü kimi şərh edilmişdir (4, 2). Bu Qanunun müddəalarından belə bir nəticəyə gəlmək mümkündür ki, oradakı tələblər ictimai həyatın bütün sahələrinə, o cümlədən ali təhsil müəssisələrinə də aid edilməlidir.

İnformasiyalaşdırma sahəsində respublikada əsas və ilk hüquqi sənəd olan bu Qanunun ardınca respublikada informasiyalaşdırmanın sonrakı inkişafını tənzimləyən digər bir sıra hüquqi sənədlər qəbul edildi ki, onlardan biri də Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin imzası ilə 17 fevral 2003-cü il tarixində qüvvəyə minmiş «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)» adlı çox mühüm direktiv sənəddir (4, 3). Bu vacib sənəd Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UN DP) Bakı ofisi ilə birlikdə hazırlanmış, müvafiq milli və beynəlxalq qurumların müsbət rəyini almışdı. Səkkiz bölmədən ibarət bu vacib sənəd ölkədə informasiya və kommunikasiya texnologiyaları (İKT) üzrə ölkədə yaxın gələcəkdə görüləcək işlərin konturlarını müəyyənləşdirdi.

Sənəddə göstərilir ki, XX əsrin son onilliyində informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar.

Sənəddə qeyd edilir ki, informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Dünya bazarında elektron ticarətin rolunun artdığı müşahidə olunur və ümumiyyətlə, gələcəkdə ölkələrin rəqabət aparmaq qabiliyyəti onların informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadəsindən asılı olacaqdır.

Təqdirəlayiq məqam odur ki, Milli Strategiyada kitabxana işi də diqqətdən kənarda qalmamışdır. Belə ki, sənədin "Milli informasiya resursları" bölməsində "vahid milli elektron informasiya məkanının formalaşdırılması", "elektron informasiya məkanında Azərbaycan dilinin geniş istifadəsinin təmin olunması" kimi tədbirlərlə yanaşı, "milli tarixi, ədəbi və mədəni irsin qorunub saxlanması və təbliğində, o cümlədən kitabxana, muzey və arxiv işlərində informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq olunması" bəndi də yer almışdır" (1, 3).

Bu fakt ölkəmizin ali dövlət məqamlarının, sənədi tərtib edən yüksək səviyyəli mütəxəssislərin kitabxana resurslarını milli informasiya resurslarının tərkib hissəsi kimi dəyərləndirdiyini və bu sahədə yeni informasiya texnologiyalarının tətbiqinin zəruri saydığını sübut edir. Bu direktiv sənəddə təhsilin informasiyalaşdırılmasına, informasiya texnologiyaları vasitələri ilə təminatı məsələlərinə böyük diqqət yetirilir. Bu səbəbdən də sənədin bir çox bəndlərində informasiyalaşdırma və təhsillə əlaqədar müddəalar vardır. "İKT və təhsilin təkmilləşdirilməsi" adlı bölmə ancaq təhsillə əlaqədar məsələlərə yönəlmişdir.

Göründüyü kimi, ölkəmizdə ictimai fəaliyyətin bütün sahələrində informasiyalaşdırma, informasiya-kommunikasiyaları texnologiyasından istifadə, müasir informasiya sistemləri və resursları yaradılmasına doğru kurs götürülmüş və həmin kursun hüquqi-normativ bazasını təşkil edən sənədlər qəbul edilmişdir. Bu sənədlər universal səciyyə daşıdığından əlaqədar şəkildə bütün fəaliyyət sahələrinə, o cümlədən, həm ümumilikdə kitabxanalara, həm də ali məktəb kitabxanalarına aid edilə bilər. Bundan əlavə, həmin sənədlərdə sırf kitabxanalarla bağlı bənd və müddəalar vardır ki, bu kitabxanaların ölkənin informasiyalaşdırılmasında, sənəd-informasiya resurslaının yaradılmasında,

ölkənin informasiya təminatında müstəsna rolunu sübut edir. Eyni zamanda, “Kitabxana işi haqqında” Qanunda avtomatlaşdırma ilə əlaqədar xüsusi bəndin olması da ali məktəb kitabxanalarının informasiyalaşdırması üçün əhəmiyyətli hüquqi bünövrə verir.

Məlumdur ki, informasiyalaşmış cəmiyyəti xarakterizə edən əsas xüsusiyyətlər aşağıdakılardır:

- İnternetdən heç bir məhdudiyyət olmadan birgə istifadə;
- Korporativ qaydada qlobal informasiya mühütinin yaradılması;
-İnformasiya-kommunikasiya texnologiyalarından kütləvi şəkildə istifadə edilməsi;

Beləliklə, yuxarıda qeyd edilənləri, informasiya texnologiyalarının və cəmiyyətin sənəd-informasiya tələbatının cari vəziyyətini nəzərə almaqla müasir mərhələdə kitabxanaların informasiyalaşdırımasının ilkin texniki aspektlərindən bəhs edərkən bu işin reallaşdırılması üçün aşağıdakıların həyata keçirilməsinin zəruri olduğunu söyləmək mümkündür:

1. Kitabxanaların informasiyanın emal edilməsi, istehsalat proseslərinin avtomatlaşdırılması üçün zəruri olan kompüter texnikası, server və periferik qurğularla, telekommunikasiya qurğuları və digər texniki vasitələrlə təchiz edilməsi;
2. Kitabxanada daxili kompüter şəbəkəsinin (İntranet) yaradılması və bu şəbəkənin İnternetə qoşulması;
3. Kitabxananın kompüter texnikasının işləməsi üçün zəruri olan proqram vasitələrinin, kitabxana proseslərinin avtomatlaşdırılması üçün lazım olan tətbiqi proqramlar paketinin alınması və bunun əsasında avtomatlaşdırma sisteminin yaradılması.

Təbii ki, müasir dövrdə ali məktəb kitabxanalarının uğurla informasiyalaşdırılması üçün son olaraq qeyd edilən amillər vacibdir. Bu amillərdən başqa qeyd etdiyimiz hüquqi-normativ bazanın, texniki bazanın və proqram təminatının vacibliyi xüsusi vurğulanmalıdır. Lakin bunlarla yanaşı insan amilinin kitabxanaların informasiyalaşdırmasını həyata keçirə bilən bilik və vərdişlərə malik mütəxəssislərin olması zərurəti nəzərə alınmaqdadır.

Məlumdur ki, ölkəmizdə təhsilin informasiyalaşdırması təhsil müəssisəsinin işində çoxlu sayda innovasiyalarla bağlıdır (6, 134). Ali məktəb kitabxanalarının informasiyalaşdırması ümumilikdə təhsil islahatının tərkib hissəsi olan informasiyalaşdırmanın mühüm bir vəsiləsi hesab edilə bilər. Azərbaycanda həyata keçirilən təhsil islahatı bir çox digər sahələr kimi kitabxanaşünas-biblioqraf mütəxəssislərin də hazırlığının müasirləşməsinə, təkmilləşməsinə imkan vermişdir. Xüsusilə də Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində müasir tələblərə cavab verən mütəxəssislərin hazırlanması sahəsində böyük işlər görülmüş, ikipilləli Bolonya təhsil sistemi tət-

biq edilmiş, təhsil proqramları yenilənmiş, bir çox yeni fənlər daxil edilmiş, əvvəl mövcud olan fənlər təkmilləşdirilmişdir. Müasir tələbələr artıq kitabxanaların informasiyalaşdırılması üçün zəruri olan bilik və bacarıqla silahlanırlar. Təhsili daha erkən illərdə başa vurmuş kitabxanaçılar isə müxtəlif təlimlərə, treninqlərə cəlb edilir ki, burada onlar yeni kitabxana texnologiyalarına, informasiya savadının əsaslarına yiyələnirlər. Bütün bunlar müasir dövrdə Azərbaycanın təhsil sistemində informasiyalaşdırma prosesinin həyata keçirilməsi üçün münbit zəmin yaradır.

Beləliklə, yekun olaraq söyləmək mümkündür ki, respublikamızın ali məktəb kitabxanalarının informasiyalaşdırılması müasir mərhələsində bu sahədə fəaliyyət göstərməlidir :

- kitabxanalarının informasiyalaşdırmasının hüquqi-normativ və texniki bazasının yaradılması;
- kitabxanalarının informasiyalaşdırmasına imkan verən proqram təminatı, o cümlədən avtomatlaşdırma üçün tətbiqi proqramlar paketlərinin alınması və mənimsənilməsi;
- kitabxanalarının informasiyalaşdırmasına imkan verən maliyyə resurslarının ayrılması;
- kitabxanalarının informasiyalaşdırmasını həyata keçirə bilən bilik və vərdişlərə malik mütəxəssisllərin hazırlanması;
- kitabxanalarının informasiyalaşdırmasına imkan verən inzibati resursların (müvafiq şöbələrin olması və onların öz funksiyalarını effektiv yerinə yetirmələrinə nəzarət) yaradılması istiqamətində həyata keçirilir.

Azərbaycanın ali məktəb kitabxanalarında informasiyalaşdırma prosesi müxtəlif intensivlikdə həyata keçirilir və hazırda müxtəlif mərhələlərdədir. Lakin ümid etmək olar ki, yaxın gələcəkdə arxa planda olan kitabxanalar bu sahədə işləri intensivləşdirəcək və tezliklə direktiv sənədlərdə nəzərdə tutulmuş səviyyəni əldə edəcəklər.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) // "Azərbaycan" qəzeti, 2003,18 fevral, s.2.*

2. *Cəfərov N.N. İnformasiya cəmiyyətində avtomatlaşdırılmış kitabxana // Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının Elmi əsərləri, 2005, s.177.*

3. *Əliyeva-Kəngərli A.İ., Cəfərov C. Kitabxana informasiya cəmiyyətinin əsas infrastruktur elementidir // Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının Elmi əsərləri, 2005, №7, s.99.*

*4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1998, 19 iyun, s.2-3.*

*5. "Kitabxana işi haqqında haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1998, 19 iyun, s.3.*

*6. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. - Bakı: Mütərcim, 2010, s.335.*

## INFORMATISATION ISSUES OF THE AZERBAIJAN LIBRARIES

**R.M.NAMAZOVA**

***SUMMARY***

***Keywords:*** *library, information, high school libraries libraries*

*The article examine the juridical and normative regulation of informatisation processes. Also researched importance of information function of the university libraries.*

## ВОПРОСЫ ИНФОРМИРОВАНИЕ БИБЛИОТЕКАХ АЗЕРБАЙДЖАНА

**Р.М.НАМАЗОВА**

***РЕЗЮМЕ***

***Ключавое слова:*** *библиотека, информация, ВУЗ-овские библиотеки.*

*В статье праводится анализ нормативно-правовых документов регулирующих информационное обеспечение библиотек системы высших учебных заведений.*

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MÜASİR KİTABXANA FƏALİYYƏTİNDƏ

**S.İ.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***sevda_memmedli@mail.ru***

*Məqalədə informasiya təhlükəsizliyinin yaranması problemi araşdırılır, informasiya təhlükəsizliyi anlayışı izah edilir. Eyni zamanda informasiyanın mühafizəsi tədbirləri geniş şərh olunur.*

***Açar sözlər:*** *İnformasiya təhlükəsi, informasiya təhdidləri, kitabxana fəaliyyəti, informasiya resursları, internet.*

Kitabxanalar bütün dövrlərdə xalqın yaratdığd elm, mədəniyyət sərvəti kimi həmişə bəşəriyyətin iqtisadi gələcəyinə, təhsilinə, mədəniyyətinə, elminə, tərbiyəsinə xidmət etmiş, bilik, elm, informasiya mərkəzi kimi bəşər sivilizasiyasının yüklsəldilməsi vasitəsi olmuşdur [2]. Müasir dövrdə insanların elektron informasiya tələbatını ödəmək, bilik və düşüncələrini ictimaiyyətə çatdırmaq, tarixən toplanmış informasiya ehtiyatlarının hamı üçün əlyetərliyini təmin etmək kitabxanaların başlıca vəzifələrindəndir. Əlbəttə, kitabxanaların bu elektron informasiya resurslarının təhlükəsizliyini təmin etmədən tələbatçılara etibarlı informasiya xidməti göstərmək qeyri-mümkündür.

XXI əsrdə cəmiyyətin və dövlətin həyatında informasiyanın, informasiya resurslarının və texnologiyaların rolunun artması informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Bu proseslərin nəticəsində müasir cəmiyyət tədricən öz informasiya infrastrukturunun vəziyyətindən asılı olur. Odur ki, milli təhlükəsizlik məsələsi daha çox informasiya təhlükəsizliyinin nə dərəcədə təmin olunması ilə aktuallıq kəsb edən məsələlərdən birinə çevrilir. Bunlarla yanaşı, informasiyanın təhlükəsizliyinin təmin olunması probleminin vacibliyini şərtləndirən əsas səbəblərdən bəzilərini xüsusilə vurğulamaq lazımdır:

-şəbəkə texnologiyalarının geniş yayılması və lokal şəbəkələrin qlobal şəbəkələr halında birləşməsi;

-informasiya təhlükəsizliyinin pozulmasına praktik olaraq mane olmayan qlobal Internet şəbəkəsinin inkişafı;

-minimal təhlükəsizlik tələblərinə belə cavab verməyən proqram vasitələrinin geniş yayılması.

"İnformasiya təhlükəsizliyi" (İT) söz birləşməsi olub müxtəlif elmi mətnlərdə müxtəlif mənalarda işlədilir. İnformasiya təhlükəsizliyi dedikdə, biz informasiya münasibətlərində olan subyektlərə, o cümlədən informasiya sa-

hibləri və ondan istifadə edən və onu dəstəkləyən istifadəçilərə informasiyanın və infrasturkturun təbii və ya süni xarakterli, təsadüfi və ya bilərəkdən edilən təsirlərdən mühafizəsini nəzərdə tuturuq. İnformasiya təhlükəsizliyi təkcə informasiyaya sanksiyalaşdırılmamış daxil olmadan mühafizə deyil, daha geniş məna daşıyır. İnformasiya münasibətləri subyekti nəinki icazə verilməmiş daxil olmalardan, həmçinin işdə müəyyən fasilə yarada biləcək sistemin nasazlığından da zərər çəkə bilər. Bundan başqa, bir sıra qeyri-məxfi təşkilatlar üçün vaciblik nöqteyi nəzərindən informasiyaya icazə verilməmiş daxil olmadan mühafizə heç də birinci yerdə durmur.

İnformasiya təhlükəsizliyi dedikdə, informasiya və ona xidmət edən infrastrukturun sahibi və ya istifadəçilərinə ziyan vurmağa səbəb olan təbii və ya süni xarakterli, təsadüfi və ya qəsdli təsirlərdən informasiya və ona xidmət edən infrastrukturun mühafizə dərəcəsi  nəzərdə tutulur. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi" adlı konsepsiyasında da “informasiya təhlükəsizliyi” geniş mənada şərh edilir. Belə ki, bu konsepsiyada informasiya resurslarına icazə verilməmiş daxil olma, informasiya və telekommunikasiya sistemlərinin təhlükəsizliyinin təmini informasiya mühitində ölkəmizin vacib milli maraqları kimi qeyd edilmişdir [6].

İnformasiyanın mühafizəsi - informasiya təhlükəsizliyini təmin edən kompleks tədbirlərdən ibarətdir. Belə ki, onun həlli üçün aşağıdakı tədbirləri həyata keçirmək zəruridir:

- Qanunvericilik tədbirləri
- İnzibati tədbirlər
- Təşkilati tədbirlər
- Proqram-texniki təminat tədbirləri.

Qanunvericilk tədbirləri hər bir ölkənin qəbul etdiyi qanun və qanunvericilk aktlarında, sərəncamlarında əks olunur və inzibati tədbirlər yolu ilə həyata keçirilir. İnzibati tədbirlər isə hüquq-mühafizə, məhkəmə orqanları tərəfindən həyata keçirilir. Daxili və xarici təhdidlərə qarşı yönəlmiş proqram-texniki təminat tədbirləri informasiya ehtiyatlarından və kitabxananın kompüter sistemindən qeyri-leqal istifadənin qarşısının alınması və informasiyanın elektron arxivinin yaradılması və davamlı olaraq yeniləşdirilməsi daxildir [1,179].

Təşkilati tədbirləri müəssisənin, yəni kitabxananın təhlükəsizlik siyasəti əsasında həyata keçirilir. Ümumiyyətlə, informasiya təhlükəsizliyi siyasətinin işlənməsi müəssisənin informasiya təhlükəsizliyi sisteminin təşkil edilməsində ilk tələblərdən biridir. İnformasiya təhlükəsizliyi siyasətinin məqsədi rəhbərliyin informasiya təhlükəsizliyi üzrə idarəçiliyini və dəstəyini müvafiq qanunlara və normativlərə uyğun olaraq təmin etməkdir. İnformasiya təhlükəsizliyi siyasəti müəyyən resursların mühafizəsinə məqsədləri, məsuliyyəti və ümumi tələbləri təsvir edir.

Son dövrlərdə Azərbaycanda baş verən proseslər ölkənin beynəlxalq telekommunikasiya şəbəkələrinə inteqrasiyasına səbəb olmuşdur. Beynəlxalq informasiya şəbəkəsi olan İnternet ölkədə cəmiyyətin və idarəetmənin müxtəlif sahələrinə nüfuz etməkdədir. Artıq xeyli dövlət təşkilatları, maliyyə-kredit strukturları, ölkədə yerləşən xarici qurumlar, eləcə də fərdi istehlakçılar İnternet şəbəkəsinə qoşularaq informasiya mübadiləsi proseslərinin tərkib hissəsinə çevrilib. Telekommunikasiya şəbəkələrinə daxil olmaq nəhəng elmi-texniki informasiya bazalarına giriş üçün yeni imkanlar açır. Lakin yaşadığımız məkanın geopolitik vəziyyətini nəzərə alsaq, dünya ilə inteqrasiya əlaqələrinin qurulmasında əvəzsiz rolu olan İnternetdən səmərəli istifadə öz növbəsində xarici texnoloji-informasiya hücumlarının qarşısının alınması, informasiya təhlükəsizliyi probleminin həll edilməsini zəruri məsələ kimi qarşıya qoyur.

İnformasiya təhlükəzsizliyinin təmin olunması üçün hüquqi baza yaradılmalıdır. Bu məsələ ayrı-ayrı ölkələr kontekstində deyil, beynəlxalq qlobal informasiya təhlükəsizliyi kontekstində nəzərdən keçirilməlidir: “Kompüterləşmə prosesi elə səviyyəyə çatıb ki, bu məkanda virus, spam növləri və digər təhlükələrlə üzləşmək mümkündür. Ona görə də Azərbaycanda bu sahədə təhlükəsizlik sisteminin yaradılması vacibdir. İnformasiya sahəsi insan təhlükəsizliyinin əsas faktorlarından birinə çevrilib. Bunun təminatı üçün kompleks tədbirlər görmək lazımdır. İnternetin hüquqi bazası da yaradılmalıdır. İnternet özünütənzimləmə mexanizmlərinə malik olmalıdır və bu, hansısa ölkənin qanunvericiliyi çərçivəsində deyil, beynəlxalq hüquq əsasında olmalıdır” [5].

Beləliklə, hər bir ölkənin təhlükəsizliyinin təminatı ilk növbədə təqdim etdiyi informasiyadan başlanır. Bu səbəbdən dünyada 23 ildir ki, 30 noyabr – Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü kimi qeyd olunur. Məqsəd qorunub saxlanılan informasiyanın təhlükəsizliyinin təmini, bu sahədə mövcud olan müxtəlif problemlərin həllinin önəmliyini istifadəçilərin, proqram vasitələri istehsalçılarının, o cümlədən ictimaiyyətin diqqətinə çatdırmaqdır. Sevindirici haldır ki, respubikamızda da informasiya təhlükəsizliyinin təmin edilməsinin formalaşdırılması məqsədi ilə “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Elektron sənəd və elektron imza haqqında”, “İnformasiya əldə etmək haqqında”, “Telekommunikasiya haqqında” və s. qanunlar qəbul edilib.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik.-B., BUN, 2007, 200 s.*

*2. Xələfov A.A. İnformasiyalaşmış cəmiyyət və kitabxanaların vəzifələri. Umumrespublika elmi praktik seminarda çıxış. 1 iyun 2005-ci ıl.*

*3. Kazımi P.F. İnformasiya mühəndisliyi. B., 2011, 236 s.*
*4. Галатенко В.А. Основы информационной безопасности, Москва, 2004, 264 с.*
*5. Əliquliyev R. Azərbaycanda Milli İnformasiya Təhlükəsizliyi Sistemi formalaşdırılır // www.sia.az .4 may 2011.*
*6. Azərbaycan Respubikasının Milli Təhlükəsizlik Konsepsiyası // www. iom.az.23 may 2007.*

## CONCEPTION OF INFORMATION SECURITY IN LIBRARIES

**S.I.MAMMADOVA**

### *SUMMARY*

***Keywords:*** *information security, security, protection, malware, library activities, information resources, internet.*

*Creation of information security problems, conception of information security in libraries and at the same time measures of information protection are investigated in this article.*

## ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ В СОВРЕМЕННОЙ БИБЛИОТЕЧНОЙ ДЕЯТЕЛЬНОСТИ

**С.И.МАМЕДОВА**

### *РЕЗЮМЕ*

***Ключевые слова:*** *информационная безопасность, информационные угрозы, информационные ресурсы, интернет, библиотечная деятельность.*

*В статье рассматривается проблема создания информационной безопасности в библиотечном деятельности описывается понятие информационной безопасности. В тоже время определены некоторые вопросы обеспечения информационной безопасности.*

# "ŞƏXSİ TƏHSİL" PROBLEMİ BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİNDƏ

**E.L.ƏJDƏROV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə "şəxsi təhsil" problemi öz əksini tapmışdır. Həmçinin şəxsi təhsil fəaliyyətinin oxucuya istiqamətləndirilməsi meyarının nəzəri tərəfləri təhlil olunur.*

Bibliopsixologiya nəzəriyyəsinin banisi Nikolay Aleksandroviç Rubakinin yaradıcılığının böyük bir hissəsini özündə əks etdirən kitablardan biri 1905-ci ildə işığ üzü görən "Среди Книг" adlı kitabıdır. Əsərin ikinci cildi isə 1911-ci ilə təsadüf edir. Azərbaycan dilinə tərcümədə "Kitablar arasında" kimi səslənən əsərdə N.A.Rubakin şəxsi təhsil məsələsinə böyük diqqət ayıraraq bu məsələni müzakirə obyektinə çevirmişdir. Kitabxana işi fəaliyyətinin funksiyalarından biri olan təhsil funksiyasını prioritet məsələ kimi nəzərdə tutan N.Rubakin "şəxsi təhsil" problemini bir neçə istiqamətdə analiz etmişdir. Birinci yanaşmada şəxsi təhsil fəaliyyətinə nəzəri olaraq yanaşan tədqiqatçının "şəxsi təhsil fəaliyyətini oxucuya necə istiqamətləndirmək" meyarı öz əksini tapmışdır. Bu dövrdə o, Rusiya ərazisi daxilində mövcud olan oxucularla əlaqəyə girərək 7000-dən çox məktubu diqqətindən keçirtmişdir. Belə ki, N.Rubakin qeyd edir: "Əldə etdiyimiz məktubların çoxu "nə oxuyaq? ən birinci hansı kitabı götürək?" kimi sualları əks etdirirdi ki, buna da bir nəfər şəxsin cavab verməyi çox çətin idi. Çünki özündən asılı olmayaraq yazını yazan oxucunun ağrısını, əzabını, sevincini özününkü kimi qəbul edirsən" [1, 625].

N.A.Rubakin "Kitablar arasında" əsəri ilə yaxından tanış olduqda görürsən ki, o, yüzlərlə insanlarla və onların mütaliə dairəsi ilə tanış olmaqla onlara dəqiq və düzgün istiqamət verməyə cəhd edirdi. Ona görə də o yazır: "Bəli, mütləq gərəkdi ki, hansısa bir işlə sadə, çox dərin mənada səmimi olan insanlara kömək edək!" [1, 625].

Oxucularla ünsiyyət zamanı ilk öncə oxucuların yazılarında, məktublarında N.A. Rubakin həll etmək istədiyi problemlə üzləşir. O "Kitablar arasında" kitabında yazır ki, "elə oxucular var ki, onlar külli miqdarda vəsait xərcləyərək çoxlu kitablar, hətta bütöv bir kitabxana alırlar. Lakin sonda bu baş ağrıları ilə, bəzi elmi fikirlər, bir neçə müəlliflə tanışlığa gətirib çıxartsa da yenə də oxucuları razı salmırdı" [1, 628].

Bu zaman tədqiqatçı "bəs problem nədədir, işin mahiyyəti nədən ibarətdir?" sualını ortaya qoyur. Hətta xüsusi təşkil olunmuş proqram vasitəsi ilə,

"yaxşı" kitabların sistemli siyahısını tərtib etməklə baş verən mütaliə prosesi məsələni tamlığı ilə həll etmirdi. Nəticədə N.A.Rubakin qeyd edir: "Biz sistemli, məzmunlu kitablardan, xüsusi proqramlardan yox, insan ruhu, insan mənəviyyatını öyrənməkdən, onların tiplərini, müxtəlif formada olan tiplərini təyin etməkdən başlamalıyıq" [1, 628]. Müasir dövrdə Azərbaycan kitabxanaşünaslığının banisi, hörmətli prof. A.A.Xələfovun "Kitabxana və şəxsiyyət" mövzusunda yazdığı fikirləri diqqəti çəkir: "Cəmiyyətin çoxlu sayda şəxsiyyətlər yaratdığını nəzərə alsaq, müxtəlif oxucu qruplarına fərdi xidmət edən, onların tələb və sorğularını ödəməkdən başlamış, informasiya xidmətinin təşkilinə qədər mühüm bir iş prosesini yerinə yetirən, kitabxanaların böyük fəaliyyəti göz önünə gəlir. Beləliklə də kitabxana-şəxsiyyət-fərd və oxucu münasibətlərinin araşdırılması zərurəti yaranır" [2, 173].

Göründüyü kimi, müqayisəli metoda söykənərək qeyd edim ki, N.A.Rubakin yaradıcılığında "şəxsiyyət problemi" müasir dövrün alimi prof. A.A.Xələfovun yaradıcılığı ilə bu mənada uyğunluq kəsb edir.

N.A.Rubakin oxucu və kitab münasibətlərini araşdıraraq belə qənaətə gəlir: "Yaxşı kitablar müəyyən mənada məlumdur və onların keyfiyyəti barədə çox kompetent insanlar fikir söyləyiblər, lakin kitablar arasından özünə, öz dünyana uyğun olanı seçməyi bacarmalısan " [1, 629].

Diqqətinizi yuxarıda qeyd olunan "şəxsin öz dünyasına" ifadəsinə yönəldərək qeyd edim ki, lazımı kitabı seçməyi bacarmaq üçün bu ifadə ilə N.A.Rubakin "şəxsiyyət" anlayışını diqqətlə yanaşırdı.

Etiraf olunmalıdır ki, müasir dövrümüzün mütaliə prosesi, daha dəqiq desək şəxsi təhsili əhatə edəcək mütaliə prosesi düzgün təşkil olunması problemi tmalığı ilə həll olunmayıb. Bu barədə dosent S.Rzayev qeyd edir: "Kitabla ünsiyyət, ədəbiyyatın qavranılması, formaları barədə müxtəlif fikirlər söylənilsə də, mütaliə nəzəriyyəsi onun elmi metodoloji xüsusiyyətləri elm aləmində hələ əsaslı şəkildə formalaşmamışdır " [3, 66].

Unutmaq olmaz ki, müasir dövrdə şəxsiyyət, fərd, mütaliə prosesi müxtəlif elmlərin tədqiqat obyektidir. Lakin humanitar sahədə, sosial mühit fərdi şəxsiyyətə, mütaliəni sosial prosesə çevirən amil olduğu üçün sosiologiya, psixologiya, filologiya və kitabxanaşünaslıq elmləri bir araya gəlir. Qeyd etdiyimiz elmlərin perpendikulyar kəsişməsini bibliopsixologiya nəzəriyyəsində də görə bilərik. Bu özünü məhz şəxsi təhsil, mütaliə məsələlərində ifadə edir.

N.A.Rubakin "hansı kitab hansı oxucuya hansı şəraitdə təsir edəcək?" sualını qoymaqla məsələnin praktik həllini bu suala cavab tapmaqda görürdü. O yazır: "Bu cavab sadəcə kitaba tənqidi münasibət bəsləməklə yaranmır və sadəcə tövsiyə etməklə alınmır, bu həm kitabın, həm də oxucunun, oxucu kontingentinin psixoloji və sosioloji detallarını çıxartmaqla yaranır" [1, 629].

N.Rubakin oxucunu bir fərd kimi öyrənməyi zəruri hesab edirdi. Ona görə də şəxsin ağlı, düşüncə tərzi, yaddaşının keyfiyyəti, onun təsəvvür qurmaq qabiliyyəti, qavrama dərəcəsi, diqqəti, xəyalı, emosionallığı, fəallığı, hissiyyatlılığı, energetikliyi, iradi keyfiyyətlərini, təhsil səviyyəsi, həyat şəraitini, hansı tarixi dövrdə yaşaması, milliyəti, yaşadığı sosial mühiti və s. xüsusiyyətləri nəzərə alaraq problemin obyektiv həllində vacib məsələ kimi vurğulayırdı. Nəticədə o, kitabdan oxucuya istiqamətlənərək belə bir qənaətə gəlir: "Beləliklə, şəxsi təhsildə məsələnin qoyuluşu fərdiyyət və şəxsiyyətə individual yanaşma prinsipi kimi olsa, bu daha düzgün prinsip sayılar" [1, 630].

N.Rubakin şəxsi təhsil mövzusunun ağırlıq mərkəzini kitabdan oxucuya tərəf istiqamətləndirməklə yazır: "Şəxsi təhsilin mahiyyəti kitabda yox, şəxsin özündə və ya başqa cür desək, həyatın özündə cəmlənmişdir" [1, 630].

N.Rubakin problemə heç də birmənalı yanaşmır. Əgər hesab etsək ki, o şəxsi təhsil məsələsində yalnız fərdin şəxsiyyətini analiz etməklə kifayətlənirdi bu səhv olardı. Obyektivliyə söykənərək o "kitabalar arasında" əsərində qeyd edir: "Artıq 25 ildir ki, oxucularla yazışıram. Şəxsi təhsil işini daha da məzmunlu etmək üçün əvvəlcə oxunulan kitab kütləsini tam öyrənməliyik, ikinci isə oxuyan kütləni öyrənməliyik, burada olan oxucu tipləri, onların psixikaları, sinifləri, sosial xüsusiyyətlərini və s." [1, 631].

N.Rubakinin araşdırmaları göstərir ki, "Kitablar arasında" kitabının I cildi (1905) şəxsi təhsil məsələsini tamlığı ilə əhatə edə bilmir, nəticədə artıq kitab və oxucu münasibətlərində fərdi bir şəxsiyyət kimi öyrənmək üçün 1911-ci ildən etibarən "Oxuculara şəxsi təhsil haqqında məktub" əsəri "Yeni jurnal" adlı jurnalda çap olunmağa başlayır. N.Rubakinin şəxsi təhsillə bağlı artıq sistemləşdirilmiş fikirləri bu nəşrdə daha da diqqəti çəkir. O qeyd edir:

"1) Biz təhsilə, elmə can atan hər bir oxucuya həm nəzəri, həm də praktik baxımdan kömək etmək istəyindəyik.

2) İdeal təhsil o təhsildir ki, kimliyindən asılı olmayaraq oxucu nəzəri və praktik təhsili təkcə onun şəxsiyyətinə yox, həm də sosial həyata xeyir versin.

3) Deyilənlərə praktik nail olmaq imkanı istənilən bir şəxsdə o zaman alınacaq ki, onda məsələyə bütövlülük, tamlığı ilə yanaşmaq qabiliyyəti olsun!" [1, 631].

Göründüyü kimi, N.Rubakin "şəxsi təhsil" ilə əlaqədar fəaliyyətin məqsədini, mahiyyətini və tətbiq edilmə prinsipini nəzərə almaqla yaradıcı fəaliyyətində üç bucaqlı fiqur modelini qurmuşdur.

N.Rubakin yaradıcılığı ilə tanış olduqca belə bir qənaət əldə olunur ki, o humanist düşüncəni, obyektivliyi, ədaləti, yaradıcılığı və daim sistemliliyi qoruyub saxlmağı tövsiyə edirdi. Həmçinin "şəxsi təhsil" məsələsində problemə incə, həsas yanaşmaq prinsipini qoruyaraq yazır: "Bizim hər birimiz indiyə qədər yaşadığımız həyatın nəticəsiyik. Bu nəticədə bizi yerləşdiyimiz nöqtəyə

qoyub. "Şəxsi təhsil" məsələsi şəxsiyyətdən ayrıla bilməz. Oxucu şəxsiyyətinin bütün, hətta görünməyən tərəflərini nə qədər çox bilsək (tələbatı, sorğusu, arzusu, məqsədi, ağlının xüsusiyyətləri və s.), bir o qədər də bizim ona verəcəyimiz tövsiyələr, istiqamətlər praktik və məzmunlu olacaqdır" [1, 632].

"Şəxsil təhsil" problemi N.Rubakinin bibliopsixologiya nəzəriyyəsində geniş həcmə malik mövzudur. Bunu nəzərə alaraq onun mövzuya yanaşdığı müxtəlif istiqamətləri diqqətə çatdırmaq istərdim. Onlardan birincisi "şəxsil təhsil fəaliyyətini oxucuya necə uyğunlaşdırmaq" prizması idi ki, oxuduğunuz mətn bu istiqamətdə yazılmışdır. Digər tərəfdən o, praktikliyi çox vacib detal kimi nəzərə almaqla "Şəxsi təhsil fəaliyyətini oxucuya uyğunlaşdırmağın təcrübi nümunəsi" adlı mövzunu analiz obyektinə çevirmişdir. Praktik və nəzəri tərəfləri dialektik vəhdətdə tədqiq edən N.Rubakin artıq problemə daha konkret yanaşaraq "Şəxsi təhsilin əsas tapşırıq və məqsədləri" adlı cox ciddi təhlil olunmuş fikirləri diqqətə çatdırır. Mövzuya həddindən çox maraq və diqqət tələb edəcək aspektlərdən biri də "Şəxsi təhsil fəaliyyətinin mərhələləri və şəxsiyyətin ifadəsi - "Nəzəriyyədən paktikaya və kitabdan həyata" adlanır.

"Şəxsi təhsil" problemi ilə bağlı N.Rubakinin apardığı analizlərinin ayrı-ayrı tərəflərinin müasir informasiyalaşmış cəmiyyətdə araşdırılmasının zəruriliyinə ehtiyac duyulmaqdadır. Çünki müasir informasiyalaşmış cəmiyyətdə daima artmaqda olan informasiya kütləsi içərisində tələbatçı-oxucu nəyi harda və necə oxumağı bacarmalıdır.

## ƏDƏBİYYAT

1. *Рубакин Н.А. Библиологическая психология. - М.: Академический Проект. Трикста, 2006, 800 с.*
2. *Xələfov A. Monoqrafiya; Bakı: "Azərnəşr", 2011, 348 s.*
3. *Rzayev S. Kitabxana xidməti. Dərslik. - Bakı, 2009, 338 s.*
4. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik. - Bakı, 2001, 400 s.*
5. *Bayramov Ə.S., Əlizadə Ə.Ə.. Psixologiya. – Bakı, 2009, 620 s.*
6. *Миронова М.В. Психология и социология чтения: Учебное пособие. - Ульяновск, 2003, 68с.*

## THE PROBLEM OF SELF-EDUCATION IN THEORY BIBLIOPSIHOLOGY

**E.L.AJDAROV**

***SUMMARY***

*The article considers “the problem of self-education in theory of Nicholas Aleksandrovitsa Rubakin named Bibliopsihology.” The problem is analyzed in a theoretical sense, as well as the article reflects the principle direction of the reader to self-education.*

## «ПРОБЛЕМА САМООБРАЗОВАНИЯ» В ТЕОРИИ БИБЛИОПСИХОЛОГИИ

**Э.Л.АЖДАРОВ**

***РЕЗЮМЕ***

*Статья рассматривает "проблему самообразовании в теории библиопсихологии Николая Александровица Рубакина." Проблема анализируется в теоретическим аспекте, а также в статье отражается принцип направлении читателя к деятельности самообразовании.*

# MÜASİR DÖVRDƏ İNFORMASİYA AXINI VƏ KOMPÜTERLƏRİN İNKİŞAFI

**Y.MƏMMƏDOVA**
**Bakı Dövlət Universiteti**
**Kitabxanaşünaslıq kafedrasının laborantı**

***Acar sözlər:*** *kompüter, informasiya, elm, texnika.*

*Məqalədə müasir dövr elm və texnikanın yüksək sürətlə inkişafı və informasiya axınlarının çoxalması, kompüterlərin yaranma tarixi, onların insan həyatında rolundan, informasiyanın saxlanması və ötürülməsində kompüterlərdən istifadə edilməsindən bəhs edilir.*

Müasir dövr elm və texnikanın yüksək sürətlə inkişafı və informasiya axınının çoxalması ilə xarakterizə edilir. İndi elm və texnikanın, eləcə də məişətimizin elə bir sahəsini tapmaq olmaz ki, orada fərdi elektron hesablama maşınlarından-kompüterlərdən istifadə olunmasın. Elektron hesablama maşınlarının yaradıcılarından-akademik V.M.Qluşkov yazırdı: «Müasir EHM-lər olmasaydı, istesalatda və məişətdəki hesablamaları aparmaq üçün bəşəriyyətin bir yarısı o biri yarısına xidmət etməli idi»

İnsan varlığını dərk edəndən bəri özünə hesablama üçün köməkçi vasitələr axtarmışdır. İlk vaxtlar bu insanın əli və barmaqları olmuşdur. Barmaq hesabından ilk istifadə edənlər qədim yunanlar və romalılar olmuşdur. Barmaq hesabının tam şərhi orta əsrlərdə (təxminən, 673-735-ci illər) Poçtenninin «Hesablama haqqında» adlı elmi əsərində verilmişdir. Həyat informasiyaların saxlanmasını tələb kimi irəli atırdı. İlk insanlar daşların, ağac parçalarının, çöplərin, düyünləri olan kəndirlərin köməyindən istifadə etməklə buna nail olurdular...

Nəhayət, informasiyaları saxlamaq və istifadə etmək üçün onların işarə edilməsi, ədədlərin meydana gəlməsi zəruri oldu. Təbii ki, insanlar əvvəllər mövqesiz say sistemini yaratmışlar. 4000 il bundan əvvəl misirlilər heroqliflərdən, sonralar isə yunanlar hazırda istifadə etdiyimiz yunan əlifbasının hərflərindən, romalılar isə I (bir), V (beş), X (on), L (əlli), C (yüz), D (beş yüz) və M (min) işarələrindən istifadə etmişlər. Lakin XX əsrin 50-ci illərinə qədər də xüsusilə mühasibat işçilərində istifadə edilən və adi danışıq dilində "şotkə" adlandırılan abak avtomatik hesablama xassəsinə malik deyildi. Buna görə də komputer üçün müəyyənedici rol oynayan avtomatik hesablama xassəsi abakda olmadığına görə onu kompüterin sələfi adlandırmaq bizcə yalnış hesab edilməlidir.

Abak eradan əvvəl dördüncü minillikdə yaradılmış mexaniki qurğu idi. İlk əvvəllər o, üfiqi gil millərə keçirilmiş ortadan deşiyi olan gil planstinkalardan ibarət idi. Gil plastinkalar kiçik dairəvi formada düzəldilirdi və ədədləri ifadə edirdi. Onun ilk yaradıcısı Asiya qitəsi hesab edilir. Orta əsrlərdə Avropada abak qrafalanmış cədvəllə əvəz edildi. Ədədlər müəyyən xətlər üzrə hesablanırdı. XVII əsrdə onun daha təkmilləşdirilmiş forması yaradıldı, yəni o, onluq rəqəmlərin mövqeyinə uyğun olaraq dəmir millərə keçirilmiş, ortası deşilmiş yumru (dairəvi) ağac aşıqlardan ibarət idi. Hər mildə on aşıq, sonuncu mildə isə beş aşıq olurdu və bu da ədədin onluq kəsr hissəsini hesablamaq üçün istifadə edilirdi. XX əsrin 40-cı illərinə qədər məhz bu mexaniki qurğu istifadə olunmuşdur.

Tarixi məlumatlara əsasən rəqəmlər hərflərdən əvvəl yaradılmışdır. Ərəb rəqəmlərindən istifadə edilməklə yazılı hesablama Avropada Fibonaççi adı ilə tanınmış L.Pizanskinin 1202-ci ildə çap olunmuş kitabında şərh olunmuşdur. Bu dövrdən yazılı hesablama geniş yayılmağa başladı və abak ancaq köməkçi alətə, vasitəyə çevrildi.

Ümumiyyətlə, informasiyaların saxlanması üçün ən münasib üsul yazıdır. Riyaziyyatın tarixində əlamətdar hadisə mövqeli say sisteminin kəşfidir. Mövqeli say sisteminin kəşfi hesablamanın mexanikləşdirilməsinə imkan yaradır. Hesablama alətlərində ilk dəyişiklik XVII əsrin başlanğıncında oldu.

1617-ci ildə Şotland riyyaziyatçısı C.Neper vurma əməlini yerinə yetirən "Hesab çubuqları" adlı cihaz düzəltdi, loqarifm xətkeşi yaradıldı. İlk mexaniki cəmləyici hesablama maşınının yaradılması fransız alimi B.Paskalın adı ilə bağlıdır.

1673-cü ildə alman riyaziyyatçısı V.Leybinis hesab əməllərini yerinə yetirən mexaniki maşın hazırladı. XIX əsrin əvəllərində görkəmli riyaziyyatçı Ç.Bebbic proqramla idarə olunan mexaniki hesablama maşını ideyasını işləyib hazırladı və müəyyən etdi ki, hesablama maşınında:

1. Ədədi informasiyaları saxlamaq üçün "yaddaş" (müasir komputerlərdə yaddaş qurğusu):
2. Yaddaşdakı ədədlər üzərində əməliyatları yerinə yetirən qurğu (müasir komputerdə hesab qurğusu):
3. İnformasiyaların yazılması, oxunması, onlar üzərində əməliyyatlar ardıcıllığının tənzimləyicisi (idarəetmə qurğusu):
4. İnformasiyaların maşına daxil edilməsinə və hesablamanın nəticəsini çap etməyə imkan verən (giriş- çıxış) qurğusu olmalıdır

Təbii ki, bu ideya EHM-lər yaradıldıqdan sonra həyata keçirilir.

EHM-in yaranma tarixi Bebbicin, proqramlaşdırmanın tarixi isə onun tələbəsi, Corc Bayronun qızı Avqusta Ada Lavleysin adı ilə bağlıdır. XX əsrin

30-50-ci illərində elektronika, avtomatika və riyazi məntiq sahəsində edilən elmi kəşflər ilk elektron hesablama maşınlarının yaranmasına şərait yaratdı. 1937- ci ildə ABŞ-da bolqar A.Atanosovun riyazi fizika məsəllərini həll etmək üçün elektron hesablama maşını yaradıldı. Dünyada ilk elektron hesablama maşını-"ENIAK" (Elektron Numerical Integrator And Calculator) 1946-cı ildə Amerkanın Pensilvaniya Universitetinin əməkdaşları C.Moçli və D.Ekkert tərəfindən yaradıldı. Saniyədə 5000 əməliyyatı yerinı yetirən və 18000 lampadan ibarət bu EHM-in çəkisi 30 ton idi. EHM-in inkişafında xüsusi xidmətləri olan amerikan riyaziyyatçısı Con Fon Neymanın müasir kompüterlərdə də istifadə olunan "ikilik say sistemindən istifadə və proqramın yaddaşda saxlanması" prinsipi mühüm rol oynadı. 1947-ci ildə Moçli, Ekkert və Neymanın rəhbərliyi ilə "EDVAK" maşını hazırlandı. Elə həmin ildə ABŞ-ın IBM firmasının əməkdaşları yeni elektron-rele hesablama maşınını hazırladı. Rus alimi S.Lebedevin rəhbərliyi ilə 1950-ci ildə 2000 elektron lampadan ibarət Kiçik Elektron Hesablama Maşını, 1 il sonra isə saniyədə 8000 əməliyyati yerinə yetirən Böyük Elektron Hesablama Maşını hazırlandı . «STRELA» (1963-cü il) və «URAL» (1964-cü il) markalı maşınlar istifadəyə verildi.

Yeni yaradılan ən sadə funksiyaları yerinə yetirən və çoxlu sayda elektron komponentlərdən təşkil olunmuş EHM-lərin elementlərinin vəzifələri dəyişməsə də, onlarin qurulduğu elementlərin məcmuu dəyişmişdir. Element bazasının dəyişməsi ilə elektron hesablama maşınlarının göstəriciləri, zahiri görkəmləri, həmçinin imkanları da əhəmiyyətli dərəcədə dəyişirdi. Kəşf edilmiş heç bir qurğu EHM kimi sürətlə inkişaf etməmişdi. Hər 10-15 ildə EHM-lərin inkişafında kəskin sıçrayışlar baş vermişdir. Belə sıçrayışlar nəticəsində yaranmış yeni EHM-lər köhnələrini sıxışdırıb aradan çıxarırdı. Ona görə də EHM-in bir-birini əvəz edən nəsillərini nəzərdən keçirmək məqsədəuyğundur.

I nəsil (1950-1959-cu illər) kompüterləri elektron lampalı elementlərə qurulduğuna görə iş etibarlığı, yaddaş tutumu və işləmə sürəti az idi. Giriş-çıxış qurğularının və xarici yaddaşın funksional məhdudluğu mətni (simvol tipli) informasiyanın emalını çətinləşdirirdi. Buna görə də kompüterlərin tətbiq sahəsi məhdud idi və əsasən riyazi məsələlərin həlli üçün istifadə edilirdi.

II nəsil (1960-1969-cu illər) kompüterlərin element bazası əsasən yarımkeçiricilərdən ibarət idi, yaddaş tutumu, işləmə sürəti və avadanlığın işə etibarlılığı nisbətən yüksək idi. Giriş-çıxış qurğuları təkmilləşdirilmiş, böyük tutumu xarici yaddaş (maqnit lentində) qoşulmuş və bununla da mətni informasiyanın emalı mümkün olmuşdur. Xarici qurğularla əsas qurğuların parallel işləməsi qismən həll edilmişdi. Alqoritmik dillərdən istifadə etməklə

proqramlaşdırma prosesi xeyli asanlaşmışdı. Kompüterlərin tətbiq sahələri nisbətən genişlənmişdi. Məhz bu dövrdə, yəni 60-cı illərin sonlarında dünyada ilk dəfə ABŞ-da Konqres kitabxanası MARC sistemini kompüter bazasında tətbiq etmişdir.

III nəsil (1970-1985-ci illər) kompüterlərin yaradılması üçün zəmin yeni element bazasının – mikroelektronikanın və inteqral sxemlərin yaranamsı oldu. Onlardan istifadə nəticəsində kompüterlərin qabarit ölçüləri kiçildi və iş etibarlığı daha da artdı. Qurğuların parallel işləməsi prinsipləri daha da təkmilləşdirildi. Nəticədə asinxron dəyişdirilə bilən quruluşdan istifadə etməyə imkan yarandı və eyni zamanda bir neçə proqramın yerinə yetirilməsi (multiproqram rejmi) mümkün oldu. Əsas qurğularla xarici qurğular arasında informasiya mübadiləsinin dinamik prinsiplərə təşkili kompüterə müxtəlif sayda və müxtəlif tipdə xarici qurğuların qoşulmasına imkan verdi. Böyük yaddaş tutumu ilə yanaşı, yüksək yazma-oxuma sürətinə malik olan maqnit diskindən xarici yaddaş kimi istifadə edilməsi ilk dəfə III nəsil kompüterlərlə həyata keçirilmişdir.

III nəsil kompüterlərin əsas səciyyəvi cəhətlərindən biri də hesablama prosesinin təşkilində aparat və proqram vasitələrinin birgə istifadə olunması idi. İnformasiyanın emalını və proqramlaşdırmanı sadələşdirmək, səmərəliliyini artırmaq üçün əməliyyat sistemlərindən istifadə edilirdi. Bunun nəticəsində proqram vasitələrinin rolu xeyli artmış oldu.

IV nəsil 1981-ci ildən hazırki dövrə qədər böyük və çox böyük inteqral sxem (BİS, SBİS) texnologiyası ilə yaradılan kompüterləri əhatə edir. Belə inteqral sxemlərdə bir yarımkeçirici kristalda 1000-ə qədər sxem yerləşdirmək mümkün olur, yəni bir BİS onlarla yüzlərlə adi sxemlərin yerinə yetirdikləri funksiyaları icra edə bilirdi. Odur ki, dördüncü nəsil kompüterlərin qabarit ölçüləri xeyli kiçikdir (10-100 dəfələrlə), iş etibarlılığı isə çoxdur. Əvvəlki nəsil kompüterlərdə əməli (fəal) yaddaş maqnit nüvələrində qurulduğu halda, IV nəsil kompüterlərdə əməli yaddaş (statik və dinamik yaddaş) inteqral sxemlərdə qurulurdu. Bununla da əməli yaddaşın işləmə sürəti və tutumu xeyli artırdı.

IV nəsil maşınları arasında mikro və mini kompüterlər xüsusi yer tutur. Mikrokompüterlərin ən geniş yayılmış növü isə fərdi kompüterlərdir. Fərdi kompüterlər IV nəsil kompüterlərin ayrıca sinifini təşkil edir. Fərdi kompüterlərin yaradılması, geniş istehsalı və tətbiqi kompüter texnikasında inqilabi nailiyyət hesab edilir. Bunun bir necə səbəbi vardır:

- fərdi kompüterlər ölçüsünə görə xeyli kiçik (stolüstü maşın) və qiyməti etbarı ilə ucuzdur;
- texniki göstəricilərinə və imkanlarına görə əvvəlki nəsil (III) kompüterlərdən geri qalmır;

- əvvəlki nəsil kompüterlərdə əsasən peşəkarlar (proqramçılar, elektron mühəndisləri, operatorlar) işləyə bildiyi halda, fərdi kompüterlər hamı tərəfindən (kütləvi) istifadə edilir;
- fərdi kompüterlər çox etibarlıdır və onunla ünsiyyət dialoq formasında aparıldığından çox rahatdır.

Hazırda dünya miqyasında yüz milyonlarla fərdi kompüter elmdə, istehsalatda, tədrisdə və məişətdə tətbiq edilir. Fərdi kompüterlər və onların proqram təminatı açıq arxitektura prinsipinə əsaslanır, ildən-ilə təkmilləşdirilir və tətbiqi daha da genişləndirilir.

V və sonrakı nəsilər – indinin və gələcəyin kompüterləri, yəni elektron texnologiyaları ilə daha miniatur elementlərlə yığılır, daha yüksək məhsuldarlığa və iş etibarlığa malik olmaqla yanaşı, keyfiyyətcə yeni funkisional tələblərə cavab verməlidir.

Görüdüyümüz kimi, dünya inkişaf etdikcə, cəmiyyət formalaşdırca daha çox informasiya axını yaranır və bu informasiya axınının öhtəsindən gəlmək onu saxlamaq üçün geniş istifadə etdiyimiz EHM-də inkişaf edir və etməkdədir. Bütün bu inkişaf sahəsində informasiyanın saxlanması və ötürülməsi asanlaşır və əvvəldə qeyd etdiyimiz V.M.Qluşkovun dediyi kimi bəşəriyyətin bir yarısı digər yarısına xidmət etmək məcburiyətində qalmır.

## ƏDƏBİYYAT

*1. Xələfov A., Qurbanov A. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik. Bakı: BUN, 2007, 200 s.*

*2. Rüstəmov Ə. İnformatika. Bakı: 2010, 498 s.*

*3. Rüstəmov Ə., Mustafayeva N. Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və şəbəkələri. Bakı: 2007, 236 s.*

*4. Kazımi P. İnformasiya mühəndisliyi. Bakı: 2011, 235 s.*

## AT PRESENT, THE FLOW OF INFORMATION AND COMPUTERS DEVELOPMENT

**Y.A.MAMMADOVA**

***SUMMARY***

***Keywords:*** *computer, information, science, technology.*

*The article high-speed development of the modern era of science and technology and information flows increase, the history of computers and their role in human life, storage and transmission of information about computers is to use.*

## ПОТОК ИНФОРМАЦИИ В СОВРЕМЕННОЕ ВРЕМЯ И РАЗВИТИЯ КОМПЬЮТЕР

**Е.А.МАМЕДОВА**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *компьютер, информация, наука, техника.*

*Статья рассматривает высокое развитие науки и техники в современном этапе, а также историю создание компьютерных технологии, роль этих технологии в человечецкой жизни, сохранения и передача информации с помошю компьютерных технологии.*

**Professor Abuzər Xələfov – 80**

## GÖRKƏMLİ KİTABXANAŞÜNAS ALİMİN YUBİLEYİ

***2011-ci il dekabrın 25-də Azərbaycanın görkəmli kitabxanaşünas alimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 yaşı tamam oldu. Yubileyin respublika səviyyəsində təntənəli şəkildə keçirilməsi məqsədi ilə bir sıra dövlət qurumları xüsusi əmrlər vermiş, müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Belə ki, Azərbaycan Respublikasının təhsil naziri M.Mərdanovun 21 aprel 2011 tarixli 623 №-li əmri, mədəniyyət və turizm naziri Ə.Qarayevin 29 aprel 2011-ci il tarixli 201 №-li əmri, Bakı Dövlət Universitetinin rektoru, akademik A.Məhərrəmovun 18 may 2011-ci il R-41 №-li əmri ilə professor A.Xələfovun 80 illik yubileyinin keçirilməsi qərara alınmışdı.***

***BDU rektorunun əmri ilə yubileyi keçirmək üçün 7 nəfərdən ibarət təşkilat komitəsi yaradılmışdı. Təşkilat komitəsinin sədri akademik A.M.Məhərrəmov, katibi isə dosent K.İ.Aslan təsdiq olunmuşdu. Əmrdə prof. A.Xələfovun elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş bir sıra kitabların, alimin məqalələr toplusunun, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərinin prof. A.Xələfov haqqında ürək sözlərinidən ibarət məcmuənin hazırlanıb nəşr edilməsi planlaşdırılmışdı. Bundan başqa, 2011-ci ilin oktyabr-noyabr aylarında Kitabxanaçılıq-informasiya fakültəsində prof. A.Xələfova həsr olunmuş "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda kitabxanaşünaslığın müasir problemləri" movzusunda elmi konfransın, noyabr ayında Azərbaycan Respublikası kitabxana ictimaiyyətinin və BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi məzunlarının prof. A.Xələfovla görüşünün keçirilməsi, oktyabr-noyabr aylarında A.Xələfovun elmi-pedaqoji və icitimai fəaliyyətinə həsr olunmuş kitab sərgisinin və fotostendin təşkili edilməsi, Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin prof. A.Xələfovun elmi-pedaqoji fəaliyyəti ilə bağlı sənədli film hazırlaması, "Azərbaycan müəllimi" və "Bakı Universiteti" qəzetlərində yubileylə bağlı məqalələrin dərc olunması, 2011-ci ilin dekabrında BDU-nun akt zalında təntənəli yubiley iclasının keçirilməsi və s. nəzərdə tutulmuşdu.***

***Artıq həmin tədbirlərdən demək olar ki, hamısı uğurla həyata keçirilmiş, professor Abuzər Xələfovun yubiley təntənələri respublikamızda əsl***

***bayram ab-havası yaratmışdır. İndiyə qədər Təhsil Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin, Bakı Dövlət Universiteti rektorluğunun əmrlərinə əsasən ölkəmizin 15-ə yaxın elm, təhsil, mədəniyyət ocağında yubilyarla görüşlər, digər mədəni-kütləvi tədbirlər keçirilib, müxtəlif televiziya kanallarında, radio dalğalarında verilişlər hazırlandı, 50-yə yaxın qəzetdə, jurnalda məqalələr çap olundu. Yubileylə bağlı profesor Abuzər Xələfovun 1990-2011-ci illərdə dövri mətbuatda dərc etdirdiyi yazıları əhatə edən "Məqalələr toplusu", "Kitabxana və cəmiyyət" adlı fundamental monoqrafiyası, eləcə də "Abuzər Xələfov. Biblioqrafik məlumat kitabı", alimə həsr olunmuş "80 yaşın ucalığı" kitabı, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının xüsusi nömrəsi işıq üzü gördü.***

### Heydər Əliyev adına muzey-məktəbdə

28 oktyabr 2011-ci ildə Yasamal Rayon İcra Hakimiyyətinin, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə həmin rayondakı Heydər Əliyev adına muzey-məktəbdə professor Abuzər Xələfovun iştirakı ilə təşkil edilmiş dəyirmi masa da bu tədbirlər silsiləsinə daxil idi.

Öncə qonaqlar Yasamal rayon Heydər Əliyev adına muzey-məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, ulu öndərin xatirəsini yad etdilər.

Tədbiri giriş sözü ilə Heydər Əliyev adına muzey-məktəbin direktoru Sədaqət Seyidzadə açaraq, A.Xələfovu 80 illik yubileyi münasibətilə təbrik etdi.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev Azərbaycan kitabxanaşünaslıq elminin banisi professor A.Xələfovun həyat və fəaliyyətinin bir çox maraqlı məqamlarını vurğulayaraq, xalqımızın belə nüfuzlu elm və mədəniyyət xadimləri ilə haqlı olaraq fəxr etdiyini bildirdi. O, eyni zamanda professor A.Xələfovun bu ərazidə yaşayan bir vətəndaş kimi rayonun ictimai və mədəni həyatında yaxından iştirak etdiyini, o cümlədən hazırda tədbirin keçirildiyi məktəb-muzeyin və kitabxananın da məhz professor A.Xələfovun məsləhəti ilə qurulduğunu da tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Sonra Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Knyaz Aslan professor A.Xələfovun həyat və fəaliyyəti barədə geniş məruzə ilə çıxış etdi. Natiq qeyd etdi ki, professor Abuzər Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, görkəmli elm, təhsil və mədəniyyət xadimi kimi ölkəmizdə və xaricdə yaxşı tanınan görkəmli ziyalılarımızdandır. Alim ən qədim dövrlərdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixini və inkişaf

istiqamətlərini hərtərəfli tədqiq etmiş, sanballı monoqrafiyaları ilə ölkəmizdə ilk dəfə olaraq bu sahənin bünövrəsini qoymuşdur.

1962-ci ildə professor A.Xələfovun fəal iştirakı və xidməti sayəsində BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilmiş və gənc tarix elmləri namizədi, dosent A.Xələfov həmin fakültənin ilk dekanı seçilmişdir. O, 25 il bu fakültəsinin dekan olmuş, onun formalaşması və inkişafı naminə mühüm xidmətlər göstərmişdir. A.Xələfov eyni zamanda 1963-cü ildən indiyədək, yəni yarım əsrə yaxındır ki, Kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli faəliyyət göstərir. Alim özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxanaşünaslıq-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır.

K.Aslan xüsusi vurğuladı ki, professor A.Xələfov Azərbaycanın müstəqilliyi dövründə öz elmi-pedaqoji fəaliyyətini daha da genişləndirən Kitabxanaçılıq-informasiya fakültəsinin yeni tədris planının yaradılmasında, kafedra və laboratoriyaların maddi-texniki bazalarının yaxşılaşdırımasında, dərslərin keyfiyyətinin yüksəldilməsində, kadrların düzgün seçilib yerləşdirilməsində səmərəli xidmət göstərmişdir.

Məruzəçi bildirdi ki, professor A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq və mədəni quruculuq sahəsində geniş tədqiqatlar aparan, onu yeni müddəalar və elmi biliklərlə zənginləşdirən tanınmış elmi məktəb yaratmışdır. Demək olar ki, respublikamızda fəaliyyət göstərən bütün kitabxanaşünas alimlər bu məktəbin – Abuzər Xələfov elmi məktəbinin yetişdirməsidir.

Daha sonra BDU-nun professoru Əyyub Əzizov, Kitabxanaşünaslıq kafedrasının müəllimi Nigar İsmayılova, Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Oruc Quliyev, magistrant Mətanət Osmanlı çıxış edərək Abuzər Xələfovun həyat və yaradıcılığını müxtəlif istiqamətlərdə işıqlandırdılar, onun haqqında xoş ürək sözləri söylədilər.

Sonda yubilyar professor A.Xələfov çıxış edərək ona göstərilən qayğı və diqqətə görə ölkə rəhbərliyinə, eləcə də bu tədbiri keçirən Yasamal Rayon İcra Hakimiyyətinə öz minnətdarlığını bildirdi, sadə bir alim əməyinə verilən yüksək qiyməti öz fəaliyyəti ilə bundan sonra da doğruldacağını söylədi.

Dəyirmi masada Yasamal rayon İcra Hakimiyyətinin başçısının müavinləri, şöbə müdirləri, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin mədəni-kütləvi işlər, mədəniyyət evi, kitabxanalar və muzey işi sektorunun məsləhətçisi Tomris Hacıyeva, müəllimlər, magistrantlar, MKS direktorları, filial müdirləri, KİV nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Tədbirdə yubilyar Abuzər Xələfovun şərəfli ömür yoluna həsr olunmuş slaydlar və Azərbaycan Televiziyasının çəkdiyi sənədli film də nümayiş etdirildi.

## Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin S.Vurğun adına Mərkəzi Kitabxanasında

14 noyabr 2011-ci ildə Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin S.Vurğun adına Mərkəzi Kitabxanasının zalında görkəmli alim, tarix elmləri doktoru, professor, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü Abuzər Xələfovun anadan olmasının 80 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə BDU-nun müəllimləri, Xətai rayon İH-in səhiyyə, təhsil və mədəniyyət şöbəsinin müdiri Pənah İmanov, “Respublika” qəzeti redaktorunun müavini İlham Pənahov, Bakı şəhər kitabxanalarının direktorları, filial kitabxanaların müdirləri, kitabxanaçılar, kütləvi informasiya vasitələrinin nümayəndələri, yubilyarın tələbələri və digər qonaqlar iştirak edirdilər.

Tədbirin aparıcısı Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Oruc Quliyev öz çıxışında vurğuladı ki, görkəmli alim, böyük şəxsiyyət, hamımızın sevimlisi olan professor Abuzər Xələfova həsr olunmuş bugünkü tədbir çox əlamətdar bir günə təsadüf edir.

Bakı Dövlət Universitetinin dekan müavini, pedaqogika üzrə fəlsəfə doktoru Elçin Əhmədov professor Abuzər Xələfovun həyat və yaradıcılığından, bugünkü fəaliyyətindən söhbət açdı. O qeyd etdi ki, professor Abuzər Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin, milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, görkəmli elm, təhsil və mədəniyyət xadimi kimi ölkəmizdə və xaricdə yaxşı tanınan ziyalılarımızdandır. Alim ən qədim dövrlərdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixini və inkişaf istiqamətlərini hərtərəfli tədqiq etmiş, sanballı monoqrafiyaları ilə ölkəmizdə ilk dəfə olaraq bu sahənin bünövrəsini qoymuşdur.

1962-ci ildə professor A.Xələfovun fəal iştirakı və xidməti sayəsində BDU-nun kitabxanaçılıq şöbəsi müstəqil kitabxanaçılıq fakültəsinə çevrilmiş və A.Xələfov həmin fakültənin ilk dekanı seçilmişdir. O, 1962-ci ildən 1970-ci ilə və 1980-ci ildən 1995-ci ilə qədər, yəni 25 il bu fakültənin dekanı olmuşdur. A.Xələfov eyni zamanda 1963-cü ildən indiyədək Kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərir.

Kitabxanaçılıq fakültəsinin yeni tədris planının yaradılmasında, kafedra və laboratoriyaların maddi-texniki bazalarının yaxşılaşdırılmasında, dərslərin keyfiyyətinin yüksəldilməsində, kadrların düzgün seçilib yerləşdirilməsində A.Xələfovun xüsusi rolu olmuşdur. Alim “Kitabxanaçılıq informatikası”, “Kitabxanaların kompüterləşdirilməsi”, “Kitabxanaçılıq pedaqogikası”, “Ki-

tabxanaçılıq psixologiyası", "Kitabxana iqtisadiyyatı", "Kitabxanaçı peşəsi" kimi kitabxanaşünaslıq sahələrinin formalaşmasına, həmçinin kitabxanaçı kadrların hazırlığının ixtisaslaşdırılmasına, geniş profilli kitabxana işçilərinin hazırlanmasına dair perspektivli ideya və təkliflər vermişdir.

Hazırda professor A.Xələfov Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Vahid Elmi Metodik Şurasının "Kitabxanaşünaslıq və biblioqrafiya" bölməsinin sədri, BDU-nun Böyük Elmi Şurasının üzvü, BDU-nun Ağsaqqallar Şurasının sədri, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktorudur.

Tədbirdə Xətai rayon İH-in şöbə müdiri Pənah İmanov, BDU-nun dosenti Sahib Rzayev, BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov, BDU-nun dosenti, şair Knyaz Aslan, dosent Aşur Əliyev, tarix üzrə fəlsəfə doktoru Pərviz Kazımi, Səbail rayon Mərkəzləşdirilmiş Kitabxanalar Sisteminin direktoru, Bakı şəhər mərkəzləşdirilmiş kitabxanalar sistemi direktorlar şurasının sədri Nüşabə Ələkbərova və başqaları öz çıxışlarında A.Xələfovun Azərbaycan mədəniyyət tarixi istiqamətində əldə etdiyi mühüm elmi nəticələrdən, müasir tarix elminin aparıcı alimləri arasında xüsusi nüfuz və söz sahibi olmasını vurğuladılar, ona yeni yaradıcılıq uğurları arzuladılar.

Sonda çıxış edən professor A.Xələfov onun yaradıcılığından söhbət açan hər kəsə öz minnətdarlığını bildirdi. O, bütün sahələrlə yanaşı kitabxanaçılığın bu günkü səviyyəyə çatmasında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən söhbət açdı. Bu gün bu sahəyə ölkə prezidenti cənab İlham Əliyevin göstərdiyi qayğı və diqqəti yüksək dəyərləndirdi.

Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi professor A.Xələfovun səmərəli fəaliyyətini nəzərə alıb, onu fəxri fərmanla mükafatlandırdı.

Tədbirdə A.Xələfovun həyat və fəaliyyətini özündə cəmləşdirən film göstərildi. İncəsənət nümayəndələrinin maraqlı konsert proqramını dinləyən iştirakçılar tədbirdən xoş təəssüratla ayrıldılar.

## C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında

16 noyabr 2011-ci ildə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Xələfovun anadan olmasının 80 illir yubileyi münasibəti ilə görüş keçirildi.

Tədbiri giriş sözü ilə kitabxananın direktoru T.Sadıqov açdı, O, qeyd etdi ki, professor A.Xələfov mədəniyyət, kitabxana işi, kitabxanaşünaslıq, təhsil və informatika sənədlərinin tarixinə, inkişafına və nəzəriyyəsinə dair 300-dən artıq monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. T.Sadıqov Abuzər Xələfovun elmi yaradıcılığı ilə bərabər onun insani keyfiyyətlərindən xüsusilə danışdı. O dedi ki, "80 yaşın ucalığı" kitabında dəyərli alim və ziyalılar Abuzər Xələfov haqqında ürək sözlərini yazmışlar. Mən inanıram ki, kiçik bir təşəbbüs olsa bəlkə də milyon nəfər bu dahi alim haqqında fikir söyləyə bilər. T.Sadıqov çıxışını Abuzər müəllimdən dərs aldığı tələbəlik illərinin xatirələri ilə bitirdi.

Görüşdə pedaqogika üzrə fəlsəfə doktoru, dosent M.Məmmədov A.Xələfovun həyat və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış etdi. O, məruzəsində A.Xələfovun elmi, pedaqoji fəaliyyətini, Azərbaycanda kitabxanaşünaslıq elminin, kitabxana işinin inkişafının hüquqi normalarının işlənib hazırlanmasındakı böyük əməyini əhatə etdi. Onun cəmiyyət qarşısındakı xidmətlərinin bir sıra orden və medallarla, dövlət orqanlarının və ictimai təşkilatların fəxri fərmanları ilə mükafatlandırılmasını qeyd etdi.

Tədbirdə tarix elmləri doktoru, pofessor B.Allahverdiyev, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz Aslan, tarix üzrə fəlsəfə doktoru P.Kazımi, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin müəllimi R.Qardaşov, Xətai MKS-nin direktoru O. Quliyev, Yasamal Rayon Heydər Əliyev adına Muzey Mərkəzinin direktoru S.Seyidzadə, "Dünya Azərbaycanlı gənclərin beynəlxalq həmrəyliyi" cəmiyyətinin prezidenti T.Əlizadə çıxış etdilər.

Kitabxananın elmi işlər üzrə direktor müavini X.Musayeva A.Xələfovun elmi araşdırmalarında Azərbaycanda ali kitabxanaçılıq-biblioqrafiyanın tarixi və nəzəri problemlərinin mühüm yer tutmasını xüsusi vurğulayandan sonra söylədi ki, onun Azərbaycan kitabxanaşünaslığının inkişafı sahəsindəki xidmətləri kitabxana işi tarixində mühüm yer tutur.

Pofessor B.Abdullayev öz çıxışında qeyd etdi ki, fəaliyyət sferası həddindən artıq geniş olan Abuzər müəllimi BDU-nun elmi pedaqoji və ictimai həyatında təsəvvür etməmək mümkün deyildir.

Dosent K.Aslan, T.Əlizadə, X.Məmmədova, R.Qardaşov da A.Xələfovun əvəzsiz xidmətlərindən, Azərbaycan kitabxanaşünaslığına gətirdiyi yeniliklərdən, elmi-pedaqoji fəaliyyətindən danışdılar.

Axırda pofessor A.Xələfov uzun illərin gərgin axtarışlarla keçən pedaqoji və elmi fəaliyyət yolundan xatirələr danışıb bütün qalan ömrünü də məhz bu yola sərf edəcəyini fəxrlə söylədi.

Görüşün sonunda A.Xələfovun həyat və yaradıcılığı əks etdirən "Abuzər Xələfov-80" kitab sərgisinə baxış keçirildi.

Tədbirdə KİV nümayəndələri də iştirak edirdilər.

**Şuşa Humanitar Kollecində**

Noyabrın 25-də Şuşa Humanitar Kollecində Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor, "Şöhrət" ordenli Abuzər Xələfovun 80 illik yubileyi təntənəli qeyd edildi.

Tədbirdə Şuşa Rayon İcra Hakimiyyəti başçısının humanitar işlər üzrə müavini Vüsalə Fətəliyeva, BDU-nun müəllimləri - fəlsəfə doktoru, dosent Knyaz Aslan, baş müəllim Akif Cəfərov, şair-publisist Hacı Loğman, kollecin müəllim və tələbə kollektivi iştirak edirdilər.

Yığıncağı giriş sözü ilə açan kollecin direktoru Rəsul İsmayılov yubilyarı müəllim və tələbə kollektivi, həmçinin Şuşa ictimaiyyəti adından təbrik etdi, ona tutduğu bu müqəddəs yolda uzun ömür və yeni nailiyyətlər arzuladı.

Tədbirdə çıxış edən Vüsalə Fətəliyeva, Knyaz Aslan, Akif Cəfərov, Hacı Loğman, kollecin müəllimlərindən Lalə Vəliyeva, Yeganə Əliyeva, İlhamə Fərəcova və başqaları yubilyarın keçdiyi ömür yolundan, Azərbaycanda kitabşünaslığın inkişafına verdiyi töhfələrdən, bir ağsaqqal, bir elm adamı kimi işlədiyi kollektivdə və ictimai mühitdə nüfuzlu ziyalı kimi tanınmasından, əməyinin dövlət tərəfindən layiqincə qiymətləndirilməsindən söz açdılar. Abuzər Xələfovun Azərbaycanda və keçmiş SSRİ-də kitabxanaçı kadrların hazırlanmasında cəfakeşliyi və kitabxana işi tarixini əhatəli qaydada araşdıran, bu sahədə hərtərəfli tədqiqatlar aparıb elmi şəkildə sistemləşdirən ilk elmlər namizədi və ilk elmlər doktoru olduğu diqqətə çatdırıldı. Çıxış edənlər professor Abuzər Xələfovun ümummilli lider Heydər Əliyevin əsərlərinin biblioqrafiyasının hazırlanması sahəsində xüsusi xidmət göstərərək "Heydər Əliyevin biblioqrafik məlumat kitabı" adlı əsərini çap etdirdiyindən söz açdılar.

Axırda professor A.Xələfov çıxışında yaşayaraq arxada qoyduğu illərin hədər getməməsindən qürur duyduğunu, vətəninə və xalqına vicdanla xidmət etdiyi üçün bu gün mənəvi rahatlıq tapdığını diqqətə çatdırdı. Kitabı millətin dünəni, bu günü və sabahı adlandıran yubilyar mütaliənin insan üçün nə qədər önəmli olduğundan, oxucunun nitqinin inkişafına, dünyagörüşünə, mənəvi və əxlaqi tərbiyəsinə müsbət təsirindən söz açdı. Ümummilli liderimiz Heydər Əliyevin memarı və qurucusu olduğu müstəqil Azərbaycan Respublikasına layiq yüksək intellektli gənclər kimi yetişməyi tələbələrə tövsiyə etdi.

Yubilyara kollecin rəhbərliyi və tələbələri adından gül dəstələri və hədiyyələr təqdim edildi.

Sonda kollecin müəllim və tələbələrindən ibarət ansambl maraqlı konsert proqramı ilə çıxış etdi.

## Azərbaycan Dillər Universitetində

Dekabrın 1-də Azərbaycan Dillər Universitetində professor, BDU-nun Kitabxanaçılıq kafedrasının müdiri Abuzər Xələfovla görüş keçirildi.

80 illik yubileyi ərəfəsində A. Xələfovla keçirilən görüşdə universitetin rektoru, millət vəkili, professor Səməd Seyidov, Tərbiyə işləri üzrə prorektor Ələddin Əliyev, Elmi işlər üzrə prorektor, professor Dünyamin Yunusov, eləcə də digər ali təhsil müəssisələrinin kitabxana rəhbərləri iştirak edirdi.

Rektor Səməd Seyidov çıxışında qonağı ADU-da görməkdən məmnunluğunu bildirdi. Dəyərli ziyalı, yüzlərlə tələbə yetişdirmiş insanla görüşü əlamətdar gün kimi xarakterizə edən rektor rəhbərlik etdiyi ali təhsil ocağının kitabxanasının formalaşmasında A.Xələfovun müstəsna fəaliyyətini önə çəkdi. O, bildirdi ki, kitablarla, kitabxanalarla ünsiyyəti öyrədən şəxslə münasibətdə olmaq çox əhəmiyyətlidir: "Ən vacib məsələlərdən biri həm də odur ki, kitabı qoruyub saxlayasan. Onda zəngin olacaqsan. Kitabı qoruyub saxlamaq həm də milləti yaşatmaqdır". Rektor həmçinin qeyd etdi ki, yeni texnologiyalara dərindən yiyələnmək istəyiriksə, kitabları, milli kökümüzü və mənəvi dəyərlər daşıyıcı olan, kitabxanaçılıq işinin əsasını qoyan Abuzər Xələfov kimi şəxsləri unutmamalıyıq. Çıxışının sonunda Səməd Seyidov Abuzər Xələfova fəxri diplom və noutbuk hədiyyə etdi.

Tərbiyə işləri üzrə prorektor, ADU kitabxanasının direktoru Ələddin Əliyev öz müəllimi haqqında danışmağın onun üçün şərəf olduğunu dedi. Bildirdi ki, bir qisim insanlar cəmiyyətin idarə olunması ilə, digərləri istedadları çərçivəsində bədii yaradıcılıqla, başqaları isə elmi yaradıcılıqla məşğul olurlar: "Bu insanlar arasında intellekt səviyyəsinə, xüsusi istedadına, cəmiyyətin inkişafına verdiyi töhfəyə görə seçilmişləri də çoxdur və onlar yaşadıqları cəmiyyətdə yüksək qiymətləndirilir və adətən böyük hörmət sahibi olurlar. Lakin müəyyən bir qrup adamlar da var ki, onlar Allahın verdiyi fitri istedadla və özlərinin yorulmaq bilməyən fəaliyyətləri ilə məşğul olduqları sahənin birincisi, pioneri olurlar və lokomotiv kimi cəmiyyəti həmişə irəliyə, inkişafa aparırlar. Abuzər Xələfov da belə insanlardan biridir". A.Xələfovun elmi nailiyyətləri, müəllifi olduğu kitablar, aldığı mükafatlar haqqında məlumat verən Ə.Əliyev qeyd etdi ki, bu gün Azərbaycanda kitabxanaşünaslıq elmində A.Xələfovun yaradıcılığını çıxarsaq, ortada böyük bir boşluq yaranar.

Sonra çıxış edən A.Xələfovun müxtəlif dövrlərdə tələbələri olan müxtəlif kitabxanaların müdir və nümayəndələri – Azərbaycan Dövlət Pedqoji Universiteti Elmi Kitabxanasının direkoru, Azərbaycan Dövlət Neft Akadeniyası Elmi Kitabxanasının direkoru, dosent Kyaz Aslan öz müəllimləri haqqında xoş sözlər söylədilər və ona uğurlar arzuladılar.

Görüşün sonunda çıxış edib öz ürək sözlərini bildirən A.Xələfov görüşü təşkil etdiyinə görə, başda rektor Səməd Seyidov olmaqla universitet rəhbərliyinə öz təşəkkürünü bildirdi. Xoşbəxt olduğunu dilə gətirən A.Xələfov qeyd etdi ki, çox yaşayıb məqsədyönlü işlər görmək, xalqın maariflənməsi yolunda zəhmət çəkmək böyük xoşbəxtlikdir: "Ən mühüm məsələlərdən biri də cəmiyyətin seçilmiş bir üzvü olmaq üçün insanın nəfsinin təmizliyidir. Belə insanlar da xoşbəxt olur. Onların heç nəyə ehtiyacları yoxdur". Mir Cəlal Paşayev, Məmməd Arif Dadaşzadə, Əli Soltanlı kimi pedaqoqlardan çox şey öyrəndiyini söyləyən A. Xələfov "İndiyə kimi necə yaşamışımsa, o cür də yaşamaq istərdim" sözlərini dilə gətirdi. Müstəqillik haqqında da danışan A.Xələfov ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqilliyin möhkəmlənməsində fəaliyyətindən də söz açdı. Prezidentin kitab və kitabxanaçılığı əhatə edən 4 sərəncamının olduğunu diqqətə çatdırdı. Müasir kitabxanaçılıq haqqında da öz fikirlərini bölüşən A.Xələfov dedi ki, ənənəvi kitabxanaçılıqla müasir elektron kitabxananın birləşməsi yalnız oxucunun xeyrinə olan amildir. İnterneti möcüzə adlandıran qocaman professor sözlərinə onu da əlavə etdi ki, internet nə qədər inkişaf etsə də, İnternetlə elm adamı, alim olmaq olmaz: " Müasir internetin, elektron kitabxananın da əsası elə ənənəvi kitabxanadan ibarətdir. Ənənəvi kitabxana məhv ola bilməz".

## Prezident Kitabxanasında

7 dekabr 2011-ci ildə Prezident Kitabxanasında tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü Abuzər Xələfovun 80 illik yubileyi təntənə ilə qeyd edildi.

Kitabxananın direktoru Mayıl Əhmədov A.Xələfovun şərəfli ömür yolundan, elm sahəsində qazandığı uğurlardan, kitabxanaçılığın inkişafındakı rolundan danışmışdır. Bildirilmişdir ki, professor A.Xələfov kitabxanaşünaslıq-biblioqrafiya sahəsində elmi məktəb yaratmış, kitabxana işinin tarixi, nəzəriyyəsi, metodologiyası ilə bağlı sanballı əsərlər yazmışdır. Altmış ilə yaxın elmi-pedaqoji fəaliyyətlə məşğul olan yubilyar kitabxana işi, kitabxanaşünaslıq, təhsil və informasiya sahələrinin tarixinə və nəzəriyyəsinə dair 250-dən artıq monoqrafiya, dərslik, dərs vəsaiti, elmi məqalə və tədris-metodiki materiallar çap etdirmişdir. Ölkəmizdə kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru olan A.Xələfov indiyədək 20-yə yaxın elmlər doktoru və elmlər namizədi yetirmişdir. Professor A.Xələfovun üççildlik "Azərbaycanda kitabxana işinin tarixi", "Kitabxanaşünaslığa giriş", "Heydər

Əliyev və Azərbaycanda kitabxana işi" kimi monoqrafiyaları xalqımızın elm və mədəniyyət tarixinə qiymətli töhfələr kimi dəyərləndirilmişdir.

Bakı Dövlət Universitetinin əməkdaşları – professor Bayram Allahverdiyev, dosent Elçin Əhmədov, tarix üzrə fəlsəfə doktoru Pərviz Kazımi, baş müəllim Əliyüsif Məmmədov, Prezident Kitabxanasının şöbə müdirləri Nazim Mustafayev, Zakir İsmayılov yubilyarın elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətindən, Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiya elminə verdiyi sanballı töhfələrdən söhbət açdılar, onu təbrik etdilər.

Tədbirdə "Bakı Universiteti" nəşriyyatında çapdan buraxılmış, ölkəmizin görkəmli elm və mədəniyyət xadimlərinin A.Xələfov haqqında məqalə və xatirələri toplanmış "80 yaşın ucalığı" kitabının təqdimatı keçirilmiş, alimin əsərlərindən və onun haqqında yazılmış materiallardan ibarət sərgi nümayiş olundu.

Sonda A.Xələfov həyatının ibrətamiz səhifələrindən, kitabxanaçılıq peşəsinin müqəddəsliyindən söhbət açmış, tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi.

## Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında

13 dekabrın 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Əməkdar elm xadimi, Azərbaycan kitabxanaşünaslıq elminin banisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, professor Abuzər Xələfovun 80 illik yubileyinə həsr olunmuş konfrans keçirildi.

Konfransı giriş sözü ilə AMEA-nın müxbir üzvü Teymur Kərimli açaraq A.Xələfovun şərəfli ömür yolundan, çoxşaxəli fəaliyyətindən, Azərbaycanda kitabxanaşünaslığın bir elm kimi təşəkkül tapmasında, inkişaf etdirilməsi istiqamətində alimin yorulmaz fəaliyyətindən danışdı, yubilyarı təbrik etdi. O bildirdi ki, alimin gərgin əməyi nəticəsində kitabxanaşünaslıq elmi digər elmlər sırasında özünə yer tapmış, kitabxanaçılıq ölkəmizdə önəmli peşələrdən birinə çevrilmişdir.

MEK-in direktoru, filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli "Milli ziyalılıq meyarı" mövzusunda məruzəsində Abuzər Xələfovun həyatı və fəaliyyəti barədə geniş məlumat verdi, görkəmli alimin elmi, pedaqoji və idarəçilik fəaliyyətinin ilk dövrlərdən başlayaraq hazırkı dövrədək olan məqamlarına nəzər saldı. O dedi ki, 1931-ci ildə Göyçə mahalının Cil kəndində dünyaya gəlmiş A.Xələfov 1950-ci ildə orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuş, ali təhsilini başa vurduqdan sonra universitetdə müəllim kimi

fəaliyyətə başlamışdır. 1962-ci ildə BDU-nun kitabxanaçılıq şöbəsi müstəqil kitabxanaçılıq fakültəsinə çevrilmiş, A.Xələfov bu fakültənin ilk dekanı olmuş və 25 il bu vəzifədə səmərəli fəaliyyət göstərmişdir.

A.Əliyeva-Kəngərli bildirdi ki, A.Xələfov bu elm sahəsi üzrə ilk namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş, kitabxanaşünaslığın bir elm olmasını sübuta yetirmiş və onun elmi cəmiyyətdə qəbul edilməsinə nail olmuşdur. Kitabxanaçılıq-informasiya fakültəsi bu sahə üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatlara üzv olmuş, alimlərimizin səsi beynəlxalq tədbirlərdə, konfranslarda eşidilməyə başlanmışdır. A.Xələfov SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru kimi şöhrət qazanmış və Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin əsasını qoymuşdur.

Alimin elmi araşdırmalarında Azərbaycanda ali kitabxanaçılıq-biblioqrafiya təhsilinin tarixi və nəzəri problemləri mühüm yer tutur. Onun "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı", "Azərbaycanda ali kitabxanaçılıq təhsili" kitabları, çoxsaylı məqalələri, tədris-metodik materialları respublikada kitabxanaçılıq-biblioqrafiya təhsilinin, yüksəkixtisaslı mütəxəssislər hazırlanmasının nəzəri cəhətdən həllinə ciddi təsir göstərmişdir. Professor A.Xələfovun üçcildlik "Azərbaycanda kitabxana işinin tarixi", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi monoqrafiyaları xalqımızın elm və mədəniyyət tarixinə qiymətli töhfələr kimi dəyərləndirilmişdir.

A.Əliyeva-Kəngərli Azərbaycan kitabxanaşünaslıq elminin inkişafı sahəsində göstərdiyi xidmətlərə görə alimin ümummilli liderimiz Heydər Əliyev tərəfindən “Şöhrət” ordeninə layiq görülməsini ən yüksək qiymət kimi dəyərləndirdi və 80 illik yubileyi münasibəti ilə onu təbrik etdi.

Akademik Budaq Budaqov, AMEA İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşı Səyyar Abdullayev, Bakı Dövlət Universitetinin professorları Xəlil İsmayılov, Bayram Allahverdiyev, BDU-nun dosentləri Knyaz Aslan, Nadir İsmayılov və başqaları görkəmli alimin Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiya elminə verdiyi sanballı töhfələrdən, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətindən söhbət açdılar, yubilyarı təbrik etdilər. Natiqlər bildirdilər ki, alimin gördüyü səmərəli elmi-pedaqoji işlər, yazdığı kitablar, yaratdığı elmi irs onu tarix boyu yaşadacaqdır.

Sonda A.Xələfov kitabxanaçılıq peşəsinin müqəddəsliyindən bəhs etmiş, tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi.

Tədbirdə Azərbaycanın tanınmış elm adamları, respublikamızda fəaliyyət göstərən kitabxanaların rəhbərləri və əməkdaşları, alimin yetirmələri iştirak edirdilər.

Tədbir çərçivəsində təşkil olunmuş sərgidə alimin elmi əsərləri, həyat və yaradıcılığını əks etdirən fotoşəkillər nümayiş etdirildi.

## M.F.Axundzadə adına Milli Kitabxanada TÜRKSOY-un beynəlxalq konfransı

14 dekabr 2011-ci ildə TÜRKSOY Beynəlxalq Təşkilatının, Mədəniyyət və Turizm Nazirliyinin, M.F.Axundzadə adına Azərbaycan Mili Kitabxanasının təşkilatçılığı ilə türkdilli dövlətlər arasında bu qəbildən ilk dəfə Azərbaycan alimi, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, professor Abuzər Xələfovun 80, elmi-pedaqoji fəaliyyətinin 60 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirildi.

Konfransı M.F.Axundzadə adına Milli Kitabxananın direktoru Kərim Tahirov açaraq əvvəlcə bütün qonaqları salamladı. O, 30 minlik Azərbaycan kitabxanaçılar ordusunun ağsaqqalını 80 illik yubileyi münasibtilə səmimi qəlbdən təbrik etdi, ona uzun ömür, cansağlığı və daha böyük müvəffəqiyyətlər arzuladı. Yubilyarın həyatı və elmi-pedaqoji fəaliyyətindən danışan K.Tahirov qeyd etdi ki, A.Xələfovun yubileyinin geniş qeyd olunması, tədbirdə türkdilli ölkələrin nümayəndələrinin iştirak etməsi görkəmli alimə böyük ehtiramın nümunəsidir: "Abuzər Xələfov şərəfli ömrün ən təmtəraqlı anlarını yaşayır. Onun kitabxanaçıların stolüstü kitabına çevrilən 40-a yaxın kitabı, 300-dən artıq elmi əsəri var. Hələ də yazıb-yaradır. Mədəniyyət və Turizm Nazirliyi 80 illik yubiley münasibətilə A.Xələfovun 2 kitabını çap etdirib. A.Xələfov daim Azərbaycanda kitabxana işinin təşkilinə, inkişafına, yeniləşməsinə öz töhfəsini verib. Biz ondan öyrənirik və hələ neçə illər ondan öyrənəcəyik. Kitabxanaçılarımız daima onun kitablarından bəhrələnəcəklər. Abuzər Xələfovun əmək kitabçasında bir yazı var - Bakı Dövlət Universiteti, Kitabxanaçılıq fakültəsi. Bu günə kimi bu yazı dəyişməyib. Universiteti bitirən gündən indiyədək orada çalışır. Bu adi tale deyil». Abuzər Xələfov haqqında ürək dolusu danışan Kərim Tahirov onu böyük kitabxanaçılar ordusunun müəllimi adlandırmış, hansı kitabxanaçını dindirsən mütləq onun tələbəsi olacağını qeyd etmişdir. 40-dan artıq dərsliyin müəllifi olan Abuzər müəllimin kitablarına dünən də, bu gün də, sabah da müraciət ediləcəyini bildirmişdir. Abuzər Xələfovun hər kəsə qismət olmayan tale yaşadığından danışan Kərim Tahirov onu müəllimlər müəllimi adlandırdı. Natiq A.Xələfovun əməyinin dövlət tərəfindən yüksək qiymətləndirildiyini, onun Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi fəxri adlarına, "Şöhrət" ordeninə, Prezident təqaüdünə layiq görüldüyünü bildirdi. Kitabxananın direktoru Kərim Tahirov qeyd etdi ki, bu gün həm də Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə çap olunmuş iki kitabın - Abuzər Xələfov "Kitabxana və cəmiyyət" və "Abuzər Xələfov" biblioqrafik məlumat kitabının təqdimetmə mərasimi keçirilir. Çıxışının sonunda o,

Abuzər Xələfova qələminin heç vaxt korşalmamasını, qəlbinin qocalmamasını, enerjisinin tükənməməsini arzulamışdır.

Sonra o konfransı açıq elan edərək sözü mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə vermişdir. Nazir əvvəlcə nazirliyin bütün kollektivinin və mədəniyyət sahəsində çalışan insanların adından Abuzər Xələfovu təbrik etdi, ona cansağlığı arzuladı. O, Abuzər Xələfov üçün bu salonun yetərli olmadığıını, Azərbaycanda 30 minlik kitabxanaçı ordusunun olduğunu, hamısının da müəllimi Xələfovin olduğunu, onun yetirmələri olduğunu qeyd etdi. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın işlənməsində Abuzər Xələfovun çox böyük xidmətlərindən danışan Əbülfəs Qarayev onun yenilikçi olduğunu söylədi. Nazir əvvəlcə Milli Kitabxananın rəhbərliyinə, onun bütün əməkdaşlarına və TÜRKSOY təşkilatına belə beynəlxalq konfransı keçirdiyinə görə minnətdarlığını bildirdi.

Kitabın, kitabxanaların və kitabxanaçıların əməyinin bəşəriyyət üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayan nazir A.Xələfovun Azərbaycan kitabxanaşünaslığında müstəsna xidmətlər göstərdiyini dedi: «Azərbaycanın kitabxana şəbəkəsində 30 minə qədər insan çalışır. Bu insanları bir araya gətirə bilsəydik hamısı deyəcəkdi ki, biz Abuzər müəllimin tələbələriyik və belə bir müəllimimizin olması ilə fəxr edirik. Kitab, elm, bilik, savad daima bəşəriyyətlə yaşayan anlayışlar olub. Şərqdə əsrlər boyu əlyazmalara, kitablara böyük hörmətlə yanaşırdılar və elmin səviyyəsi həmişə yüksək tutulub. Düşünürəm ki, bu kitabların bir araya gətirilməsi, onların insanlara çatdırılması dünyada mövcud olan ən vacib peşələrdən biridir. Kitablarla gündəlik çalışan və bu xəzinənin incilərini bilən insanlara çox rast gəlinmir. Belə insanların əməyini vaxt ötdükcə daha yaxşı anlayırıq. Kitabxanaşünaslıq elmimizin təşəkkül tapmasında böyük rol oynayan Abuzər Xələfovun yubileyini kitab bayramı da hesab edə bilərik. Abuzər Xələfov həmişə müəllimlərin müəllimi olacaq».

Abuzər Xələfovun simasının hamı üçün doğma, əziz olduğunu deyən nazir onun daxilən gənc, özündə yeniləşməyə həmişə imkan və güc tapan bir insan olmasından söz açdı: «Azərbaycanın müstəqilliyinin ilk illərində kitabxana şəbəkəsinin saxlanılması, möhkəmləndirilməsi prosesi çox çətin gedirdi. Böyük öndər Heydər Əliyev Azərbaycana qayıdandan sonra elmə, savada diqqət bərqərar olundu. Bundan sonra isə Abuzər Xələfovun rəhbərlik etdiyi kitabxanaçılar ordusu elmə diqqət ayıraraq, var qüvvə ilə çalışmağa başladı. Kitabxana sistemi yeniləşdi. Bütün bu yeniliklərin, yeni texnologiyaların tətbiq olunmasında Abuzər müəllimin də böyük əməyi olub. Bu gün kitabxana işi dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən bu sahə ilə bağlı Dövlət Proqramının təsdiq olunması da bunun

göstəricisidir. Mən əminəm ki, bu gün kitabxanalarımızda qorunan kitablar neçə-neçə əsrlər boyu insanlara lazım olacaq. Onlar rəqəmsal və ya digər formada yaşayacaq və insanların kitablara olan tələbatı heç vaxt azalmayacaq. Bu xəzinənin qorunması kitabxanaçılarımızın üzərinə düşür".

Bir gün öncə – dekabrın 13-də Milli Kitabxanada TÜRKSOY-un dəstəyi ilə böyük tatar şairi Abdulla Tukayın 125 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın keçirildiyini xatırladan nazir bu iki günün əsl kitab bayramı olduğunu bildirdi: "TÜRKSOY-un bu tədbirləri Bakıda keçirməsinə razılıq verməsi, təşkilatın nümayəndələrinin Azərbaycana təşrif buyurması ondan xəbər verir ki, kitab, elm, savad həmişə bizim xalqlar üçün yüksəkdə duran amil olub və bu indi də belədir».

Çıxışının sonunda Əbülfəs Qarayev Abuzər Xələfova nazirlik adından mükafat təqdim etdi.

Daha sonra çıxış edən Tatarıstan Respublikası mədəniyyət nazirinin birinci müavini İradə Ayupova Azərbaycanda kitabxana işinə yüksək qiymət verildiyinə şad olduğunu deyərək, kitabxanaçılıq işinin yüksək səviyyədə qurulmasında A.Xələfovun bir alim kimi böyük zəhməti olmasını yüksək qiymətləndirdi. O, yubilyarı həm Tatarıstan Respublikasının Mədəniyyət Nazirliyi adından, həm də Tatarıstan Milli Kitabxanası adından təbrik etdi, Tatarıstan Mədəniyyət Nazirliyinin mükafatını Abuzər Xələfova təqdim etdi.

Millət vəkili, Milli Məclisdə Mədəniyyət Komitəsinin sədri, professor Nizami Cəfərov Türk dünyasının kitabının 1500 il, yazılı kitabın 200 ildən artıq yaşı olduğunu qeyd etdi. Azərbaycanda kitabxanaların açılmasının XX əsrin əvvəllərinə təsadüf etməsinə baxmayaraq, kitabxanaçılıq elminin tarixinin xeyli sonraya təsadüf etdiyindən və bunun Abuzər Xələfovun adı ilə bağlı olduğundan danışdı. O, ali kitabxanaçılıq təhsilinin əsasının Abuzər müəllim tərəfindən qoyulduğunu, bu peşəyə nüfuz gətirdiyini diqqətə çəkdi.

Sonra Beynəlxalq elmi konfransda məruzə üçün söz Bakı Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Knyaz Aslana verildi. Professor Abuzər Xələfovun həyatı və fəaliyyəti barədə geniş və ətraflı məruzə edən K.Aslan dedi ki, A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq məktəbinin əsasını qoyub, kitabxanaşünaslıq-biblioqrafiya elmi sahəsində mütəxəssis, elmi-pedaqoji kadrların hazırlığında da əvəzsiz rol oynayıb, bir elmlər doktoru və 13 elmlər namizədi yetişdirib. O qeyd etdi ki, A.Xələfovun müəllifi olduğu çoxsaylı kitab, məqalə, elmi araşdırmalar və tədris-metodik materialları ölkəmizdə kitabxanaçılıq-biblioqrafiya təhsilinin, mütəxəssislərin hazırlanmasında böyük əhəmiyyətə malikdir. Görkəmli alimin kitabxanaşünaslıq-biblioqrafiya elmi sahəsində əvəzsiz xidmətlərini vurğulayan məruzəçi onun şəxsi keyfiyyətlərindən də bəhs etdi. O, Abuzər müəllimin alimliklə müəllimliyi, insanlıqla ziyalılığı, müdrikliklə aqilliyi

qoşalaşdıran, birləşdirən, zirvələşdirən şəxsiyyətlərdən olduğunu söylədi. K.Aslan professor A.Xələfovun yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadim olmasından, onun səmərəli elmi fəaliyyətinin həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanmasından danışdı.

Türkiyə Milli Kitabxanasının şöbə müdiri Demet Aktaş Türkiyə Milli Kitabxanasının direktoru Tuncel Acar və bütün kollektiv adından Abuzər Xələfovu təbrik etmiş, ona cansağlığı arzuladı.

Qazaxıstan Milli Akademiya kitabxanasının şöbə müdiri Nurqayşa Asubek də kitabxana rəhbərliyi və kollektivi adından Xələfov üçün təbrik nitqi söylədi.

Daha sonra Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı da Azərbaycan Respublikasının TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı çıxış edərək, yubilyarı təbrik etdi. Eyni zamnda TÜRKSOY-un baş katibi Düsen Kaseinovun təbrikini Abuzər Xələfova çatdırdı.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yeni nəşr olunmuş "Kitabxana və cəmiyyət" kitabının və alimin elmi yaradıcılığına həsr edilmiş biblioqrafik nəşrin təqdimatı da oldu. "Biblioqrafik məlumat kitabı" A.Xələfovun anadan olmasının 80, elmi-pedaqoji fəaliyyətinin 60 illiyinə, "Kitabxana və cəmiyyət" monoqrafiyası isə Azərbaycan Respublikasının 20 illik yubileyinə həsr olunub.

Sonda söz yubilyar professor A.Xələfova verildi. O, beynəlxalq elmi konfransa yığılmış bütün qədər insanlara təşəkkürünü bildirdi. Alim qeyd etdi ki, insanı mənsub olduğu xalq, millət qiymətləndirəndə məşhur olur və bu gün o belə insanlardan biridir. İnsanın xoşbəxtliyi onun uzun ömür yaşamasındadır, yaşlı adama verilən qiymət onun ömrünün üzadılmasına səbəb olur. O, bu tədbirin keçirilməsinə görə TÜRKSOY təşkilatına, Mədəniyyət və Turizm Nazirliyinə, Milli Kitabxanaya dərin minnətdarlığını bildirmişdir. Türk xalqlarının nümayəndələrinə - Türkiyə, Tatarıstan, Qazaxıstan, Başqırdıstandan gəlmiş qonaqlara minnətdarlığını bildırdi.

Tədbir iştirakçıları Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış “Abuzər Xələfov” adlı elektron məlumat bazası ilə tanış oldular.

Beynəlxalq elmi konfransda TÜRKSOY-a üzv ölkələrin, o cümlədən Türkiyə, Qazaxıstan, Tatarıstan, Başqırdıstan və başqa türkdilli ölkələrin təmsilçilərinin, nüfuzlu kitabxana mütəxəssislərinin, elm və mədəniyyət xadimləri, o cümlədən Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, nazirliyin məsul işçiləri, Tatarıstanın TÜRKSOY-dakı təmsilçisi Liliya Səttarova, Tatarıstan Yazıçılar İttifaqının üzvü Rəhim Gəray, Türkiyə Milli Kitabxanasının şöbə müdirləri Nərmin Aşvar və Demet Aktaş, digər qonaqlar iştirak edirdilər.

## M.F.Axundzadə adına Milli Kitabxanada kitabxana direktorları ilə görüş

16 dekabr 2011-ci il tarixində M.F.Axundzadə adına Milli Kitabxanada Azərbaycanda kitabxanaçünaslıq elminin banisi, professor Abuzər Xələfovla rayon və şəhər kitabxana direktorlarının iştirakı ilə Milli Kitabxananın kollektivilə görüş keçirildi.

Tədbiri Milli Kitabxananın direktoru Kərim Tahirov açaraq çox möhtəşəm yubiley tədbirlərinin keçirildiyini qeyd etdi. Bu yubileylər Azərbaycanda kitabxanaşünaslıq elminin əsasını qoymuş Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü, professor Abuzər Xələfovun 80 illiyi ilə bağlıdır. 2 gün öncə bu salonda TÜRKSOY təşkilatının iştirakı ilə Abuzər Xələfova həsr olunmuş Beynəlxalq elmi konfrans keçirildi. Beynəlxalq elmi konfransda nazir Əbülfəz Qarayev yubilyar haqqında ürək sözlərini söylədi, dosent Knyaz Aslan görkəmli alimin həyat vəyaradıcılığı barədə geniş məruzə etdi. Mən bu gün Abuzər müəllimi Milli Kitabxananın kollektivi adından təbrik edir, ona uzun ömür arzulayır, qələminin hər zaman işləməsini, yazmasını diləyirəm.

Sonra çıxış edən BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Xəlil İsmayılov Abuzər müəllimi yenilikçi alim adlandırdı. Yeni texniki imkanların tətbiq olunmasında öndə gedən alimlərdən olduğunu, hələ 1999-cu ildə BDU-nun nəzdində kitabxana proseslərinin kompüterləşdirilməsi adlı elmi tədqiqat laboratoriyasını yaratdığını və ora rəhbərlik etdiyini bildirdi. Ağsaqqal alimin yubiley ərəfəsində 5 kitabının çap olunduğunu, bu insanın yorulmadan çalışdığını söylədi.

Mədəniyyət işçilərinin ixtisasartırma kursunun direktoru Ramazan Şabanov çıxış edərək Abuzər Xələfovu təbrik etmişdir.

Milli Kitabxananın kollektivi tərəfindən hazırlanmış "Abuzər Xələfov" adlı elektron məlumat bazası Milli Kitabxananın direktor müavini Mələk xanım Hacıyeva tərəfindən təqdim olunmuşdur.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru Tahir Sadıqov, BDU-nun Kitabxanaçılıq-informasiya fakultəsinin dekan müavini Mehmanəli Məmmədov Abuzər Xələfovun elmi fəaliyyəti haqqında danışdı, ona xoş arzularını bildirmişlər.

Astara rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nazim Fərəməzov, Bərdə rayon MKS-in direktoru Həvva Məmmədova, Masallı rayon MKS-in direktoru Ələddin Nəzərov, Ağsu rayon MKS-in direktoru Cəbrayıl Bədəlov, Şabran rayon MKS-in direktoru Səbirə Məcidova professor Abuzər Zələfov haqqında ürək sözlərini söylədilər, onu ziyalıların önündə gedən akademik, tələbələrin "atası" adlandırdılar.

Sonda söz Abuzər Xələfova verildi. O, alı təhsilin insan həyatında əsas məsələ olduğunu, onun gələcək taleyində böyük rol oynadığını qeyd etdi. Təhsil almaq həm də ziyalı olmaq deməkdir deyən Xələfov ziyalını xalqı irəli aparan, işıq saçan olduğunu, bir millətin ziyalıları ilə tanındığını qeyd etdi. Abuzər müəllim bu zala yığışan tələbələrinin hər birinə təşəkkürünü bildirdi.

Tədbir iştirakçıları Abuzər Xələfovun bütün həyat və yaradıcılığını əks etdirən geniş kitab sərgisi ilə tanış oldular.

**Səbail rayon MKS-in 1 saylı filialında**

18 dekabr 2011-ci ildə Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 nömrəli filialında kitabxana işi sahəsində tanınmış mütəxəssis, Əməkdar elm xadimi, professor Abuzər Xələfovun anadan olmasının 80 illiyi münasibətilə tədbir keçirildi.

Bakı Dövlət Universitetinin müəllimlərinin, alimin tələbələrinin və oxucuların iştirak etdikləri tədbiri filialın müdiri Gülşən Abbasova açaraq görkəmli elm xadiminin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verdi.

Prezident təqaüdçüsü, şair İlyas Tapdıq Abuzər Xələfovun keçdiyi şərəfli həyat yolundan, elm sahəsində qazandığı uğurlardan, kitabxanaçılığın inkişafında rolundan danışdı.

Yubiley mərasimində BDU-nun dosentləri M.Məmmədov, E.Əhmədov, fəlsəfə doktoru P.Kazımi, şair Zakir Ağdamlı, şairə Mərcan Şahbuzlu, Azərbaycan MEA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi, astroluq Firudin Qurbansoy və digər çıxışçılar da görkəmli professorun elmi fəaliyyətindən geniş söhbət açdılar, onun Azərbaycanın kitabxana işi tarixində həyata keçirdiyi elmi nailiyyətləri təhlil etdilər.

Sonda Abuzər Xələfov tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi və kitabxananın xatirə kitabına ürək sözlərini yazdı.

**Bakı Dövlət Unversitetində
elmi konfrans**

Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik A.Məhərrəmovun 18 may 2011-ci il R-41 №-li Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət"ordenli, Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 illik yubileyi ilə əlaqədar 2011-ci il dekabrın 15-də "Müasir informasiya məkanı və kitabxanalar" mövzusunda elmi konfrans keçirilmişdir.

Elmi konfransı yüksək səviyyədə təşkil etmək məqsədilə Kitabxanaşünaslıq kafedrası iclasının qərarı ilə dos. K.Aslan (sədr), dos. E.Əhmədov, fəl. dok. P.Kazımi, b.m. A.Cəfərov, müəl.N.İsmayılovadan ibarət 5 nəfərlik təşkilat komitəsi yaradılmışdır.

Elmi konfransda kafedranın əməkdaşlarından dos. K.Aslan geniş elmi məruzə ilə plenar iclasda, eləcə də dissertant R.Namazova "Ali məktəb kitabxanalarında elmə və təhsilə kitabxana xidmətinin təşkili vəziyyəti", II kurs magistrant L.Ağayeva "Kitabxana və kommunikasiya", IV kurs tələbəsi K.Əliyarova "Müstəqillik dövründə Azərbaycanda kitabxana işinin tarixinə dair ilk dərsliklər" mövzularında məruzələrlə bölmə iclaslarında çıxış etmişlər.

Konfransın plenar və bölmə iclaslarında qlobal informasiya məkanında Azərbaycan kitabxana işinin beynəlxalq aləmə inteqrasiyası, informasiya-kommunukasiya texnologiyalarının kitabxanalarda tətbiqi, kitabxana işinin və kitabxanaşünaslıq elminin inkişaf perspektivləri kontekstində Abuzər Xələfovun zəngin kulturoloji elmi-tədqiqat fəaliyyətinə yenidən aydınlıq gətirildi.

Bu məruzlərin mətnləri "Kitabxanaşünaslıq və informasiya" jurnalının 2011-ci il 3-cü nömrəsində xüsusi buraxılışda dərc olunmuşdur.

## Bakı Dövlət Unversitetində təntənəli yubiley tədbiri

23 dekabr 2011-ci ildə Bakı Dövlət Unversitetində Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, universitetin kafedra müdiri, prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Xələfovun anadan olmasinin 80, elmi-pedaqoji fəaliyyətinin 60 illiyi münasibətilə tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov bildirdi ki, Abuzər Xələfov Azərbaycanda milli kitabxanaşünaslIq elmi məktəbinin yaradıcısı, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, görkəmli elm, təhsil və mədəniyyət xadimidir. Rektor dedi ki, Abuzər müəllim uzun illər boyu elmin və təhsilin tərəqqisinə çalışıb, onun milli koloritlərini zənginləşdirərək beynəlxalq nüfuzunu yüksəldib, xalqımızın adını daim uca tutub. Elə bu səbəbdəndir ki, professor səmərəli elmi-pedaqoji və ictimai-mədəni fəaliyyətilə həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanıb. Akademik bildirdi ki, 50 ildən artıqdır ki, kitabxana işinin tarixi və nəzəriyyəsi problemlərilə məşğul olan, kitabxanaçIılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazirlayıb tətbiq edən, ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdıran, bununla da bu elmin

inkişafinda və böyük bir kitabxanaçılar nəslinin yetişməsində müstəsna xidmətləri olan A.Xələfovun vətən və cəmiyyət, elm, mədəniyyət və təhsilin inkişafindakı xidmətləri ümummilli liderimiz Heydər Əliyev və onun layiqli davamçısı prezident İlham Əliyev tərəfindən öz dəyərli qiymətini alıbdır.

Bakı Dövlət Unversitetinin dosenti Knyaz Aslan professor Abuzər Xələfovun həyatı, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında geniş məruzə ilə çıxış etdi. Natiq dedi ki, ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanınan professor A.Xələfov istər respublikamızda, istərsə də Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edir, bu sahəyə öz sanballı töhfəsini verir. Görkəmli alim bu istiqamətdə yazıb nəşr etdirdiyi çoxsaylı elmi məqalə və monoqrafiyalarında, elmi məclislərdəki məruzə və çıxışlarında Azərbaycanda ali kitabxanaçılıq-informasiya təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır.

K.Aslan dedi ki, A.Xələfovun 2001-2003-cü illərdə Azərbaycan dilində ilk dəfə nəşr etdirdiyi “Kitabxanaşünaslığa giriş” adlı 2 cilddən 3 hissədən ibarət olan əsəri kitabxanaçılıq təhsili tarixində kitabxanaşünaslığa dair meydana çıxmış ilk dərslikdir.

A.Xələfov kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarını yenidən işləyərək kitabxanaşünaslıq fəlsəfəsi haqqında ilk dəfə elmi müddəalar formalaşdırmış, kitabxanaşünaslığın metodoloji əsasını dünya fəlsəfəsinin təşkil etdiyini əsaslandırmış, fəlsəfənin elmi-nəzəri müddəalaraının və kateqoriyalarının kitabxanaşünaslığa tətbiqi məsələsinə aydınlıq gətirmişdir. A.Xələfovun elmi yeniliklərindən biri də kitabxanaşünaslığın humanitar elmlər bölməsinə daxil edilməsidir.

K.Aslan bildirdi ki, XXI əsrin əvvəllərində Abuzər Xələfovun xalqımızın mədəniyyət tarixinə verdiyi qiymətli töhfələrindən biri də 2004-2010-cü illərdə çap etdirdiyi “Azərbaycanda kitabxana işinin tarixi” dərsliyi olmuşdur. Maraqlıdır ki, 7 cildlik “Azərbaycan tarixi”ni daha da zənginləşdirən, bütövlükdə 1000 səhifədən artıq olan bu 3 cildlik əsərdə müəllif qədim dövrlərdən XXI əsrin əvvəllərinə qədər ölkəmizdə kitab və kitabxanaların inkişafını tarixi mənbələr əsasında araşdırmış, mədəniyyətin mühüm tərkib hissələrindən biri olan kitabxanaların xalqımızın mədəni-mənəvi inkişafındakı yerini, eləcə də onun metodologiyasını müəyyənləşdirə bilmişdir.

Məruzəçi dedi ki, A.Xələfov novator alimdir. Dünyanın informasiya proseslərində son 20 ildə baş verən transformasiya, tətbiq olunan yeni kommunikativ texnologiyalar alimin yeni tədqiqatlarında öz əksini tapmış, kitabxanaşünaslıq praktikasında həyata keçirilən keyfiyyət dəyişiklikləri bu tədqiqatlarda əsaslandırılmış, yeni informasiya dövrünün konsepsiyası yaradılmışdır. A.Xələfovun kitabxanaşünaslıq elminə gətirdiyi ən mühüm

yeniliklərdən biri də bu sahənin fəlsəfəsinin və sosiologiyasının işlənib hazırlanmasıdır. Xatırlatmaq yetər ki, məşhur Amerka alimi Ceyms Şira hələ XX əsrin 70-ci illərində kitabxana və cəmiyyət problemi üzərində işləyərkən Sovet İttifaqının sərt ideoloji məkanında bu mühüm problemin sosialist ideologiyasına uyğun şəkildə hazırlanması Moskvanın bir neçə aparıcı tədqiqat institutuna tapşırımış, amma nəticə o qədər də ürəkaçan olmamışdı. Azərbaycan alimi Abuzər Xələfov isə müstəqillik illərində hər hansı ideoloji təsirlərdən uzaq dayanaraq bu vacib mövzunu tədqiq etməyə başladı, kitabxanaşünaslığın fəlsəfi, sosial, milli, psixoloji problemlərinə öz münasibətini bildirdi, özünün 80 illik yubileyinə elmi yaradıcılığının zirvəsi sayıla biləcək "Kitabxana və cəmiyyət" adlı sanballı monoqrafiyası ilə gəldi. Dünya kitabxanaşünaslıq elminə dəyərli töhfə olan bu fundamental əsərin 2011-ci ildə Bakıda nəşr edilməsi bütövlükdə elmşünaslığımızın nailiyyətidir.

K.Aslan məruzəsinin sonunda qeyd etdi ki, Abuzər müəllim bütöv şəxsiyyətdir, qəlbində Vətən sevgisi, torpaq nisgili, yurd həsrəti yaşadan vətəndaş-ziyalıdır. Respublikamızın ictimai-mədəni həyatında fəal iştirak edən vətənpərvər ziyalı və beynəlxalq aləmdə ölkəmizin şərəfini həmişə uca tutmağı bacaran kitabxanaşünas alim kimi professor Abuzər Xələfovun zəngin həyatı, şəxsi və ictimai fəaliyyəti nəsillərə nümunədir. Bu baxımdan Abuzər Xələfov dərin ehtirama layiq olan, müəllimliklə alimliyi, insanlıqla ziyalılığı, müdrikliklə aqilliyi qoşalaşdıran, birləşdirən, zirvələşdirən şəxsiyyətlərdəndir.

Sonra çıxışlar və təbriklər oldu.

Təhsil naziri Misir Mərdanov yubilyarı təbrik edərək onunla bağlı xatirələri ilə bölüşdü. Qeyd etdi ki, hələ cavan yaşından professor Abuzər Xələfov böyük hörmətə sahib, sözü keçərli bir insan olub. Qarşısına çıxan çətinliklərə baxmayaraq, Abuzər Xələfovun Kitabxanaçılıq-İnformasiya fakültəsini yaratdığını qeyd edən nazir Təhsil Nazirliyində keçirilən müvafiq görüşlərdə onun şura rəhbəri kimi dəyərli məsləhətlər verməsindən danışıb. Yubilyarın ən böyük xüsusiyyətlərindən danışan nazir onun ailə imkanlarını elmə, təhsilə sərf etməsinin şahidi olduğunu qeyd etdi.

Tədbirdə Azərbaycan Dövlət Pedqoji Universitetinin rektoru, professor Yusif Məmmədov, akademik Vasim Məmmədəliyev, professor Vasif Babazadə, dosent Çingiz Həsənov, BDU Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Fikrət Şiriyev, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, professor Xəlil İsmayılov, Hacı Loğman və başqa qonaqlar professor Abuzər Xələfovun yaradıcılıq yolundan danışaraq, onu yubileyi münasibəti ilə təbrik etdilər.

### Yubiley nəşrləri

*Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun 80 illik yubileyi ilə bağlı bir neçə nəşr işıq üzü görmüşdür. Onlar haqqında annotasiya xarakterli qısa məlumat vermək yerinə düşər.*

**1. Abuzər Xələfov. Məqalələr toplusu. – Bakı, Bakı Universiteti Nəşriyyatı, 2011, 464 s.**

Profesor Abuzər Xələfovun 1990-2011-ci illərdə dövri mətbuatda dərc etdirdiyi yazıları əhatə edən "Məqalələr toplusu"nda kitabxana işinin müxtəlif sahələrinin aktual problemlərinə dair elmi məqalələri, eləcə də bir sıra publisistik yazıları öz əksini tapmışdır. 29 çap vərəqi həcmində olan "Məqalələr toplusu" mədəniyyət və kitabxana mütəxəssisləri, müəllimlər, tələbələr, ümumiyyətlə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Nəfis şəkildə nəşr olunmuş "Məqalələr toplusu" kitabının elmi redaktoru və ön sözün müəllifi dos. Knyaz Aslan, rəyçiləri dos. E.Əhmədov və dos. M.Məmmədovdur.

**2. Xələfov A. Kitabxana və cəmiyyət. – Bakı: Azərnəşr, 2011, 308 s.**

Ömrünü Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafı və formalaşmasına həsr etmiş Əməkdar elm xadimi, professor A.Xələfovun bu monoqrafiyası çox böyük aktuallıq kəsb edir. Kitabda cəmiyyət və kitabxana, cəmiyyət və mədəniyyət, kitab və mədəniyyət, dünya kitabxanalarının Şumerdən zəmanəmizə qədər keçdiyi inkişaf yolu, kitabxana və kommunikasiya, kitabxana və şəxsiyyət, kitabxana və uşaq dünyası, informasiya cəmiyyəti və kitabxana və s. bu kimi məsələlər geniş şərh olunmuşdur.

Azərbaycan Respublikasının 20 illik yubileyinə həsr olunmuş kitabda müasir dövrdə mühüm əhəmiyyətə malik olan kitabxana-informasiya xidməti prosesində İnternetin kitabxana işinə tətbiqi məsələsinə də xeyli yer verilmişdir. Monoqrafiya mədəniyyət və kitabxana mütəxəssisləri, müəllimlər, magistrlər, tələbələr, ümumiyyətlə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Prof. A.Xələfovun Azərbaycan Dövlət Nəşriyyatında yüksək poliqrafik səviyyədə 500 nüsxə tirajla çap edilmiş "Kitabxana və cəmiyyət" monoqrafiyasının elmi redaktoru tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova, redaktoru və ön sözün müəllifi dos. Knyaz Aslan, rəyçiləri dos. E.Əhmədov və dos. M.Məmmədovdur.

**3. 80 yaşın ucalığı: Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında: Məqalələr məcmuəsi. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 228 s.**

"80 yaşın ucalığı" adlı məqalələr məcmuəsində respublikamızın görkəmli elm, mədəniyyət xadimlərinin və tanınmış alimlərinin Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 illik yubileyi münasibətilə yazdıqları məqalələri, xatirələri və ürək sözləri toplanmışdır.

48 müəllifin yazısını birləşdirən məcmuə respublikanın elm, mədəniyyət və kitabxana ictimaiyyəti üçün maraq doğuracaqdır.

Bakı Universiteti Nəşriyyatı 200 nüsxə tirajla çap edilmiş "80 yaşın ucalığı" adlı məqalələr məcmuəsinin tərtibçisi tarix üzrə fəlsəfə doktoru Pərviz Kazımi, redaktoru və ön sözün müəllifi pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz Aslandır.

**4. Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı. – Bakı: "Nağıl Evi" Nəşriyyatı, 2011. – 342 s.**

"Abuzər Xələfov. Biblioqrafik məlumat kitabı" Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun həyat və yaradıcılığı, elmi-pedaqoji və ictimai fəaliyyətinə həsr olunmuşdur.

Biblioqrafik məlumat kitabında alimin 1958-2011-ci illər üzrə bütün elmi-pedaqoji və ictimai fəaliyyətini əhatə edən 658 ədəbiyyat öz əksini tapmışdır. Burada Azərbaycan, rus və ingilis dillərində prof. A.Xələfovun pedaqoji və ictimai fəaliyyəti haqqında geniş oçerk verilmiş, həyat və fəaliyyətinin xronologiyası izlənilmişdir.

Prof. A.Xələfovun elmi-pedaqoji fəaliyyətinə həsr olumuş ədəbiyyat biblioqrafik məlumat kitabının xüsusi bölməsində verilmişdir. Məzmun və xarakterinə görə bütün materiallar xronoloji qaydada verilmiş, o cümlədən daxildə əsər adlarının əlifba prinsipi əsas götürülmüşdür.

Biblioqrafik məlumat kitabından lazımi məlumatı almaq işini asanlaşdırmaq üçün köməkçi göstəricilər də verilmişdir.

Biblioqrafik məlumat kitabı Abuzər Xələfovun həyat və yaradıcılığı, eləcə də kitabxanaşünaslıq elmi ilə maraqlanan mədəniyyət işçiləri, kitabxana

mütəxəssisləri, müəllimlər, magistrlər, tələbələr, ümumiyyətlə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

"Nağıl Evi" Nəşriyyatında nəfis şəkildə 500 nüsxə tirajla çap edilmiş biblioqrafik məlumat kitabının tərtibçi-müəllifi Solmaz Sadıqova, redaktorları tarix üzrə fəlsəfə doktorları Lətifə Məmmədova və Kərim Tahirov, rəyçiləri pedaqogika üzrə fəlsəfə doktorları, dosentlər Knyaz Aslan və Elçin Əhmədovdur.

**5. Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal (Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 80 illik yubileyinə həsr olunmuş xüsusi nömrə). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, №3 (6), 168 s.**

“Kitabxanaşünaslıq və informasiya” elmi-nəzəri və praktik jurnalının xüsusi nömrəsi 80 yaşı tamam olan A.Xələfovun elmi-pedaqoji və icitimai fəaliyyətinə həsr olunmuşdur. Jurnalın əvvəlində Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, “Şöhrət”ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının təhsil naziri M.Mərdanovun 21 aprel 2011 tarixli 623 №-li əmrinin mətni, mədəniyyət və turizm naziri Ə.Qarayevin 29 aprel 2011-ci il tarixli 201 №-li əmrinin mətni, Bakı Dövlət Universitetinin rektoru, akademik A.Məhərrəmovun 18 may 2011-ci il R-41 №-li əmrinin mətni çap olunmuşdur. Burada eləcə də 42 müəllifin yubilyar haqqında ürək sözləri, 10 şairin A.Xələfova həsr etdiyi şeirlər öz əksini tapmışdır.

200 nüsxə tirajla Bakı Universiteti Nəşriyyatında çap olunmuş xüsusi nömrəyə “Kitabxanaşünaslıq və informasiya” elmi-nəzəri və praktik jurnalının baş redaktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz Aslan ön söz yazmışdır.

Jurnal Abuzər Xələfovun həyat və yaradıcılığı ilə maraqlanan mədəniyyət və kitabxana mütəxəssisləri, eləcə də geniş oxucu kütləsi üçün faydalı ola bilər.

## “Kitab kimi bir ömür” adlı sənədli film

Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının

akademiki, Prezident təqaüdçüsü, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfovun 80 illik ömür yoluna və 60 illik elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş "Kitab kimi bir ömür" adlı 45 dəqiqəlik sənədli film çəkmişdir. Film ilk dəfə 2011-ci il dekabrın 23-də, ikinci dəfə isə təkrar 2012-ci il yanvarın 28-də "Mədəniyyyət" kanalı ilə yayımlanmışdır. Bu film professor Abuzər Xələfovun şəxsində sadə bir Azərbaycan aliminin həyat və yaradıcılığını geniş tamaşaçı auditoriyasına çatdırmaq baxımından çox böyük əhəmiyyət daşıyır. Sənədli filmdə alimin özünün geniş müsahibəsi ilə yanaşı, tanınmış elm və mədəniyyət xadimlərinin, o cümlədən akademik Abel Məhərrəmovun, akademik Budaq Budaqovun, professorlar Əyyub Əzizovun, Bayram Allahverdiyevin, Xəlil İsmayılovun, Şamil Vəliyevin, dosent Knyaz Aslanın, eləcə də magistr və tələbənin düşüncələrinin yer alması filmin dəyərini və səmimiyyətini daha da artırmışdır. Sənədli film ən yaxşı ekran əsəri kimi çoxsaylı ziyalılarımızın rəğbətini qazanmışdır.

"Kitab kimi bir ömür" sənədli filminin ssenari müəllifi Firuzə Nadir, rejissoru isə Vüqar Sadıqovdur.

**Professor Abuzər Xələfovun 80 illik yubileyi ilə əlaqədar verilmiş fəxri fərmanlar, təbriklər**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyindən nazir, Əməkdar elm xadimi, professor Misir Mərdanov
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyindən nazir Əbülfəs Qarayev
3. Bakı Dövlət Universitetindən rektor, akademik Abel Məhərrəmov
4. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən rektor professor Timurçin Əfəndiyev
5. Azərbaycan Dövlət Pedaqoji Universitetindən rektor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Yusif Məmmədov
6. Azərbaycan Dillər Universitetindən rektor, professor Səməd Seyidov
7. Azərbaycan MEA-nın prezidenti, akademik Mahmud Kərimov
8. AMEA Mərkəzi Elmi Kitabxananın direktoru, filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərli
9. TÜRKSOY Beynəlxalq Təşkilalıtının Baş katibi Düsen Kaseinov
10. Директор Национальной библиотеки имени Ахмет-Заки Валиди Республики Башкортостан А.А.Ибрагимов
11. Национальная Академическая Библиотека Республики Казахстан. Генеральный директор Ж.К.Шаймуханбетова

12. Министерство Культуры Республики Татарстан. Министр Культуры Республики Татарстан А.М.Сибагатулин

13. Директор Национальной библиотеки Республики Татарстан Наиль Камбеев

14. BDU Kitabxanaçılıq-informasiya fakültəsi adından prof. X.İ.İsmayılov

15. AMEA-nın Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü prof. Yaqub Mahmudov

16. M.F.Axundzadə adına Milli Kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru Kərim Tahirov

17. Azərbaycan Həmkarlar Konfederasiyasının sədri Səttar Mehbalıyev

18. BDU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri dos. Fikrət Şiriyev

19. BDU İlahiyyat fakültəsi adından akademik Vasim Məmmədəliyev

20. Mirzə Ələkbər Sabir adına Mərkəzi Şəhər Kitabxanasının rəhbərliyi və əməkdaşları

21. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri Ə.M.Baxışov

**Knyaz ASLAN**

# M Ü N D Ə R İ C A T

| | | |
|---|---|---|
| | BAKI DÖLƏT UNIVERSİTETİ KİTABXANAŞÜNASLIQ KAFEDRASI ÜZRƏ 2011-ci İLDƏ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA MƏLUMAT HESABATI...................................... | 7 |
| A.A.XƏLƏFOV | AZƏRBAYCANDA ALİ KİTABXANAÇILIQ TƏHSİLİNİN İNKİŞAFI TARİXİNDƏN (1947-2011-CI ILLƏR)........................................... | 27 |
| Knyaz ASLAN | C.CABBARLI ADINA RESPUBLİKA GƏNCLƏR KİTABXANASINDA BƏDİİ ƏDƏBİYYATIN TƏBLİĞİ VƏZİYYƏTİ (2006-2011-ci illər)................................................. | 37 |
| P.F.KAZIMİ | TÜRK XALQLARININ ƏLYAZMA KİTABI VƏ ONUN YAYILMA AREALI........................... | 68 |
| S.M.RZAYEV | OXUCULARA KİTABXANA XİDMƏTİ SİSTEMİ................................................................. | 78 |
| E.Y.ƏHMƏDOV | BİLİKLƏR CƏMİYYƏTİ VƏ KİTABXANALAR................................................. | 87 |
| M.Ə.MƏMMƏDOV | KİTABXANALARIN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU....... | 96 |
| A.Ə.CƏFƏROV | ABONEMENTDƏ VƏ QİRAƏT ZALINDA OXUCULARA KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ.................................... | 108 |
| N.N.İSMAYILOVA | AZƏRBAYCAN KTABXANALARININ KOMPÜTERLƏŞDİRİLMƏSİNİN TARİXİ VƏ MÜASİR PROBLEMLƏRİ | 115 |
| R.M.NAMAZOVA | AZƏRBAYCAN KİTABXANALARININ İNFORMASİYALAŞDIRILMASI MƏSƏLƏLƏRİ...................................................... | 115 |

| | | |
|---|---|---|
| **S.İ.MƏMMƏDOVA** | **İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MÜASİR KİTABXANA FƏALİYYƏTİNDƏ.....** | **123** |
| **E.L.ƏJDƏROV** | **“ŞƏXSİ TƏHSİL” PROBLEMİ BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİNDƏ...** | **125** |
| **Y.MƏMMƏDOVA** | **MÜASİ DÖVRDƏ İNFORMASİYA AXINI VƏ KOMPÜTERLƏRİN İNKİŞAFI....................** | **133** |
| **Knyaz ASLAN** | **GÖRKƏMLİ KİTABXANAŞÜNAS ALİMİN YUBİLEYİ (ƏMƏKDAR ELM XADİMİ, PROFESSOR ABUZƏR XƏLƏFOV-80)..............** | **138** |

# C O N T E N T S

| | | |
|---|---|---|
| | BAKI DÖLƏT UNİVERSİTETİ KİTABXANAŞÜNASLIQ KAFEDRASI ÜZRƏ 2011-ci İLDƏ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA MƏLUMAT HESABATI............ | 7 |
| A.A.KHALAFOV | ABOUT THE DEVELOPMENT HISTORY OF HIGHER LIBRARY STUDIES OF EDUCATIONIN AZERBAIJAN (The years of 1947-2011)…… | 27 |
| Knyaz ASLAN | PROPAGANDA OF THE ART LITERATURE IN THE REPUBLIC YOUNG LIBRARY BY AFTER J.JABBARLI (The 2006-2011th years)……………......…….. | 39 |
| P.F.KAZIMI | MANUSCRIPT BOOK OF THE TURK PEOPLE AND HIS SPREAD AREAL..……. | 61 |
| S.M.RZAYEV | SYSTEM OF LIBRARY SERVICE TO READERS................................................... | 78 |
| E.Y.AHMADOV | THE KNOWLIDGE SOCIETY AND LIBRARIES.................................................... | 87 |
| M.A.MAMMADOV | ROLE OF THE INTERNATIONAL ORGANIZATIONS IN FINANCING OF THE LIBRARIES…..................................................... | 96 |
| A.A.JAFAROV | ABOUT THE ORGANIZATION PROBLEMS OF LIBRARY SERVICE FOR READERS IN READING HALLS……………………………. | 108 |
| N.N.ISMAYILOVA | | 119 |
| S.I.MAMMADOVA | CONCEPTION OF INFORMATION SECURITY IN LIBRARIES............................ | 125 |

| | | |
|---|---|---|
| E.L.AZHDAROV | BOOK THE PROBLEM OF SELF-EDUCATION IN THEORY BIBLIOPSIHOLOGY…................................… | 125 |
| G. SAFAROVA | LIBRARY CULTURE AND LIBRARIAN ROLE IN BAKHTIYAR VAHABZADEH ACTIVITY………………………………………. | 61 |
| Ch.RUSTAMOV | PROPAGANDA OF THE ART LITERATURE IN THE MODERN TIME IN AZERBAIJAN LIBRARIES…………………………………….. | 67 |
| P.F.KAZIMI | PROVISION OF INFORMATION SECURITY……………………………………… | 71 |
| Y.A.MAMADOVA | ROLE OF THE LIBRARIES IN FORMING OF THE INFORMATION SOCIETY............... | 80 |
| Knyaz ASLAN | HONOURED SCIENTIST, PROFESSOR ABUZAR KHALAFOV 80 ANNUAL JUBILEES IN FRONT OF............................. SEINETEFIC STUDERS OF A.A.KHALA-FOV IS ARHVMENT OF NATIONAL LIBRARY SCIENEE OF AZERBAIJAN.......... | 84 |

## С О Д Е Р Ж А Н И Е

| | | |
|---|---|---|
| | ИНФОРМАЦИОННЫЙ ОТЧЕТ О ВЫПОЛНЕНИЕ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКОЙ РАБОТЫ НА КАФЕДРЕ БИБЛИОТЕКОВЕДЕНИЯ БАКИНСКОГО ГОСУДАРСВЕННОГО УНИВЕРСИТЕТА В 2011 ГОДУ | 7 |
| А.А.ХАЛАФОВ | ИЗ ИСТОРИИ РАЗВИТИЯ ВЫСШЕГО БИБЛИОТЕЧНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ (1947-2011 гг.)............. | |
| Князь АСЛАН | ПРОПАГАНДА ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В РЕСПУБЛИКАНСКОЙ ЮНОШЕСКОЙ БИБЛИОТЕКИ ИМ. ДЖ.ДЖАББАРЛЫ (2006-2011 г.г.)......... | 39 |
| П.Ф.КАЗЫМИ | РУКОПИСНАЯ КНИГА ТЮРКСКИХ НАРОДОВ И ЕЕ АРЕАЛЫ............................. | 61 |
| С.М.РЗАЕВ | СИСТЕМА БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЯМ............ | 78 |
| Э.Ю.АХМЕДОВ | БИБЛИОТЕКИ И ОБЩЕСТВО ЗНАНИЙ | 87 |
| М.А.МАМЕДОВ | РОЛЬ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ В ФИНАНСИРОВАНИИ БИБЛИОТЕК................................................ | 96 |
| А.А.ДЖАФАРОВ | ОРГАНИЗАЦИЯ БИБЛИОТЕЧНОЕ ОБСЛУЖИВАНИЕ ЧИТАТЕЛЕЙ В АБОНЕМЕНТЕ И В ЧИТАЛЬНЫХ ЗАЛАХ | 108 |
| Н.Н.ИСМАИЛОВА | ...................................................................................... | 55 |
| Р.М.НАМАЗОВА | ВОПРОСЫ ИНФОРМИРОВАНИЕ БИБЛИОТЕКАХ АЗЕРБАЙДЖАНА.......................... | 124 |
| С.И.МАМЕДОВА | ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ В СОВРЕМЕННОЙ БИБЛИОТЕЧНОЙ ДЕЯТЕЛЬНОСТИ.......................................................... | 61 |

| | | |
|---|---|---|
| Э.Л.АЖДАРОВ | «ПРОБЛЕМА САМООБРАЗОВАНИЯ» В ТЕОРИИ БИБЛИОПСИХОЛОГИИ........................ | 67 |
| Е.А.МАМЕДОВА | РОЛЬ БИБЛИОТЕК В ФОРМИРАВАНИИ ИНФОРМАЦИОННОГО ОБШЕСТВА...................... | 125 |
| Князь АСЛАН | К 80-ти ЛЕТИЮ ЮБИЛЕЯ ПРОФЕСОРА А.А.ХАЛАФОВА НАУЧНЫЕ ИССЛЕДОВАНИЯ А.А.ХАЛАФОВ ДОСТИЖЕНИЕ НАЦИОНА-ЛЬНОГО БИБЛИОТЕКОВЕДЕНИЯ | 150 |

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

***"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr göstərilən qaydalar əsasında tərtib edilməlidir:***

***1) Format – A4; Sətirlərarası interval – 1,0;***
***Yuxarıdan 2,5 sm; Aşağıdan 2,5 sm; Soldan 3,5 sm; Sağdan 1,5 sm.***
***Məqalələrin həcmi 1 çap vərəqindən artıq olmamalıdır.***
***2) Şrift dəsti:***
***Azərbaycan dilində – Times New Roman***
***İngilis dilində – Times New Roman***
***Rus dilində – Times New Roman***
***Şriftlərin ölçüsü 12 (Word 2003).***
***3) Hər bir elmi məqalənin ingilis və rus dillərində xülasələri olmalı, burada məqalənin ingilis və rus dillərində adı da öz əksini tapmalıdır.***
***4) Elmi məqalələr və xülasələr kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunmalıdır. Disklər geri qaytarılmır.***
***5) Müəllif haqqında aydın məlumat verilməli, adı, atasının adı, soyadı açıq yazılmalı, işlədiyi və ya oxuduğu müəssisənin adı tam şəkildə yazılmalıdır.***
***6) Hər bir elmi məqaləyə 2 mütəxəssis rəy verməlidir.***

***Nəşriyyat redaktorları:*** ***Ulduza Cəmiyeva***
***Afiqə Cəfərova*** *(Azərbaycan mətni)*
***Nərgiz Əliyeva*** *(İngilis mətni)*
***Yafəs Quliyev*** *(rus mətni)*

*Jurnal Azərbaycan Respublikası*
*Ədliyyə Nazirliyində qeydə alınmışdır.*
*Şəhadətnamə № 3135. 16.03.2010.*

*Yığılmağa verilmişdir: 15.01.2012.*
*Çapa imzalanmışdır: 02.02.2012.*
*Formatı 70x100⅛*
*Həcmi 10 ç.v.*

---

*Bakı şəhəri, Az1148., Z.Xəlilov küçəsi, 23*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi*